**SURXAY SUBU**

# NADANLIĞIN ÜÇ NÖQTƏSİ

**"Elm və təhsil"**
**Bakı - 2019**

Surxay Subu. Surxay Rafiq oğlu Babayev
Nadanlığın üç nöqtəsi.
Bakı, "Elm və təhsil", 2019, 214 səh.

**İSBN 978-9952-8175-0-7**

**© Surxay Subu, 2019**

Hər tərəfdən yaşıl meşələrlə əhatə olunan kəndin ətəyindəki otlaqlıqdan gələn qoyun-quzu mələrtisindən,yaşıl çəmənlikdə süfrə başında oturan ahıl çobanın yanıqlı tütək səsindən,yolunu azan heyvanları otlaq yerlərə düzənləyən cavan çobanın "ho-ho"nərəsindən anlamaq olurdu ki,bu cənnət məkan torpaqda yaşayan kənd əhlinin ulu babaları nahaqdan kəndin adını Allahverən qoymamışlar.Sərin bulaqları,barlı-meyvəli meşələri,mənbəyini uca dağlardan götürüb haray-həşirlə axan Dəlidolu çayın zəngulələi zümzüməsi kəndin füsunkarlığına bir ərmağan idi.

Əsasən,maldarlıqla,həyətyanı bağ-bostan təssərüfatı ilə məşğul olan Allahverən kənd camaatı çox mehriban,bir-birlərinə can deyib,can eşidən,allahın altında öz güzəranlarını quran,allahımıza-dinimizə ibadət edən sadə insanlar idilər.Belə ailələrdən biri də Əmiraslan kişinin ailəsi idi.Bütün kənd əhli bu ailəyə hörmətlə yanaşırdı.Əmiraslanın can yoldaşı Əminə isə,məsləhətli danışığı,xeyirxahqlığı ilə yerli camaatın rəğbətini qazanmışdı.Bu ailənin xoşbəxtliyinə qəmginlik gətirən isə, onların övladsızlığı idi.İyirmi beş ilə yaxın bir müddət idi ki,Əmiraslan və Əminə ailəsi Allahverən kəndini özlərinə daimi məskən seçmiş,kənd əhli ilə qaynayıb qarışmışdılar.Kənd camaatı bu ailəyə dərin həssaslıqla yanaşar,onlarin övladsız-

lıqlarını büruzə etdirməzdilər.Əminə xanım üzünü allaha tutar,övlad payını yaradanımızın verəcəyinə inanardı. Evdə övladsızlıqdan söz-söhbət düşəndə Əminə xanım bəzən bayatı ilə əri Əmiraslan kişini ovudardı:

Əziziyəm verəndir,
Qismət allah verəndir.
Allahın izni olsun,
Allah rəva görəndir.

Əmiraslan kişi də,Əminə ilə razılaşar və üzünü ulu tanrıya tutub deyərdi: Xudavəndi aləm, məsləhətinə qurban olum,bizə bir körpəni əsirgəmə! Bizə bir nadinc uşaq ver,heç olmasa bundan sonrakı ömrümüzü uşaq səsi,övlad məhəbbəti ilə başa vuraq.Nağıllarda olduğu kimi,yaradanımız bu sadə kənd ailəsinin yalvarışlarını eşidib öz qüdrətini əsirgəmədi.Vaxt məqamına çatanda Əminə və Əmiraslanın evində bir qız uşağı dunyaya gəldi.Əminə bu qız uşağını çox çətinliklə,özünün dediyi kimi,"o biri dünyanı görüb gəlməklə"həyata gətirdi.Qız uşağının başı bədəninə nisbətən yekə olduğundan,dünyaya gəlişi zamanı Əminəyə çətinlik yaratmışdı.Uşağa həsrətlə baxan Əminə və Əmiraslan yaradanlarına şükür edirdilər ki,onların uşaq həsrətini eşidən yaradanımız uşaq payıni onlardan əsirgəməyib.Əminə körpə uşağina həsrətlə baxaraq, el bayatısını dodaqaltı zümzümə edərdi:

Əziziyəm yaxşıdır,
İbadət el naxşıdır.

Allah verir qisməti
Allah bilən yaxşıdır.

Qız uşağı şeytan olar,deyərlər.Şirin gülüşü,oynaq gözləri,anasının saçından bərk tutub buraxmaması,təpik atması ilə ailəyə sevinc bəxş edirdi.Şeytan qızcığaza ad da qoydular,Aytan.Ailənin sevincinin həddi-hüdudu yox idi.Aytanım-şeytanım deyərək, uşağı böyütməyə başladılar.Əmiraslan ailəsinin sevinci,kənd əhlinin də sevincinə səbəb olmuşdu.Bəs necə?Sən allahına ibadət et,allah səni heç vaxt darda qoymaz!-deyə kənd camaatı bir ağızdan söyləyərdilər.

Artıq illər keçmişdi.Böyüyən Aytan həqiqətən şeytana çevrilməyə başlamışdı.Həyətdəki körpə cücələri pişiklərə yedirdər,bağ-bostanı ələk-vələk edər,qoyun-quzuları örüşə ötürmək əvəzinə onları pərən-pərən salar,özündən yaşda balaca uşaqları incidər,özündən böyükləri daşa basardı.Qonşular Əminənin xətrini çox istəyərdilər və onu pərişan edəcək bir hərəkət etməzdilər.Bunu Əminə çox yaxşı dərk edirdi.Hərdən qonşular yarızarafat Aytanın nadincliyinə işarə edəndə,Əminə eyni zarafatla qonşulara bayatı deyər və onların ruhuna oxşayardı:

Çaydır,dənizdir,
Qğuldur,kənizdir,
Balam hər nədir
Mənə əzizdir.

Aytanın nadincliyi qonşuları təngə gətirəndə,Əmiraslan kişi dözməz, səsini qaldırmaq istəyəndə Əminə onu yumşaldar,övladsız vaxtlarını yadina salar və sonra deyərdi ki,ay kişi:-biz ki,allaha yalvarırdıq uşaq payı versin,qurban olduğumuz da payını əsirgəmədi.Bəs o vaxt demirdin ki,xudavəndi aləm,bizə bir uşaq ver, lap nadinc olsun.Sən istədiyin nadinc uşaği da xudavəndi aləm veribdir,daha nə istəyirsən? Naşükürlük bizə yaraşmaz?! Arvadının bu sözlərindən sonra,Əmiraslan kişi susmağa üstünlük verər və üzünü yaradanımıza tutub:-şükür sənin kəramətinə ilahi,sən verən məsləhətdir,-deyərdi. Kənd məktəbində oxuyan şagirdlər Aytanın hoqqalarına dözməzdilər.Təngə gələn şagirdlər ona ad da qoymuşdular:-yekəbaş Aytan.Ev işlərində Aytan anasına əl yetirmir,atasının məsləhətlərini qulaq ardına vururdu.Çox vaxt məktəbə getməz,bütün gününü kənd uşaqları ilə oynamaqda keçirərdi.Müəyyən yaş həddinə çatmasına baxmayaraq,əlində çomaq gəzdirər,onun bir sözünü iki edənləri cəzalandırardı.Kənd camaatı Aytanın başından yekə hərəkətlər etməsinə mat-məətəl qalardılar.Üzlərini allaha tutub:-şükür sənin birliyinə ilahi,ataya-anaya bax,övlada bax,-deyərdilər.Əminəyə və Əmiraslan kişiyə olan rəğbət,kənd əhlində bir təsəlli yaradırdı.Bütün bunlara baxmayaraq kənd həyatı öz axarı ilə davam edirdi.

Günlərinbir günü kəndə hay düşdü ki,bəs Əminə bacını zəhərli ilan sancıb,Mərkəzi xəstaxanaya yerləşdirib-

lər və vəziyyəti qənaətbəxş deyildir.Əminə heyvanlara ot vermək istəyərkən,ot tayasını özünə yuva edən ilan onu əlindən sancmışdı.İlan sancdığını yəqin etməyən Əminə,sancmanı arı sancması kimi qəbul edib fərqinə varmamışdı.Əli şişib qaralanda, qızdırması qalxan Əminə halsız halda qonşular tərəfindən xəstəxanaya yerləşdirilmişdi.Vəziyyəti ağır olan Əminə ölümlə-həyat arasında çobalayırdı.Həkimlərin səyinə baxmayaraq,ilan zəhəri bədənə tam sirayət etdiyindən,qan dövranı dayanmış və binəvanın ölümünə səbəb olmuşdu.Əminənin vaxtsız ölümü kənd camaatını bərk mütəəssir etmiş,Əmiraslan kişinin elə bil belini qırmışdı.Artrıq ömür-gün yoldaşı həyatda yox idi. Aytanın Əmiraslan kişiyə köməkçi olacağına heç kim inanmırdı.Anası dünyasını dəyişsə də,Aytan sanki bunu hiss etmirdi.Anasının ölümü qonşular tərəfindən yad ediləndə,Aytan biganəliyini belə ifadə edirdi:-Əşi ölüb- ölüb də mən neylim,ağlı var idi əlini ot tayasına soxmayaydı!?Əmiraslan kişinin qara günləri başlamışdı.Qızı Aytan biş-düş bilməzdi,paltar yumaq nədir?-deyə atasının üzünə bozarardı.Əmiraslan kişinin yaşı da sən deyən az deyildi,artıq altmış beşi haqlamışdı.Can sirdaşı Əminənin yoxluğu Əmiraslan kişinin qəddini elə bil vaxtından qabaq əymişdi.Əminənin yoxluğundan sonra üzünə ülgüc vurmayan Əmiraslan kişi saqqalını isladan göz yaşlarını əli ilə silərək,hələ cavanlığında Əminəyə söylədiyi bayatını mərsiyə deyirmiş kimi züm-zümə edərdi:

Əziziyəm nə dərddi.
Nə dərmandı,nə dərddi
Ayrılarsan yarından
Bilərsən bu nə dərddi.

Atasının göz yaşları Aytanı maraqlandırmazdı.Aytanın bu qədər daş ürəkli olması kənd əhlini məyus etmişdi.Məsləhət qəbul etməyən Aytan kəndçilərinin cavablarını elə verərdi ki,quruyub yerdə qalardılar.Əşi mən onlardan xahiş etmişdim ki,məni dünyaya gətirsinlər-deyərək ,böyük-kiçik bilmədən kənd əhlinə bozarardı.Beləcə Aytan oxuduğu məktəbi heç başa vurmayıb,atasına özün özünü saxla,məni axtarma,-deyərək Bakıya getmiş oldu.Nə edə bilərdi Əmiraslan kişi?! Özü allahdan istəmişdi.Taki uşaq olsun,nadinc olsa da olar!?Əmiraslana hörmətlə yanaşan kənd ağsaqqalları "qızını döyməyən,dizini döyər.","Uşağı bələkdə,gəlini gərdəkdə." məsəllərini çəkib onu bu məsəllərdən nəticə çıxartmağa çağırsalar da,Əmiraslan kişi Əminəyə olan məhəbbətindən keçə bilmədiyini deyərdi.İllərlə uşaq həsrəti ilə yaşadıqları halda,belə bir qətiyyətli hərəkət etməyi ağlina belə sığışdırmırdı.Birdə ki,Əmiraslan kişiyə görə,allahın verdiyi qismətə qarşı çıxmağı,küfr etmək kimi başa düşdüyündən allahın qəzəbindən qorxardı. Beləliklə Aytanım-şeytanım deyərək ,nəvazişlə böyütdükləri uşaq artıq böyüyüb həddi-buluğa çatmış və ata yurdunu bəyənməyərək həmişəlik tərk etmişdi.

Bakıya gələn Aytan özünə əmin idi ki,həyatda istədiyini əldə edə biləcək.Hələ tam yetkinlik yaşina çatmayan Aytan işə düzəlmək üçün,idarələrdə göz yaşı töküb müxtəlif bəhanələr gətirərək,nəhayət Corab-trikotaj fabrikində işə düzəlmiş və yataqxanada yer alaraq, gələcək yaşayışını təmin etmək imkanını əldə edə bilmişdi.İşə düzələnə qədər olan müddətdə anasından qalan qızıl üzük və gümüş kəmər onun maddi tələbatını ödəmiş,gecələrini isə vağzal kürsülərində mürgüləməklə keçirmişdi.Bəzi tüfeyli cavanlar ona müxtəlif təkliflər etsə də,Aytan hay-küy salaraq onları özündən uzaqlaşdıra bilmişdi.Aytan Bakıya yeni həyat arzusu ilə gəldiyindən,belə yarımçıq insanlar onun üçün heç kim idi.İşə düzəlib,yataqxanada yer almaq onun özünün dediyi kimi,tənha həyatda ilk qələbəsi idi.Acı bir təbəssümlə qələbəsini daxilən qeyd edən Aytan,ürəyində dərin bir köks ötürərək,hələ bu harasıdır,qələbələrim hələ qarşıdadır-deyərək yataqxanaya-yeni yaşayış məskəninə getmiş oldu. Yataqxanada özündən başqa,daha müxtəlif yaşlı qızların yaşadığı otaqda Aytan hamısını qısa müddət ərzində özünə ram edə bilmişdi.Bütün işlərdə qızlar onunla məsləhətləşmiş olurdular.Aytan onun məsləhəti ilə razılaşmayanların dərsini elə verərdi ki,qızlar yaşca onlardan xeyli balaca olan bu qızın fərasətinə mat-məəttəl qalardılar.Otaq yoldaşlarından Xədicə adlı birisi vaxtilə ailəli olmuş,ancaq ərinin zülmünə dözmədiyindən boşanaraq Bakıya pənah gətirmişdi.Aytan onu

qorxaq adlandırar və ondan heç xoşu gəlməzdi.Xədicəyə iradını bildirən Aytan,əgər mən sənin yerinə olsaydım,zülmkar kişinin dərsini elə verərdim ki,məni görəndə o vuran əlləri yanına düşər,zəhərli dili tutular,dodaqları uçuqlayardı.Qızlar isə Aytana,baxarıq sən ərə gedəndə,necə gəlin olacaqsan?!-deyərdilər.Aytan isə özünü gülməkdən güclə saxlayar və kaş ogün tez gələydi,-deyərdi.

Aytanın yaşadığı yataqxana ilə üzbəüz yaşayış binasinda,bir cavan oğlanın tez-tez aynabəndə çıxması,pəncərəni açaraq siqaret tüstülətməsi diqqətini cəlb etmişdi.Oğlan sən deyən yaraşıqlı olmasa da,Aytanın fərziyəsinə görə boyiu-buxunluydu,ən əsası isə Bakılıydı.Oğlanın diqqətini özünə cəlb etmək,onu daha yaxından tanımaq üçün,üz-gözünü bəzəyərək,açıq-saçıq geyimi ilə istədiyinə nail olmuşdu.Oğlanın yaşadığı evi və aynabəndi nəzarətə götürən Aytan belə qənaətə gəlmişdi ki, bu cavan oğlan ailənin yeganə övladıdır.Əslinə qalsa Aytan arzulayırdı ki,kaş oğlan ailənin tək övladı olaydı.Öz doğma valideynlərini saya-hesaba salmayan Aytana,qaynana yaxud qaynata heç də maraqlı deyildi,ancaq özünün fərziyyəsinə görə,qaynana-qaynata ancaq baş ağrısı ola bilərdi.Artıq Aytanın otaq yoldaşları onun eşq bəlasına düçar olduğunu bilirdilər.Hərdən qızlar,zarafatla Aytana sataşaraq ərə gedəndən sonra,gəlinin qaynana və qaynataya qulluq göstərməyin vacibliyindən danışardılar.Aytan cavabsız qalmaz, onları məsxərəyə qoyaraq bildirədi ki,mən heç valideynlərimə qulluq etmədiyim halda,nə qaynana-qaynata söhbətini salmısınız ortalığa?Kaş ki,ərə gedim!Vaxt olacaq

görəcəksiniz qaynana-qaynata gəlinə necə qulluq edir.Aytanın bütün bu ağlasığmaz danışıqları qızları pərən-pərən salardı.Bir xeyli müddət keçəndən sonra,evinin aynəbəndindən həyacanlı halda,tez-tez siqaret çəkərək onu axtaran oğlanı,Aytan təmiz yoldan çıxartmışdı.Nəhayət öz hisslərini cilovlaya bilməyən oğlan,eşq bəlasına düçar olduğunu duyduğundan,dözməyərək yataqxanaya gəlib onu soraqlamışdı.

Aytanı, ikinci bir acı təbbəssüm çöhrəsini bürümüş oldu.Eşq bəlasına düşmədiyi halda,onun eşqindən bəlaya düşmüşü ayağına gətirdirə bilmişdi.Öz hisslərini hiyləgər ağlının gücü ilə idarə etmək,ancaq Aytan kimilərinə məxsus idi.Qapının önündə acizanə olaraq, onunla görüşmək istəyən oğlanı qıyğacı nəzərlərlə süzən Aytan bir göz işarəsi ilə,otaq yoldaşları olan qızları, otağı tərk etmələrinə müvəffəq olmuşdu.Həyacandan tir-tir əsən oğlan,bir az "utancaq gülüş"münasibəti yaradaraq,adının Vəli olduğunu ona bildirmiş, Aytana sevgisinin hədsiz olduğunu söyləmiş və gələcək münasibətlər üçün,onun razılığını əldə etmişdi.Aytan oğlanı ələ almaq və gələcəkdə öz məqsədinə uyğunlaşdırmaq məqsədi ilə zarafatyana ona,əgər məni sevirsənsə,gərək mən desəm Vəli,sən həməşə deməlisən:-Bəli.Sevincindən gözləri parıldayan Vəli,əsgərlikdə olduğu kimi tez ayağa qalxıb,farağat dayanaraq,ayaqlarını cütləşdirib əlini başına apararaq,bəli -dedi.

Getdikcə hər görüşlərdə Vəlini daha dərindən tanımağa başlayan Aytan,Vəlinin ailənin tək övladı olduğu-

nu,xəstəxanaların birində feldşer-sanitar işlədiyini öyrənmişdi.Aytan başa düşürdü ki,Vəliyə bir o qədər məhəbbəti yoxdur,ancaq onə görə xasiyyət etibarı ilə Vəliynən bir-birini tamamlayırdılar.Vəli də sən deyən ata-ana üçün elə əldən gedən deyildi.Öz sevgisini Aytana əyan etmək,ona olan məhəbbətinin sonuzluğunu çatdırmaq üçün deyərdi ki, biz ailə qurandan sonra, sən mənim həyatımın ilk pərvanəsi olacaqsan.Hiyləgər Aytan Vəlinin ona olan məhəbbətinin möhkəmliyini sınaqdan keçirmək bəhanəsi ilə,bəs ata-ana müqqədəsliyi harada qaldı?-deyə soruşardı.Əşi ata-ana öz həyatlarını necə lazımsa keçiriblər,indi ancaq xəstəlikləri ilə həyatımı zəhərə döndəriblər.Mənə lazim olan sənsən.Bizə öz həyatımız maraqlı olmalıdır.Vəlinin ata-ana biganəliyi və gələcək ailəsi olacaq sevgilisini qiymətləndirməsi Aytanın çiçəyini çırtlatmışdı. Bəs necə? Axtardığı yar idi,yetirdi pərvərdigar!Vəli eynən onu kimi bir adam idi.Düzdür Aytanın Vəliyə elə bir çılğın sevgisi yox idi,ancaq Aytanın fərziyəsinə görə,ər-arvadın xasiyyəti tutarsa,sevgi, xasiyyətlər uyğun olanda da yarana bilər.Belə xasiyyət də Vəlidə!Öz ayağıynan gəlib çıxmışdı Aytanın bəxtinə.Otaq yoldaşları olan qızların təccübünə baxmayaraq,Aytan Vəli ilə görüşür və gələcək ailə planlarını qurmağa hazırlaşırdı.Aytan özünü yaxşı tanıyırdı,gözəlliyi bir o qədər yaxşı olmasa da,hiyləgərliyi və maskalanmış şirin dili ilə ilanı yuvasından çıxartmağı bacarırdı.Vəli isə xəstə valideynlərinin ahu-zarını eşitməmək üçün demək

olar ki,evdən qaçaq idi.Aytan ilə tanış olmamışdan öncə xəstəxanada işini başa vursa da,evə gəlməyə həvəsi olmazdı.Özü kimi,müxtəlif səbəblərdən evlərindən pərən düşmüş bəzi "qaçaqlarla"domino oynayar,nərd atardı.Ancaq indi məhəbbət pərvanəsini tapmışdı deyən,bütün gününü Aytanla keçirir,hava qaralanda evə gəlirdi.Övladları Vəlini səbirsizliklə gözləyən ata-ananın narahatçılığına Vəli:"-Əşi məndən nə istəyirsiniz,işdən yorğun-arğın gəlmişəm,qoyun rahat dincəlim!?-deyərək qapını zavallıların üzünə qapadardı.Narahatçılıqlarının qurbanı olan ata-ana sakitcə öz otaqlarına çəkilər,hətta Vəliyə maneçilik yaratmamaq üçün işıqları belə yandırmaz,səs olmasın deyə,ayaq barmaqlarının ucunda gəzər, pıçıltı ilə danışardılar.

Nəhayət bir neçə aylıq münasibətdən sonra,Vəli Aytanın tələbi ilə,onu evlərinə qonaq aparmış,ata-anası ilə tanış etmişdi.Vəlinin valideynlərinin sevinclərindən gözləri yaşarmışdı.Biçarə valideynlər Vəlinin evə uyuşmamasının səbəbini evli olmamasında görür və tezliklə onun ailə qurmasını arzulayırdılar.Valideyinlər gələcək Aytan gəlinlərinə olduqca xoş münasibət bəsləmişdilər.Bir-biri ilə him-cimlə danışan ata-ana Vəlinin tezliklə evlənəcəyinə və heç olmasa nəvə səsini eşidəcəklərinə böyük ümid bəsləyirdilər.Qaynata və qaynana him-cimlərini hiyləgər baxışları ilə qarşılayan Aytan özlüyündə:-ay,siz öləsiz,nəvə səsi eşitmək,nəvə sahibi olmaqlarına bir bax! Gəlin gələn ki-

mi,məni görəcəksiniz,qocalar evi yadınıza düşəcək! Aytanım-şeytanım deyərək yuxusuz gecələr keçirib onu boya-başa çatdıran və dünyasını dəyişən anasını,kimsəsiz tərgidib gəldiyi atasını bir dəfə olsun belə xatırlamayan Aytandan bundan artıq nə gözləmək olardı?!

Artıq eləbir vaxt gəlib çatmışdı ki,Vəli və Aytanın ailə qurması əsas gündəmə çevrilmişdi.Vəlinin valideynləri isə,toy gününü səbirsizliklə gözləyirdilər.Vəli Aytanın anasının rəhmətə getdiyini,atasının sağ-salamat olaraq kənddə yaşadığını bilirdi.Bir neçə dəfə Aytanın atası Əmiraslan kişini görmək ümidi ilə,kəndə birlikdə getmələrini Aytana təklif etsə də, istədiyinə nail ola bilməmişdi.Əslində Vəli də məqsədli bir adam idi.Gələcək qaynatasının yəqin ki,mal-qarası, digər maddiyyatı olmamış olmazdı.Bu barədə Aytana söz demək müşgül bir məsələ olardı.Çünki,Aytanı yataqxanada dəbdə olan komsomol toyu haqqında otaq yoldaşı Xeyrənsəni agah etmişdi. Hər iki valideynlərini itirmiş cavanlara belə bir köməkliklər olunurdu.Aytan da belə bir toyun olmasını çox istəyirdi,ancaq atasının sağ olması onun "komsomol toy"arzusunu puç edirdi.Bütün bu məsələlərdən hali olan Vəli,Aytanı narahatçılıqdan qurtarmış oldu.Kəndə gedib,Sovetlikdən atasinin vəfat etməsi haqqında Arayış gətirməklə məsələnı yoluna qoymaq olardı.Aytan belə bir arayışın veriləcəyinə şübhə ilə yanaşsa da,Vəli rüşvətin qarşılığında hər şeyə nail olmağın mümkünlüyünü Aytana sübut edə bilmiş-

di.Vəli o qədər rüşvət alıb,rüşvət vermişdi ki,rüşvətin kəsərli bi qılınc olub boğaza dirənəcəyinə inanırdı.Morqda işləyəndə cənazələri sahiblərinə rüşvətlə vermirdimi?Təcili yardımda işləyəndə,çağırışa gedərkən xalatının cibinə "hədiyyə" adı ilə rüşvət olaraq pul qoymurdularmı? Xəstəyə iynə vurmağı belə bacarmayan,təhsil almadan evinə hazır "Diplom"gələn xalası qızı Mirandanı rüşvətlə tibb bacısı işləməyə özü düzəltməmişdimi? Nəhayət Vəli və Aytan qərarlaşıb Allahverən kəndinə,yəni Aytanın doğulduğu kəndə getməyi nəzərə aldılar.

Allahverən kəndinə səs düşdü ki,bəs Əmiraslan kişinin qızı,- yekəbaş Aytan bir nəfər cavanla kəndə təşrif gətiriblər.Aytan,necə Aytan! Boy-buxun,bəzənmiş-düzənmiş,ədalı,kənd camaatına belə gözünün ucu ilə baxmayan,salam verməyi özünə sığışdırmayan Aytan! Bütün kənd camaatı artıq qocalıb əldən düşmüş Əmiraslam kişinin "fərasətli" qızının kəndə gəlişi münasibəti ilə, ona gözaydınlığı verirdilər. Aytan qonşulara və atasına Vəlini vəzifəli,ona köməklik edən bir şəxs kimi təqdim etmişdi.Boylu-buxunlu,kostyum və qalstuklu,sərt sifətli Vəliyə,əlbəətə ki,vəzifə yaraşırdı.Əslində Vəli qalstuk vurmağı xoşlamazdı,ancaq Aytanın sözündən çıxmaq çox müşkül məsələ ola bilərdi. Vəlini Aytanın atasından çox,mal-qara,toyuq-cücə maraqlandırırdı.Əmiraslan kişi qızı Aytanı pis vəziyyətə salmamaq üçün dəridən-qabıqdan çıxırdı.Bəs necə,bu bir neçə il ərzində qızı çox dəyişilmiş-

di.Tez-tez ürəyindən keçirirdi ki,kaş Əminə sağ olaydı,qızımızın bu günkü xoşbəxt həyatını görəydi!Nəhayət Vəli Əmiraslan kişiyə üzünü tutub :-ay kişi mal-qaradan,toyuq-cücədən nəyin var?-deyə soruşanda Əmiraslan kişi ona elə hesabat verirdi ki,elə bil qarşısında qonaq Vəli yox,kolxoz sədri Vəli dayanmışdı. Əmiraslan kişi hesabat verdikcə,Vəli öz-özlüyündə hesablamalar aparır və kişinin imkanını ələ keçirsəydik pis olmazdı,-deyə düşünürdü. Bir azdan Əmiraslan kişinin evinə təşrif gətirən Sovet sədrini, Vəli bir göz qırpımında özünün adamı etmişdi.Aytana Bakıda mənzil almaq adı ilə veriləcək arayışın əvəzinə,hədiyyə olaraq sədrə Əmiraslan kişinin inəyi peşkəş edilmişdi.Verilən arayışda isə,Aytanın valideynlərinin bir neçə il bundan qabaq vəfat etdikləri qeyd olunurdu.Qocalıq dövrünü keçirən,əldən düşmüş,güclə evinin təsərrüfatını idarə edən sadə,səmimi insan olan Əmiraslan kişi hardan biləydi ki,şirin-şirin danışan bu böyüklər şeytan roluna girib ona papış tikirlər.Fikirindən keçən ancaq bu idi ki, taki qızı xoşbəxt olsun. Onun üçün dünya malı heç nə idi. Qızının xoşbəxtliyi naminə o hər şeydən,hətta canından belə keçməyə hazır idi.Vəlinin "fərasəti" isə Aytanı mat-məətəl qoymuşdu.Bakıya yola düşməzdən öncə Əmiraslan kişinin evinə,mal-qarasına göz dikən Vəli,Aytanla belə qərara gəlmişdilər ki, evləndikdən sonra evə və heyvanlara müştəri tapıb,mümkün qiymətə sataraq Əmiraslan kişini də "qocalar evinə"yerləşdirsinlər.Əlbəətə,Vəli-

dən heç də geridə qalmayan Aytan bildiyimiz qədər,az aşın duzu deyildi.Vəlinin bu qabaqlayıcı hərəkətlərini ağıl süzgəcindən keçirən Aytan özlüyündə,ay Vəli sən saydığını say,gör Aytan sənin üçün nə sayacaq-deyə düşünərdi.

Bakıya qayıtdıqdan sonra,vaxt keçirməyin mənasızlığını başa düşən cütlük,fabrikin yeməkxanasında keçiriləcək komsomol toyuna hazırləq görməyə başladılar.Toyda Vəli tərəfindən valideynlər iştirak etmirdilər.Əsasən, fabrik işçiləri və Vəlinin tay-tuşları toyun iştirakçıları oldular.Toydan sonra Aytan Vəlinin evinə gəlin olaraq qədəmlərini basmış oldu.Vəlinin valideynləri toyda iştirak etməsələr də övladlarının evlənməsini,ailə sahibi olmasını ürəkdən arzuladıqları üçün,özlərini xoşbəxt hiss edirdilər.Öz-özlərinə bir növ təskinlik verərdilər ki,taki yeni qurulmuş ailədə xoşbəxtçilik olsun.Hətta təzə gəlinin Vəliyə olan mehriban münasibətini,övladlarına olan sevgi kimi başa düşərək,sevindiklərindən dodaqaltı bayatı da zümzümə etmişdilər:

Gəlin var nəs deyəndi,
Gəlin var pis deyəndi.
Gəlinimə qurban olum
Oğlumu istəyəndi.

Yenicə qurulmuş Vəli vəAytan ailəsində get-gedə hörmət pərdəsi aradan götürülür,bir-birinə eyhamlı söz atmaq ,ərkyana və mənasız danışıqlar etmək gündəlik yaşayış normasına çevrilirdi.Hələ ailə qurmamışdan öncə

Aytanin doğulub boya-başa çatdığı kənddə olarkən,kənd-lilərdən kiminsə,yekəbaş Aytana bax ha, gör necə dəyişilib?-deməsini eşidən Vəli indi yoldaşına ərkyana eyham vurmaqla, onu sınaqdan keçirmək qərarına gəldi.Arvadını bağrına basan Vəli mənim "yekəbaş" Aytanım deyərək,onunla xoşhallandı. Başdan ayağa Vəlini süzən və onun eyhamını başa düşən Aytan özünəməxsus şəkildə əlini ərinin boynuna aparıb sığallayaraq,boynunun ardındakı əl boyda əti əli ilə tutub,ay mənim "peysər ərciyim",-demişdi.Vəli Aytanın bu "huşyarlığına"qarşı çıxmamış və beləliklə ər-arvad olaraq "yekəbaş-peysər"ləqəblərini özlüklərində qəbul etmişdilər.Aytan yataqxanada pasport qeydiyyatından çıxıb,təzə yaşadığı evə qeydiyyata düşəndən sonra,özünü tam ev sahibəsi kimi hiss etməyə başlamışdı.Üç otaqlı mənzilin birində Vəli-Aytan cütlüyü bərqərar olmuş,digər balaca otağı gələcək körpə üçün nəzərdə tutmuşdular.Üçüncü otaqda isə Vəlinin valideyinləri elə sakit yaşayırdılar ki,elə bil bu evdə yekəbaş və peysərdən başqa heç kim yaşamırdı.Qocalar Vəlinin və gəlinin narahatçılıqlarına razı olmazdılar.

Beləcə günlərin birində Vəli Aytanı muşduluqladı ki,bəs atanın mal-qarasına müştəri tapmışam,yaxşı pul əldə edəcəyik.Allahverən kəndinin sədri ilə danışığım olub.Qocalar evinə Əmiraslan kişinin yerləşdirilməsi üçün, Sovet sədrindən atanın kimsəsizliyinə və baxımsızlığına aid arayışı alıb Qocalar evinin müdirinə təqdim edə-

cəyik.Qocalar evinin müdirinin bu barədə razılığını da almışam.Aytandan bir səs çıxmadığını görən Vəli sözünə davam edərək bildirdi ki,Qocalar evində hər cür şərait var və atana çox yaxşı baxacaqlar.Orada ahıl kişilər domino,kart oynayır,nərd atır və televizora baxaraq günlərini şad-xürrəm keçirirlər.Belə baxanda,kənddə nə var ki,ahıl kişidir,təssərüfat işləri yəqin onun üçün çox ağır olar.Həmdə ki, çay-çörək verəni,paltar yuyanı da yoxdur.Yenə Aytandan cavab almayan Vəli arvadını qucaqlayıb,başını sığallayaraq dedi:-ay mənim yekəbaş sevgilim,niyə cavab vermirsən,məgər mən pis iş görürəm?! Atan üçün şərait yaradıram,həm də evin və mal-qaranın satışından yaxşı qazanc əldə edib güzəranımızı yaxşılaşdıracayıq.Handan-hana dillənən Aytan:-mən atamın dərdində deyiləm,bilirəm ki,qocalar evində şəraiti pis olmayacaq,ancaq məni maraqlandıran odur ki, ay mənim peysər ərciyim,qocalar evinə öz valideyinlərinin yerləşdirilməsi üçün bir qərara gəlmisənmi?Vəli sevincindən əsgəri qaydada farağat dayanaraq,əlbəttə əzizim,sən nə vaxt əmr etsən,mən sənə bəli deyəcəm.Axı mən sənə əvvəllər də demişəm,bizə öz güzəranımız hər şeydən əzəldir.

Beləliklə,Vəli və Aytan öz murdar niyyətlərini həyata keçirmək üçün Allahverən kəndinə getməli oldular.Məsələdən hali olan Əmiraslan kişi doğma kəndindən,öyrəşmiş olduğu mal-qarasından,həyət –bacasından,ən əsası iki gündən bir ziyəratgahı olduğu Əminənin

məzar daşından ayrılmağı ağlına belə gətirmirdi. Vəlinin him-cimi ilə,ömründə ilk dəfə olaraq atasını iyrənmiş halda qucaqlayan Aytan,onun güzəranını yaxşılaşdırmaq üçün belə qərara gəldiklərini atasına deyərək,anası Əminənin goruna and içib,onu inandırmağa çalışdı.Aytanın ağıllı hərəkətinə haqq qazandırmaq istəyən sovet sədri və bir neçə qonşu Əmiraslan kişini kənd əziyyətindən qurtarmaq üçün,ona bəzi məsələlərdə təskinlik verib,nəhayət ki razı sala bildilər.Əmiraslan kişiyə bir dəst şəhərfasonu kostyum alıb,birbaş Bakıya, şəhərə gələrək, qocalar evinə yollandılar.Rüşvətlə əlini isitmiş qocalar evinin müdiri, gələnləri gülərüz qarşılayıb,Əmiraslan kişini həmyaşıdları olan ahılların otağında yerləşdirdi. Aytan, hələlik evi olmadığına görə müvəqqəti olaraq burada yaşamağı atasina məsləhət gördü və bildirdi ki,ev alan kimi onu yanına aparacaq.Atasını özünə inandıran Aytan, Vəli ilə bərabər,əldə etdikləri pulun həvəsi ilə evlərinə getmiş oldular.Əmiraslan kişi gəldiyi qocalar evində özü kimi ahıl kişi və qadınları görüb təskinlik tapmış oldu.Ən əsası isə, həmsöhbət olduqlarının qəmli həyat hekayətlərinin onu mütəəssir etməsi idi.Kimisi müxtəlif səbəblərdən evsiz qalmış,kimisini övladları bayıra atmışdı.Ən pisi o idi ki,vəzifəli və imkanlı övladlar, guya ağır xasiyyətə malik olan ana və atalarını gətirib qocalar evində yerləşdirmişdilər.Bəzi ahıl kişi və nənələr onları atan,nəvə üzünə həsrət qoyan övladlarını şərəfsiz adlandıraraq,əziyyətlə böyüt-

dükləri övladlarının zülmü ilə qarşılaşdıqlarını dilə gətirirdilər.Belə söhbətlər zamanı,Əmiraslan kişi Aytanın kənddə olan vaxtlarını,nadincliyini yadına salar və özünü pis hiss edərdi.Əmiraslan kişi xəyalən Əminəni yadina salar və bikeflənərdi.Sonra da fikrə gedərdi ki,Aytan hələ indiyə qədər anasının qəbrini ziyarət etməyib.Belə fikirləri beynindən uzaqlaşdıran Əmiraslan kişi qızı Aytana haqq qazandırar və özü özünə xitab edərdi ki,qızı çox dəyişilib,yəqin vəzifəlidir,vaxtı yoxdur ki, hər işə əl atsın.Yoxsa o boyda Sovet sədri Aytanla hesablaşmazdı.Allah qoysa ev alan kimi gəlib məni buradan aparacaq.Düzdür qocalar evində hır cür şərait var idi. Ancaq Əmiraslan kişi,istəməzdi ki,onun qzını da atasını atmış şərəfsiz adlandırsınlar.Allah deyən olsun,vaxt gələcək qızım ev də alacaq,ailə də quracaq,hələ üstəlik məni nəvə payı ilə də sevindirəcək.Dodağında təbəssüm,gözlərində sevinc yaşı olan Əmiraslan kişi,dünyasını vaxtından əvvəl dəyişmiş Əminəni yadına salıb, belə bir xoş günü görmədiyinə görə məyuslandı.Qızı Aytana ümidləşən Əmiraslan kişi bərk duyğulanmışdı.Hardan biləydi ki,onun yekəbaş Aytanı ərə də gedib,yaşamağa evi də var.Hardan biləydi ki,neçə illər boyu yaşadığı evini,həyət-bacasını,mal-qarasını ümid bəslədiyi qızı satdırıb və onu yiyəsiz olaraq həmişəlik qocalar evinin sakini edib.

Bəli, aylar bir-birini əvəz edir,Vəli və Aytan ev və mal-qara satışından əldə olunmuş pulları xərcləyərək

dərdsiz-filansız ömür sürürdülər.Belə bir vaxtda ər-arvadı bir-birlərinə mehriban edən Aytanın hamilə olması idi.Ər və arvad tez-tez öz aralarında qız və ya oğlan uşağı olacağını mübahisəyə çevirirdilər.Vəli oğlan uşağı olmasını arzulayır və fəxrlə deyirdi ki, oğlum olsa onu böyüdüb prokuror edəcəm bizi itdən –qurddan qorusun.Aytan isə ərinin arzusuna qarşı çıxaraq,qız övladı olmasına üstünlük verirdi.Bax görərsən qızım olacaq,böyüdüb ağ xalatlı həkim edəcəm ki,dərdimizə şəfa versin.Son nəticədə razılaşardılar ki,qız-oğlan fərqi yoxdur,istər yekəbaş olsun,istər peysər,taki bizim kimi fərasətli uşaq dünyaya gəlsin.Axşamlar Aytan işdən evə gələndə Vəlinin valideynləri dik ayaq üstə durub Aytana qulluq edər,yeni əmrini gözləyərdilər.Hürzad ana və Məstalı kişi gələcək nəvələri sağlam doğulsun deyə əldən-ayaqdan gedərdilər.Bir neçə vaxtdan sonra analıq məzuniyyətinə çıxan Aytan qaynanasının pişiyini ağaca dırmaşdırırdı,hökm- hökm üstündən gəlirdi.Çayını-çörəyini qışqıraraq tələb edir,ayağını yaşlı anaya yudurtdurur,masaj etdirir, paltarını yudurturur,qurutdurur daha nələr,nələr etdirmirdi.Məstalı kişi,Hürzad anaya kömək etmək istəsə də,onun xəstəliyini nəzərə alan,Hürzad buna imkan vermirdi.Belə məqamlarda Aytan itə dönürdü.Çımxıraraq anaya deyərdi:-mən bilmərəm sən Hürzadsan yainki itzadsan,deyəsən kişini pis öyrətmisən,o Məstalını yaman məst etmisən,məni əsəbləşdirərsən onun xəstə canını elə məst edərəm ki,bu dünyası yarımçıq qa-

lar.Hürzad ana oğlunun və gələcək nəvəsinin xatirinə susar,dillənməzdi.Axır vaxtlar Aytan o qədər harınlamışdı ki,Hürzad anaya adnı olduğu kimi yox,hür-hür arvad deyə çağırardı.Nə etməli idi Hürzad ana?Hələ bir dəfə də olsun qonşuları,onların yüksək tonla danışıqlarını belə eşitməmişdilər.İndi gəlin hay-küylə danışanda,sakitlik olsun deyə əmrə müntəzir olub Aytanın mənasız nazı ilə oynayırdılar.Vəli evə gələndə,ay mənim şeytanım necəsən deyə halını soruşanda,Aytan özünü elə zarıltıya vurardı ki,evdəkilər farağat dayanıb yeni əmrlər gözləyərdilər. Elə ki,valideynlər öz otaqlarına çəkilərdilər,Vəli zarafatla arvadına deyərdi:-Yenə nə yalandan ah-uf edib,bu biçarə qocaları əmrə müntəzir qoymusan?Aytan gül ağzını açardı,nə açardı,mənim qarnımdakı səndə olsa ay peysər,de görüm sən nə edərsən?! Vəli yekəbaşını az-çox tanıdığından,dillənməz,susmağa üstünlük verərdi.Bəli elə ki vaxt tamam oldu,Aytan baru həmləsini yerə qoyub,bir qız uşağı dünyaya gətirdi.Aytanın arzusu çin olsada,uşaq eynən Vəli idi. Göygöz,sarısaç,pələ qulaq və ağlağan.Yaxşı ki başı yekə deyildi,yoxsa Vəliyə nə var deyəcəkdi ki,vay dədəm vay bir yekəbaşım var idi, ikinci yekəbaşım dünyaya gəldi.Bir neçə gündən sonra Aytan doğum evindən evə buraxıldı.Aytan evə gəldikdən sonra Hürzad ana və Məstalı kişinin qara günləri başlandı.Nəvə həsrəti ilə yaşayan nənə və baba,uşağın üzünü belə görə bilməmişdilər.Uşaq evə gələndən sonra,onun tez-tez ağlaması Vəlini bezdirdi-

yindən,evə gec-gec gəlməyə başlamışdı.Növbətçi işləmək bəhanəsi ilə,evdən çıxar,hətta gecələr belə evə gəlməzdi.Vəlinin haraya getməsi,yaxud harada olması Aytanı maraqlandırmazdı,aldığı maaşı evə gətirir bəs edər,-deyə düşünərdi.Nəvə üzünə həsrət qalan xəstə baba ,səs olmasın deyə otağına çəkilər,nənə isə uşağın üzünü belə görmədən,nəvəsinin bulaşmış əsgilərini yuyar,qurudar və qurumuş əsgilərin qoxusunu iyləyərək təsəlli tapardı.Evin bütün ağırlıqları Hürzad nənənin çiyinlərindəydi.Aytan isə bütün günü telefonla rəfiqələrı ilə boş-boşuna danışıqlarla vaxtını keçirərdi.Bəzən də özü kimi vaxtını öldürən qonşularla ənlikdən-kirşandan ,pal-paltardan,dedi-qodudan danışardı.Onun bütün əziyyətlərini çəkən ,ağır işlərini yoluna qoyan Hürzad arvadın hələ ki,canı sağ idi, onun üçün işləməli, o isə öz keyfindən qalmamalıydı.Vəlinin evə gec-gec gəlməyi Aytanın vecinə olmazdı.Hərdən Vəli evə gələndə,şirin dilini işə salan Aytan zarafatyana ərinə deyərdi:-Ay mənim peysərim, bəlkə ətdi-canlı arvad tapmısan,ona görə evi tamam yadırğamısan?! Vəli isə öz zarafatından qalmaz və ay mənim şeytanım,yüz arvad belə sənin yanında mənim üçün bir qəpiyə dəyməz.Sən ki,varsan elə bil dünya mənimdir,üstəlik mənə bəxş etdiyin qızımıza görə,əvəzedilməzsən.Uşaq demişkən,başım qarışıb işə-gücə,sən də sağ olmuş heç yadıma salmırsan.Qızımıza ad qoymaq üçün de görüm nə düşünmüsən? Xeyli fikirləşən Vəli:-deyirəm qohum-qonşuların yanında hörmətli va-

lideyn kimi tanınmaq xatirinə,qızımızın adını Hürzad qoyaq.Barıt doldurulmuş çəllək kimi partlayan Aytan:-ay sən öləsən,bir dənə hür-hürümüz qalmışdı!Adını qoyacağıq Məsmə,gözünü aç mənə yaxşı bax! Sonra da ağzını Vəlinin qulağına dayayıb,Məsmə!-deyə bərk qışqırdı.Beyninə bu adı həkk elə ki,yadından çıxmasın.Sonra nə düşündüsə şaqqanaq çəkərək,Vəlinin digər qulağına pıçıltı ilə,adını qoyduq Məsmə,sən də kişi ol,uşaqların ardını kəsmə.Aytanın bu zarafatından Vəli çox xoşallandı,sonra da gülə-gülə əmrə həməşə müntəzir olacağını bildirdi.Aytanı qucaqlayıb üzündən öpən Vəli,sən bir özünə gəl,onsuz da mən çox darıxmışam və barıt kimi də dolmuş kimiyəm. Bir-biri ilə şən zarafatlaşan ər və arvad uşaqlarına adqoyma mərasimi də keçirtmiş oldular. Mərasimdə ər və arvadın yaxınları iştirak etdiyi kimi,Hürzad arvadın da iştirakı onun üçün çox sevindirici olmuşdu.İlk dəfə nəvəsini görüb,onu oxşayan Hürzad arvadın nəvə məhəbbəti,Aytanın gözündən yayınmamışdı.Ani olaraq Aytan fikirləşmişdi ki,əgər uşağa nənəsi baxsa,onun rəfiqələri ilə şəhər gəzintisinə və mırt vurmağa xeyli vaxtı olmuş olardı. Aytan tərəfindən uşağa baxmaq,onun qeydinə qalmaq razılığının verilməsi,Hürzad nənə üçün əsil bayrama çevrilmişdi.Məstalı kişinin bronxial-astma xəstəliyini, infeksiyalı xəstəlik kimi qəbul edən Aytan,kişini ad mərasiminə buraxmamışdı.Aytanı ən çox qıcıqlandıran Məstalı kişinin dayanmadan,boğula-boğula öskürməyi idi.Hürzad ana

Məstalı kişinin cavanlığını yadına salaraq,heyfslənirdi.Ancaq Allahın verdiyi durum beləydi.Nə edə bilərdi ki,Hürzad ana!?Aytandan qorxusu olmasaydı,nəvəsi üçün ürəyi gedən kişiyə heç olmasa uşağın sifətini göstərərdi.Uşağa Məsmə adinin qoyulması Hürzad nənənin ürəyindən idi.Hər dəfə ağlayan qızcığazı yedirdəndə,dodaqaltı zümzüməsi ilə bayatı deyər, onu ovundurardı:

Gül balam Məsmə,
Yeməyi kəsmə,
Kimlər küssə də
Sən məndən küsmə.

Zümzüməni eşidən Məsmə,ağlamağını kəsər,oynaq gözləri ilə nənəsinə gülərək,əl-ayaq ataraq şeytanlaşardı.Nəvəsinin sevincini öz sevinci bilən Hürzad ana yorulmaq bilməzdi.Ərzaq və mer-meyvə üçün bazarlığa gedər,tələsik gəlib uşağı yedizdirər,yatızdırar sonra paltarları yuyub qurudar,xəstə ərinə qulluq edər və günün necə gəlib keçdiyini hiss etməzdi.

Beləcə günlər bir-birini əvəzliyərdi.Hurzad ana çox yorğun olardı,ancaq şikayətlənməzdi,ikinci də şikayətlənməyin xeyrindən çox ziyanı ola bilərdi.Bilirdi ki,Aytan ona əziyyətinə görə sağ ol deməyəcək,əksinə nəvəsindən onu uzaqlaşdıra bilərdi. Hər dəfə bazarlığa gedəndə qarşılaşdığı qonşulara ürək dolusu nəvəsindən danışardı.Onların göz aydınlığını,xoş sözlərini eşidəndə,sevincindən özünə yer tapmazdı.Beləcə,Hurzad ana bazarlığa gedən

günlərinin birində, otağında halsız halda yataqda olan Məstalı kişinin dayanmadan təngənəfəs öskürəkləri Aytanın yekəbaş beynini bərk əsəbləşdirdi.Uzun- uzadı öskürəkləri, getdikcə nəfəsini kəsən Məstalı kişinin otağının qapısını sakitcə açan Aytan ,qəflətən beyninə gələn qara fikiri həyata keçirmək eşqinə düşmüş oldu.Gömgöy göyərmiş kişini görüb,ağlına gələn murdar fikiri həyata keçirməyə başladı.Digər çarpayıdakı yastığı götürərək,çətinliklə nəfəs alan kişinin sifətinə qoyub ,var gücü ilə onun nəfəs almasını çətinləşdirdi.Kişinin əl-ayaq atmasına baxmayaraq,yastığı daha bərk sıxmağa davam etdi.Handan-hana, əl-ayaq tərpəntisi kəsiləndən sonra,Aytan yastığı sakitcə götürüb səliqəyə salaraq yerinə qoydu.Məstalı kişinin keçindiyini yəqinləşdirən Aytan acı bir təbəssüm və ikrah hissi ilə,səninlə qurtardıq,səni elə məst eləmişəm ki,bir daha öskürəyinlə məni narahat etməyəcəksən!Otağı tərk etmək istərkən,özünü arxayınlaşdırmaq üçün,kişinin əlini qaldırıb çarpayıya buraxdı.Kişinin öldüyünə tam əmin olandan sonra ,heç bir səhlənkarlığa yol vermədiyini görüb,özünü ələ almağa çalışdı.Hələ ki,Hürzad arvad gəlməmişdi,qıy vurub qışqıraraq qonşuları köməyə çağırdı.Haya gələn qonşular,təcili yardım çağırsalar da,kişinin həyatını xilas etmək mümkün olmadı.Məstalı kişi artıq keçinmişdi.Aytan daxilən narahat olsa da, özünü ələ almağı bacarırdı.Göz yaşları ilə qohum-qonşuların diqqətində olan Aytana daha çox qulluq edənlər var idi,nəinki dünyasını

dəyişən binəva Məstalı kişiyə ağlayanlar.Məstalı kişinin ölümü,Hürzad ananı daxilən yandırsada,o da gəlinini ovundurur və ölənlə ölmək olmaz ay qızım,- deyirdi.Xəstə ərinin ölümünə talehin hökmü kimi baxan Hürzad ana, ağlına belə gətirməzdi ki,gəlini ərinin ölümünə baiskar ola bilər.Xəstəxanada atasının ölüm kağızını alan Vəli, bir az-dan atasının cənazəsi ilə bərabər evə qayıtdı.Suallı nəzər-lərlə ona baxıb cavab gözləyənlərə üzünü tutub,atasının təngnəfəslikdən keçindiyini ağlamsınmış şəkildə deyə-rək,əlindəki ölüm kağızını masanın üstünə qoydu.Anasını qucaqlayaraq,yazıq kişinin, əziyyətini çəkdiyi xəstəlikdən öldüyünü vurğuladı.Aytanın üstündən elə bil dağ götü-rüldü.Uşaq olan otağa keçib dərindən nəfəs alaraq,bu kişi-yə qocalar evi yox,cəhənnəmlik qismət oldu-deyərək,ra-hatlandı.

Məstalı kişi rəhmətə gedəndən sonra evdə bir sakit-lik yaranmışdı. Özünü rahat hiss edən Aytana Hürzad ar-vad hələ çox lazım idi.Əlini ağdan-qaraya vurmayan Ay-tan demək olar ki,evin bütün işlərini “qaynanasına”gör-dürərdi.Bir neçə vaxtdan sonra guya Hürzad arvada kö-mək edirmiş kimi, özünü göstərən,Aytan bazar və dükan alış-verişindən onu uzaqlaşdırıb,uşaq və ev işlərini ona həvalə etdi.Əslində Aytanın fikri-zikri sığallanıb,libasları-nı dəyişməklə,qonum-qonşulara,rastlaşdığı rəfiqə və ta-nışlarına özünü göstərmək,sayılıb seçilənlərdən olmaq hə-vəsi idi.Dükan və bazarlarda çənəsini yorulmadan işə sa-

lan Aytan,şirin dili ilə yeni tanışlar tapmağa başlamışdı.Özünə uyğun xasiyyətdə olanları evinə dəvət edir,daha yaxşı yaşamaq üçün fikir mübadiləsi aparır,yeri gələndə dedi-qodular etməkdən də çəkinmirdi.Aytanın əl-ayağına dolaşan yox idi.Vəli axşamlar evə gec gələr,ayda bir dəfə məvacibini arvadına verərək,digər işlərə məhəl qoymazdı.Ev işlərinə və körpə uşağa isə Hürzad arvad baxardı.Beləcə qonşularla və tanış rəfiqələri ilə həmsöhbət olan Aytan öyrəndi ki, həyat yoldaşı rəhmətə gedən, imkanlı və vəzifəli bir şəxs baxçaya gedən yeganə oğlu üçün dayə axtarır.Ünvanı dəqiqləşdirən Aytan,özünə sığal,bəzək-düzək verib vəzifəli şəxslə görüşərək,altı yaşlı Ruslanın dayəliyini boynuna götürdü.Bir-birindən yaraşıqlı otaqlar Aytanı valeh etmişdi.Adı İmran olan vəzifəli şəxs isə,Aytanın yuxularında gördüyü "şikarnı"kişi olaraq qəlbinə hakim kəsilmişdi.Təssüflənirdi ki,ciddi bir adam olan İmran subay olsa da,heç ona lazım olan diqqəti nədənsə yetirmədi. Ancaq öz-özlüyündə belə qərara gəldi ki,geci-tezi var,mənə də "şeytan"Aytan deyərlər, mən onun qəlbini ələ alacağım gün, çox da uzaqda olmayacaq.Əsas odur ki,mən onu hər gün görə biləcəm. Yolboyu evə qayıdan Aytan qəlbinə hakim kəsilmiş İmranı xəyalında canlandıraraq,dodaqaltı zümzümə etməyi də unutmadı:

Canım-gözüm İmran,
Aytan sənə heyran...

Evinə qayıdan Aytan yeni iş yerinə,Vəlinin əngəl olmayacağına inanırdı.Axı bu “peysər” pul,var-dövlət hərisi idi. Axşam evə gələcək Vəlini yola gətirəcəyinə Aytan tam əmin idi.Hə,söz vaxtına çəkər.Axşam oldu,Vəli işdən gəldi. Acından özünü bir təhər evə salan Vəlini onun xoşladığı təamlarla doyuzduran Aytan,”əziz”ərini qucaqlayaraq bildirdi ki,bir imkanlı evdə dayəlik işi tapmışam.İşim-peşəm beş yaşlı uşağı bağçaya aparıb,gətirmək olacaq.Ancaq alacağım məvacib,sənin aylıq məvacibindən qat-qat çoxdur.Üstəlik də,anan uşağa elə yaxşı baxır ki,uşaq məndən çox ona öyrəşibdir.Ev işlərini ananla birgə yoluna qoyuruq.Daha mənim işləməyimə maneçilik törədəcək heç nə yoxdur.Qarnı həməşəkindən daha yaxşı tox olan Vəli fərasətli yekəbaşının sifətini özünə tərəf çəkib,yağlı dodaqları ilə bir “öpüş”etdikdən sonra,hələ ağzında qalan yağı marçıldadaraq dilləndi ki,səni yaradanımız nahaqdan mənə qismət etməyib.Sənki varsan,deməli mənim heç bir dərdim olmaz.Ancaq bir balaca şərtim var.Özün bilirsən ki,bütün günü işdə oluram,quru suxarı yeməkdən mədəm mənə əziyyət verir.Əgər icazə versən gələn aydan məvacibimin yarısını özümə xərcləyib,mədəmin qeydinə qalaram.Elə bil qızdırılan tavaya çiy qarğıdalı tökmüşdün, başlayırdı çatdamağa,Aytanın çatdamış bəxti kimi.Buy sənə Aytanın canı qurban olsun,ananın pensiyəsi,sənin yarı məvacibin,birdə mənim alacağım məbləğ bizə bəs etməzmi?!Sən ürəyini buz kimi saxla,özünə də bax.Gününü

eyş-işrətlə keçirən Vəliyə məvacibinin yarısı hava-su kimi lazım idi.Aytana isə alacağı məbləğ və yaraşıqlı İmran daha çox maraqlı idi.Çox qəribə bir mənzərə yaranmışdı.Necə deyərlər bir ailənin iki məqsədlisinin axmaq niyyətləri bir-birindən xəbərsiz iştahlarını tamamlayırdı.Səmimiyyət qanunlarının dili ilə desək,arada Hürzad ana və dünyanın işlərindən xəbərsiz olan körpə uşaq qalırdı.Sabahısı Vəli həmişəki kimi öz işinin dalınca,Aytan isə ilk baxışdan qəlbinə hakim kəsilən İmranı görmək arzusu ilə,dayəlik işinin dalınca yollandı.Qapını Aytana evin təmizlik işləri ilə məşğul olan,cavan xanım açmış oldu və özünü təqdim etdi:-İzzət xanım.İçəri daxil olan Aytan,İmranı görməyib,İzzət xanımdan onu soruşdu.İzzət xanım İmran müəllimin xidməti məzuniyyətə getdiyini bildirib,oğlu Ruslanı Aytana təhvil verərək öz işinin dalınca getdi.İzzət xanımın arxasınca xeyli baxan və onun yerişini diqqətlə izləyən Aytan,foyedəki yekə güzgüdə özünü süzdürüb,İzzət xanımdan daha yaraşıqlı olduğuna əmin olduqdan sonra Ruslanı qucağına alaraq,sanki İmranın iyisini alırmış kimi sevgi dolu,oxxay,-deyib uşağı bağrına basaraq bağçaya doğru yollandı.Yol boyu Ruslanı daha bərk-bərk bağrına basan və mənim balam-deyən Aytan hiss etdi ki,hələ indiyə qədər öz körpəsini belə bağrına basıb əzizləməmişdi.

Beləcə,Aytan yenicə başladığı dayəlik işində özünü rahat hiss edir,xidməti məzuniyyətindən qayıtmış olan İmranı daha yaxından tanımaq üçün,əlavə işlərə də əl atır-

dı.İmran öz təbiəti ilə çox ciddi bir adam olduğundan,ancaq sırf işləri ilə məşğul olardı.Aytan bir neçə dəfə işindən sonra qalıb,İmrana heç olmasa çay hazırlamaq istəsə də,buna ehtiyacı olmadığını və ona tapşırılan işlə məşğul olmağı İmranın bildirməsi onu yerinə oturtmuşdu.Aytan çox hiyləgər idi.Əgər həddini aşsaydı, ciddi İmranın tənbehinə düçar ola bilərdi.İmranın ciddiliyi Aytanın qəlbində bir küsgünlük yaratdığından işinə soyuqqanlı yanaşmağa başlamışdı.Aytan hərdən öz-özünə fikirləşirdi ki,sevgi bir bəlaymış,adamı daxilən didib parçalayan bəla!? Onu da,yəqin etmişdi ki,İmran qədər onun qəlbini çalan ikinci bir şəxs olmamışdı.Ancaq nə etsin ki,bu yaraşıqlı,subay və ciddi olan İmran heç ona gözünün ucu ilə də baxmırdı və yəqin ki, heç vaxt baxmayacaqıdı da.

Artıq Aytan başa düşürdü ki,onun talehi Vəliyə bağlıdır.Vəliyə qarşı sevgisi olmasa da,bir-birlərinə "peysərim-şeytanım" deyərək yaşayırdılar.Müxtəlif bəhanələr gətirərək,işinə etinasız yanaşan,bəzən işə gəlməyən Aytanın məsuliyyətsizliyini hiss edən İmran,başqa bir dayə taparaq onu işdən uzaqlaşdırmışdı.Aytanın daha dayəlik işinə getməməsini görən Vəli,səbəbini soruşduqda,özünü sındırmayan Aytan uşağın nadinc olduğunu,ona əsəb gərginliyi gətirdiyini deyərək,nə üçün işdən uzaqlaşdığını ərinə aydınlaşdırdı.Hələlik işləməyəcəyini,Məsməyə baxacağını vurğulayan Aytan,ərinin vaxtında evə gəlməsini və məvacibinin bütünlüklə evə verilməsini tələb etdi.Aytanın

hikgəsini başa düşən Vəlinin razılaşmaqdan başqa çarəsi qalmadı.Daxilən öz-özünə hesabat verən Vəli,daha eyş-işrətdən uzaqlaşmağını da yəqin etmiş oldu.Evdə olmaq,evin işlərinə yaramaq da lazım idi. Bəli, Vəli və Aytanı elə bil həyat rəndələməyə başlamışdı.Onlar artıq başa düşürdülər ki,sayılıb seçilən ailə olmaq lazımdır.Buna nail olmaq üçün nə etməli olduqlarını hələ özləri dərindən dərk edə bilmirdilər.Ancaq hörmətli olmaq üçün yollar axtarırdılar.Aytan hərdən uşağa əl atar,ancaq uşaq nəcisindən iyrəndiyi üçün,həm də paltar yumaqdan, özü deməli zəhləsi getdiyi üçün,paltarlara əl vurmazdı.Evdə bütün əziyyətləri çiynində aparan Hürzad ana var idi. Evdəki həyatı bezikdirici olduğundan və qonşularla laqqırtı vurmağa daha həvəsi olmadığından,analıq məzuniyyətinin hələ vaxtı çatmamış ərizə ilə fabrikin müdiriyyətinə müraciət edən Aytan, işinı tez başlamağa müvəffəq olmuşdu.Axşamlar Vəli və Aytan işdən evə qayıdar,artıq yekəlməkdə olan və gəzməyə başlayan Məsməni oynadar,ordan-burdan danışar,digər otaqda keçmiş həyatını xəyalında canlandıran Hürzad ananı yüksək səslə xəyaldan ayırar, bir ucu çaydan tutmuş,paltar yumağa qədər cürbəcür sifarişlər edərdilər.

Beləcə günlərin birində qocalar evində qızı Aytan üçün darıxan,yalnızlıqdan Əminəsinın baxımsız qalan qəbiri üçün göz yaşları tökən və yaddan çıxarılan Əmiraslan kişinin ölüm xəbərini və bir neçə vaxt bundan öncə yiyə-

sizlər qəbiristanlığında dəfn olunmasını Aytana,Vəli danışmış oldu.Vəlini təsadüfən görən qocalar evinin müdiri, baş verənləri olduğu kimi ona danışmış və heç olmasa bir ünvan qoysaydınız rəhmətliyin cənazəsini dəfn eləmək üçün,tez-tez adı ilə sayaqladığı qızı Aytana təhvil verərdik.Vəli isə öz növbəsində yenə yalanlara əl ataraq,Aytanla çoxdan əlaqəsinin kəsildiyini və onun harada yaşadığını bilmədiyini müdirə söyləmişdi.Atası Əmiraslan kişinin ölüm xəbərini soyuqqanlı dinləyən Aytan,ərinin düzgün olaraq ünvan verməməsini və onu tanımaması haqqındakı uydurmasını razılq hissi ilə qarşılayıb,susmuş oldu.Aytanın susqunluğunu görən Vəli özü də susmağa məcbur olmuşdu.İndi bu barədə danışmağa nə Vəlinin, nə də Aytanın haqqı yox idi.

Artıq neçə illər keçmişdi.Vəli və Aytan cütlüyünün birgə yaşayışından Məsmədən sonra Bəsdi adlı qızı və Qartal adlı oğlu dünyaya gəlmişdi. Bütün bu uşaqların əziyyətini çəkən,onları böyüdüb müəyyən yaş həddinə çatdıran,ən çox sevdiyi və ümid bəslədiyi Bəsdinin həsrətini çəkən Hürzad nənə isə artıq dünyasını dəyişmişdi.Evin tam sahibəsi olan Aytan uşaqları əmrlə özünə tabe etdirərək,diktəsini yerinə yetirməyə,yeri gəlsə qatığa qara deməyə məcbur edirdi. Bərk ayaqda Vəlinin şalvar qayışı işə düşürdü.Məsmə və Qartal hiylə işlədərək çox hallarda cəzadan yaxa qurtara bilirdilər.Aytan deməli, nənəsi Hürzadın tərbiyəsini götürən və müəyyən mənada xasiyyətcə

nənəsinə oxşayan Bəsdi, daha çox tənbehlərə düçar olardı.Bəsdi hətta bacı-qardaşından uzaq olar,bəzi hallarda kənara çəkilib nənəsini yadına salaraq hönkür-hönkür ağlayardı.Belə olan halda Aytan onu daha bərk cəzalandırardı.Məsmə və Qartal heç nədən yalan danışmağa,tamahkarlığa,oğurluğa meyillik edir,bütün mənfi xüsusiyyətləri özlərində cəmləşdirirdilər.Məsmə məktəbdən sinif yoldaşlarının qələmini,dəftərini oğurlayanda və fəxrlə anasına danışanda,anası qızının başını sığallayır və başa salırdı ki,elə et ki heç kim bilməsin.Sonrada özünün fabrikdən corab "çırpışdırmağından" ürək dolusu danışardı.Corabı oğurlamağın səbəbkarı isə Vəli və özüydü.Vəli heç vaxt ayaq dırnaqlarını tutmazdı.İşdən gələn kimi səhər geyib və dırnaqları ilə üzdüyü corablarını ayağından birtəhər çıxardib elə vıyıldadardı ki,corablar ya qapının əl tutacağından,yada çilçıraqdan asılı qalardı.Bu bir tərəfdən Vəlinin yekə qarnından və tənbəlliyindən irəli gəlsədə,digər tərəfdən Aytanın üzülmüş corabı tikməkdən və yumaqdan zəhləsi getməsi idi.Kim idi Aytanın orasını-burasını yoxlayan,istədiyi vaxt corab gətirə bilirdi.Hamı Aytanı tanıyırdı,həyasızlıqda tayı bərabəri olmazdı.Yalandan elə hay-küy qopardı ki,doğruların hamısı oğru kimi mat-məətəl qalardilar.Bəli, bu belə Aytan idi,şeytana papış tikən,yekəbaş Aytan!Məsmə və Qartal da pintilikdə ata-analarından geri qalmazdılar.Qartal,Məsmədən yaşca xeyli balaca olsada,elə hərəkətlər edərdi ki,Məsmə onun

yanında toya getməli olardı.Qartal Vəlinin arzuladığı bir vələdəznə olsa da,gah atasının, gah da anasının çaldıqları havaya uyğunlaşa bilirdi.İkiüzlülük,yalançılıq və özündən kiçiklərə güc göstərməyin əsil ustasıydı.Məgər atası onun adını nahaqdan Qartal qoymuşdu?!Məsmədən sonra ikinci qız uşağı dünyaya gələndə,adını Bəsdi qoydular ki,birdə qız uşaqları olmasın,olsa ancaq oğlan uşağı olsun.Vəli hərdən deyərdi ki,qız çoxaldıqca yükü və dərdi çox olur.Vəli və Aytan dərd çəkən deyildilər,birdə hardan idi ki,bir oqədər pul,yadların yaşaması üçün,qızlara cehiz versinlər.El arasında qız aparandır ,oğul gətirən deyərdi Vəli.Bəli Vəli və Aytanın oğul həsrətini eşidən,xudavəndi aləm,bu "binəvaların"arzusunu nəzərə alıb,onlara yox yerdən bir oğlan payı vermişdi.Uşaq atası kimi sümüklü və yekəbədənli idi.Vəli sevincindən uşağın adını Qartal qoymuşdu.Bəs necə? Seçilən ailə olmaq üçün ona Qartal kimi oğul da lazım idi.Vəli, Qartalı özündən daha yaxşı kişi kimi böyütmək üçün həyətdə,məktəbdə onunla oynayan, yaxud təmasda olan uşaqları hər hansı bir səhv hərəkət üçün təpik altına salıb döyməyi öyrədər və tələb edərdi.Oğlunun güdazına gedib döyülən uşaqların valideyinləri şikayətə gələndə Vəli onları elə hay-küylə qarşılayardı ki, şikayətə gələnlər,gəldiklərinə peşman olardılar.Hələ belə vaxtlarda Aytanın doqquz mərtəbəli layan və qarğışları,xəncər yarasından betər təhqirləri qonşuları məətəl qoyardı.Vəli əsil "Qartal" böyüdürdü.Atası ona başqa va-

lideyinlər kimi,morojnu yaxud digər şirniyyat almağa pul verməzdi.Deyərdi ki,bəs sən qartalsan axı!Kimin əlində morojnu,şirniyyat görsən,qartal kimi şığıyıb əlindən alarsan,necə ki,uşaq vaxtı bağçada uşaqiarın oyuncaqlarını əlindən alırdın, bax eləcə. Qonşu və tanışlar abır-həya edərək Vəli-Aytan cütlüyündən uzaq durardılar.Bu münasibəti hiss edən cütlük başlarını dik tutar və tanış-bilişlərə gözlərinin ucu ilə belə baxmazdılar və fikir edərdilər ki,sayılıb seçilən olmağın yolu belə olmalıdır.Məsmə və Qartaldan fərqli olaraq,Bəsdi sakit təbiətli,yumşaq xarakterli ,valideyinlərindən və qardaş-bacısından kəskin fərqlənən bir qız idi.Valideyinlərinin zor münasibətləri Bəsdinin həyacanına və göz yaşlarına səbəb olanda,sakitliyini rəhmətlik nənəsində tapar və onun yanına qaçaraq təsəlli tapardı.Hürzad nənəsi onu ovundurar və qulağına pıçıldayardı ki,sən onlara fikir vermə, dərslərini oxu,sənət sahibi ol,böyüklərdən ol ki,sənə hamı hörmətlə yanaşsın.Bəsdi çox sevdiyi nənəsinin dediklərinə əməl edər,tənha bir yerə çəkilib dərsləri ilə məşğul olardı.Düzdür Məsmə və dəcəl Qartal çox vaxt buna imkan verməzdilər, elə hərəkət edərdilər ki,son anda Bəsdini günahkar çıxardardılar.Valideyinləri isə,Bəsdinin əlindən kitab-dəftəri alıb tolazlayardılar və müxtəlif ev işləri ilə onu yükləyərdilər.Ara sakitləşən kimi ,Hürzad nənə onun köməyinə gələr,işləri özü görər və Bəsdinin dərslərini hazırlamasına şərait yaradardı.Gecələr bacı-qardaşları yuxulayan kimi,gizlincə gəlib

Hürzad nənəsinin ağuşunda mışıl-mışıl yatar,səhərisi gecələri yatmayan nənəsi onu sakitcə oyadar və uşaq otağına yola salardı.İndi sevimli nənəsinin dünyadan köç etməsi,onu gizli də olsa müdafiə edən nənəsinin olmaması Bəsdiyə çox pis təsir edirdi,ancaq nə edə bilərdi qızcığaz,yeganə təsəllisi artıq yox idi və talehinin hökmü ilə barışmalı olurdu.

Bu arada Aytanın işlədiyi tikiş sexinə yeni sex rəisi təyin olunmuşdu.Aslan adlı yeni sex rəisi xoşuna gəlməyənləri müxtəlif bəhanələrlə işdən azad edir,xoşuna gələnləri işə qəbul edirdi.Əslində Aslan qatı şorgözün biriydi.Aslanın yeni işə cəlb etdikləri xanımlarla olan "xoş və maraqlı"münasibəti Aytanın gözündən yayınmamışdı.Şirin dilini işə salıb,Aslanı ələ ala bilmiş və tezliklə ambardar vəzifəsinə təyin olunmuşdu.İşi-peşəsi sexlərdən malları qəbul etmək,hazır malları yola salmaq idi.Maşın yükləyən fəhlələr boş vaxtlarında həyətdə domino oynayar,Aytan isə boş vaxtlarını tum çırtlamaqla keçirərdi.Bir gün yoxlama adı ilə ambara buyuran Aslanı özünə ram etmək istəyən Aytan,fəhlələrin yoxluğundan istifadə edərək,him-cimlə məqsədini şorgöz Aslana anladıb xoş dəqiqələr yaşayaraq,bir aşın duzu oldular.Beləliklə ulduzları barışan Aslan və Aytan iş bəhanəsi adı ilə ambarda görüşür və xoş dəqiqələrini həyata keçirirdilər.Aslan daha irəli gedərək,xoşuna gələn qadınları Aytanın əli ilə tələyə salır və ehtiras nəfsinə olan ehtiyacını təmin edirdi.Sexdə özü-

nə hörmət qoyan,ailəsinin şərəfini hər şeydən yüksək tutan əksər qadınlar Aslanın şikarına çevrilməmək üçün,ərizə yazıb işdən azad olunurdular.Aslanın tələsinə düşənlər isə,işsiz tənha qadınlar,ucqar regionlardan gəlib, yaşayış yeri olmadığından yataqxanaya düzəlmək istəyənlər,yaxud müxtəlif səbəblərdən ərindən boşanan dul qadınlar idi.Aslanın köməyi ilə işə düzələnlər,sonralar onun ehtiras tələsində çobalayırdılar.Bütün bunları Aytan elə düzüb qoşurdu ki,şübhə yeri belə qalmırdı.Öz keçmiş həyatinin təcrübəsinə əsaslanan Aytan, çox qəşəng bilirdi ki,müxtəlif səbəblərdən Bakıya pənah gətirmiş qadınlar özlərinə xoş gün əldə etmək üçün,istənilən hərəkətlərə qol qoymağa hazırdilar.Aslanla olan münasibətindən Vəli duyuq düşməsin deyə,Aytan daha hiyləgər tərpənərək,evində şam yeməyi təşkil edib Aslanla, Vəlini tanış edərək özünü hər ehtimaldan sığortalamışdı. Bu tanışlıqdan Aslanla Vəlinin xoş münasibətləri,"dostluğa"çevrilmişdi.Aslan, Vəli ilə hər görüşündə Aytanı,namuslu ,işgüzar qadın kimi tərifləyərək,anam-bacım olsun!- deyərdi.Aslanın bu təriflərindən qoltuqları şişən Vəli,xoşbəxt bir insan kimi,Aslana xitab edərək:-yaradanım elə bir qadın mənə qismət edibdir ki,ömrüm onunla xoşluqla keçir,-deyə sarsaqlamışdı.Aslan isə Vəlinin ağılsız və səfeh danışıqlarına təbəssüm göstərərək,ürəyində Aytana əhsən demişdi.Belə baxanda Vəli həqiqətən Aytana inanırdı və onun etdiyi "hoqqabazlıqları"heç ağlına belə gətirə bilməzdi.Əgər

kimsə Aytanın "hoqqabazlıqları"haqqında Vəliyə belə nə isə bayquşlasaydı,Vəli deyilənin böhtan olduğunu başa düşüb,ağır cavab verə bilərdi.Bax Aytan belə şeytan idi.

Bir neçə müddətdən sonra,işdə əldə etdiyi uğurlara görə,Aslan Birləşmiş İdarənin nəzdində olan,digər bir fabrikə müdir müavini təyin olundu.Əlacsızlıqdan Aslanın şikarına çevrilmiş,az-çox abır vı həyası olan bəzi qadınlar,rahat nəfəs alıb,talehlərindən şikayətçi olmuşdular. Aslan yeni işinə gedərkən,Aytana əlaqəni kəsməyi xahiş edib,gələcəkdə lazım olduğu təqdirdə bir-birlərinə kömək edəcəklərini nəzərə almışdılar.Aytanın yardımçı olaraq,qadınları tələyə salması səs-küyə səbəb ola bilməzdi.Ən azından Aytanın həyasızlığı onları yerində oturda bilərdi.

Günlər aylara,aylar isə illərə çevrilərək qərinələr yaradırdı.Həyat elə qıvraq keçirdi ki,yaşlı insan sanki dünən doğulduğunu hiss edirdi.Bakıda isə elə isti havalar keçirdi ki, belə istilərə "qirqaynadan" istilər deyərdilər.Belə bir isti günlərdə ali məktəbə qəbul olmaq arzusunda olanlardan loridə Vəli-Aytan cütlüyünün ilki- Məsmə idi.Əslində orta məktəbi aşağı qiymətlərlə başa vuran Məsmə,savadsız olduğunu bilirdi.Ancaq sayılıb-seçilən ailələrdən geri qalmaq istəməyən Aytanın hikgəsi qabağında Məsmə heç nə deyə bilməzdi.Anasının təbirincə desək məktəbə girməsən də,qoy hamı bilsinki,sən ali məktəb qapısını açmısan. Ali məktəb qapısını açıb,ancaq içəri daxil ola bilmə-

yən Məsmənin keyfi pozulmasa da,anası Aytanın arzusu ürəyində qalmışdı.Qızının boş-bekar qalmasını istəməyən Aytan onu işə düzəltmək istəyirdi.Öz işlədiyi fabrikə işə düzəldə bilərdi,ancaq qorxurdu ki,ulduzun quyruğu görsənər.Əlbəətdə köhnə "dostu"Aslanla olan münasibətlərdən sığortalanmalı idi.Bununla bərabər,başa düşürdü ki,qızını işə düzəltməkdə Aslan köməkçi ola bilər.Odur ki,Aytanı "dost"kimi qəbul edib,uzun-uzadı danışıqdan sonra Aslan Məsməni cexlərdən birinə yoxlayıcı kimi işə qəbul olunmasına nail oldu.İlk baxışdan Məsməni ayaqdan başa süzən Aslan,anasından da yaxşı"maldır"-deyə fikrindən keçirtdi.Cavan Məsmə üçün dərindən köks ötürən Aslan,özlüyündə hər zamanın öz qərarı var,inşallah!-deyib, Məsməni təzə iş münasibəti ilə təbrik edərək sağollaşdı.Qızının işə qəbul olunmasından sevinən Aytan, Aslana təşəkkürünü bildirib qızı ilə evə qayıtdı.Aslanın yaşlandığını xəyalında canlandıran Aytan,gəlib keçən cavan qadınları gözucu nəzərdən keçirən keçmiş "dostunun" hərisliyini görərək, ağlına belə gətirə bilmirdi ki,bu qoca hələ köhnə vərdişlərindən əl çəkməyibdir.Məsmənin işə düzəlib məvacib alaraq özünü dolandırması Vəli-Aytan cütlüyünün maddi güzəranını daha da yaxşılaşdırmışdı.Fikirləşirdilər ki,iki ilə Bəsdi qızları da,orta məktəbi qurtarıb işləyərək özünü dolandırsa, güzəranları daha yaxşı olacaq.

Bir neçə ay keçməmiş,elçilər Aytan və Vəli gilin qapısını döymüş oldular.

Məsmə üçün gəlmişdilər.Elçilərin xəbər vermədən qəflətən gəlmələri Aytan və Vəlinin təəcübünə səbəb olmuşdu.Bütün bunlar Məsmənin oyunu idi.İş yerində texnik işləyən Nadir adlı cavan oğlanla eşq yaşayan Məsmə onun qəlbini ələ alaraq, vardan yox etmişdi.Nadir çox yaraşıqlı oğlan olduğundan,Məsmə söylədiyi bayatılarla onu özünə ram edə bilmişdi:

Dağlar başında lalə,
Əlində var piyalə,
Mən səninəm,ay oğlan,
Düşmə özgə xəyalə.

Nadir, Məsmənin məhəbbətini qazandığı üçün,özünü göyün doqquz qatında hiss eetmişdi.Nadir özü də bilmədən eşq bəlasına düçar olmuşdu. Ailədə üç oğlan uşağı idilər.Nadirdən böyük olanlar çoxdan ailə qurub ev-eşik sahibi olmuşdular.Evin sonbeşiyi olan Nadiri, anası Çimnaz və atası Məmməd çox istəyər və onun nazını çəkərdilər.Artıq iyirmi beş yaşı olan Nadirin evlənməsini hər gün dilə gətirərdilər.İndi Nadirin birdən-birə onları sevgilisi Məsmə gilə elçiliyə göndərmələri göydən düşmə olmuşdu. Məsmə valideynlərinin onun sevgisinə əngəl olacaqlarını dərk etdiyindən, bir növ "sürpriz" etməklə, onların maneçiliklərinin qarşısını almaq istəyirdi.Heç bur tanışlıq olmadan, tanımadıqları elçiləri bir təhər qarşılayan,ədalı Aytan qızını yataq otağına çəkib,yanından bir çimdik götürərək,bu nə həngamədir başımıza açırsan?-deyə hökgül-

dədi.Boğula-boğula:- bunlar kimlərdir,de görüm var-dövlətləri,vəzifələri varmı?! Məsmə anasına cavab əvəzinə,çiynini oynatmaqla cavab verdi. Aytanın inadkar sorğusundan sonra,Məsmə oğlanı sevdiyini və başqa heç nəyin onu maraqlandırmadığını bildirərək,iki ayağını bir başmağa dirəyib valideyinlərinin razı olmasını tələb etdi.Hamıya "papış"tikən Aytan-şeytan,qızının peşəkar papıştikən olduğunu anladı.Aytan qızından ayrılıb,Vəli ilə xeyli məsləhətləşdikdən sonra,belə qərara gəldilər ki,razılıq versinlər, əgər tanımadıqları yeni qohumları münasib olmasalar,bu izdivaca son verməkdə çətinlik çəkməzlər.Məsmənin qəfil oyunundan çarəsiz qalan Vəli-Aytan cütlüyü gələn elçilərə razılıq verib,adətə görə şirin çay içməli oldular.Gəlinlərinin barmağına üzük taxan Çimnaz arvad, şad-xürrəm Məmmədlə evlərinə qayıtdilar.

Artıq nişanlı olan Məsmə günün işdən sonrakı vaxtlarını Nadirlə keçirir,hava qaralanda evə gəlirdi.Aytan əlaltı öyrənmişdi ki,qızlarına elçi gələn və qohum olmaq istəyənlər,sadə yaşayışa malik olub elə də sayılıb-seçilən,imkanlı adamlar deyillər.Aytan nə qədər inad etsə də,Məsməni bu izdivacdan uzaqlaşdıra bilmədi.Hər dəfə evə gələn Məsməni,tələsməməyə,varlı bir ailənin övladina ərə getməyi məsləhət görsə də,Məsmə tutduğundan dönmürdü ki,dönmürdü.Beləcə hər axşam evdə qırğın başlayırdı və bu qırğınlar Məsməni zinhara gətirirdi.Valideyinlərinin cansıxıcı hərəkətlərinə dözməyən Məsmə,Nadirlə

dilləşib evdəkilərə Nadirlə ailə qurduğuna dair məktub ünvanlayaraq,artıq ərə getmiş olduğunu bildirmiş oldu.Məsmənin bu hərəkəti Aytanı özündən çıxartmışdı.Əri Vəlini qızışdırıb bu izdivacı pozmağa çağırsada,ömründə bayatı deməyən Vəli, Aytana bayatı ilə cavab vermişdi:

Bu yol yolamı gedər?
Maral kolamı gedər?
On beşini keçən qız,
Evdə yolamı gedər?

Vəlinin bu izdivacla maraqlanmadığını görən,Aytan Nadir gilə hucum etmiş,Çimnaz xalaya dişinin dibindən qurtaranı demişdi.Çimnaz xala abır-həya edərək, susmağa üstünlük vermişdi.Sonralar Nadirin valideyinləri toy etmiş,Vəli-Aytan cütlüyü acıq edərək toya getməmişdilər.

Yeni ailədə Məsmə özünü Nadirlə çox xoşbəxt hiss edir,müxtəlif mərasimlərə gedərək sevincli anlarını yaşayırdılar.Bir neçə vaxtdan sonra Məsmənin valideyinlərindən aldığı tərbiyə və vəzifəli,hiyləgər Aslanın himayədarlığı özünü göstərməyə başladı. Guya işdə çox yorğun olduğundan daha Nadirlə birgə mərasimlərə getmir,axşamlar işdən yorğun gəldiyini bəhanə edərək,ayaqqabısını əyilib çıxartmaq əvəzinə, futbol topu kimi ayağından hara gəldi tolazlayır,əyin paltarlarını istənilən yerdə saxlayır,çarpayısını dağınıq qoyub işə gedirdi.Məsmənin bu səliqəsizliyi,əlbəətə ki,təmizliyi ilə seçilən Çimnaz xalanın gözündən yayınmırdı.

Məsmənin ailə qurmasından sonra,Aslan planlı şəkildə Nadirin işdən qovulmasına səbəb olmuşdu.Əslində Aslan hiylə işlədərək,qovulma bəndini,gələcəkdə işə düzəlməkdə çətinlik olmasın deyə,öz xahişi ilə işdən azad olunma bəndi ilə əvəzlənməsinə şərait yaratdığına görə,Nadirin təşəkkürünü qazanmışdı.Nadir əl-ayağa dolaşmasın deyə,onu fabrikdən uzaqlaşdıran Aslan,bir neçə gündən sonra Məsməni qəbuluna çağırıb,katibə olaraq işə götürmüşdü.Artıq administrasiya işinə cəlb olunmuş Məsmə,ona hədiyyə olunmuş açıq-saçıq geyimi ilə Nadirin etirazına səbəb olmuşdu.Məsməni Nadirdən uzaqlaşdıran ikinci bir səbəb də var idi.Artıq altı aydan çox bir müddətdə,Nadirlə olan evliliyindən heç bir hamiləlik hiss olunmamışdı.Ər-arvadın səhhətini yoxlayan həkimlər,Nadirin ciddi müalicə aldıqdan sonra,övlad sahibi olacaqlarını bildirməsi,Məsmənin "ərli subay"olmasına şərait yaratmışdı.Məsmə özü üçün yaşamağa,xoş və qayğısız günlər keçirməyə başlamışdı.Onun üçün nə valideyinlər,nə bacı-qardaş ,nə də Nadir önəmli deyildi.Aslanın şikarına çevrilmiş Məsmə,Aslanla Baki bağlarında xoş günlər keçirərək,hava qaralanda ər evinə qayıdırdı.Nadir Məsmənin belə dəyişilməsinin səbəbini övladsızlıqda və Məsmənin ona olan biganələyində görüb,əlacsızlıqdan içkiyə qurşanmışdı.Çimnaz xala oğlu Nadirin cahil həyatına dözə bilmirdi və oğlunun içkiyə meyilliyinin səbəbını Məsmənin dəyişilməsində görürdü.Beləcə axşamların birində evə gec

gələn Məsməni Çimnaz xala qarşılayıb,onu bir ailə üzvü kimi düşünməyə,həyatda büdrəməmək üçün səhvlər etməməyə çağırsa da,Məsmədən bir cavab ala bilmədi.Bir azdan üzü tüklü,saçı dağınıq Nadir otağa girəndə,Çimnaz xala özünü saxlaya bilməyib bir bayatı ilə fikrini tamamladı:

Əzizim nə tarazi,
Nə daş var,nə tarazi,
Kişini tez qocaldar,
Arvadın natarazı.

Aslanla keçirdiyi xoş günlər olmasaydı,evdə yaranmış narazılıqlar Məsməni bəlkə də incidərdi.Elə bunun nəticəsi idi ki,Məsmə Aslanla razılaşıb,kirayə mənzil taparaq,ərinin evindən uzaqlaşmışdı.Əlbəəttə ki,Aslanın maddi köməyinə əsaslanaraq!Ata-anasının min cür məzəmmətlərini,tənbehlərini eşitməmək üçün,Məsmə onlara bildirmədən Nadirdən boşanmışdı.Boşanma məsələsini valideyinlərinə bildirsəydi belə xeyiri olmayacaqdı.Əksinə Məsmə özünü pis vəziyyətə salacaqdı.Çimnaz arvad Məsmənin bu özbaşına hərəkətindən az qala xoflanmışdı.Əri Məmməd kişi,Məsmənin bu ağılasığmaz hərəkətlərini ağıl süzgəcindən dəfələrlə keçirmiş və belə nəticəyə gəlmişdi ki,nataraz gəlindən səssis-küysüz uzaqlaşmağın özü də bir çıxış yoludur.Məmməd kişi,arvadı Çimnazı başa salırdı ki,oğlumuzun başına bəla gətirənin özü bizdən uzaqla-

şıb,indi bizim əsas vəzifəmiz oğlumuzu düşdüyü bu rəzil həyatdan qurtarmaqdır.

Qızları Məsmənin ərindən boşanıb,Aslanin məşuqəsinə çevrilmiş həyatından xəbərsiz olan Aytan və Vəli cütlüyü öz gümanlarını, artıq orta məktəbi qurtarıb,kitabxanaqçılıq texnikumunda təhsil alan Bəsdiyə yönəltmişdilər.Aytan bütün tanışlarına ağız dolusu danışırdı ki,bəs xeyli pul verib qızlarını "böyük məktəbə"düzəldibılər.Az-çox savadına arxalanan Bəsdi,valideyinlərinin bu yalanlarından çox utanardı.Ən pisi də o idi ki,onun razılığı olmadan,ona imkanlı ər axtarırdılar.Hər dəfə dərsdən sonra onu izləyən və çox utancaq olaraq onu danışdırmaq istəyən,ancaq nədənsə cəsarət etməyən qarabuğdayı oğlanı xatırlayaraq özündə bir təsəlli tapırdı.Bəzən,adını bilmədiyi qarabuğdayı oğlanı görməyəndə özünü daxilən həyacanlandıran Bəsdi hiss edirdi ki,tanımadığı oğlanı sevməyə başlayır.Bir neçə müddətdən sonra,köçkünlük həyatını yaşayan Mahmud, xoşuna gəldiyi və sevdiyi Bəsdinin,razılığını alıb elçi göndərmək fikrində olduğunu bildirmişdi.Anası Aytanın imkanlı ər axtarışında olduğunu bilən Bəsdi,Mahmudun elçı göndərməsinə razı olmamışdı.Gizlincə görüşlər keçirib,gələcək həyatlarından danışan gənclər belə qərara gəlmişdilər ki,hər ikisi sərbəst həyata hazır olan kimi,el adəti ilə qoşulub qaçaraq ailə qursunlar.Mahmud bir kişi olaraq,Bəsdinin doğma valideyinləri tərəfindən incidildiyini və onun gələcək həyata olan fikir-

lərini nəzərə almadıqlarını bildiyindən Mahmud çox pərişan olmuşdu.Odur ki,Mahmud Bəsdidə ona və ailəsinə inam yaransın deyə bildirmişdi ki,mənə sən lazımsan və mənim valideyinlərim isə sənə həm də ata-ana olacaqlar.Mahmudun konkret danışığı Bəsdini məmnun etmiş və ona olan məhəbbətini birə beş artırmışdı. Vaxt tamam olanda,öz sevgilərinə sadiq olan gənclər,Mahmudun atası Ağamusa kişinin evinə yeni ailənin nümayəndəsi kimi daxil olmuşdular. Oğlanları Mahmuda və el adəti ilə oğluna qoşulub gəlmiş Bəsdiyə toy edən Ağamusa kişi və arvadı Müşgülnaz, yeni ailəyə xoşbəxtlik arzulamalı olmuşdular.

Elə ilk gecədən,qızları Bəsdinin evə gəlmədiyini görən Aytan-Vəli cütlüyü Bəsdinin yoxa çıxmasına görə bütün məhləyə hay-küy salsalar da,Bəsdini gördüm deyən belə tapılmamışdı.Aytan və Vəli özlükərində belə fikrə gəlirdilər ki,yəqin buda bacısı Məsmə kimi,kiməsə qoşulub qaçıb. Belə olacağı təqdirdə qızlarını bağışlamayacaqlarını dilə gətirməli olmuşdular.Bəsdidən heç bir səs çıxmadığını görən Aytan və Vəli, əlacsız qalıb qanun keşikçilərinə müraciət etməli oldular.Aytanın və Vəlinin hay-küylü danışıqları,ağız deyib qulaq eşitməyən çirkin sözləri,qanun keşikçilərini mat-məttəl qoymuşdu.Onları sakitləşdirib,qızlarını tapacaqlarına arxayınlıq yaradan qanun keşikçiləri öz aralarında belə qənaətə gəldilər ki,ərgən,həddi buluğa çatmış bir qız,yəqin ki,bu cür keyfiyyətsiz bir ailədə duruş gətirə bilməz.Bir neçə gündən sonra,Bəsdinin

məktəbdə müəllim işləyən və köçkün olan Mahmud adlı oğlana öz razılığı ilə qoşulub qaçdığı və ailə qurması haqqında olan məlumatı Vəli-Aytan cütlüyünə qanun keşikçiləri böyük həvəs və təbriklə çatdırdılar.Qızlarının "qaçqın oğlana" qoşulub qacdığını eşidənVəli və Aytan az qala bütün hirslərini qanun keşikçilərinin üstünə tökmüşdülər. Bəsdinin hal-hazırda yaşadığı ünvanı dəqiqləşdirən Aytan-Vəli cütlüyü,qızlarının yaşadığı şəhərə yola düşdülər.Avtovağzalda avtobusdan düşüb,soraqlaşa-soraqlaşa müxtəlif pasdı dəmir listlərlə yan-yörəsi bərkidilmiş,köhnə bir daxmaya yaxınlaşaraq,salamsız-kəlamsız ev sahibi Ağamusa kişini kənara itələdilər.Ağamusa kişi gələnlərin Bəsdinin valideyinləri olduğunu duyub,hörmətlə onları qarşılamaq istəsə də,oğlan ata!sı olaraq sayılmadığını görüb susmağa və kənara çəkilməyə məcbur olmuşdu.Özlərini ağa kimi aparan Vəli-Aytan cütlüyü,köhnə daxmanın səliqə səhmanı ilə seçilən otağina çirkli ayaqqabılarla daxil olub,qızları Bəsdini hökmlə tələb etdilər.Valideyinlərinin ağır tənələrini eşitmək istəməyən,lakin qaynatasının baxışlarındakı razılığı hiss edən Bəsdi əlacsızlıqdan,ata-anasının qarşılarına çıxmalı olmuşdu.Qızının hındfasonu görünüşünü seyr edən Aytan,gül ağzını açdı nə açdı:-ağəz, sən bizi bu dilənçi qaçqınlara satdın! Onlara baxanda adamı ikrah hissi bürüyür,görmürsən əyinlərindən cin hürkür.Xəcalətindən göz yaşlarını saxlaya bilməyən Bəsdi,valideyinlərini ədəbli danışmağa çağırsada,bir anlıq Vəlinin

ona vurduğu sillə,Bəsdinin ağız-burnunu al qana bürüdü.Aytan isə dilini saxlamayaraq,bir bunun bizdən ədəb tələb etməyinə bax!Sən bir gör,bizi kimə tay tutmusan,dilənçi qaçqına!Ağamusa kişi dünyagörmüş bir adam idi.Vəlinin bu hərəkətini xoşlamadığı üçün,onun qabağına sinəsin sipər edərək,özünə hörmət qoymağı və yüz ölçüb,bir biçməyi məsləhət görsə də,əlini Ağamusa kişiyə uzatmış kimi,Vəli bağırdı:-cındır oğlu,cındır sən kimsən ki mənə ağıl öyrədirsən?!Qızı dilə tutub daxmaya gətirdiyiniz bəs deyil,üstəlik bizə ağıl da öyrədirsən!Bir neçə vaxtdan sonra,hay- küyə yığışan qonum-qonşular baş verən hadisənin mahiyyətini başa düşüb,qanun keşikçilərini və icra nımayəndəsini xəbərdar etmişdilər.Həyətə daxil olan icra nümayəndəsi və qanun keşikçiləri,Vəli və Aytanı sakitləşdirib,qizın öz razılığı ilə gəlib ailə qurduğunu bildirərək,danışıqlarına fikir verməlarini və qanuna riayət etmələrini məsləhət gördülər.Bütün deyilənlərə baxmayaraq,Aytan səs tonunu daha yüksək qaldıraraq,bu cındırlar qızımı dilə tutub,ona görə qaçırdıblar ki,gəlib evimə doluşsunlar,Bakılı olsunlar.Onu görə bilməyəcəklər!Belə bir əcayib daxmaya,adamın ürəyi gəlmir ki,cehiz də versin.Adam gərək öz yerini bilsin.Yaxşı deyiblər ki,eşşək gərək anqırıb tayını tapsın.Biz, siz qaçqınların tayı deyilik,-deyib Ağamusa kişinin daxmasını tərk etdilər.Yol boyu qızlarının sayılıb-seçilənlərlə ailə qurmamaları,əsası qoşulub qaçmalarını götür-qoy edən ər-arvad qızlarını öz-

lərinə oxşamadıqlarına görə yıxıb-sürüdülər.Yeganə ümidləri hərbi xidmətdə olan Qartala qalmışdı.Qanı qaralmış Aytana ümid vermək üçün,dili ağzında sakit durmayan Vəli, başladı ki,qoy Qartalım əsgərlikdən gəlsin,ona hallı,varlı bir qız tapıb evləndirək,sonra bir oğul nəvəmiz olsun,adımı qoyum nəvəmə.Vəlinin sayıqlamalarına istehza ilə yanaşan Aytan çöndü ki,ay sən öləsən,bunun bir danışmağına bax,demir ki,gəlsin işləsin, evə pul gətirsin,evlənənə qədər bizə bir qulluq eləsin,deyir gələn kimi evlənsin.Vəli öz sözündə dayanan adamlar kimi,ay arvad oğlumuzun evə pul gətirməyinə etiraz etmirəm,ancaq varlı bir gəlinimiz olsa,həm bizim qabağımıza çay qoyar,həm də atasının var-dövlətini qarpışdırarıq.Maşınları olsa verər oğlumuza,nə qədər cehiz gətirər,üstəlik qızın valideyinləri lap bizə qulluq da edərlər.Bəs necə,mən oğul atasıyam ey,başa düşdünmü!Başa düşdük,fil qulağında yatmamışıq!-deyə Aytan əsəblərini cilovlamağa çalışdı.Aytanın əsəblərini sakitləşdirməyə çalışan Vəli,daha sonra sözünə davam edərək, buyurdu ki,oğlumuz subay da olsa,evlənsə də, onun yaxud, gəlinin qazancı mənim və sənin əlində olmalıdır.Qartal nə bilir ailə dolandırmaq necə olur?Evin bir kişisi olar,o da mənəm.Mən ailəni sənin vasitənlə idarə edərəm,hamı da bilər ki,bütün ailəni bir kişi dolandırır.Əri ilə razılaşan Aytan barmağını Vəliyə silkələyərək,sərt şəkildə dedi ki,əgər sən bu kişiliyi bacarmıyacaqsansa,biləsən ki,kişiliyi əlindən alacam!Yekəbaş Aytanın xasiyyətinə

yaxşı bələd olan Vəli daha söz güləşdirməyib,susmağa üstünlük verdi.Onlar evə çatanda artıq hava qaralmışdı.

Nadirdən boşanaraq,Aslanla xoş günlər keçirən Məsmə daha irəli gedərək,digər bir cavan oğlanla eşq macarası yaşamağa başlamışdı.Əslən türk olan cavan oğlan Mehmet,ailəsindən boşanaraq Bakıya iş qurmağa gəlmişdi.Əsasən tekstil biznesi ilə məşğul olan Mehmet müqavilə bağlamaq üçün Məsmənin işlədiyi fabrikə gəlmiş,Aslanla danışıqlar aparmış, elə Məsməni də orada görərək,xoşlamış və münasibət qurmağa çalışmışdı.Bu münasibətləri duyan Aslan özünü bilməməzliyə qoymuş və Məsməni hələlik özündən uzaqlaşdırmağın vaxtı çatdığını nəzərinə almışdı. Hiyləgər Aslan daha irəlini başa düşərək,Mehmetin və Məsmənin nə vaxtsa lazım olacağını beyin süzgəcindən keçirmişdi.Mehmetin münasibətindəki istiliyi hiss edən Məsmə onunla bir neçə görüşdən sonra,Mehmetin təklifini can-başla qəbul edərək,onunla ailə qurmağa razılıq vermişdi.Bir neçə vaxtdan sonra,Mehmetlə ailə quran Məsmə valideyinlərinə yenə də bildimədən,katibə işindən azad olunaraq təzə əri ilə Türkiyəyə yaşamağa getmişdi.Katibəlik işindən azad olunarkən,Aslanın ona olan xoş rəftarı Məsməni təəcübləndirmişdi.Mehmet qurduğu işin mahiyyətindən asılı olaraq,ilin müəyyən vaxtlarını Azərbaycanda,digər vaxtlarını isə yaşadığı İzmir şəhərində keçirirdi.

Günlərin birində bazarda alver edən Aytan təsadüfən Çimnaz arvadı görüb,özündən asılı olmayaraq qızı Məsmə ilə maraqlanmış oldu.Məsmənin sualı qarşısında təccüblü qalan,Çimnaz arvad Məsmənin iki il bundan qabaq Nadirdən boşandığını və bu müddət ərzində onu görmədiyini bildirdi.Məsmənin boşanmasında Çimnaz xalanın ailəsini günahlandıran Aytan,Çimnaz arvadın and-aman edərək, Məsmənin özünün boşanaraq çıxıb evdən getməsini deməsini,başa düşmək belə istəmədi. Gül ağzını açan Aytan ,Məsmədən başı bəlalar çəkmiş Çimnaz arvadı bazarda biabır etmiş oldu.Evinə qayıdıb həyacan təbili çalan Aytan,Vəli ilə bərabər qızları Məsmənin axtarışına çıxmış və nəhayət, artıq fabrikin müdiri işləyən Aslanla görüşməli olmuşdular.Aytan-Vəli cütlüyünü könə dostlar kimi qəbul edən Aslan,hal-qaziyədən xəbərdar olduqdan sonra,Məsmənin altı ay bundan qabaq,iş adamı olan bir Türklə ailə qurub,Türkiyəyə yaşamağa getmiş olduğunu bildirmiş oldu.Aslan hətta Vəliyə irad tutaraq bildirdi ki,mən elə bilirdim Məsmənin burada işləməyi,Türklə ailə qurmağı sizin razılığınızla olub! Heç olmasa,mənimlə bir əlaqə saxlayardınız,siz ki məni çoxdan tanıyırsınız?Aslanın hiyləgər iradları qarşısında,Vəli özünü günahkar kimi hiss edərək susmağa üstünlük vermişdi.Əsəblərindən əllərini dartışdıran Aytan,Aslanın hiyləgər danışıqlarına daxilən afərin deyib, özünü sakitləşdirmiş oldu. Vəlidən çox Aytanın, Aslana təşəkkür etməsi,bir

anlığa keçmişləri xəyalında canlandıran Aslanda istehzalı bir təbəssüm yaratdı.Baş vermiş hadisələrə təssüfləndiyini bildirən Aslan,çağrılmamış qonaqlarının arxasınca baxaraq,dərindən köksünü ötürüb,dodaqaltı:-“axmaq ailə” deməsinə səbəb olmuşdu. Səhərisi Türkiyə səfirliyinə gələn Aytan,qızı Məsmənin Türkiyənin İzmir şəhərində yaşadığını öyrənmişdi.Səfirliyin köməyi ilə, qızıyla telefon əlaqəsi yaradan Aytan,qızının imkanlı kişiyə ərə getdiyini bilib,çox sevincli olmuşdu.Uzun müddət qızı ilə maraqlanmayan Aytan,nəhayət ki qızının sayılıb-seçilən,hörmətli bir qadın olacağına qəlbən inanmışdı.Kaş Bəsdi də,Məsmə kimi hörmətli bir qadın olaydı-deyə düşünmüşdü.

Bəsdi düzgün ailə seçimini etdiyinə görə xoşbəxt idi.Böyük insani keyfiyyətlərə malik olan əri Mahmudun və qaynatası Ağamusa kişinin,qaynanası Müşgülnaz xalanın qayğıkeş,mərd hərəkətləri onun həyatını tamam dəyişmişdi.Hələ qaynanası Müşgülnaz xalanın,Bəsdi işdən qayıdarkən,mənim balam,- deyə onun qulluğunda durması,sevincindən göz yaşına səbəb olmuşdu.Bəsdi belə bir qayğını,rəhmətlik nənəsindən başqa ailədə heç kimdən görməmişdi.Bacı- qardaşı, xasiyyətcə özündən fərqli olsa da,hərdən onları yadına salır,ancaq harada olduqlarından xəbərsiz olduğundan,onlarla əlaqə saxlaya bilmirdi. Validryinlərinin ona etdikləri zülm isə heç vaxt yadından çıxmırdı.Hələ valideyinlərinin təzə ailə quran Bəsdini təhqir etməsi,ən əsası qaynatasına qarşı edilən nahaq hərəkət-

lər onu xəcalətli etmişdi.Bəsdinin valideyin ədəbsizliyindən əzab çəkməsini hiss edən Mahmud və valideyinləri "qudalarının" ədəbsizliklərini bir dəfə də olsun Bəsdinin üzünə vurmamışdılar.Əksinə heç nə olmamış kimi onun qeydinə qalmışdılar.Mahmud ziyalı olduğundan nəinki ədəb-ərkana riayət edirdi,hətta Bəsdinin muasirləşməsinə də diqqət yetirirdi.İndi artıq Bəsdi bu cözəl ailəyə,bir gözəl oğul da bəxş etmişdi.İşlədiyi kitabxana onun üçün yorucu olmadığından işləməyə,azda olsa maddi cəhətdən evə kömək etməyə çalışmışdı.Lakin, Bəsdini Mahmud analıq məzuniyyətinə çıxmağa məcbur etmişdi.Əslində qaynanası Müşgülnaz xala nəvəsindən əl çəkmir,çox vaxtı onunla nəfəs alırdı.Üstəlik sevimli həyat yoldaşının adını nəvəyə qoymuşdular.Ağamusa yox, sadəcə Musa deyə müraciət edirdilər.Mahmudun kiçik qardaşı hərbi xidmətdə olduğundan,heyvanların yemlənməsilə ata-oğul məşğul olurdular.Şəhər həyatından çox,kənd həyatını sevən Bəsdi də, heyvanları yemliyir,südlü olanları sağır,nehrədə yağ çalır,qatıq və ayran hazırlayırdı.Şəhərli Bəsdinin bu bacarıqları Mahmudu və valideyinlərini məmnun edirdi.

Bir neçə müddətdən sonra hərbi xidmətini başa vurub evə qayıdan Qartal,bacılarının qurduqları müəmmalı ailə həyatından xəbərdar olmuşdu. Məsmənin imkanlı Türklə qurduğu ailə həyatını bəyənmiş,Bəsdinin qaçqına ərə getməsindən mütəəsir olmuşdu.Bəsdi bacısının qarasınca danışan Qartal,uşaqlıqda da onun "zay"olduğunu

vurğulamışdı.Məsmənin “ağlına”isə heyran olduğunu, fəxrlə ata- anasına bildirmişdi.Vəli əlinin göstərici barmağını Qartala silkələyərək bacısı, Bəsdi kimi səhv etməməyi və imkanlı bir qızla ailə qurmağı tövsüyyə etmişdi. Elə et ki,belimdəki qayışın yeri bədənində iz buraxmasın!İş tap işlə,qazancını mənə gətir,mən səni özüm evləndirəcəm. Aytan əri Vəlinin dediklərinə rəvac verərək,nəinki subay vaxtı,hətta evlənəndən sonra arvadı ilə bərabər qazanclarını sənə verməlidirlər,deyərək Vəlinin “ağıllı”kəlmələrinə haqq qazandırmışdı. Evi bir nəfər idarə edər,evin bir kişisi olar!Özünü saxlaya bilməyən Qartal,anasının sözünü ağzında saxlayıb,necə yəni evin bir kişisi olar?Məgər mən kişi deyiləm!? Bəlkə atam kişi olub gələcək arvadıma alt tumanı da almalıdır!? Qəzəblənmiş Aytan:-deyəsən əsgərlikdə səni çox pis tərbiyə ediblər ha...Dilini qoy qarnına, atan nə deyir düz deyir! Qaldı hələ evlənmədiyin arvadının alt paltarına,atan mənə pul verəcək,mən nə bilsəm onu alacam.Beləliklə əsgərlikdən gətirdiyi beş-on manatı atası əlindən alıb, səni işə düzəldəcəm,-deyə cibinə qoymuşdu.Tay-tuşları ilə görüşərkən, cibində bir stəkan çay içməyə pulu olmayan Qartalın, çay pulunu dostları verərdilər.İş axtaran Qartal,sənəti və iş təcrübəsi olmadığına görə işə düzələ bilmirdi.Gündəlik iş elanlarını nəzərdən keçirən Qartal nəhayət çox da böyük olmayan restoronların birində ofisiant olaraq işə düzələ bilmişdi.Gündəlik qazandığı on manatını, atası Vəli əlindən alır və ona bir ma-

nat verirdi.Restoranda yeməyini yeyirsənmi?- bəs edər,bir manat yol pulu olaraq verirəm ki,piyada yol döyməyəsən!Vəli üstəlik zarafata salıb,yəqin dadlı-yağlı yeməklərdən yeyib kef edirsən.Bir bizi də yadına sal,o yeməklərdən gizlincə qoltuğuna qoy və bizə də gətir,-deyib sulanmış ağzının suyunu udqunmuş oldu.Atasının udqunan və az qala boğulan sifətinə baxan Qartal, necə onu başa salaydı ki,özləri elə masanin "artığını"nuş edirlər.Necə başa salaydı ki,restoranın nəzarətçisi pulgirlikdə və xəsislikdə atasından heç də geri qalan adam deyildir!Bəzən işdən qayıdan Qartala atası üzünü turşudaraq:-ə bəs niyə bizə restoran kababından gətirmirsən?-deyə soranda,Qartal onu ittiham edərək deyərdi:Uşaqlıqda bir morojnu pulunu də verməzdin,şişdiyimdən onun –bunun əlindən morojnu qapardım.İndi xeyir ola,məndən restoran kababı istəyirsən!?Qartal ittihamlarında ciddiləşəndə,Vəli şalvarının qayışını göstərər və deyərdi:-yadından çıxmayıb ki,gördüyün qayış,tanış gəlirmi?!Hərbi xidmət zamanı təzə əsgər olanda döyülən,sonra "dembl" olub təzə gələnləri döyüb pullarını əlindən alan Qartal,atasına qarşı çıxaraq ,gücün çatmaz,-deyə bozarardı.Belə vaxtlarda hiyləgər Aytan onları sakitləşdirərək,barışdırardı.Qartal həqiqətən atasından çəkinərdi.Vəli ağına-bozuna baxmaz,mənzil boyu elə qışqırardı ki, qonşu tay-tuşlarının yanında utanmasın deyə,Qartal evdən qaçıb aradan çıxardı.Atasının başadüşülməz hərəkətləri Qartalı çıxılmaz vəziyyətə salardı.Belə

momentlərdə hiyləgər Aytan, Vəlidən gizlin Qartala himayə olardı.Əslində Vəli də,Aytan da hər ikisi ikiüzlü variantda,göz-qaş ataraq Qartalı ustalıqla idarə edərdilər.

İşlədiyi restorana orta məktəblərdən yemək sifarişi gəldiyindən,bəzən Qartal yaxınlıqdakı məktəb müəllimlərinə isti yeməklər aparırdı.Beləcə günlərin birində müəllimlər arasında cavan bir müəlliməni görən Qartal ona bənd olmuşdu.Qızın adının Sənubər olduğunu,hətta varlı-karlı ailə övladı olmasını da öyrənmişdi.Yeməklərin daha dadlısını seçər və özü şəxsən Sənubərə aparardı.Qartal hər dəfə Sənubəri görəndə,əsil artistə çevrilərdi.Elə cümlələr qurar,elə centlemen hərəkətlər edərdi ki,Sənubər bu dilli-dilavər ofisianta,özünün də başa düşmədiyi qəribə bir hisslə yanaşardı.Sənubər artıq başa düşürdü ki, qəlbini çalan bu ofisiant oğlan hələ gəlməmiş,onun gözü yol çəkir,gələndən sonra isə,özü də duymadan hallanır,rəngi dəyişir,özünü sərbəst apara bilmir.Digər müəllimlər bütün baş verənləri görür,hətta öz aralarında oğlanın qəşəng olduğunu vurğulayaraq,Sənubərə xoşbəxtlik də arzulayırdılar.Bir neçə vaxtdan sonra,Sənubərin razılığını alan Qartal, ona yol yoldaşı da olmuşdu.Artıq aralarında elə mehriban ünsiyyət yaranmışdı ki,hətta sevgili roluna girən Qartal,Sənubəri özünə "yar" edəcək bayatılar da deməyə başlamışdı:

İki quyu yan-yana,
Əlimə yaxdım hana,

Sənə süd verən ana
Olsun mənə qaynana.

Ofisiant oğlanın dediyi bayatı,sarı yağ kimi Sənubərin ürəyinə yayılmışdı.Hərbi xidmətdən xeyli vaxt gəlsə-də,Qartalın bacıları haqqında elə bir məlumatı olmadığın-dan,anası Aytanı bacıları ilə görüşdürməyə vadar edir-di.Qaçqına ərə gedən Bəsdi onun üçün bir oqədər maraqlı deyildi,anasına rişxəndlə tutuquşu kimi deyərdi ki,Bəsdi elə uşaqlıqdada "zay"idi,yəqin ki,indi də keçmiş zaylığın-dan əl çəkməyib.Türkə ərə gedən Məsmə,imkanlı şəraitdə yaşadığından Qartalı daha çox cəlb edirdi.Əslində Qartal atası Vəli kimi yağlı tikə arxasınca qaçmağı sevən idi.Əs-gərlikdə də,valideyinləri imkanlı olanlarla "dost-luq"edib,xeyrini görmüşdü.Anası ilə birlkidə Məsmə ilə telefon əlaqəsi saxlayan Qartal,bacısının zəngin və firavan yaşadığını,üstəlik qız övladı dünyaya gətirdiyinə görə, da-ha xoşbəxt olmasını öyrənmişdi. Qartal çox məmnun ol-muş və bacısının fərasətinə "əhsən" deyərək onunla qürur duyduğunu və fəxr etdiyini özünə borc bilmişdi.Tay-tuş-ları ilə görüşəndə bacısı Məsmənin zəngin yaşamasından danışar və "dayı" olması ilə fəxrlə öyünərdi. Atası Vəli onun bütün pullarını əlindən aldığından,"dayı" olmaq münasibəti ilə tay-tuşlarına qonaqlıq verə bilməyən Qarta-lı,əksinə dostları təbrik etmiş və hətta ona qonaqlıq da ver-mişdilər.Dostlarının ona qonaqlıq verməsindən ağız dolu-su danışan Qartala, atası Vəli, heç nə olmamış kimi:-bax

övlad belə olmalıdır,qoy sənə qulluq etsinlər,mən həməşə demişəm,bu gün də deyirəm,Qartal həməşə yüksəklikdə olur və yuxarıdan aşağı baxır. Sən də belə olmalısan,mənim ağıllı oğlum.Düzdür Qartal istəyərdi ki,özünün cib xərcliyi olsun,ancaq atası onun cibinin qənimi idi.Hərdən Sənubərlə yol yoldaşı olanda,cibində az miqdarda qəpik quruş olduğundan,biclik işlədərək,-vay pul qabım restoranda qalıb,- deyərək,mürəkgəb vəziyyətdən çıxmağı bacarardı.Artıq Qartal belə qərara gəlmişdi ki,başqa bir iş tapıb,aldığı məvacibin müəyyən hissəsini atasından gizlədərək,sevgilisi və dostları arasında özünü pulsuzluğa görə pis hiss etməsin.Sənubərlə aralarında isti münasibətlər yarandığından,daha müəllimlərə yeməklər gətirmir və istədiyi vaxt onunla razılıq əsasında görüşə bilirdi.Özünə xudmani iş axtaran Qartal,çox axtarışdan sonra parfümeriya satışı ilə məşğul olan özəl firmaların birində yükləyici-satıcı işinə düzələ bilmişdi.Bu iş Qartalın ürəyincə idi.Birincisi məvacibi günəmuzd olduğundan atasına məvacibinin azlığından danışıb,müəyyən hissəsini cib xərcliyi üçün saxlaya bilirdi.İkincisi əlavə vaxt qazanıb sevgilisi və dostları ilə gün keçirirdi.Üçüncüsü bayramlarda güzəştli şəkildə parfümeriya alıb,heç olmasa Sənubərə hədiyyə verib özünü sevgili kimi xoşbəxt hiss edirdi.Sənubəri Qartala sevdirən əsas cəhət o idi ki, o evin tək qızı idi və gələcəkdə əl-ayağına dolaşan olmayacaqdı.Əsası da o idi ki,ata-anasının sayılıb-seçilən,imkanlı ailə ilə qohum ol-

maq arzusunu yerinə yetirirdi,alacağı qız imkanlı ailə idi. Sənubərlə ailə qursaydi,çox irəli gedə bilər və gələcək qaynatasının varidatından yararlanardı.Bir qızından başqa kimi var?-deyə düşünərdi.Var-dövləti özləriynən o biri dünyaya aparmayacaqlar ki?Qartal daha çox şey öyrənmək istəyirdi,ancaq Sənubər ailə sirrini danışmağı sevməzdi.Qartal sevgi məsələsində çox hiyləgər və maskalıydı.Atası Vəli demişkən, sevgi mənasız bir hissdir,əsası qızın qəlbini ələ alıb,valideyinlərinin varidatı hesabına varlanmaqdır.Tay- tuşları ilə söhbət edəndə,onlardan kiminsə sevgi bəlasına düçar olduğunu eşidəndə,gülərdi ki,adə nə sevgi,imkanlıdırsa bu başqa məsələ!-deyərdi.O dee,bacım Məsmə,Türkə ərə gedib qaymaq içərisində yaşayır.Sinəsini irəli verib,əli ilə döşünə döyərək,görəcəksiz Vəlibala Qartal necə hallı qızla evlənəcək!-deyərdi.

Axır vaxtlar Məsmənin əri Mehmet biznesini genişləndirdiyindən və çox vaxtını xarici ölkələrdə keçirtdiyindən,Məsmənin həyatını duymadan darıxdırıcı etmişdi.Aslanla, Mehmeti müqayisə edən Məsmə,Aslanın ona daha çox vaxt ayırdığını xəyalından keçirərək,özlüyündə Mehmeti qamçılayırdı.Aslan Mehmetdən yaşlı olsa da,Məsmənin həyatını şən keçirərdi.Mehmet Məsmə üçün hər cür gözəl şərait yaratmış olduğundan,heç bir fikirə düşməyərək,gündən-günə genişlənən biznesi ilə məşğul olurdu və əlbəətə çox sevdiyi işini atmaq belə istəməzdi. Evdə olan zamanları,imkan daxilində müxtəlif məclislərə qonaq ge-

dərdilər,bu zaman Məsmə ərinin etirazına baxmayaraq şit libaslar geyinərək, mərasimdə olan kişilərdə müəyyən qıcıq yaradar və özündən razı halda məclislərə yuxarıdan aşağıya baxanlar kimi baxaraq qürurlanardı.İndi Mehmet evdə çox az olduğundan,elə bilki Məsmənin qürurunu sındırmışdı. Ərinin, arabanı götür, şəhəri dolan,özünə nə istəyirsən al!-xahişini qəbul etmirdi.Onun üçün Mehmetin evdə olması,tez-tez müxtəlif məclislərə getməsi,kişilərin yanında qürrələnməsi daha vacib sayılırdı.Məsmənin bu fikirləri Mehmet üçün çox başadüşülməz idi.O artıq bir dəfə türk qızı ilə ailə qurmuşdu.Xanımdakı açıqlıq-saçıqlıq Mehmetin ürəyincə olmadığından boşanmışdı.Özünə ailəcanlı xanım axtaran Mehmetə,dostları azərbaycan qızlarının ərinə sədaqətli,ailəcanlı olduqlarını deməsi, Bakıda iş qurarkən,qarşılaşdığı Məsməni seçməyi zəruri etmişdi.Məsmənin ərə gedib boşanmasını,üstəlik Aslanla olan münasibətlərini bilsəydi,qətiyyən onunla ailə qurmazdı.Birdə ki,Mehmet haradan biləydi ki,eyş-işrətlə məşğul olan əxlaqsız və hiyləgər Məsmə,min hoqqalardan sonra bakirə xanım kimi ərə gəlmişdi.Bunu bir Məsmə bilirdi,birdə Aslan.Çox götür-qoydan sonra Türkiyənin ailə-məişət qanunlarını əxz edən,Məsmə ərindən boşanmaq fikrinə düşmüşdü.Onsuzda çox az bir müddətdə evdə olan Mehmet,Məsmə üçün o qədər də maraqlı deyildi.Ərinin var-dövlətindən müəyyən qədər ona çatacaqdı,sərbəst olub istədiyinə nail olacaqdı və əsası əl-ayağına dolaşan

olmayacaqdı.Beləcə asudə yaşamağın arzusunda olan Məsmə,ərinin evdə olmamasından istifadə edərək,məhkəməyə müraciət edərək,onunla boşanmaq məsələsini qaldırmışdı.Məhkəmədən boşanmaq haqqında çağırışı alan Mehmet,artıq qəti qərar qəbul edən Məsməni,nə qədər çalışsada fikrindən döndərə bilməmişdi.Öz sözündən dönməyən Məsmə son nəticədə boşanmağa nail olmuşdu.Məsmə özünə ayrıca mülk almış,uşağa dayə tutmuş və öz biznesi olsun deyə, kiçicik bir un məmulatları dükanı açmağa müvəffəq olmuşdu.İndi Məsmə tam sərbəst idi,əl-ayağına dolaşan olmadığından müxtəlif mərasimlərə gedər,yeri gələndə cavan oğlanları qamaşdırıcı yaşayışı ilə yoldan edərdi.Bəli Məsmə Aslan məktəbini keçmişdi və əldə etdiyi azadlığı qətiyyən əldən verməyəcəydi.İndiki yaşamını valideyinlərinə danışan Məsmə,xoşbəxt həyat keçirdiyini bildirərək,onların boşanaraq yaşamasına razı qalmalarına səbəb olmuşdu.Anası Aytan daxilən qızına haqq qazandırsada,zahirən tanış-bilişin bunu bilməsini istəməzdi.Vəlini isə qızının iki dəfə ərə gedib boşanması çaş-baş saldığından, bəs biz sənin bu boşanmağına nə ad verək,soruşanlara nə deyək?-demiş olsa da, qızından elə bir cavab almışdı ki,susmağa məcbur olmuşdu.Məsmə atasına:- biz boşanmırıq ay kişi, bunu qulağında sırğa et,biz boşuyuruq! Aytan isə Məsmənin cavabı ilə razılaşaraq,dərindən bir köks ötürüb,taki sənin o zay Bəsdi bacın da,boşanmayaydı,boşayaydı,-deyə fikrini bildirmiş-

di.Məsmənin bu boşanma hərəkətindən sonra,ər-arvad belə qərara gəldilər ki,Bəsdinin yanına gedib onun həyatı ilə bir maraqlansınlar.

Bir neçə vaxtdan sonra, Bəsdi qızlarının əvvəlki,yurduna gələn Aytan və Vəli,daxmanın boş və dağınıq olduğunu görüb,qızlarının ailəvi yataqxanaya köçdüklərini öyrənmiş oldular.Ağamusa kişi,yataqxananın birinci mərtəbəsində,Mahmud və Bəsdi ailəs isə ikinci mərtəbədə məskunlaşmışdılar.Soraqlaşaraq yataqxananı tapan Vəli və Aytan,Ağamusa kişini və Müşgülnaz xanımı saymadan birbaşa Bəsdi gilin evinə salamsız-kalamsız,ayaqqabılarını çıxartmadan daxil olmuşdular.Ağamusa kişi öz arvadı ilə,öz otaqlarına çəkilməli olmuşdular.Abır- həya edən bu yaşlılar,hələ daxmada olarkən,Bəsdinin valideyinlərinin həqarətlərinin şahidi olmuşdular.Otağa daxil olan Vəli və Aytan cütlüyü onları xoş niyyətlə salamlayan Mahmudun salamını,onu kənara itələməklə rədd etmişdilər.Qızları Bəsdi ilə soyuqqanlılıqla görüşən Aytan və Vəli,Bəsdinin yanında iki alma kimi bir-birinə oxşayan oğlan uşaqlarını görüb,təccüblənərək:-bu uşaqlar səninkidir?-deyə soruşmuşdular.Qızından bəli, cavabını alan Vəli,hirsindən qızına bozararaq,sən lap qancıq itdən betər olmusan ki!Neyniyirsən bu uşaqları,qaçqının bir uşağı olar,yoxsa sənin bu dilənçi həyatına iki uşaq nə yaraşır?!Aytan isə ərinin sözünə qüvvət verərək,atan düz deyir,əynində yox,başında yox,evdə də bir həsir,bir Məmmədnəsir.Uşaqlar öyrəşmə-

dikləri səs-küydən ağlamağa başlayanda,Mahmud uşaqları qucağına alıb,anasıgilə aparmalı olmuşdu.Mahmudun yoxluğundan istifadə edən Aytan,niyə sən bacın Məsməyə oxşamadın,o dee Türkiyədə milyader kimi yaşayır.Əri xoşuna gəlmədi,boşadi,biznesmen ərindən yaxşı da pul qopartdı,qızı,mülkü,dükanı,nəyi desən varıdır.Bəs sənin nəyin var,ay dilənçi qaçqın?!Valideyinlərinin təhqirlərinə güclə dözən,Bəsdi gəldiyi ailədə xoşxəxt yaşadığını vurğuladı.Aytanın aldadıcı və hiyləgər diktəsi ilə bacısı Məsmə haqqında bilgilərə malik olan Bəsdi,qardaşı Qartalı soruşdu. Qızı Bəsdinin cavabından xoşlanmayan Vəli,sən öz hayına qal,Qartalla işin olmasın!O bizim sözümüzlə durub oturacaq,daha səninki kimi özbaşına olmayacaq.Vəli və Aytan xeyli danışıb ürəklərini boşaltdıqdan sonra ,Bəsdinin ipə-sapa yatan qız olmadığını görüb,getməyə qərar verdilər.Vəli əlini cibinə salıb,bir yüzlük çıxardaraq,al bu pulu,yetimlərinə bir şey alarsan,- dedi.Bəsdi atasının yetimlər sözünü bir təhər udub,yüz manatı geri qaytararaq,valideyinlərindən ancaq,xoş münasibətlər umduğunu dilə gətirdi.Əslində,Bəsdi aciz qadın deyildi,sadəcə olaraq,Mahmuda və valideyinlərinə olan hörmət və məhəbbət onu susmağa məcbur etmişdi.

Qartal artıq iyirmi dörd yaşına çatmışdı.Atası Vəli kişiyə tez-tez çatdırırdıki,bəs tay- tuşları evlənir,o isə pul qazana-qazana hələ də evlənməyib.Qartalın qazanmaq söhbətindən Vəli elə coşurdu ki,gəl görəsən.Əyə,köpək

oğlu, nə pul qazanmısan ki,mən səni evləndirim?!Bir min manat qoy ortalığa görüm ki,kişi kimi doğrudanda pul qazanmısan! Onsuzda uşaqlıqdan böyük-kiçik münasibətlərini görməyən Qartal atasının üzünə bozardı ki, o de Nəriman heç yerdə işləməyə-işləməyə atası toy edib evləndirdi,indi evli də olsa heç yerdə iş tapıb işləyə bilmir.Bununla bərabər bizdən xeyli yaxşı dolanırlar.Neçə dəfə olub ki,mənim çay pulumu Nəriman verib.Atası Vəli dözməyib,rişxəndlə oğluna bildirdi ki,bəs mən sənin adını nəyə görə Qartal qoymuşam!? Deyəsən adını doğrulda bilməyib yavaş-yavaş sərçəyə çevrilirsən!? Birdə ki,o təriflədiyin Nərimanın atası polis ışləyir,gecə-gündüz rüşvət alır,aldığı rüşvətlə arvad-uşağına,indi də gəlininə alt tuman köynəyi alır.Sən niyə bunlardan danışmırsan,yaxşı dolanmaqlarından danışırsan? Əgər heylə "delovoydursa"oğluna da iş tapsın də.Atasının cavabları qarşısında sakit dayana bilməyən Qartal bildirdi ki,Hərimanın atası onu polis düzəltmək istəyir,ancaq Nəriman razılıq vermir.Çünki,biz tay-tuşlar arasında indi polis işləmək bir oqədər modda deyil,hamı biznesmen olmaq istəyir.Vəli də dözməyib,vicdanlı polis olub xaiqın asayişini qorumaq daha şərəflidir,nəinki vicdanını pula satıb "işverən"polis olmaq!Odur ki indiki cavanlar daha çox alverçiliyə qaçırlar,daha Nərimanın atası kimi şərəfsiz olmaq istəmirlər.Ata-bala deyişmələrinə tab gətirməyən Aytan,Vəliyə göz ağartısı göstərib,cumdu üstünə ki,ayıbdır qonşulardan, Nərimanın atası

eşidər,"işverının"biridir,səni türmələrdə çürüdər. Sənə ki,sataşmır,nə edir özü bilər,guya sən düzəməlli adamsa-n?!Həkiminlə birləşib xəstələrə yalan diaqnoz qoyaraq, yazıqları sümüklərinə qədər soyursunuz! Vəli cavabsız qalandı məgər,çöndü nə çöndü,yox sən düzəməllisən,ay corab oğrusu,az qalıb bir yerində corab ağacı bitsin.Mübahisəli danışıq ac bağarsaq kimi uzanmasın deyə,Aytan üzünü Vəliyə tutub zarafatla bildirdi ki,yaxşı kişi deyəsən biz mətləbdən çox uzaqlaşdıq axı.Uşağı evləndirmək lazımdır,imana gəl uşağa bir "hallısın"tapaq evləndirək.Vallah yaş ötür,gəlin olsa bizə də qulluq edər.O de,ayağımı yara götürüb,daha pedikür eləmirlər ki,get ayağını müalicə et sonra gəl.Heç bilmirəm bu andıra qalmış "göbələk" hardan gəldi məni tapdı,dırnaqlarım bir-bir çürüyüb tökülür.Qonşumz Solmaz da deyir ki,ay bacı müraciət eləmədiyim həkim qalmayıb,dərmanların heç bir faydası yoxdur."Göbələk" adını eşidən Vəlinin elə giciyi tutdu ki,ayaq barmaqlarını qaşınma tutdu.Hələ tənbəllikdən ayaq barmaqlarını aylarla tutmadığından,uzanan dırnaqları əyilib ətinə girdiyindən indi də əziyyətini çəkirdi.Qaldı ki,arvadı Aytanın onun dırnağını tutmağına,çətin məsələydi.Məgər Aytana demək olardımı ki,dırnağımı tut,ağzın açacağdı gəl görəsən.Öz-özünə düşündü ki,bəlkə gələcək gəlinimiz insaflı olub,dırnaqlarımı tutmuş olacaq. Düşüncələrdən qəfil ayılmış kimi,qərara gəldi ki,qız axtarıb tapmaq lazımdır.Qartalı evləndirək,özü də tezliklə,-dedi.

Beləcə axşamların birində,ata-ana və oğul evdə olarkən,bizneslə məşğul olan qonşu İsfəndiyarın qızını tərifləyib,Qartalın evlənməsini müzakirəyə qoydular.Sənubərə olan “sevgisini”validеyinlərindən gizli saxlayan Qartal, gözləmədiyi halda ata-anasının evlənmək üçün verdikləri qız təklifinə qarşı çıxaraq,mənə o qız lazım deyil,onun çimdik götürən yeri qalmayıb,deyə bildirmiş oldu.Danışığının sərhədini itirən Qartalın,əyləcini basan Vəli,görmədiyin söhbəti ağzına alma!-deyə oğlunun üstünə getdi.Dünən Məmmədin oğlunun toyuna getmişdim.Məclisdə bizimlə yanaşı oturanın birisi,danışırdı ki,hayıf Məmmədin oğluna ki,belə qız alır,guya qız yüz qapını döymüşlərdən betərdi.Qız tərəfini yaxşı tanıyanlardan biri,yaramaz mərdimazarı böhtan danışdığına görə biabır etdi,o da suyu süzülə-süzülə məclisi tərk etmiş oldu.İndi o masa arxasında oturub babal yuyan köpəkoğlunun sözlərinə inanmaq lazım idimi?Əgər belənçi nahaqdan şər,böhtan atanlara inansan gərək evlənməyəsən.Atasının dediklərini qəbul etməyən Qartal,yalan yerə demirlər ki,od olmasa alov olmaz.Oğluna çəpəki baxan Vəli,oğlunu düz yola gətirmək üçün dedi ki,ay bala baxır bu odu kim yandırır,necə yandırır və nə üçün yandırır.İlk dəfə olaraq atasından haqlı cavab alan Qartal susmağa üstünlük verərək,sonra utancaq şəkildə sevgilisi olduğunu valideyinlərinə bildirdi.Maşallah deyərək,gülümsəyən Vəli,torbada pişik var imiş,bizimsə xəbərimiz yox! Ədə bala bir de gö-

rüm sən nə danışırsan,dediklərin düzdürmü,kimlərdəndir,imkanlıdırlarmı!?Qartal,ayağa qalxıb əlini sinəsinə döyərək,nahaqdan mənim adımı Qartal qoymamısan ki,qız müəllimədir,atası isə iş adamıdır.Ata-ana nə qədər qurdalasalar da,daha nə bilirsən,ancaq Qartal yeni bir söz deyə bilməmişdi.Əslində,Qartal istəyərdi ki,çox bilgi alsın sevgilisindən,lakin ev sirrini dağıtmayan Sənubər buna imkan yaratmamışdı.Vəli və Aytan qızın "hall-varlı"olduqlarını eşidib çox sevincli oldular və tələm –tələsik Qartaldan qızın adını,yaşadığı ünvanı öyrənib gizli fəaliyyətə keçdilər.Müxtəlif adamlardan öyrəndilər ki,qız həqiqətən müəllimədir,atası Nihadın mağazaları var və Rusiyadan köçüb gəlmədilər.Hə,birdə Aytan müəyyən etmişdi ki,qızın anası miliyyətcə türkməndir.Bütün bunları kəşfiyyatçı Aytandan eşidən Vəli,ürəyində Qartala haqq qazandıraraq,halaldır dədənin çörəyi sənə,- deyə bilmişdi.Sənubərin də,Qartalı sevdiyini dəqiqləşdirən Vəli və Aytan elçilik üçün hazırlaşmağa başladılar.Qartal isə Sənubərin razılığını alıb,valideyinlərinin elçi gələcəklərini bildirmiş oldu.Öz sevgisində həddindən artıq səmimi olan Sənubər,Qartala olan razılığını onu qucaqlayıb öpməklə bildirmişdi.Artıq elçiliyə hazırlaşan Vəli və Aytan qızları Məsmə və qonşulardan-qohumlardan ayıbdır,- deyə Bəsdinin əri ilə bərabər zamanında elçiliyə gəlmələrini bildirərək, razılıqlarını əldə etmişdilər.Məsmənin elçilikdə içtirak etməyi çox vacib idi.Əvvəla qız Türkiyə kimi bir ölkədə yaşayırdı,im-

kanlı idi,onun elçilikdə iştirakı hava-su kimi lazım idi.Məsmənin iştirakı Vəli-Aytan ailəsinin sayılıb seçilənlərdən olduğunu sübut edən yeganə amil idi.Qaldı ki,Bəsdi, Aytan onu süzgəcdən özü bildiyi kimi keçirəcəyinə əmin idi.Əslində Bəsdi gözləmədiyi halda qardaşının elçiliyinə çağırıldığına görə çox şad olmuşdu.Ancaq valideyinlərinin özlərini necə aparmaları barədə olan mənasız məsləhətləri onu bərk sıxmışdı.Özlüyündə belə qərara gəlmişdi ki,ailəsinin təhqir olunmasına imkan verməyəcək.Bir neçə gündən sonra elçiliyə getmək lazım olduğundan Aytan Məsmə ilə əlaqə saxlayıb Türkiyə naz- nemətlərindən və zəri-zibalarından gətirməyi və özünü varlı saydıqları təzə qohumlararından daha yüksək tutmağı tələb etdi.Bəsdiyə gəldikdə isə,peyin iyi verənlərdən və bir həsir-Məmmədnəsir olanlardan, Aytanın təbiri ilə desək nə ummaq olardı,taki abırlı gələydilər.Odur ki,Bəsdiynən telefonla danışanda, özün yaxşı geyin,ərini də geyindir.Heç olmasa,Avropadan gətirilən köhnə paltarların isbatlısından alıb geyinin,abıra düşün.Əgər qızılın-mızılın,brilyantın yoxdursa,gör kimlərdə varsa bir-iki günlüyə al, sonra qaytararsan,belə imkan olmasa lombarddı, nədi orada kirayə verirlər,ordan götürə bilərsiniz.Bacarsan ərinə bir yekə üzük götür,əliynən danışanda görənlərin gözü qamaşsın.Ərin boylu-buxunludur,həm də müəllimdir,qara gözlükdən gözünə vurub,ədəb-ərkanla danışmağı bacarsın,yoxsa kətçi-kütçülər kimi danışıb bizi biabır etmə-

sin.Sonra deyəcəklər bunların "çuşka"kürəkənləri var,qızımızı vermirik,onda bax özündən küs.Bir də ki,bilməzsən o tövlə süpürüb,peyin iyi verən qaynatan nökərmusanı,üzünü görmədiyim quşgülnazdı,nədi o qaynananı özünüzlə bərabər gətirərsiniz,başınızda çaydanı sındıraram!Bütün bunları sənə ona görə qandırıram ki,biləsən ki,təzə qohumlar Rusiyada yaşayıb gəlmişlərdir,çox imkanlıdırlar,gərək bizi özlərindən əskik kimi başa düşməsinlər.Anası Aytanı çox yaxşı tanıyan Bəsdi əlbəttə ki,susmağa üstünlük verməyi özünə məsləhət bilmişdi.

Payız fəsli təzəcə qədəm qoymuşdu.Ağacların yam-yaşıl yarpaqları,qızılı rəngə boyanmağa başlamışdı.Belə bir vaxtda qızı Sənubər üçün gələcək elçiləri qarşılamağa hazırlaşan Nihad və yoldaşı Sənəm həyətdə elçi sorağı verən maşınların  siqnal səslərini eşidib,gələcək qohumların pişvazına çıxdılar.Gələnlər parıltılı paltarları,göz qamaşdıran qızıl və ziynət əşyalarını büruzə etdirərək,əda ilə səsli-küylü olaraq otağa daxil oldular.Elçilər yerbəyer olduqdan sonra,söhbətlər başlandı.Vəli gəlmə məqsədlərini aydin etdikdən sonra ,dil boğaza qoymayan ana-bala,yəni Aytan və Məsmə zər-zibalı əllərini oynadaraq,özlərinin kübar nəslindən olduqlarını,hər adama baş əymədiklərini danışır və özləri də bilmədən,ağsaqqal insanlardan həyat tərbiyəsi almış Nihad və Sənəmin gözlərindən düşməyə başlayırdılar.Qadınların danışığına qüvvət verən,bir kəlmə cümlə qurub danışmağı bacarmayan

Vəli,ürəyində saxladığı mətləbə keçərək,tez-tez toylara getdiyini,oğul evləndirənlərə qız tərəfinin var-dövlət,hətta bahalı maşın bağışladıqlarını bildirərək,qarşı tərəfin fikirlərini öyrənmək istəyirdi.Nihad dünyagörmüş bir insan olduğundan və istər Rusiyada yaşayarkən,istərsədə Azərbaycanda bir çox məclislərdə iştirak etdiyindən,gələcək qudanın vurduğu eyhamı anlamış və gələn elçilərin Sənubərlə maraqlanmadığını,sanki var-dövlət alverinə gəldiklərini hiss etdiyindən mütəəssir olmuşdu.Əri- Nihadı özünün ağsaqqalı hesab edən, Sənəm isə,susmağa üstünlük vermişdi.Bir xeyli sükutdan sonra,üzrxahlıq edib digər otağa keçən Nihad qızı Sənubərlə xeyli söhbət edib,gələnlərin heç də ürəkaçan adam olmadıqlarını qızına bildirmişdi. Əslində Vəli və Aytan elədikləri oyunların fərqindəydilər və çox rahat idilər,çünki övladlarının artistlik qabiliyyətinə bələd idilər.Qartalın dediyinə görə Sənubərin ürəyini elə ələ almışdı ki,əlinin ovcunda olan kimi,aç desəm açılacaq,bağlan desəm bağlanacaq.Bəli,atası Vəlinin öyrətdikləri əbəs getməmişdi.. Atası ona həməşə deyərdi,elə rola gir ki,qız səndən başqasını sevməyi ağlına belə gətirməsin,ancaq var-dövlətiynən nəfəs al. Məhz ona görə də,Vəli-Aytan cütlüyü, sevimli qızları Məsmə ilə birlikdə çox yuxarıdan gəlib,imkanlı Nihaddan nə isə qopartmaq istəyir və söhbətlərini “minnətli”edirdilər.Bəli gələn elçilərdən Nihadın gözü su içməsə də,sevimli və yeganə qızını öz tutduğundandann döndərə bilməmişdi.Sel kimi axan

göz yaşlarını yanağında muncuğa çevirən Sənubər atasına yalvarışla Qartalı dəlicəsinə sevdiyini,ondan başqa heç kimlə ailə qurmayacağını bildirmiş və son sözü bu olmuşdu:-Ya Qartal,yada heç kim! Sevimli qızının gedəcəyi ailədə əzablar çəkəcəyini hiss edən və qəhərdən boğazı kilidlənmiş olan Nihad əlacsız qalıb,allaha pənah deyərək,məclisə qayıtmış,xeyli sükutdan sonra "hərisini"bildirmiş və "şirinçay"içməyə məcbur olmuşdu.Elçilik məclisində iştirak edən Mahmud qaynatası və qaynanasının,o cümlədən Bəsdinin bacısı Məsmənin şit və mənasız hərəkətlərinin şahidi olmuş,daxilən gələcək gəlinin talehinə acımışdı.Mahmud bəxtinə düşən Bəsdinin bu ailədən xeyli fərqləndiyini sanki kəşf etmiş,yaradanımıza bir daha şükürlər etmişdi.Düzdür hərdən Məsmə Bəsdini dümsükləyib,öz auralarına qatmağa çalışsada,Mahmudun ciddi baxışları onu bu məsxərəli auradan uzaqlaşdırmışdı. Elçilik mərasimi başa çatdıqdan sonra,Məsmə anası Aytanın him-cimi ilə bacısı Bəsdigilə qonaq getmiş,Vəli-Aytan cütlüyü isə evlərinə yola düşmüşdülər.Evlərinə qayıdan Vəli və Aytan sevindiklərindən çırtma vurub oynamağa başladılar.Valideyinlərinin şad-xürrəm oynadıqlarını görən Qartal özünü saxlaya bilməyib onlara qoşularaq oynamağa başlamışdı.Həyatında ilk dəfə olaraq oynayan oğlunu qucaqlayıb üzündən öpən Vəli ona müraciətlə:-halal olsun sənə, yaxşı yerdən yapışmısan,çalış qızı müxtəlif yollarla əlində saxla,qızın valideyinlərinin yanında onun ruhuna

oxşa,qoy bilsinlər ki,sən həqiqətən qızlarını çox sevirsən,ancaq əsas var- dövlətdir.Bu işdə anan daha səriştəlidir,vaxtı gələndə oda öz işini görəcək.

Yataqxana şəraitində yaşayan Bəsdinin güzəranı Məsməni dəli etmişdi. Otaqda vur-tut iki çarpayı,bir divan və masa var idi.Uşaqlar babasıgilin evində olduğundan,Mahmud da,bir şey lazım olduğu təqdirdə mənə deyərsən,-deyə Bəsdiyə bildirib Məsmə ilə xudahafisləşərək,atası evinə,uşaqlarının yanına getmiş oldu. Heç kimin olmadığı otaqda dil boğaza qoymayan Məsmə bacısını, bu axmaq və mənasız yaşayışdan uzaq olmağa,özünü düşünməyə çağırmışdı.Mahmudu və uşaqlarını sevən Bəsdi bacısının baş gicəlləndirən gözəl yaşayışını qulaqardına vurmaq istəsə də,Məsmə ondan əl çəkmir və onu Türkiyəyə dəvət edirdi.Uşaqlarının anasız necə qalacaqlarını dilinə gətirən Bəsdini, Məsmə yerinə oturdurdu:-ay axmaq,uşaqları kim əkib oda saxlasın!Nə uşaq-muşaq salmısan?Mənim bir qızım var,heç üzünü də görmürəm,gah atası baxır,gah dayə saxlayır.Mən iş adamıyam,ağa nəzərəm belə gəzərəm.Kefim necə istəyir elə də yaşayıram.Məsmə hiss edirdi ki,Bəsdinin deyəsən saqqızını oğurlaya bilib.Xeyli sükutdan sonra,Bəsdi Tükiyəyə necə gedə biləcəyini bacısından soruşdu. Məsmə gülərək,bax belə,daşdəmirsən,yumşalısan-yumşalı.Ay qız,yerli həkimlərdən birinin cibişdanına pul qoy,oda sənə müəyyən bir xəstəlik diaqnozu qoyacaq və müalicənin Türkiyədə olduğunu deyə-

cək,sonra da sənə göndəriş yazacaq.Qalanları ilə işin olmasın,babalı bu Məsmənin boynuna.Beləcə xeyli söhbətdən sonra onları yuxu apardı.Səhəri qoyun-quzu mələrtisi Məsməni diksindirib oyatdı.Bəsdi otaqda yox idi.Pəncərədən boylanıb Bəsdinin inək sağdığını görən Məsmə,bacısının kəndli həyatına acı təbəssüm göstərərək,ay səni külbaş bacı-demiş oldu.Səhər yeməyinə qalmayan,daha doğrusu bacısının pinti yeməklərini bəyənməyən Məsmə,taksi çağırtdıraraq,Bəsdiyə düşünülmüş xəstəlik məsələsinin həlli üçün, üç yüz dollar xərclik verib,Bakıya qayıtmış oldu.Bakıya qayıdıb Qartalı təbrik edən Məsmə,anasına Bəsdinin kasıb həyatından,xoşagəlməz yaşayışından danışmış və Qartala müraciətlə:- əgər istəsəniz qonaq olaraq Türkiyəyə gəlib xoş günlər keçirə bilərsiniz.Mən Məsmə olaraq sizə qulluq edə bilərəm!- demişdi.Məsmənin müraciətinə cavab olaraq,Vəli Qartalı heç yerə buraxmayacağını və yaşadıqları evin Qartala,daha doğrusu gələcək nəvələrinə qalacağını bildirmişdi.Vəlinin ikinci bir dərdi isə,Məkkəyə gedib Hacı olmaq idi. Əslində məclislərdə "hacıların" hörmətini görmüşdü.Özünün isə elə bir hörmətli vəzifəsi yox idi.Sanitar –feldşer kimi onu heç sayan olmurdu.O isə,Aytan deməli sayılıb-seçilənlərdən olmaq istəyirdi.Sayılıb-seçilənlər isə hacılar idi.Həm də ki,Qartalın toyunda o, hacı-deyə çağrılmalı idi.Dodaqaltı gülümsəyən Vəli,mənim nəyim kəmdi Nihad biznesmendən,-deyə qürurlandı və

birdən keyfi tamam dəyişildi.Həccə getmək üçün gərək pulum olsun axı,deyə düşünmüş oldu.

Artıq sevgilisi Sənubərlə nişanlandıqdan sonra, Qartal tez-tez təzə qohumlarının qapısını döyməyə başlamış,Sənubəri müşaiyyət etməyi,onun qeydinə qalmağı özünə borc bilmiş və bununlada gələcək qaynata və qaynananın hörmət və məhəbbətini qaqzanmağa başlamışdı.Gələcək kürəkənlərinin maskalanmış artist oyunlarını Nihad çox gözəl başa düşürdü.Nihadin bu artist cavan oğlana qulaq asmaqdan başqa çarəsi yox idi.Saman altından məharətlə su yeritməyi bacaran bu cavan artist,onun yeganə qızının, səmimi sevən ürəyini ələ ala bilmişdi.Qış vaxtı tez qaranlıq düşdüyündən,Sənubərin yanından əskik olmayan Qartal,ürək yanğısı ilə sanki həyəcan təbili çalırmış kimi, qaynatası Nahidə:-belə qaranlıq havada qız xeylağını tək buraxmağı vicdanıma sığışdıra bilmirəm,vallahi avtomobilim olsaydı heç Sənubəri piyada getməyə belə qoymazdım deməsi,Nihadın yadına,gələcək qudası Vəli kişinin, bahalı maşın hədiyyəsini salmış oldu.Əlbəətə Nihadın bir var döləti var idi.Oda onun bircə qızı idi.Saf və təmiz bir insan üçün hər şeydən keçmək olardı.İndiki halda isə,ürəyi sıxılan Nihadın qəhəri boğazına dirəndiyindən,sakitcə otağı tərk etməyə məcbur olmuşdu.Sənəmin bişirdiyi ləzzətli yeməkləri iştahla yeyib,dilini ağzinda saxlaya bilməyən Qartal, qaynatasının hiss və həyəcanını, aldığı tərbiyəyə uyğun olaraq dərk edə bilməzdi.Belə an-

larda Sənəm doluxsunsada,bunu heç kimə büruzə etdirməzdi.

Məsmənin yoldan çıxartdığı Bəsdi isə,əri Mahmudun narazılığına baxmayaraq, Məsmə tərəfindən ona verilmiş pulla, müalicə üçün Türkiyə xəstəxanalarına müraciət etmək göndərişi əldə edib,bacısının köməyi ilə Türkiyəyə getməli olmuşdu.Mahmud Bəsdinin Türkiyəyə getməsində Məsmənin əsas rolu olduğunu bildiyindən,onun bu ailəni dağıtmaq məqsədini anlamışdı.Türkiyəyə on günlüyə təşrif aparan Bəsdinin gələcəyi günü səbirsizliklə gözləyən Mahmud həyat yoldaşını yola gətirəcəyinə əmin idi,taki bu on gündə baş ağrısı olacaq gözəgörünməz,başadüşülməz nə isə baş verməyəydi.

Həyat öz aramsız yolu ilə davam edirdi.Sanki bütün məqsədlərinə çatmış Vəli,hacı olmaq məqsədinə nail olmaq üçün, Aytanını qucaqlayaraq,Məkkəyə getmək fikrini ona əyan etdi.Qəfil ilan çalmışlar kimi yerindən dik atılan Aytan ərinə:-mən səhv eşitmədim ki,sən- Vəli hacı olmaq üçün Məkkəyə getmək istəyirsən?!Təzəlikdə çəkilmiş mırıq dişini əli ilə qapayaraq,qəfil şaqqanaq çəkən Aytan:-yaxşı deyiblər,namaz qıla-qıla yıxdın evimi,indidə başlamısan həccə getməyə.Sənin pulun hardandır ay bədbəxt!Vəli dili topuq vura-vura yaxın dostundan borc pul götürüb ödəniş etdiyini bildirdi.Aytan gül ağzını açdı nə açdı:-ay əbləh, hacı olmaq üçün borc pulla Məkkəyə getmək olmaz!Halal pul qazanmırsan,yüz hoqqadan çıxır-

san,daha nə bilim nələr,nələr edirsən! Yadında saxla,hər məkkəyə gedən dəvədən hacı olmaz!Birdə ki,ay kişi bu abırnan sənin Məkkədə nə işin var?Hə,başa düşdüm məkkəyə gedib şeytana daş atıb,özün hacı əvəzinə şeytan olub,sonra bizim olub qalan abırımızı gələndən sonra aparmaq istəyirsən?O de Əzəmət bacının əri,qəzaya düşdü öldü.Adı da bir təhər idi ye,mətindi,mətiydi nəydi,min fırıldaqdan çıxırdı,hacı olmaq eşqinə düşdü,Məkkəyə çatmamış canin tapşırdı.Bax haramların Məkkəyə həccə getməyinin axırı belənçi olur.Guya həccə gedənlərin hamısı hacı olur,özü də sənin kimiləri.Əvvəlcə bəs deyincə pul qazan,beş-on yetimə əl uzat,imkanın genişdirsə həccə get!-nə olar ki?Daha sənin kimi,ailəsini saxlaya bilməyənin, borc almaqla həccə getməyi nahaqdır,çox nahaqdır!Tarımlanmış əsəblərini güclə sakitləşdirən,Vəli səsinin tonunu qaldıraraq,Aytana:-ağəz bir dayan görüm ey,nə səsini başına salmısan!O sən deyildinmi,sayılıb seçilənlərdən olmağı qarşımıza məqsəd qoymuşdun?! İndi sayılıb-seçilənlər kimlərdir? Əlbəətə ki,hacılar.Hörmətdə,izzətdə ancaq, hacı olmaqdadır!Bir neçə vaxtdan sonra oğlumuzun toyu olacaq,məgər sən istəmirsən ki,toyda biznesmen Nihadın yanında Hacı Vəli adı eşidilsin. Sən istəmirsən ki,hacı adı gələndə dostlarımız sevinsin,düşmənlərimiz partlasınlar!Qaldı ki,kim nə bilir mən necə qazanıram,hansı hoqqalardan çıxıram,səndən başqa heç kim.

Bəli,sayılıb seçilənlərdən olmaq həvəsi,Aytanı yumşaltmış və daxilən Vəliyə haqq qazandırmışdı.Ancaq Aytanı maraqlandıran əsas məsələ alınan borcun necə geri qaytarılacağı idi.Qabaqdan da oğlunun toyu yaxınlaşırdı. Aytanın,pul olmasa necə toyu yola verəcəyik?-sualı Vəlini karıxdırdı.Xeyli sükutdan sonra,itirilmiş qızılları tapan axtarışçı kimi gülərək,sən nəyin dərdini çəkirsən ey,gorbagor olmuşun qızı?!Restorona xərci toyun axırında verirlər.Birinci o qədər toya getmişik ki,gəlib borcumuzu qaytararlar, yəqin.İkinci biz kimlə qohum oluruq?Biznesmen Nihadla!Məgər bu köpəkoğlu başa düşməyəcək ki, ac qalan onun qızı olacaq!Pul yetərincə yığılmayacaq him-cim, pullu Nihada ödətdirəcəyik.Daha nə sözün var ay,mənim heç nədən əsəbləşən şeytanım.Gələcək hacının nöqtəbənöqtə söylədikləri Aytanı məmnun etmişdi.

Vəlinin həccə getməsindən istifadə edən Aytan,pişiyin başının vaxtında kəsməyin lazım olduğunu oğlu Qartala bildirib,Sənubərin Qartala olan səmimi sevgisindən sui-istifadə edərək,gələcək gəlini “yumşalısan-yumşalı” etmək üçün plan qurdular.Planın ssenarisini belə yazdılar ki,guya gələcək gəlin tez-tez nişanlısını müxtəlif mərasimlərə aparmaqla,onu işdən edir və işdən qovula bilər.Günlərin birində Sənəmin evdə olmamağından istifadə edən Aytan,Nihadın ona irad tutmayacağını bildiyindən gələcək qudasıgilə təşrif gətirmiş oldu.İçəri daxil olan Aytan, guya abır edirmiş kimi,sükuta yer verib,sonra Sənubərin

üstünə getmiş oldu.Ay qızım ,səndən heş gözləməzdim,bu nə hərəkətdir edirsən?!Məgər gündə mərasimə getmək olar?Bütün bu mərasimlərə görə, Qartal işinı yoluna qoya bilmir,az qala uşağı işdən qovmaq istəyirlər.Axı sən gəlinsən,ağır otur batman gəl.Nihad qardaş əlləşir-vuruşur kimin üçün,əlbəttə sənin üçün.Biraz özünü yığ,belə olmaz axı!Göz yaşlarını saxlaya bilməyən Sənubər,əslində Qartalın xahişini nəzərə alaraq,mərasimlərə getmişdi.İndi heç nahaqdan tənqid olunurdu,özü də dünyalar qədər sevdiyi atasının gözü qabağında.Böyük-kiçik,qadın-kişi bilməyən Aytanın mənasız hərəkətlərinə təccüb qalan Nihad,heç bir fikir bildirməyərək,qızı ilə bu barədə söhbət edəcəyini qeyd edərək,çağrılmamış qonağı yola salmış oldu.Sənubər tərəfindən məlumatlandırılan Qartal,heç nədən xəbəri olmadığını ona bildirmiş və dərinə getməməyi xahiş etmişdi.Aytanın bu hərəkətindən sonra,Nihad qızı Sənubərin üstünə getmiş və başadüşülməz bu izdivacdan uzaq olmağı tələb etmişdi.Sənubər isə,Qartala olan məhəbbətindən çönməyəcəyini bəyan etmişdi.Hələ ailə qurmamışdan,nahaqdan göz yaşlarını axıtmış Sənubərin,gələcək həyatda bəlalar çəkəcəyini Nihad anlamışdı.Evdə hər söhbət zamanı Nihad qızının bu izdivacina Sənəmlə bərabər ,qarşı çıxsalar da,ofsunlanmış Sənubəri yolundan döndərə bilməmişdilər.

On günün tamamında,bacısı Məsmənin hədiyyə etdiyi parıltılı paltarla əda ilə evinə qayıdan Bəsdini,düz yo-

la çəkmək üçün Mahmud çox çalışsada,Məsmənin qısa müddət ərzində, xüsusi tərbiyəsini almış həyat yoldaşının dəhşət dəyişildiyini hiss etmiş və var-dövlət eşqinin insanı bu qədər dəyişdirəcəyinə mat-məətəl qalmışdı.Bəsdinin dəyişilməyərək,ailəsinin dözülməz vəziyyətə salınacağını yəqinləşdirən Mahmud, çarəsizlikdən sərt addım ataraq, boşanacaqları haqqında məhkəməyə müraciət edəcəyini bildirdi.Mahmudun ciddi və gözlənilmədən atacağı addım Bəsdini bərk qorxuya salmışdı.Məsmədən haray olmayacaqdı,- deyə yeganə ümid yeri valideyinlərini bilib onlara müraciət edərək,Mahmudu boşanmaq fikrindən uzaqlaşdırmaq istəmişdi.Həcc ziyarətindən gəlib hacı olması ilə qürurlanan Vəli, Aytanla bərabər qızları Bəsdinin hüzuruna gəlmişdilər.Mahmudun işdə olduğunu bilən və onunla söhbət etməyin çətinliyini başa düşən Vəli,Ağamusa kişini dəvət edərək,Mahmudun boşanmaq fikrinin yanlış olduğunu bildirmişdi.Ağamusa kişinin susqunluğunu görən Vəli sözünə davam edərək,iki uşağın yetim qalmasına yol verməyəcəyini qətiyyətlə Ağamusa kişinin nəzərinə çatdırmışdı.Əslində uşaqlar olmasaydı,Vəli və Aytan iki əlli boşanmağa razılıq verərdilər.Kimidi Mahmudun törəmələrini saxlayan!Ağamusa kişi oğlunun ailə işinə qarışmadığını bildirərək,oğlu ilə danışmasının vacibliyini bildirdi.Özünü idarə edə bilməyən Aytan: a kişi sən nə atasan,nə ağsaqqalsan ki,oğlunun üzərində hökmün yoxdur!? Ağamusa kişi heç vaxt qadınla ağız-ağıza verib danışma-

dığından,abır edərək susmağa üstünlük verdi.Ağamusa kişinin sakit davranışını görən Vəli,səsinin tonunu qaldırıb dedi:-sən elə-belə adamınan danışmırsan ha,mən hacı adamam,səviyəyə qalsa gərək səninlə heç danışmayam.Ağamusa kişi gülümsənərək,atan oldu behiştlik ay Hacı Vəli,mən savadsızam, indilərdə oğlum gələr,oxumuş adamdı,yəqin ki səviyyəniz tutar,məsələni səviyyəli şəkildə həll edərsiniz.Aradan bir neçə vaxt keçməmiş,dərsdən gələn Mahmud hal-qaziyyədən xəbərdar olub,otağa daxil olaraq Bəsdinin valideyinləri ilə,əl tutub xoşgəldin etdi.Handan-hana Vəli bildirdi ki,o hacı adamdır,istəyir bu boşanma məsələsinə son qoyub,bütün işləri yaxşılıqla həll etsin.Ancaq çox hayıf ki,Ağamusa kişi savadsız olduğundan,mənim kimi səviyyəli bir hacı ilə danışmağı bacarmadı.Atasının təhqir olmasını qəbul etməyən Mahmud,Vəlinin hacı olmasına şübhə ilə yanaşdığını bildirdi.Əlini cibinə salıb zəvvarlığini təsdiq edən kartı masaya atib,oxumuş adam olsan bilərsən ki,hacı olmaq elə-belə olmur,gərək səviyyəli olasan!Kartı nəzərdən keçirən Mahmud, kartda Vəlinin ad-soyadının və filan tarixdən filan tarixədək zəvvar olduğunun qeyd olunduğunu onun nəzərinə çatdırdı.Vəli kartını götürüb əda ilə,Mahmuda:-gördünmü kişilər necə hacı olurlar?Vəlinin doğrudan da savadsız,mədəniyyətsiz və qaba adam olduğunu dərk edən Mahmud,xeyli sükutdan sonra dilləndi:- çox hörmətli qaynata, məgər hər həccə gedən hacı olurmu?Gərək əməli-saleh

olasan,insanlara əl tutasan,yetim qarnı doydurasan ki,hacılığın qəbul olunsun.Sizə və ailənizə yaxşı bələd olduğum üçün deyə bilərəm ki,yuxarıda sadaladığım keyfiyyətləri sizlərdə görməmişəm.Göstərdiyiniz zəvvarlıq kartı isə,hacı olmağa əsas vermir.Qaldı ki,boşanma məsələsini mənim qaldırmağım,uşaqlarını tərgidib mənimlə hesablaşmadan Türkiyəyə gedib və gələndən sonra ailəmizə əda ilə baxan gəlinə bu evdə yer yoxdur!Mən ailə başçısıyamsa,istəyirəm ki,Bəsdi öz yerini bilsin,uşaqlarına əsil ana olsun!Nəyi çatışmır ki?Yoxsa, abır-həya etmədən Türkiyədən gətirdiyi açıq-saçıq paltarlarla,valideyinlərimin və digər tanış-bilişlərin yanında,papağımı yerə soxmaq istəyir!?İkinci bir tərəfdən bura Bakı,Paris deyil,çox da böyük olmayan bir rayondur.Demək olar ki,hamı bir-birini tanıyır,bizi də köçkün olsaq da tanıyırlar və lazımınca hörmət qoyurlar.Əgər Bəsdi özünü mən dediyim kimi aparmaq istəyirsə buyursun!-onun xoşbəxtçiliyi öz əlindədir.Yox əgər bu ailə xoşagəlməz günlər keçirəcəksə,mən buna yol verməyəcəyəm,o zaman məhkəmə yolu ilə məsələyə əncam çəkiləcək!Vəlinin çaşqın sifətinə baxan Mahmud sözünə son qoyub,otağı tərk etmiş oldu.Sanki,boşandığını hiss edən Bəsdi,otağı tərk edən Mahmudun qolundan tutaraq məzlum şəkildə onun sifətinə baxmaq istəsə də,Mahmud,boğazını qurudan qəhərini gizlədərək, ailəsi dağılmışlar kimi otaqdan çıxmış oldu.Qızının göz yaşlarından hikgələnən Aytan,iki yetimçə doğduğuna və indi pis vəziyyətə düşdüyünə görə

qızını təhqir edib,islanmış halda evi tərk etmiş oldu.Aytan bütün hirsini Vəlinin üstünə tökdü. Ə sən nə təhər Hacısan ki,bir müəllimciyin,torpağını qoyub qaçan Mahmudun cavabını verə bilmədin.Buda sənin sayılıb seçilməyin,hörmətin! Sən nə əvvəllər,nədə hacılıqdan gələndən sonra əməli saleh olmadın,olmayacaqsanda!Əsəblərini güclə cilovlayan Vəli,yaxşı de görüm necə danışmalıydım.Deyəydim boşa!Onda uşaqları verəcəklər qoltuğuma,getməli yeri də yox,gələcəklər bizə. Mən bu yaşımda itə-qurda oxşamışlara uşaq saxlamalıyam,istəyirsən get boşatdır,yetimləri də saxla! Xeyli sükutdan sonra,Aytan Vəlinin sözlərinə haqq qazandırmış oldu.

Bəsdinin ailə işlərinə qarışmayacaqlarını qəbul edən,Aytan və Vəli Qartalın evlənmək məsələsini tez- bazar həll etmək,toy gününü dəqiqləşdirmək üçün Nihadgilə getməyi qərarlaşdırdılar.Nihadla danışmamışdan öncə,çoxbilmiş Vəli toydan üzü duru çıxmaq üçün,tanıdığı ucuzvari toy sarayının biri ilə danışıq aparıb,saray sahibindən onun hacılığını,oğlan atası olmağını yüksək qiymətləndirməyi və lazımi ehtiyyat tədbirləri görülməsini xahiş etmişdi.Hər işləri yoluna qoyan Vəli,Nihadgilə gələrək toy sarayını,toyun gününü və vaxtını onunla razılaşdırmışdı.Nihadın susmasını razılıq əlaməti kimi qəbul edən,Vəli yeni ailə quranların özləri ilə yaşayacaqlarını deməklə,imkanlı Nihadın buna razı olmayacağını və evlənənləri yeni evlə təmin edəcəyini gözləsədə,Nihaddan bu

barədə istədiyi cavabı ala bilmədi.Yaranmış sükutu pozan,Vəli sözünə davam edərək,bir oğlu olduğunu, evinin ona və gələcək nəvələrinə qalacağını bildirərək,həm də hacılığının humanistliyindən bu addımı atdığını qeyd etdi.Qulaqları ilə Vəlini dinləyən,ürək və beyni ilə qızının gələcək həyatını göz önündə canlandıran Nihad,sanki qızının xoşbəxtliyini qorumaq üçün, bu mərdimazar ailəyə yox demək istəyirdi.Toy günü isə, daxili narahatçılıqdan qovrulan Nihadın göz yaşlarının qarşısını heç kəs ala bilmədi.

Toydan bir neçə gün sonra,gəlin Sənubər müəllimə olaraq işini davam etdirməyə başladı.Toydan öncə hər gün Sənubəri müşaiyyət edən Qartal,artıq Sənubərə lazımınca diqqət yetirmirdi.Axşamlar yorğun işdən gələn Sənubər,tez xörək hazırlayır,tökülüb –itmiş evi səliqəyə salır,evin müxtəlif künclərinə atılmış çirkli paltarları yuyur,dağınıq çarpayıları yığışdırır və hər gününü beləcə yola salırdı.Bir tərəfdən məktəb işləri,digər tərəfdən köməksiz olaraq evdəki gördüyü işlər Sənubəri o qədər yorurdu ki,sevimli valideyinləri ilə vaxt tapıb bir kəlmə kəsə bilmirdi.Aytan və Vəli biznesmen Nihaddan heç bir maddi hədiyyə qopara bilmədiklərinə görə,çox yanıqlı idilər.Elə Qartalın da,Sənubərdən belə tez soyumasının səbəbi,atasının dediyi kimi,qaynatasından nəinki bahalı maşın,heç “prostoy” maşın qopara bilməməsi idi.Aytan gəlini Sənubəri diqqətlə izləyir və zəhər tuluğunu boşaltmaq

üçün,lazımi şərait axtarırdı.Bir gün işdən gələn Vəli ayağından corabını elə tulladı ki,corab çilçıraqdan sallanmış şəkildə qaldı.Ömründə belə bir əcayib hərəkətlə qarşılaşmayan Sənubər,corabı bir təhər götürüb,çox nəzakət və hörmətlə qaynatasına,corabı yuyulmaq üçün paltar qabına qoymağı xahiş etdi.Aytan sanki,belə bir anı gözləyirmiş kimi,qəflətən gəlininin qolundan tutub ,var gücü ilə sıxaraq bozardı:-az ey,ağzının danışığını bil,bizə də ağıl öyrətmə,corab hardan sallanır sənə nə? Gəlinsən zəhmət çək,corabı götür,özündə qoy paltar qabına.Bəlkə sənin o milyonçu atan,ananın paltarlarını yuyur,onu özünüz bilərsiniz.Neçə ki,mən varam, bizim kişinin,özü də hörmətli hacının paltar qabına gözucu belə baxmasına imkan verməm.Aytanın tərəfini saxlayan Vəli,gəlinə buyurdu ki,xanım qaynanan düz buyurur,gərək gəlin öz yerini bilsin.Dil boğaza qoymayan Aytan,Sənubərə üzünü tutub,indi səni müəllimə işləməyə buraxırıq deyə,bizə müəllimlik edəcəksən!?Gəlinin vəzifəsi,ağzını mum kimi bağlayıb,ərinə,qaynatasına,qaynanasına qulluq etməkdir.Qartal evdə olmadığından və aldığı tərbiyəyə rəğmən susmağa üstünlük verən Sənubər,nəzakətlə bildirdiyi fikrinə görə danlanılmağına,hətta təhqirə görə məətəl qalmışdı.Otağına qayıdan Sənubər qəlbən sevdiyi Qartalın belə bir səviyyəyə malik olacağına inanmaq istəmədi.Sənubər düşünürdü ki,Qartal evə gələn kimi,yəqin valideyinləri ona hər şeyi danışaraq,onu gözdən salacaqlar.Onun fikrincə sevgilisi-

nin münasibəti yəqin ki,müsbət olacaq,-deyə Sənubər düşünmüş oldu.Evə çox gec gələn və artıq valideyinləri tərəfindən beyni doldurulan Qartal,haqsız valideyinlərinin tərəfini saxlayaraq,Sənubərə öz yerini bilməyini tapşırmışdı. Göz yaşlarını saxlaya bilməyən Sənubər inana bilmirdi ki,sevdiyi Qartal qısa bir zaman ərzində bu qədər dəyişilə bilərmiş.Səhəri oğlu Qartalın qolundan tutub kənara çəkən Aytan:-bax kişi ol,pişiyin başını vaxtında kəs,ataların məsəli var,gəlini gərdəkdə,bildin!Bütün bu eşitdiklərinə baxmayaraq Sənubər özündə inam yaradırdı ki,hələ təzə gəlindir,ailəyə uyuşandan sonra hər iş öz axarınca gedəcək.Sənubərin bir istirahat günü olurdu və çox istəyirdi ki, ata-ana evinə gedib,heç olmasa onları görüb toxlansın.Elə bil Sənubərin ürəyini oxuyan Aytan,istirahət günü üçün qəsdən,o qədər iş tökərdi ki,Sənubər işin içində itib batardı.İstirahət günlərində işlərdən macal tapmayan Sənubər bazar ertəsi,işdən icazə alıb,ata-anasını görmək eşqi ilə yaşadığından,Qartaldan birlikdə valideyinlərigilə qonaq getməyi xahiş etdi. Ayağını isti vannanın içinə qoyub ,oxxay,-deyən Aytan,Sənubərin valideyinigilə təşrif aparacağını bildiyindən,milyonçu valideyinlərin qızından qisas almaq eşqinə düşmüş oldu. Odur ki, üzünü Qartala tutub,sən bu gəlini niyə özbaşına buraxmısan?-deyə soruşdu.Səhər gedir məktəbə,axşam da gəlib əlini bir işə vurmur.Bax bu gəlin bizim nəyimizə lazımdır ki, vannaya suyu qızdırıb özüm tökürəm?! Gör ayağı nə qədər yer alıb ki,indi də,sə-

ni tovlayır ki,getsin atasının xeyməsində istirahət eləsin.Yaxşı suyu qızdırmadı,eybi yox,heç olmasa mən qaynanayamsa, bir ayaqlarımın dırnaqlarını tutsun!İndi biz bir az yaşlıyıq,sənin bu “xodovoy” arvadın bizə qulluq etmək istəmir,gözlüyür ki,biz ölək gəlib qəbrimizə qulluq eləsin!?Ay,hay!Mənə də hacının xanımı,hacıbalası Qartalın anası Aytan, deyərlər!Daha sən gəlinsən,ata-ananı yaddan çıxart, sən bizim gəlin qulluqçumuzsan,bizə qulluq etməlisən,eşitdinmi!? Qartal Sənubərə çəpəki baxıb,sən gəlin gəlmisən ki,səni sığallayaq,yedirdək,yatırdaq! Anam nə deyir,get yerinə yetir,məni əsəbləşdirmə,allaha and olsun sənə bir sillə çəkərəm,ananın sığal çəkən günü yadına düşər.Qartalın sillə sözündən diksinən Sənubərin yadına müəllimə yoldaşı,Nəsibə düşdü.Cavan müəllimə olan Nəsibəni şərəfsiz əri o qədər döymüşdü ki,gözaltı qaraları həftələrlə keçməmişdi.Yazıq müəllimə,pis hala salınmış sifətindən o qədər utanırdı ki,digər müəllimlərlə,şagirdlərlə ünsiyyət qurmağa belə utanırdı.Birdən Qartal da belə hərəkət etmiş olar,biabır olaram,-deyə düşündü.Yox,ola bilməz,-deyə qara fikirləri xəyalından uzaqlaşdıran Sənubər Qartalın belə bir,hərəkətini ağlına belə gətirmək istəmədi.Birdən, ay qız,Sənubər eşitmirsən?-gəl dırnaqlarımı tut!- sədası,Sənubəri xəyaldan ayırdı.Aytanın ayaq barmaqları qanlı,dərisi parça-parça olmuş,yaralı və əti görsənmiş,dırnaqları isə,sarı şəkildə çürümüş və kobudlaşmış vəziyyətdə idi.Bu infeksiyalı göbələk xəstəliyindən başqa

bir şey deyildi.Bu dırnaqları tutmaq üçün ,spirtlə təmizləmək vacib idi.Əri Qartaldan, aptekə gedərək spirt almağı xahiş edən Sənubər,onun qəzəbinə tuş gəlmiş oldu.Az sən qudurmusan,spirt olsa özüm içərəm,tez ol anamın dırnaqlarını tut!Əlacsız qalıb qayçını götürən Sənubər bir təhər,göbələkli ayaq barmaqlarının çürümüş dırnaqlarını tutmaq istərkən,ayaqlarını vanna suyunun içində şappıldadan Aytan:-ay qız, elə bil anan Sənəmin ayağıdı,gözünün üstünə qoy,lazım gəlsə suyunu da iç!Buna bax, necə də iyrənə-iyrənə mənə dırnaq tutur.Yaralı ayağı ilə suyu şappıldadan Aytanın hərəkətinə dözməyən Sənubər,qaynanasının iyrənc hərəkətinə dözməyib,geri çəkilmək istərkən,Qartal ayağını Sənubərin boynuna qoyaraq,onun başını vanna suyuna itələyib,ayağı ilə möhkəmcə boğmağa başladı.Hirsini bununla soyutmayan Qartal qışqıraraq,sən bu evdə bizim qulluqçumuzsan,atanın xarabasında deyilsən.Üzü-gözü,paltarı su içində olan,Sənubər bir təhər canını qurtarıb otağına qaçmış oldu.Aytan fəxrlə oğluna baxıb,əsil kişisən,düzgün hərəkət etdin,dırnağımı tutmasa da,yaxşı dərs aldı.Gəlin bilməlidir,hara gəlib və nə üçün gəlib!Bütün bu olmuşları seyr edən "hacı"Vəli oğluna gülə-gülə bildirdi ki,əvvəlcə imkan verərdin ananın dırnaqlarını təmizləyərdi,sonra başını suya soxardın.Görürsən ananın ayaq dırnaqları yenə tutulmamış qaldı.Anasının tərifindən xoşallanan Qartal,atasına bildirdi ki,Sənubərin ağzı nədir gəlib dırnaqları təmizləməsin,gələcək və təmiz-

ləyəcək!Qartalın əmrini eşidən Sənubər daha pis vəziyyətə düşməsin deyə,qayçını götürüb qaynanasının çürük dırnaqlarını tutmağa başladı.

Əlbəətə Sənubərin tərbiyəsi olduqca qənaətbəxş idi və qaynanasının dırnaqlarını lap necə olursa olsun tutmaq istəyirdi,sadəcə olaraq qeyri insani davranış münasibətlərini həyatında görmədiyi üçün, evdəki münasibətlər ən azı ona həqarət kimi görsənirdi.İkinci bir tərəfdən infeksiyalı dırnaqları mütləq dezinfeksiya etmək,ən adi sanitar normalarına riayət etmək lazım idi,bunada imkan verilməməsi Sənubərə çox pis təsir etmişdi.Dəhşətlisi də o idi ki,dezinfeksiya üçün adicə spirti sevimli ərinə aldıra bilməmişdi,üstəlik əri tərəfindən təhqiredici olaraq fiziki zora məruz qalmış və heç nədən silləsinə tuş gəlmişdi.Bütün gecəni göz yaşı içərisində keçirən Sənubər çox sevdiyi əri Qartal tərəfindən aldanıldığını,onun çürük məhəbbətinin qurbanı olduğunu hiss etmişdi.Bu fikirlərlə yuxuya gedən Sənubər səhəri sifətinin sillədən qızardığını görüb manukür edərək gizlətməyə çalışmış,üstəlik ərinin gecə evə gəlmədiyini səhər işə gedərkən bilmişdi.Nə etməli idi,biçarə Sənubər!?Baş vermişləri valideyinlərinə bildirməyi və onları narahat etməyi ağlına belə gətirmək istəmirdi.Ərə getməmişdən öncə,atasının bu izdivaca qarşı olduğunu və ərə gedərsə çəkəcəyi əzabları əvvəlcədən ona deməsı yadından çıxmamışdı.Atasının dediklərini haqlı sayaraq,maskalanmış məhəbbətin qurbanı olduğunu yəqin et-

diyindən susmağa üstünlük verməyi vacib bilmişdi.Sənubərin göz yaşlarının digər səbəbi isə,vaxtı keçmiş hamiləliyinin utanaraq,həya edərək heç kimə bildirməməsi idi.Bir tərəfdən hamiləlik,digər tərəfdən düşdüyü ailənin,əri Qartal qarışıq zülmü onu iki daş kimi hər tərəfdən sıxırdı.Yaxşı ki,iş və müəllimə sirdaşı Dilşad var idi.Dilşadın çox tərbiyəli ailədən olduğunu və ən əsası ağzıbütövlüyünü Sənubər bilirdi və ona mənim sirdaş bacım deyirdi.Bütün sevincini və dərdlərini ancaq onunla bölüşürdü.İndi də zülmlərlə dolu ürəyini onunlə bölüşərək,daxilində bir rahatlıq tapırdı.Dilşad ona səbr etməyi məsləhət görsədə,daxilində Sənubərə köməkliyi dəysin deyə,bu barədə hərdən bir görüşdüyü Sənəm xalaya sezdirməyi özünə borc bilmişdi.Artıq dörd aylıq ailəlikdən zülm çəkən,bir dəfə də olsun valideyinlərini görməyən Sənubərə əlbəətə ki,köməklik lazım gəlirdi,-deyə Dilşad sevimli iş yoldaşının qeydinə qalmaq zərurətində idi.Qızının aylarla ata qapısını döyməməsini,bütün gününü narahatlıqla keçirən Nihadın bala əzabı, Sənəmi varından yox etmiş,ərindən gizlin məktəbə işə gedən qızını kənardan izləmiş,sağ-salamat olduğunu görüb şükr etmişdi.Bir neçə gündən sora Qadınlar bayramının günü, qızını görmək üçün fürsət olacağını yəqinləşdirən Sənəm,bayram münasibəti ilə,qızıgilə gedəcəklərini Nihadla qərarlaşdırdı.Beləcə bayram sovqatları ilə,xəbər vermədən qızını və ailəsini təbrikə gələn Nihad və Sənəm qapını döymüş oldular.Qapını açan Qartal,qəfil-

dən və gözləmədən gələn qohumlarını görüb,həm təəcübləndi,həm də təlaşlandı.Təəcübləndi ona görə ki,sevmədikləri qonaqlar xəbərsiz qapını döymüşdülər.Təlaşlandı ona görə ki,Sənubərin sifətindəki sillə qızartısı hələ getməmişdi.Özünü ələ alan Qartal, səs-küylə evdəkiləri agah etmək üçün,qohumlarının qəfil gəldiyini bildirərək,onları evə dəvət etdi.Oğlunun səs-küyünü başa düşən Aytan,kimlərin təşrif gətirdiyini anlamış,Sənubəri qapazlayaraq vanna otağına salmış,him-cimlə valideyinləri görməsin deyə,sifətindəki qızartıya əlac etməyi tələb etmişdi.Tez əyninə paltarını atan Aytan,gələn qohumları süni gülüşlə qarşılayıb,divanda və masada yerbəyer etdi.Sovqatın çoxluğu Aytanı həlim olmağa məcbur etmişdi.Nihadın gəlməsini Qartaldan eşidən Vəli,gözüm aydın böyük adamlar gəlib,deyə Qartala bozarmış oldu.Gecə növbəsindən gəldiyi üçün,yuxusunu yarımçıq qoyub,yarıkönül Nihadla görüşmüş oldu.Qızlarını görməyən Sənəm,bəs Sənubər haradadır?-deyə soruşdu.Yayxana-yayxana və ürəyiyananlar kimi,əzız gəlininin vanna otağında olduğunu bildirən,Aytan narahat olmayın indi gələr,- dedi. Biraz keçməmiş,üz-gözünü manukür edib bir təhər sifət qızartılarını gizlədən Sənubər valideyinlərinin üstünə atılıb ,böyük sevinc hissi ilə onlarla görüşmüş oldu.Sənubərin bu hərəkəti Aytanın gözündən yayınmadı.Ürəyindən keçirdi ki,anası bicin qızı gör necə pudralanaraq qızartıları gizlədib,ancaq bic qızı da olsa yenə,bizi satmadı, üstəlik pis vəziyyətdən

gıxarda bildi.Hələ tam yuxusunu almamış Vəli də çöndü ki:-ay Nihad bizə gələcəyinizi əvvəlcədən bildirərdiniz,baxmayaraq ki,ilk dəfədir qohum olandan qapımızı açırsınız,heç olmasa bir hazırlıq görərdik?!Nihad hacı Vəliyə minnətdarlığını bildirib,bir stəkan çayınızı içsək belə xoş olar!- dedi.Vəli də hələ xasiyyətini bilmədiyi Nihiada,özün bilən məsləhətdir,qəflətən gələn qonaq cibindən yeyər,məsəlini çəkmiş oldu.Sənubər tez mətbəxə qaçıb,yaxşıca çay dəmlədi,üstəlik süfrə açmağı da unutmadı.Sənəm qızının üzündəki qızartını hiss etmişdi,sağ olmuş Dilşadın hesabına bütün məsələlrdən hali idi.Sənubər nə qədər manukür etsədə,Aytan deməli pudralansada,az-çox qızartı yeri bilinirdi.Mətbəxə qızı ilə keçən Sənəm,Aytanın onları gudməsinə baxmayaraq,zarafata salıb,ay qızım əvəllər heç manukür etməzdin,cavan qızsan,bu nədir bu qədər üzünə çəkmisən?-deyə sordu.Sənəmin ayıq sualından tutulan Sənubəri,Aytan vəziyyətdən çıxardı. Ay Sənəm bacı,Sənubər artıq bizim evin gəlinidir,biz üzümüzü manukür edirik oda edir,nə var ki burada?Hələ sən bizim qonşu Hacıxanımı görəsən,üzünə barmağım boyda "şpaklyovka"çəkir,özüdə həcc ziyarətindən fırlanıb gəlib.Sənəm artıq hər şeyi dərk etdi.Deməli bu ailənin ağılasığmaz hərəkətlərini Nihad ilk andan,uzaqgörənliklə müəyyən edə bilmişdi.Özünə qapılan Sənəm xanım,yazıq balam, yalançı məhəbbət toruna düşdüyündən,əziyyətini gizlincə özü çəkir.Nihad ora-bura baxıb

Qartalı görmədiyindən,bəs bizim bu yeznə hara getdi?-deyə soruşdu.Vəli bayıra çıxıb Qartalı səsləmək istəyərkən,oğlunun Nihadın avtomobilinə necə həsrətlə baxdığını görüb, elçilik zamanı varlı Nihaddan nə isə qopartmaq üçün vurduğu bahalı maşın eyhamını yadına saldı.Tez həyətə düşüb,ə Qartal,bu eşşəkbaş qaynatana heç olmasa sənə avtomobil hədiyyə etsin deyə,elçilik zamanı eyham vurmuşdum.Ancaq indiyə kimi, o bu eyhamı qanmayıb.Gedək evə bu qanmaz qaynatan ,nədənsə səni soruşur.Qulağına da pıçıldadı ki,evə daxil olanda,qaynatanla söhbət zamanı maşına olan həvəsindən danış,görək him-cim başa düşəcəkmi?Qartal evə qayıdanda,Nihad ərkyana:-ay yeznə, bir otur görək nə var,nə yox,işlər necədir,dolanışıq varmı?Qartal könülsüz başını bulayıb,belə də Nihad dayı,əməlisaleh olan Hacının oğlu necə dolanar?-şükr bəs edir,azdan-çoxdan dolanırıq.Hə,-çox yaxşı,bəs kefsizliyin nədəndir?Vəli oğlunun dərinə getməyəcəyini görüb,baltanı daha kökündən vurmaq üçün,Nihada yarızarafat-yarıciddi bildirdi ki,sən tez-tez yeznə deyə müraciət edirsən,bu sözdə bizdə yaxşı qəbul olunmur,bizlərdə eşşəyə yeznə deyirlər.İkinci də Qartal hər gün başımı aparır ki,mənə bir maşın al.Mən hacı adamam,milyoner deyiləm ki,maşallah olsun, Nihad kimi imkanım olsa, alaram.Nə olar ki,bir yerə həyat yoldaşı ilə gedəndə maşınla gedərlər,bu da mənim üçün fəxr olar.Nihad əziyyətlər hesabına az-çox imkan əldə etdiyindən və lazımi qədər dün-

yagörüşə malik olduğundan,hələ elçilik zamanından Vəlinin eyhamını başa düşmüşdü. İndi onun hətərən-pətərən danışmağının mənasını anlayırdı.Odur ki,artıq qohumluq pərdəsini aradan götürmüş Vəliyə xitab edərək bildirdi:-birinci ay Vəli ,bir Azərbaycanlı olaraq demək istəyirəm ki,elə bir bölgə tanımıram ki,yeznəni eşşək etsinlər.Qaldı ki,maşın məsələsi mən elə bir oğula heç vaxt qız verməzdim ki,qızıma olan məhəbbət və hörmət hər hansı maddiyyata əsaslansın.Varidat ağır zəhmət bahasına yaranır.İndi mənim,sizin təbirinizcə "eşşək"yerinə qoymadığım və hörmətlə yanaşdığım yeznəm, zəhmət çəkib tər töksün,qızimla bərabər və özlərinə varidat yaratsınlar.Sənəm xanım Vəli tərəfindən "qara daşın" nə üçün söhbət zamanı ortaya atıldığını başa düşdüyündən,danışıqların mübahisəyə çevriləcəyini və aranın qarışacağını hiss etdiyindən,zarafatla gətirdikləri sovqatları masaya yığıb,hər kəsin payını özünə təqdim etməyə məcbur oldu.İndiyə qədər bu qədər bahalı sovqatlar görməyən ,sayılıb-seçilən ailənin çiçəyi çırtlamış oldu.Nihad və Sənəm evlərinə qayıdarkən,Sənubərin ağır həyatını xəyalında canlandıran Sənəmin göz yaşlarını görüb çox pərişan oldu.Heç nə olmamış kimi,üzünü Sənəmə tutub:-hə,nə oldu,qızını çoxdan görmürdün,indi ki,gördün,daha niyə ağlayırsan?-deyə yoldaşının könlünü almağa çalışdı.Göz yaşlarını gizlətməyə çalışan və Nihad kədərini hiss etməsin deyə,Sənəm üzündə təbbəssüm yaradaraq qızlarının hamilə olduğunu

ərinə bildirdi.Buna həddindən çox sevinsədə, Nihad əslində Vəlinin hətərən-pətərən danışıqlarını,Aytanın hoqqabazlığını,özünü artistliyə vurub Sənubəri girovuna çevirən Qartalın ikibaşlı oyununu dərk etmişdi.Dərindən köksünü ötürən Nihad,qızının vaxtilə bu "qiyamət" evinə düşməməsi üçün çox çalışdığını və nəticəsiz olduğunu hiss etdiyindən susmağı üstün tutmuşdu.

Qəflətən gələn qudalar gedəndən sonra,Vəli Qartalın qolundan tutub buyurdu ki,gördünmü varlı qaynatan maşın hədiyyə etmək əvəzinə,səni hələ eşşək də etdi.Onun qızı bizim evə ərə gəlib,gərək onlar bizim qulluğumuzda dursunlar,ancaq özlərini elə aparırlar ki,elə bil biz qızımızı ərə vermişik. Bu arada yalan danışmağı sevən və hərdən,atası Vəli demiş "quş"buraxan Qartal özünü saxlaya bilməyib,atasına bildirdi ki,bizim iki bacımız ərə gedib,hansı kürəkənlərə biz qulluq etmişik ki?Gözləmədiyi cavabı oğlundan alan Vəli,az qala Qartala sillə çəkəcəymiş kimi bozardı:-elə özünü bu cür aparırsan ki,qaynatan da səni yeznə-eşşək edir də?!Atan mənəm, nə deyirəm ona da qulaq as!Biz sayılıb-seçilən ailəyik,hamı bizə qulluq etməlidir! Yadındadır evlənən günü mənə dedin ki, arvadımı evimizə qeydiyyata salarsan,mən isə etiraz etdim,bax bu günku günə görə. Mən ki, onlardan bu ev qiyməti qədər bir şey qopartmasam,Sənubəri ev qeydiyyatına heç vaxt almayacam.Əgər oğlan nəvəm olsa,adımı ona qoyub,qeydiyyata alacam,mən öləndən sonra ev ona qal-

sın.Qaldı sənə,bu evdən sənə heç nə çatmayacaq,görürəm özünü ikibaşlı aparırsan.Birdə ki,o Nihad var- dövləti elə-belə qazanmayıb,deyəsən evimizdə gözü var?! İşdir birdən sənə Sənubərin ev qeydiyyatına nə üçün alınmadığını soruşsa, de ki,mən kiməm ki,ev atamındır. Qoy mənə desinlər bu barədə,inşallah onlara bir cavab verim ki,anadan olduqları gün yadlarına düşsün.Birdə ki,ay vələdüznə,gəlini vuranda kürəyinə,ombasına vur,daha üz-gözünə yox.Yaxşı ki,ata-anası hiss etmədilər,yoxsa səni məhkəməlik edəcəkdilər.Əri Vəlinin bu məsləhətini eşidən Aytan,onunla razılaşdı.Sonra Sənubəri görüb,üstünə cumdu ki,get üzünün "şpaklyovkasını" sil,sonra da qab-qacaqları yu! Sənubər sakit səslə qab-qacaqları yuduğunu bildirib,vanna otağına keçərək üzünü təmizləməli oldu.

Aradan bir neçə ay keçmişdi.Sənubər analıq məzuniyyətinə çıxdığından valideyinləri və sevimli rəfiqəsi Dilşadla,ancaq telefonla əlaqə saxlayırdı.Günü güzəranı necə keçirdisə,elə də davam edirdi,bəzi hallarda münasibətlər daha şiddətli xarakter alıdı.Bir tərəfdən də,boşanma məsələsinə görə acığ edib,atası evinə gələn Bəsdinin zülmünü Sənubər çəkməli olurdu.Elə hallar olurdu ki,Bəsdinin hayıfını biçarə Sənubərdən çıxırdilar.Dəlisov Aytan hirslənəndə,Sənubərin üstünə cumub,Bəsdini boşasalar,səni də boşayacayıq,- deyirdi.

Uzun müddət Əmisi oğlu Əli ilə küsülü olan Vəli,Qartalın toyu zamanı barışmışdılar.Şəhərdən aralı olan

kəndlərin birində yaşayan Əli təsərüffatla məşğul olduğundan, vaxt tapıb əmisi oğlu gilə dəyə bilmirdi.Həmdə ki,Əlinin “korobka”adlandırdığı “panel” evlərdən xoşu gəlməzdi,tez-tez deyərdi ki,hayıf deyil həyət evi,istədiyin kimi yaşayırsan,heyvanın ,toyuq cücən,istəyirsən hoppan-düş. Ancaq “korobkalarda” səsin çıxan kimi,qonşular haray-həşir salırlar.O üzdən də,Vəli gilə getməyə həvəsi olmayan,Əli evlənmiş Qartalın şərəfinə, Vəli gili qonaq çağırmışdı. Ailəlikcə Əli gilə qonaq gələnləri,Əli ,arvadı və oğlu Qara qarşılamışdı.Qara Vəlinin hesablamasına görə yeddi-səkgiz il olardı ki,evlənmişdi.Gəlini görməyən Vəli,bəs gəlininiz haradadır?-deyə soruşmuşdu.Birazdan kürəyində körpə uşaq və burnu qançil olan gəlin gələnlərlə xoş-beş edib,tez də yoxa çıxmışdı.Vəlinin fikrinə görə,gəlin təzəlikdə döyüldüyündən,utanaraq digər otağa çəkilmişdi.Vəliyə görə,Əli və oğlu Qara daha sərt idilər.Hələ Qara hirslənəndə,gözü ayağının qabağını belə görmürdü.Söhbət zamanı Əli Vəliyə iki gün bundan qabaq, Qaranın təpiklə vurub gəlinin burnunu sındırdığını demişdi və oğluna haqq qazandıraraq kişi kimi hərəkət etdiyini bildirmişdi. Daha sonra nəvəsi Pirvəli ilə fəxr edən Əli,Qaranın arvadını döyərkən,Pirvəlinin anasına yaxınlaşıb onu təpikləməsini və dilini qarnına qoy,atam kişi xeylağıdır,nə deyir kirimişcə yerinə yetir!-deməsini danışması Vəlini qürurlandırmışdı.Əlinin dediklərini təkzib etməyən,Vəli əsil kişinin bu cür böyüməsini alqışladı.Hamı deyib gül-

məyində ikən,evin gəlini Gülsüm körpə uşaq belində samovar qaynadır,yemək hazırlayırdı.Sənubər bu cavan gəlinin sifətinə baxanda dəhşətə gəlirdi.Yazıq gəlinin burnu sınmış,dişləri tökülmüş,sifəti isə qançil idi.Lal-dinməz işləyən Gülsüm, əyalətdən bu evə gəlin gəlmişdi. Gəlin gəldiyi bu yeddi-səkgiz ildə,anadan əmdiyi südü dəfələrlə burnundan gətirmişdilər.Körpə uşağı belində bağlayan gəlinə kömək etmək üçün,Sənubər ayağa qalxmalı oldu.Sənubər stəkanlara çay süzür,Gülsüm isə çirklənmiş qab-qacaqları soyuq su altında, torpaqla sürtürdü.Hər iki gəlin çalışdıqları yerdə bilmədən üz-üzə dəyib,əllərindəki şüşə qabları yerə salaraq sındırdılar.Gülsümün pis vəziyyətə düşməsini görən Sənubər onu düşdüyü vəziyyətdən xilas etmək üçün,şüşə sınıbsa aydınlıq olacaq,- deyəndə,Qara Gülsümə qəflətən elə bir təpik vurdu ki,qorxudan Sənubərin gözü böyüdü. Özünü ələ alan Sənubər, biçarə gəlini yeni hucumdan müdafiə etmək istərkən,arxadan Qartalın vurduğu təpikdən,Sənubər yerə yıxılıb bayıldı.İki əmi nəvəsi gəlinlərin saçlarından tutub sürüməyə başladılar.İki əmioğlu hoydu-hoydu deyərək, şaqqanaq çəkib gülüşür,arvadları isə gəlindöydü tamaşasına baxanlar kimi övladları ilə fəxarətlənirdilər.

Bu hadisədən bir müddət sonra doğum evinə yerləşdirilən Sənubər vaxtından qabaq çox ağrılı və çətin bir doğuş etdi.Onurğasına vurulan zədədən gücsüz və halsız olan Sənubər dərhal cərrahiyyə əməliyyatına götürül-

müş,həkimlərin ciddi əməkləri sayəsində uşağın salamat doğulmasına, ananın isə əziyyətlərinə son qoyulmuşdu.Sənəm həkimlərin dediyindən belə başa düşmüşdü ki,qızının onurğa sütununa bərk zərbə dəydiyindən,vaxtından əvvəl doğuş baş vermişdir.Həkimlərin məsləhəti ilə,Sənubərə ciddi müayinə və qulluq lazım idi.Dalağı sancan Sənəm,Sənubərdən onurğa zədəsini hecə aldığını soruşsa da,əsil həqiqəti ailəsindən gizlədən Sənubər,qonaqlıqda olarkən yıxılıb belinin daşa dəydiyini uydurmuşdu.Gözünü Aytana zilləyib,ondan həqiqəti öyrənmək istəyən Sənəmə:-nəyə gözünü mənə zilləyirsən,məgər qızın olmuşları sənə demədimi?-deyə özünü təmizə çıxartmışlar kimi aparmış oldu.Qaynanası, Aytanın hoqqalarına bələd olan Sənubər,uşağın, salamat doğulması üçün şükr edib,özünü toxtatmışdı.Sənubər xatırlayırdı ki,müəllimə yoldaşlarından biri on beş il ailəli olmasına baxmayaraq,hələ də övlad sahibi deyildi və buna görə həməşə kədərli olardı. Ona görə də,əziyyətlər çəksə də,uşağının xatirəsinə yaşamağı məqbul hesab etmişdi.Dalağı çoxdan sancmış Sənəm qızının nədən zədə aldığını dəqiqləşdirmək üçün Aytana müraciət etmiş oldu:-ay bacı, deyirəm birdən Qartal bala zarafatla nə isə etmiş olar?Aytan elə bil himə bənd idi, sifətini bozardıb tonunu elə qaldırdı ki,gəl görəsən.Sənəm arvad, ağzının danışığını bil və ağlını da başına yığ,uşağımı da şərləməyə çalışma!Mənim oğlum dəlidir ki,o cür zarafat etsin.Xəstəlik gəlinin özündədi,xəs-

təliyi özü ilə gətirib,zəhmət də çəkib sağaldın.Hələ bir görək xəstə ananın uşağı sağlam böyüyəcəkmi?Aytanın haqsız sözləri,Sənəmi sözü böyütməməyə və susmağa məcbur etsədə,qızının döyülməsinə yəqinlik hasil etmiş oldu.Valideyinləri tərəfindən sağlamlığının bütün xərcləri ödənilərək bir müddət müalicə alan Sənubər,ev şəraitində müalicəsini davam etdirməyə başlamışdı. Sənubər çox istərdi ki,anası gildə sağlamlığının qeydinə qalsın.Bilirdi ki,ər evinə qayıtsa,çətin ki sağlamlığı tam şəfa tapsın.Lakin,Aytanın və Bəsdinin təhriki ilə,əlacsız qalıb ər evinə qayıtmışdı.Demək olar ki,ağrıları ilə çobalayan Sənubərə kömək edən yox idi. Uşağa Bəsdi baxır,Aytan isə bütün ev işlərini Sənubərə gördürürdü.Ağrılı belini şalla bağlayan,Sənubər bütün kirli paltarları yuyur,uşaq nəcisindən, guya iyrənən Bəsdidən, uşağı götürüb təmizliyini edir, evin çay və xörəyini hazırlayır,sonra halsız olaraq çarpayıya düşürdü.Qızının ağır vəziyyətindən az-çox xəbəri olan Sənəm,xeyli söz söhbətdən sonra Sənubəri və uşağı özü ilə evinə apararaq qulluq etməyə başladı.Sənəm qızına hələ ki gec deyil,düşdüyü bəladan qurtulmağı beyninə yeritməyə çalışsa da,baş verənləri anasından gizli saxladığını yəqin edən Sənubər,anasının canyananlığını, ana narahatçılığı kimi qəbul etdiyindən anası ilə heç bir şey olmamış kimi özünü aparırdı. Əlbəttə Sənəm balası üçün canını belə qurban verməyə hazır idi,taki qızı ər evində xoşbəxt olaydı.Ancaq belə bir başadüşülməz ailədə Sənubərin xoş-

bəxt həyat sürəcəyinə inanmaq belə mümkün deyildi.Bunu Sənubər özü də başa düşürdü.Ancaq körpə balasının atasız böyüməsinə heç vaxt razı ola bilməzdi.O əzablara dözməyə razı olardı,amma övladının atasız böyüməsinə yox.Valideyinlərinin himayəsində biraz özünə gələn və artıq valideyinlərinə əziyyət vermək istəməyən Sənubər, körpəsi ilə bərabər ər evinə getmək istəyirdi,ancaq Aytan gildən səs- soraq çıxmırdı.Qızının narahatçılığını hiss edən Sənəm,əri Nihadla bir qəraq etməyi düşünməyi nəzərə aldılar.Sevimli qızı Sənubərin bütün əzab-əziyətlərini dərk edən Nihad,çox istəyərdi ki,qızı bir daha ər qapısını döyməsin.Ancaq qızının ər evi üçün “darıxmasını” Sənəmlə bərabər başa düşdüklərindən,Vəli ilə təmas yaradan Nihad uşaq üçün adqoyma mərasimi keçirməyin vacib olduğunu ona bildirdi.Uzun uzadı məsləhətdən sonra,adqoyma mərasiminin Vəligildə keçiriləcəyi və Qartalın buyurduğu kimi uşağa babasının adının qoyulması nəzərə alındı.Baba Nihad uşağa təmtaraqlı adqoyma mərasimi keçirtdi.Baba Vəli isə,uşağı qucağına alıb,qulağına üç dəfə Vəli deyərək,adinin bundan sonra Vəli olacağının elan etmiş oldu. Bəzi dünyagörmüş adamlarda bu epizod, sual yaratmalı olmuşdu.Aytanın əvvəlcədən qurduğu plana əsasən,Bəsdi uşağı qucağına alıb, mərasimdə iştirak edənlərdən hədiyyə yığmağa başladı.Hədiyyələri Aytana ötürən Bəsdi, uşağı yenidən Vəliyə uzadanda ,Vəli:- adımı sənə verdim, indi də bu evi sənə hədiyyə edirəm,-deyə qür-

rələndi.Nihada eyham zərbəsi vurmaq istəyən Vəli,uşağa müraciət edirmiş kimi,gördünmü mənim nəslimin davamçısı olan balam,məndən bahalı hədiyyəni sənə heç kim vermədi.Kənardan atasının boğazdan yuxarı deyilmiş sözlərini eşidən Qartal,özünü saxlaya bilməyib dedi:-ay papa,bu nə hədiyyədi ey,adı sənin dadı mənim,məsəli kimi səslənir.Vəli oğluna çəpəki baxıb,-çərənnəmə,anan kimi quş buraxmağı öyrənmisən,bu evdən sənə bir şey çatmır deyən,ortaya qəmiş qoyma!

Yayın çox isti,cırhacır bir vaxtı idi.Azdan-çoxdan imkanı olanlar sərin kənd rayonlarına dincəlməyə,ruhlarını təzələməyə gedirdilər.Vəli gilin bir çox qonşuları belə bir fürsəti əldən buraxmayıb istirahətə yollanmışdılar. Aytanın ata evinin satılmasına görə, Vəli peşmançılıq çəkir və öz-özünə deyinirdi ki,satmasaydıq indi bizdə qonşularımız kimi,kənddə yaxşı dinclik tapardıq.Kəndlərdə elə bir tanış-bilişləri də yox idi ki,istilərin nəfəs yandırdığı bir vaxtda gedib dinclərini alsınlar.Kirayə də,çoxlu pul tələb edirdi,o da hardaydı Vəlidə,nə olsun ki,hacı adam idi.Aytan da,öz şeytanlığı ilə kəndlərində elə bir üz yeri qoymamışdı,həmdə ki,artıq o vaxtlardan illər keçmişdir,indi onu heç tanıyan da olmazdı.Aytan çox çalışırdı ki,Türkiyəyə qızı Məsmənin yanına istirahətə getsin,bunada Məsmə razı olmurdu.İşlərinin çoxluğundan,başının qarışıqlığından danışaraq,yaxınlarda özünün Bakıya gələcəyini qeyd edirdi.

Belə bir darıxdırıcı vaxtda,Aytan gilin qonşuluğuna təzə ailə,ana-bala köçmüşdü.Təzə köç edənlərlə dil tapan Aytan,tezliklə isti münasibətlər yaratmağa müvəffəq olmuşdu.Ananın ismi Ziyafət,qızının adı isə Kifayət idi.Adı qədər az-çox imkana malik olan Ziyafət elə ilk vaxtlardan Aytanın qəlbinə yatmışdı.İmkanlı adamlara özünü sevdirməyi bacaran və onların qəlbini ələ alan Aytan da,Ziyafətin xoşuna gəldiyindən onun sirdaşı olmuşdu.Aytana bel bağladığından,hələ cavan vaxtlarında xasiyyətləri uyğun gəlməyən ərindən ayrıldığını,bir qızı olduğunu,onu böyüdüb ərsəyə çatdırdığını və ərə bir daha getmədiyini ona danışmışdı.Aytan da öz növbəsində,öz ailəsinin bu günkü durumundan,ailə üzvləri haqqında Ziyafətə müəyyən məlumatlar sızdırmışdı.Aytanın ona ürək yandırdığını görən Ziyafət var-yox bir qızının başına gələn əhvalatı ona danışmağı özünə məsləhət bilmişdi.Belə ki,Kifayət tanımadığı şəxs tərəfindən zorlanmış və bakirəliyini itirmişdi.Kifayət, mağazaları olan imkanlı bir cavan oğlana nişanlı idi.Əvvəlki yaşadıqları yerdə rüsvay olmamaq üçün,evlərini sataraq,aldıqları yeni evə köçməyə məcbur olmuşdular.Ziyafət xanım,Aytana bir daş altdan,bir daş üstdən məsəlini çəkərək,bu sahədə ağzıbütöv olmağı ondan xahiş etmişdi.Aytan isə əlini ürəyinin başına qoyaraq,and içmişdi ki,bu sirr onunla ancaq qəbirə gedə bilər.Aytana görə Kifayət yaraşıqlı,cəlbedici hələ deyəsən tərbiyəsi yerində

olan bir qız idi.Təəsüflənərdi ki,hayıf ki,bədbəxtçiliyə düçar olub.

Aradan bir müddət keçməmiş,anasına xəbər varmədən Bakıya Məsmə təşrif gətirmişdi.Məsmənin kübar yaşayışı və özünü zəngin aparması,Ziyafətin gözündən yayınmamışdı.Xeyli görüşlərdən,şirin söhbətlərdən sonra,Ziyafətə görə Məsmə ilə daha yaxın münasibətlər qurmağa sanki bir ehtiyac yaranmışdı.Bütün bu münasibətləri özlüyündə götür-qoy edən Ziyafət,Aytana him-cim edərək,Kifayətə kömək üçün bir əlac etməyi xahiş etmişdi.Göz yaşını gizlədə bilməyən,Ziyafət ehtiyat edirdiki,əgər bu məsələyə çarə tapılmasa rüsvay olacağlar.Ürəyinə dammışdı ki,bu “Türkiyəli” Məsmə nə isə edə bilər.Ziyafətin göz yaşına rəğmən,Aytan qızı ilə bu barədə danışacağını bildirdi.Axşamların birində Aytan və Məsmə tək olduqları bir zaman qonşu qızın başına gələn əhvalatı qızına danışdı və imkan daxilində əlac etməyi təvəqqe etdi.Bütün bunları dinləyən Məsmənin boyalı dodaqlarından gizli bir təbəssüm keçdi.Aslanla olan münasibətləri,bakirəliyinin pozulması,yenə Aslanın köməyi ilə bakirəliyin bərpa olunub ərə getməsi kino lenti kimi gözlərinin önündən keçdi.Tez xəyaldan ayılmış kimi, görkəminə ciddilik verən Məsmə:-ay ana, bakirəliyin bərpa olunması elə də problem deyil,indi bir çox bakirəliyi pozulmuş xanımlar,sonradan bakirəliklərini bərpa edərək,yaxşı ailə sahibi olmuşlar.Hələ bəzi bakirəsi pozulmuş qadınlar,intim təcrübəsi qazanaraq,yaxşı

məbləğ əldə etdikdən sonra,bakirəliklərini bərpa edib ailə qurmuşlar,"kişilərinin"yanında sevimli xanımlara çevrilmişlər.Bakirəliyi bərpa etmək üçün müəyyən məbləğə sahib olmalısan.Aytan özü də, az aşın duzu deyildi,qızını bir sözündə başa düşürdü.Məgər az olmuşdu ki,Vəli kimi bir "peysər"əri, Aslanın güdazına vermişdi.Ana və bala belə razılığa gəldilər ki,Məsmə Kifayətlə görüşüb müəyyən bir razılığa gəlsinlər.Aytana görə,qızının rüsvayçılığına razı olmayan,Ziyafət maddiyyat nöqteyi nəzərindən hər şeyə əncam verəcəydi. Məsməyə də Məsmə deyərdilər.Aslanla əlaqəsini itirməyən Məsmə bu "biznesdə"çox təcrübəli idi.Kifayətlə söhbət zamanı,onun saqqızını oğurlaya bilmiş və qızın istənilən işə gedəcəyini müəyyən etmişdi.Məsmənin anasının, Zyafətə işlərin yaxşılığa doğru getməsini bildirməsi böyük sevincə səbəb olmuşdu.Ziyafət ömrü boyu Məsməyə duaçı olacağını,Aytana bildirərək,Aytanın əvəzolunmaz bir bacı olduğunu vurğulamışdı.Belə qərara alındı ki,guya Kifayyətdə ciddi bir xəstəlik peyda olub və onun müəlicəsi üçün qız Türkiyəyə getməlidir.Hələ ki,Kifayətin nişanlısı baş vermişlərdən xəbərsizdir, şübhələnməmişdi,məsələni tez-bazar çürütmək lazım idi.Məsmə hər kəsdən gizli saxladığı "biznes"məsələsini yoluna qoyduqdan sonra,Kifayətlə bərabər Türkiyəyə yola düşdülər.Bacısı Bəsdinin, ələ su tökməyə yaramaz olduğunu və onun Türkiyəyə gedərsə "biznes"işinə əngəl olacağını bildiyindən,Məsmə ona:-ay yazıq bacı, get iki yetimlə-

rini saxla,sən heç vaxt yaxşı yaşayışdan baş çıxaran adam olmamısan,yəqin ki,gələcəkdə də olmayacaqsan.Aytan və Ziyafət bu andan daha doğmalaşdılar.Gəlini Sənubər və qızı Bəsdi bəzi məsələlərdən hali olmasınlar deyə,Aytan gününün əksər vaxtlarını Ziyafətgildə keçirər,yalnız əri Vəli evə dönəndə,o da evə qayıdardı.Aytanın təzə qonşu ilə olan isti münasibətləri və qonşu qızın Məsmə ilə bərabər Türkiyəyə getməsi Vəlidə böyük marağa səbəb olmuşdu.Odur ki,imkan tapıb,Aytana:- ay mənim şeytanım, bu təzə qonşu ilə qurduğun münasibət,onun qızının Məsmə ilə Türkiyəyə təşrif aparması xeyirdirmi?-deyə sual etdi.Zarafatda ərindən geri qalmayan Aytan, öz növbəsində:-ay mənim "peysərim", sən niyə belə başadüşməz olmusan,Ziyafətin hesabına günümü keçirirəm,hərdən ondan hədiyyə alıram,məgər bunun nəyi pisdir ki?Sonra da başladı yalançı uydurmalara, Zifayətin dediklərinə görə,qonşunun qızı nişanlı olsada,qorxdum ki,gədəmizi yoldan çıxardıb,balasını atasız qoyar.Məsməyə qoşdum getdi Türkiyəyə,bizə lap yaxşı,Məsməmizə köməkçi olar.Aytanın bu ağıllı nağılı Vəlinin onsuzda keyləşmiş başına batmış oldu.Düz buyurursan mənim ağıllı Aytanım,balaca Vəli mənim əslim- kökümdü.Qaldı ki,anası Sənubər döyülə-döyülə bizim evin gəlini olacaq.O dee, əmi nəvəsi Qara arvadı Gülsümün ayağını ağacla nə təhər vurubsa,gəlin axsayır,yeriyə bilmir.Qızlarının zədələndiyini eşidən valideyinləri gəlmişimişlər,deyiblər ki,qızımızı sizə vermişik

özünüz bilən məsləhətdir.Əslinə qalsa belə olmalıdır də?!Bundan əqdəm qızlarını ərə verər və deyərdilər:-əti sənin,sümüyü mənim.Yoxsa bu Nihad kimi,gəlib mənim evimdə adqoyma mərasimi keçirir.Adama deyərlər sən kimsən? Nəvə mənimdir istəyərəm adqoyma mərasimi keçirərəm,istəmərəm keçirmərəm. Eybi yoxdur vaxt gələr,bu Nihad məni tanıyar.Mən onları elə peşman edəcəm ki,qızlarını görəndə qulaqlarının dibini görmüş olacaqlar.

Artıq xeyli vaxt keçmişdi.Türkiyəyə təşrif gətirən Kifayət qısa bir müddətdə,bütün bicliklәri əxz etmiş,ancaq Məsmənin avantürasına ehtiyyatla yanaşmışdı.Sadəlövh bildiyi Kifayət,əslində Məsməyə həyat dərsi keçməyə başlamışdı.Yaxşıca pul qazanan Kifayət bəzi məsələlərdə hiyləgər tərbiyyəçi kimi hərəkət edərək,gizlincə qazandığı pulları anasına göndərərək,bu barədə heç kimə bildirməməyi xahiş etmişdi.Nişanlısı Elmarla telefonla danışarkən,xəstəliyinin sağalacağına ümidli olduğunu qeyd edirdi.Elmar bir neçə dəfə,ondan xəstəxana ünvanını istəsə də,Kifayət müxtəlif bəhanələr gətirərək,onu gəlmək mövzusundan uzaqlaşdıra bilmişdi.Hər telefon danışığında Kifayət sevgilisi olan Elmara məhəbbət və sədaqətini bildirmiş,tezliklə sağalacağı təqdirdə gəlib ailə quraraq xoşbəxt yaşayacaqlarını ifadə etmişdi.Kifayət yaxşı bilirdi ki,Elmar onu çox sevir və ona inanır.İkinci bur tərəfdən iki mağaza sahibi olan Elmar əldə etdiyi imkanı çox böyük əziyyətlər hesabına əldə etmişdi.İşinin üstündə özü dur-

duğundan başını qaşımağa belə vaxtı olmurdu.Bunu Kifayət görüşləri zamanı hiss etmişdi.Tez-tez narahat olurdu ki,görəsən mağazanı uşaqlar işlədə bilirlərmi?Mağazada əyri-əskiklik olanda özünə yer tapmırdı,ki özündən başqa heç kim işin öhdəsindən gələ bilmir,yada gəlmək istəmirlər.Bütün bunlara rəğmən,əlbəttə əgər Kifayət razılıq versəydi,Elmar Türkiyəyə sevgilisinin yanına istənilən vaxt gələ bilərdi. Ancaq Kifayətə məxsus olan məlum səbəblərə görə,buna ehtiyac qalmırdı və əlbəətə ki,Elmar ona inanırdı.Dəhşətlisi də bu idi ki,Türkiyəyə qədəm qoyan Kifayət Elmarın ona olan təmiz məhəbbətindən sui-istifadə edirdi. Elmar isə Kifayəti sevdiyi kimi,anası Ziyafətə də hörmətlə yanaşırdı.Elmara görə,heç bir səbəb olmadan,evlərini satıb digər yerə köç edən,Ziyafətgilin hərəkətlərini məişət problemi kimi başa düşürdü.Ailə işlərinə qarışmağı sevməyən,Elmar qaynanası ilə münasibətdə intizamlı olmağa çalışırdı.Elmar çox səmimi,tərbiyəli,zəhmətkeş bir cavan olduğundan öz yerini bilən idi.

Beləcə bir ilə az qalmış bir müddətdə müəyyən qazanc əldə edən,Məsməyə öz işi xatirinə bəzi məsələlərdə köməklik göstərən və Məsmənin Türkiyədəki cinayət tərkibli işlərindən xəbərdar olub,bu işlərdən uzaq olmağa çalışan Kifayət,anası üçün rüsvayçılıq bəlası sayılan,bakirə pozuntusunu bərpa edib,Bakıya qayıtmış oldu.Anası Ziyafətin sevincinin həddi-hüdudu yox idi.Bəs necə?- rüsvayçılığa son qoyulmuşdu,Elmar kimi tərbiyəli bir cavan,

əldən çıxmamışdı.Kifayətin sağalıb gəlməsi Elmarın da sevincinə səbəb olmuşdu.Kifayətlə,görüşəndə ilk sözü bu olmuşdu ki,yanına gələ bilmədiyim üçün gərək məni bağışlayasan.Elmarın bu səmimiliyi qarşısında,Kifayət gülərək onu qucaqlamış və üzündən öpücük edərək məhəbbətini bildirmişdi.Kifayətin təhriki ilə cavanlar,evlənməyə heç bir maneçilik olmadığını qərarlaşdırıb ailə qurmaq üçün toy etməyi məsləhətləşdilər. Gözəl toy saraylarının birində baş tutan toyda,Aytan daha böyük hörmətə layiq olmuşdu.Məsmə isə işi başından aşdığından,toya gələ bilməmişdi.Məsmənin toya gəlməyəcəyini,Kifayət çox gözəl bilirdi.Çünki,son söhbətləri zamanı,hər ikisi belə qərara gəlmişdilər ki,bir-birlərinə qarşı şübhə yaratmasınlar.Beləliklə "təcrübəli fahişə",namuslu və bakirə qız olaraq,səmimi cavan olan Elmarın şəffaf həyatına çirkinlik gətirən bir xanım oldu.

Həyat özünün keşməkeşli axarı ilə davam edirdi.Atası evində cansıxıcı günlər keçirən və ailəsi,uşaqları üçün darıxmağa başlayan Bəsdi, valideyinləri tərəfindən həyatını yaxşılaşdıracaq bir yenilik görmürdü.Özbaşına ər evindən çıxmağının səhv oduğunu dərk edən Bəsdi,əlacsız qalıb ər evinə qayıtmalı olmuşdu.Əslində Mahmud istəməzdi ki,sevərək ailə qurduğu Bəsdisi aylarla evini atıb valideyinlərigilə getsin.Bu müddət ərzində,uşaqları ilə bərabər Mahmudun özü də Bəsdi üçün çox darıxmışdı.Ancaq Mahmud nə etsin ki,bacısı Məsmənin təsiri altında, la-

zımsız fikirlərə düşən və ipə-sapa yatmayan, Bəsdini əlacsızlıqdan islah etmək istəyirdi. Mahmudun boşanmaq bəhanəsinə əl atmaqdan başqa bir çarəsi qalmamışdı.Göründüyü kimi boşanma fikri Bəsdini düz yola gətirməyin yeganə çarəsi olmuşdu və bu çarə də,nəhayət öz müsbət nəticəsini göstərmişdi.Məhkəmədən heç bir çağırış almayan Bəsdi,ərinin onu düz yolda olmadığına görə tənbeh etmək üçün, boşanma məsələsini ortalığa atdığını anlamış və daxilində ona bəraət qazandırmışdı. Valideyinlərigildə yazıq və günahsız Sənubərin başına gələn müsibətləri görən Bəsdi, ər evində belə bir müsibət görmədiyindən, ərini və qaynata-qaynanasını böyük məhəbbətlə yad etmişdi.Valideyinləri tərəfindən təhqir olunan, dilənçi,qaçqın adlandıran bu saf və səmimi dağ adamlarını sevməyə başlamışdı.Məhz bütün bu düşüncələr Bəsdini düzgün gərar verməyə vadar etmişdi.Ailəsinə qayıdan Bəsdini heç nə olmamış kimi qəbul etmişdilər.Uşaqlar,baba və nənə sevincli olmuşdular.Mahmudun təmkinli ,yerini bilən hərəkətləri isə,Bəsdini çox utandırmışdı.Hər dəfə əri ilə qarşılaşanda xəcalət təri onu bürüyərdü.Mahmud çox savadlı,halal zəhməti ilə yaşayan,bəzi cavanlar kimi evlənib ailə yükünü "arvad tərəfə"ötürən kişilərdən deyildi.Qohumçuluğu yüksək qiymətləndirən Mahmud ailə şərəfini də yüksək tutmağı sevən bir adam idi.Bəsdinin onu başa düşməyib,acıq edərək valideyinlərigilə getməsini,heç cür başa düşməyən Mahmud çalışardı ki,qəbul etdiyi qərar düzgün

nəticə versin. Nəslini-kökünü bilmədiyi Bəsdini sevərək qaçıranda və Bəsdini sonradan ipə-sapa yatmadığını görəndə,bunu düzgün olmayan ailə tərbiyəsi nəticəsində yaranan hissiyatın, ağılı üstələməsi kimi başa düşər və talehin qisməti kimi qəbul edərdi.Ancaq indi səhvini başa düşərək, Bəsdinin öz evinə qayıtması,ağılın mənasız hissiyat üzərində qələbəsinin təntənəsi idi.Buda Mahmudda pessimizdən çox nikbinlik yaratmışdı.Mahmud çox istəyirdi ki,gələcəkdə Bəsdi "yüngül yaşayış təzi" keçirən Məsmə kimilərinin təsiri altına düşməsin,ailəsini sevən və öz yaşayış tərzini yüksək tutan,gözü,könlü tox bir ailə xanımı olsun.Mahmud xəyalən, Məsmənin təsirinə düşməmişdən öncə,Bəsdi ilə olan gözəl ailə münasibətlərini yadına salanda dərindən köksünü ötürərdi.İndi isə Bəsdinin ailəsinə qovuşduğunu nəzərə alan və onu ailəyə daha yaxından bağlamaq istəyən Mahmud, realizmdən doğan romantik baxışları ilə real həyata təsir etməyə çalışan bir ər,müəllim və şair təbiətli insana çevrilmişdi.Hərdən Bəsdinin sevən ürəyini riqqətə gətirmək üçün,sevgi,dost etibarsızlığını tərənnüm edən, eyhamlı bayatılar deməyi də unutmazdı:

Dolanır keçir zaman,
Fələk vermir bir aman,
Nə dostda etibar var
Nə yarda əhdi-peyman.

Belə anlarda Bəsdi,kənara çəkilib ailəsinə etdiyi naxələfliyə rəğmən göz yaşlarını tökərdi. Tədricən ailədə gedən is-

tiləşmə,Mahmudun valideyinlərinin üz-göz qırışığını açmış və şən yaşamalarına səbəb olmuşdu.Bəsdi özüdə bilmədən dəyişildiyini,ilk əvvəllər olduğu kimi ailənin hörmətli gəlini olduğunu hiss etməyə başlamışdı.Ailədə olan Mahmud-Bəsdi mehribançılığı nəinki ailədə,hətta yaxın qohum-qonşularda belə şən ovqat yaratmışdı.Mehribançılıq,isti ailə ünsiyyətləri o dərəcəyə çatmışdı ki,Bəsdi zarafatla Mahmuda, onu sevdiyi halda,niyə bir sevgi şeirini həsr etməməsini soruşmuşdu.Hər işində arif olan Mahmuda bir işarə də kifayət etmişdi:

Daima, sevginlə yaşar ürəyim,
Alovu qəlbimdə hey yanar,Bəsdim.
Dilim lal,sevgimi necə söyləyim,
Söyləsəm də nitqim bağlanar,Bəsdim.

Bəsdinin qaşları sanki kamandır,
Kirpiyi ox kimi canı alandır,
Dodağı yanında bal da,yalandır,
Qucsam incə belin,nazlanar,Bəsdim.

Yanağın yup-yumru,gözün qaraca,
Dişlərin mərcan,bir sədəfli bağça,
Mahmudam olsam da,xəstə sarıca,
Varlığım səninçün çuğlanar,Bəsdim.

Yazdığı şeiri ilə Bəsdinin qəlbinə hakim kəsilən Mahmud, əlbəətə ki,həyatından razılıq etməyə başlamış,elə bil

təzəcə ailə həyatı qurmuş yeniyetməyə çevrilmişdi.Çox əziyyətlərə düçar olmuşdu Mahmudgil.Ermənilərin qəfləti hucumundan güc bəla ilə canlarını qurtaran Mahmudgil özləri ilə bərabər düşmənlərdən gizlin, meşəliklə gətirdikləri heyvanların südü,qatığı,yağı hesabına bir təhər,heyvanlarla bərabər çadırlarda yaşamışdılar.Sonralar yiyəsiz,sökülmüş bir daxma tapıb,yan yörəsini düzəldərək aldıqları yardım hesabına dolanmışdılar.Nə etməli idilər,illərlə zəhmət çəkib qurduqları ev,doğma torpaq düşmən tapdağına çevrilmişdi?!İş yox,əhali didərgin!Bir tərəfdə kasıb zümrə,digər tərəfdə müharibədən sui istifadə edib müxtəlif yollarla əlinə var- dövlət keçirmişlərin cah-cəlallı yaşayışı,tikdirdikləri villalar sadə adamları hiddətləndirməməyə bilmirdi. Mahmud cəmiyyətdə müxtəlif xislətli insanların olmasını çox gözəl başa düşürdü.Bu tarixən belə idi,vətən,torpaq sevgisi,xalqa əl tutmaq hamıda eyni şəkildə özünü göstərə bilməzdi.Bütün tarix boyu həm mərdlər,həm də namərdlər cəmiyyətdə olmuşlar.Bunu hətta,torpağını,vətənini itirən, yardım almağa məcbur qalan,vətən,torpaq həsrətini çəkərək,ruhi xəstəliyə düçar olmuş, vətənsizlərin villalarına hiddətlə baxan, xəstə şair də yolboyu oxuduğu şeirində tərənnüm edirdi:

Villaların artır sayı,
Qiymətində yoxdu tayı,
Qaçqınımsa sayır ayı,
Yuxusunda görür "rayı",

Alır yardım aydan ilə,
Nə olacaq bundan belə?

Unudursan torpağını,
Həm damını,çardağını,
Şiş qayalı qar dağını,
Sinəndəki "qor"dağını,
Düşünürsən aydan ilə,
Nə olacaq bundan belə?

Çiyləşmişik başdan-başa,
Başlar dəymir daşdan-daşa,
Səs çıxarma belə yaşa,
Sakitcə vur ömrü başa,
Sual vermə aydan ilə,
Nə olacaq bundan belə?

Belə bir ağır,gərgin dövrdə doğma torpağından didərgin düşmüş sadə,səmimi kənd şairi,yaranmış ziddiyətli dövranı qəbul etməyərək,şeirləri ilə,xəstə olsa belə həqiqət naminə car çəkirdi.Mahmud isə az-çox tarixi oxuduğundan,qaçqınçılıq həyatı yaşamasına baxmayaraq,cəmiyyətdə yaranmış bu əks qütblərin mənasını anlayırdı.Onun fikrincə bərabərhüquqlu sosializm cəmiyyətində varlı-kasıb əks qütbləri, az da olsa mövcud deyildimi?Ancaq indiki dövrdə,varlı-kasıb məsələsi hazırkı ibtidai kapitalizm cəmiyyətinin əsil mahiyyəti idi.Villaları tikənlər,var dövlət

əldə edən işbazlar gələcək burjuaziyanın ibtidai forması idilər.Sonralar formalaşacaq burjuaziya olmadan, kapitalizmin inkişafı əngəlləşmiş olacaqdı.Formalaşacaq burjuylar iş yerləri açmaqla,iqtisadiyyatın inkişafına təkan verəcək və yeni sosial cəmiyyətin formalaşmasına səbəb olacaqdılar.Şübhəsiz ki,dövlətimiz sosial proqramlar qəbul edərək, kasıb-kusub məsələsinə son qoymuş olacaqdı. Mahmud gələcəyə nikbin baxan bir insan idi.Qaçqınçılığın ilk vaxtlarında çadırda yaşadılar,sonra daxma tapıb bir təhər güzəranlarını yaxşılaşdırdılar.İndi şükrlər olsun ki,yataqxanada yer alıblar və heç də pis yaşamırlar.Özündə bir nikbinlik yaradan Mahmud fikirləşirdi ki,vaxt gələcək allahın köməyi ilə,torpaqlarımız alınacaq.Əgər tapdaqda qalmış torpaqlarımızın alınması uzun bir dövr aparsa belə,dövlətimiz bizə ev də verəcək,güzəranımızı da yaxşılaşdıracaq.Məgər bütün bunlar inkişaf olmayacaqmı?Arxalı köpək qurd basar deyirlər.Mənfur düşmənimizin arxası bərkdir.Ancaq vaxt gələcək bu arxa da,öz səhv yolundan dönəcək.Torpaqlarımız da geri qayıdacaq,gedəcəyik öz torpağımıza.İnşallah,gün o gün olsun!

Bu cür nikbin fikirlərlə istirahət gününü başa vurub,axşama şam yeməyi üçün oturmuşdular ki,qapı qəflətən döyüldü. Gələn poçt işçisinin nümayəndəsi idi.İki ay olardı ki,hərbi xidmətə gedən Mahmudun sonbeşik qardaşı Uruddan məktub gətirmişdi. Məktub çox qısa idi.Urud əsgəri xidmət zamanı incidildiyini qardaşına məktub vasi-

təsi ilə bildirmişdi.Mahmud valideyinlərinə Urudun incidilməsi barədə heç nə deməyib ,özlüyündə qardaşının xidmət etdiyi hərbi hissəyə gedəcəyini qərarlaşdırdı.Əlbəətə Mahmud bu incidilmənin səbəbini çox gözəl anlayırdı.Sovet hökumətinin dağılmağına bir az qalmış,Rusiyada hərbi xidmətini başa vuran Mahmud “dembl-salaqa”münasibətlərini öz üzərində hiss etmişdi.Sovet hərbi sistemində böyük bəlaya çevrilmiş “dembl-salaqa”munasibətlərinin, artıq müstəqil dövlət olmuş Azərbaycan ordusunda, buna oxşar münasibətlərin olması,əlbəətə Mahmud üçüm müəmma idi.Sübh səhər avtobusla yola düşən Mahmud axşama yaxın qardaşının xidmət etdiyi hərbi hissəyə çatmışdı.Qardaşı Urudla görüşmək istəyən Mahmuda Urudun növbə xidmətində olduğunu bildirib,səhər tezdən gəlməyi bildirdilər.Uzaqdan gəldiyini bildirən Mahmud, Hərbi hissənin rəhbərini, görüş üçün xahiş etdi.Qırx-qırx beş yaşlarında olan rəhbər komandirin icazəsi ilə,Mahmudun qardaşı ilə görüşməsinə razılıq verildi.Belində əsgəri kəməri olmayan,döyülməkdən üz nahiyələri qızarmış və xeyli sınıxmış Urud heç elə bil özü deyildi.Qardaşını qucaqlayıb bərk təsirlənən Mahmud, hay-küy qaldırmağın mənasız olacağını bildiyindən,Urudu sakitləşdirib əsgərlik həyatında “belə işlərin” olmasını adi hal kimi qəbul etməsini və dözümlü olmasını xahiş etdi.Urud qardaşı Mahmuddan əl çəkmək istəməyərək,dili tutulmuşlar kimi titrəyərək, pıçıltı ilə geri qayıdarsa yeni-

dən döyüləcəyini bildirmişdi.Mahmud başa düşdü ki,qardaşına ciddi sakitlik lazımdır.Odur ki,komandirlə yenidən görüşüb,qardaşını heç olmasa bir axşamlıq gecələcəyi mehmanxanaya buraxılmasına icazə istədi.Xeyli fikirləşən komandir, səhər saat altı tamamda Urudu hərbi hissəyə təhvil verməklə razılıq verdi.Evdə ərköyün böyümüş Urud, gecə yatdığı zaman əsgərlər tərəfindən üstünə su tökülərək döyüldüyünü, qardaşına danışmaqdan çəkinmədi.Mahmud qardaşına:- əslində qanunla, bu incitmələr olmamalıdır,ancaq çox əfsus ki, əsgərlik həyatının yazılmamış qanunları hələ də mövcuddur.Məni də xidmət edərkən incidiblər,otuz beş dərəcə şaxtada çöldə saxlayıblar.Görürsən ölməmişəm.Sən də gərək möhkəm olasan.Yazdığın məktubu,yaxşı ki,mən alıb,anamızdan gizlin saxladım.Sən bilirsənmi,anamız bilsəydi halı çox pis olardı?Bu kimi tövsiyyələrdən sonra,gətirdiyi sovqatlarla qardaşını toxladan Mahmud qardaşının qırxılmış başına tumar çəkərək,onu yuxuya vermiş oldu.Mışıl-mışıl yatan qardaşına diqqətlə baxan Mahmud,onun uşaqlıq vaxtlarını xəyala gətirib təsirlənərək,ona hörmətlə yanaşan komandirə şeir yazmış oldu:

İnsanın insana dayaq olmağı,
Qədimdən bəllidir komandir qağa.
Müdrik olmağın yaşı çox deyil,
Qırxdır,əllidir komandir qağa.

İnsanın daxili onun üzündə,
Əməli bəllidir onun gözündə,
Yalançı olmayır haqqlı sözündə,
Bu hesab həllidir komandir qağa.

Sizdəki gördüm bütün bunları,
Dedim yaddan çıxmaz söhbət anları,
Allah da sevir söz qananları,
Allahın bəllidir komandir qağa.

Səhəri qardaşı Urudu deyilən vaxt hərbi hissəyə təhvil verən Mahmud,yazdığı şeiri komandirə təqdim etmiş oldu.Şeiri oxuyaraq təsirlənən komandir,övladları hərbi xidmətdə olan bəzi valideyinlərın "minnətli" hədiyyələrinə rəğmən,bu şeirin onun üçün qiymətli olduğunu qeyd etdi.Sonra Mahmuda təşəkkürünü bildirərək,Urudu əsil əsgər kimi yetişdirəcəyini deməklə,narahat olmamağı məsləhət gördü.Axşamı evə çatan Mahmud,yoldaşı Bəsdinin şüşəbənddən onu görcək,sevincək uşaqlara atanız gəldi,- deməsi minbir əziyyətlər görmüş bu ailədə xoşbəxtçiliyin davamlı olacağının göstəricisi oldu.

Vəli-Aytan,Qartal-Sənubər ailəsində isə heç bir dəyişiklik olmamışdı.Hansı tərz yaşamın sahibi idilər,elə də yaşayırdılar.Sənubər çox çalışsa da,ailədə müsbətə doğru irəliləyiş olmurdu.Artıq üç yaşına qədəm qoyan kiçik Vəli,öz yaşıdlarından əqli nöqteyi nəzərdən çox geridə qalırdı.Yaşına uyğun olmayan dağınıq danışıq nitqi,bəzən əsə-

bi və şit hərəkətləri Sənubəri bərk narahat edirdi.Bütün bunların səbəbini hamilə vaxtı keçirdiyi həyəcan və stresslərdə görən Sənubər,allahın ona yazdığı taleh və qismətlə barışmalı olurdu.Sənubər üçün ailə çox müqqəddəs idi və bunun üçün də,ailəni qoruyub saxlamağı, bir ana kimi əsas borcu hesab edirdi.Məhz bunun nəticəsi idi ki, ailədə yaranmış problemləri böyütməməyi,haray-həşir qopartmamağı Sənubər sevməzdi.Anası Sənəmin "ev oturanın,söz götürənin" məsəlini sırğa edib qulağından asmışdı.Sənubəri narahat edən əsas məsələ,Qartalın ona və uşağa olan biganəliyi,dəlisovluğu idi. Evdə baş verəcək hər hansı bir problemin "çanağı"günahsız Sənubərin başında çatlayardı.Sənubər çalışırdı ki.Qartal bir ər,kişi olaraq öz sözünün sahibi olsun,yaranmış problemləri ağıl süzgəcindən keçirib,sonra qərar versin.Sənubər onu da başa düşürdü ki,hər bir övlad valideyinlərini sevməli,onlara hörmətlə yanaşmalıdır.Ancaq bununla bərabər,ailəsini də sevməyi bacarmalıdır.Sağlam ailə düşüncəsi ilə ailə qurub,gəlin gələn bu ailədə,mehriban ailə qanunları yox dərəcəsindəydi.Sənubəri ən çox narahat edən,Qartalın öz doğma övladına qarşı ögey və qeyri-insani münasibəti idi. Uşağın çətin danışığı,şitliyi Qartalı bərk əsəbləşdirər və o özündən çıxaraq deyərdi:-Bu uşaq kimə oxşayır mən başa düşə bilmirəm,bizim nəslimizdə belə bir əngəlli uşaq yoxdur.Bəzən Sənubərə eyham vuraraq uşağın Sənubərgilə oxşamasını deyər və belə bir yarımçıq uşaq doğduğuna görə onu

təhqir edərdi.Belə vaxtlarda Sənubər susmağa üstünlük verər,sözü böyütməzdi.Böyütsəydi nə xeyiri olacağdı ki?Onsuzda içərisi Qartal qarışıq,Aytanı,Vəlisi onu günahlandıracaqdı.Aytanın Sənubərə qarşı hucumları isə amansız olurdu. O heyvərə uşağı dünyaya sən gətirmisən,əziyyətini də özün çəkməlisən!-deyərdi,Aytan.Qaynanasının tənəsinə dözməyən Sənubər:-bəli uşağı mən dünyaya gətirmişəm,ancaq hamiləlik zamanı döyüləndə,həyəcan keçirəndə, o vaxt dünyaya gələcək uşağın talehini düşünmək lazım idi.Sənubərin haqlı cavabı,Aytanı cin atına mindirər, o isə öz növbəsində bu söhbəti Qartala çatdırar və son nəticədə Sənubərin döyülmısi,söyülməsi ilə başa çatardı.Bu idi Sənubərin gəlinlik həyatı:-göz yaşları,haqsız yerə danlanmaq,zora məruz qalmaq! Sənubər ancaq lal olmalı,qulluq etməli,onu böyüdüb başa çatdıran valideyinlərinin üzünə həsrət qalmalı idi.Anası Sənəm yataq xəstəsi olsaydı belə,Sənubərin ixtiyarı olmazdı ki,gedib anasına qulluq etsin. Aytan elə bir hoqqa çıxardardı ki,Sənubəri peşman edərdi. Sənubərin haqlı sorğularına baxmayaraq,evə gecələri gəlməyən Qartal müxtəlif bəhanələr gətirərək,sorğulardan yayınar,bəzi hallarda isə təhqirə keçərək:-Sən özünüzə oxşayan uşağınla məşğul ol,sənə nə var mən haralarda oluram!-deyə səsinin tonunu elə qaldırardı ki,təkrar Sənubər nə isə soruşmağa cürət etməzdi.Hətta bir neçə dəfə Qartalın paltarını yuyarkən,yad qadın saçlarını müşahidə etsədə,Qartalın özündən çıxacağını bildi-

yindən susmağa məcbur olmuşdu.Hərdən,xəyala dalan Sənubər, Qartalla evlənməmişdən öncə görüşlərini,bir-birlərinə olan sevgilərini yadına salarkən,evli olandan bəri,Qartalın köklü şəkildə dəyişməsinin səbəblərinə varardı.Əsas səbəbi Qartalın valideyinlərində görsədə,onun məhəbbətinin nifrətə çevrilməsinin səbəbini anlaya bilmirdi.Dəfələrlə anası Sənəmin,qızım bu adamlar"şirəyə"gəliblər,sən bunlar üçün ikinci dərəcəlisən,-desədə, Sənubər məhəbbətin "şirəyə"nə dəxli var?-deyə anasına göz yaşları ilə cavab vermişdi.Sənubərin dünyasına görə,sevgi,məhəbbət elə kövrək hisslərdirki,onu var dövlət meyarı ilə ölçmək olmaz.Öz hisslərində həddindən artıq səmimi olan Sənubər bu cür nadanlığı başa düşə bilmirdi.Ən gərgin anlarında təsəllisini valideyinləri ilə, telefon danışığından alardı.Atası Sənubərlə çox qısa,yəni salam-sağolla kifayətlənərdi,anası isə onun son nicat yeriydi.Sənəm müxtəlif yollarla qızına köməklik edər,qızının ağır həyatına təəssüflənərdi.Fikirlər Sənəm arvadı ağuşuna alardı,əziyyət çək uşaq böyüt,təhsil ver,necə lazımsa toy et,cehiz ver və son məqamda qızının,nəvənin üzünə həsrət qal!Sənəmə qalsaydı qızının bu zülmlü həyatına bir əncam çəkərdi,ancaq Nihadın mənəvi əzablara düçar olmasını istəmədiyindən,məsələni böyütmür və susurdu.Əslində qızı ilə telefon danışığı zamanı Nihad,əsəblərinə hakim olaraq,xirtdəyinə yerimiş qəhəri bilə-bilə çözər və gözündə parıldayan göz yaşı damcısını Sənəm bilməsin deyə silərdi.

Beləcə telefon danışıqlarının birində,Sənəm Sənubərə dayısının qonaq gəlməsini bildirmiş və dayısının gəlişi onu çox sevindirmişdi.Sənubərin üzücü həyatını qardaşı İmran bilməsin deyə,İmranın təkidinə baxmayaraq, Sənəm Sənubərgilə qonaq getməyi lazım bilməmişdi.Sənubər Qartaldan,onun valideyinlərindən min bir dillə bir günlüyə icazə alıb,övladı ilə bərabər anası evinə getmişdi.İmran Sənubəri və oğlunu böyük sevinclə qarşılamışdı.Ailə üzvləri,keçmişləri yada salıb,şad-xürrəm günorta naharına oturmuşdular ki,gözlənilmədən qapı döyüldü.Qapını açan Nihad, gələn müsafirlərin su idarəsindən olduğunu öyrənib,su xətlərinə baxış keçirilməsinə razılıq verməli oldu.Xətlərin sazlığını yoxlayıb qeydiyyat aparan işçilər,su sayğacı olmadığından,adambaşına düşən su haqqının ödənilməsində yanlışlığa yol verildiyini,mənzil qeydiyyatında olan üç nəfərdən,ancaq ikisinin su istifadə haqqının ödənildiyini qeyd etdilər.Sənəm arvad, faktiki iki nəfərin su istifadə haqqını ödədiyindən,ərinin və qonaqların yanında susmağa üstünlük vermişdi.Həməşə təmkinli olan Nihad idarə işçiləri ilə razılaşıb,yerindəcə ödəməni edərək,nahar otağına qayıtmış oldular.Səhəri Sənubəri öz evinə yola salan Sənəm, özünü saxlaya bilməyib su idarəsi işçilərinin onlardan haqqsız olaraq əlavə ödəmə aldıqlarını Nihada bildirdi.Həyat yoldaşına qarşı çox təmkinli olan və onun bütün fikirlərinə hörmətlə yanaşan Nihad,qızı Sənubərin faktiki olaraq ər evində yaşamasına baxmaya-

raq,atası evində qeydiyyatda olduğunu bildirib,su haqqı ödəməsinin ancaq,mənzil qeydiyyatına uyğun olaraq aparıldığını qeyd etdi.Məsələdən az-şox hali olan İmrana təəccüblü gələn o oldu ki,neçə illərdir ailə qurub, ər evində yaşayan Sənubər hələ də yaşadığı mənzilin qeydiyyatında deyildir.Üzünü Nihada tutub,məgər ailə qurulanda ailə müqaviləsi bağlanılmır?-axı bu müqavilədə ər-arvadın məsuliyyəti haqqında müddəalar vardir.Məsələn bizdə,yəni Rusiyada mənzil alınmasından tutmuş ev əşyalarına qədər,kim nə qədər pay qoyubsa müqavilədə əksini tapır,sonra ailədaxili problemlər yarananda müqaviləyə əsasən,pay qoyanlar paylarına sahib olurlar.Eyni zamanda ailə quranlar yaşadıqları mənzildə qeydiyyatda olurlar.Çox ağır təbiətə malik olan Nihad,bu barədə danışmaq istəməsə də,Sənəm qardaşı İmranı başa saldı ki,elə bir qanun bizdə olsa belə,millətimizin mentalitetinə uyğun olmadığına görə işləməyəcək.El qaydası ilə toy edib,qızımıza o qədər cehiz verdik ki,müqavilə yox e,siyahı tutmağı Nihada deyəndə,mənə belə işlərdən uzaq olmağı məsləhət bildi.Nihadın fikrincə övladı ailə quran valideyin, onların xoşbəxtçiliyi üçün çalışmalıdır.Vaxtı ilə qızına toy etmək istəyən dostu Rüstəmin başına gələn əhvalat,onun üçün bir sırğa olmuşdu.Belə ki,qızına elçi gələn Rüstəmin, qardaşı Bəhmən,oğlan tərəfə qız tərəfindən cehiz verildiyi təqdirdə,yaşayacağı evə qeydiyyata düşə biləcəyini soruşanda,elçi gələnlərin ağsaqqalı,öz ağsaqqallığına uyğun

olmayan tərzdə:-biz sizi və qızınızı tanımırıq,hələ qızınız gəlsin görək bir gəlin kimi özünü necə aparacaq,bir övlad dünyaya gətirə biləcəkmi?!Ondan sonra mənzilə qeydiyyat məsələsinə baxarıq!Ağsaqqal xasiyyətində olan ağbirçək qadın isə, özünü saxlaya bilməyib:-yox bir əlindən bir şey gəlməyən gəlin gəlib, at oynadacaq ki,evdə qeydiyyatdayam ev mənimdir,ay-hay tez buyurun!?Qızın canı çıxmalıdı,cehizin də gətirməlidir!Yox bir, çay servizimizi verməliyəm ki,ay gəlin xoş gəlmisən,bəs niyə "lüt"gəlmisən,al servizimizi istifadə et.Elçilərin ağsaqqal və ağbirçəyinin mənasız danışıqlarına dözməyən,Bəhmən ellçilərə:-əgər siz qızı,bizi tanımırsınızsa,niyə tanımadığınız ailəyə elçi gəlmisiniz?Mən belə başa düşürəm ki,sizi gənclərin ailə xoşbəxtçiliyindən çox,cehiz maraqlandırır,sizə verəcək qızımız yoxdur!- deyərək,elçiləri geri qaytarmışdılar.Bəhmən düz hərəkət etsədə,qardaşı Rüstəmin ürəyində xal qalmışdı.Bütün bu əhvalat Nihadı,ailə qurulması məsələsində ehtiyyatlı olmağa,bircə qızının qəlbinə dəyməməyə sövq etmişdi.Nihad çox gözəl başa düşürdü ki,yeni ailə quranların müqaviləsindən çox,cəmiyyətin beynində inqilab etmək ,onları yaranacaq hər yeni qanunlara hazırlamaq lazımdır.Bütün bu həqiqəti əks etdirən həyati hadisələrlə yanaşı,təsadüfi olaraq su idarəsi işçilərinin evə təşrif gətirməsi və qeydiyyat məsələsinə toxunmaları,Sənəmin və İmranın müzakirələri Nihadın ürəyincə olmamışdı.Keçənə güzəşt deyərlər,məsəli ilə köksünü ötürən Nihad,

yoldaşına və qaynına bir daha bu məsələyə qayıtmamağı xahiş etmişdi.

Səhərin pəncərədən boylanan yaz günəşi, otağa işıq saçmış,nəfəscikdən evə dolan yaz mehi axın halında ciyərlərə dolaraq, insanın əhvalı- ruhuna təsir göstərməmiş deyildi.Belə bir əhvalı özündə hiss edən Aytan,yerindəcə gərnəşərək ciyər dolusu təzə havanı udub,gümrahlığını hiss etdiyindən tez ayağa qalxmış oldu.Hələ də şirin-şirin yatan,xorultusu ilə aləmə səs salan Vəliyə nəzər yetirdi.Üzündə təbəssüm yaranmış Aytan Vəlidən nəzərlərini çəkməyərək,dodaqaltı donquldandı:-bədbəxt oğlu, elə bil yüz ilin yuxusuzudu,hələ bir xorultusunun nəriltisinə bax.Xalatını əyninə taxıb şüşəbəndə yaxınlaşan Aytan,sanki yuxu görürmüş kimi,gözünü iki-üç dəfə əli ilə silməli oldu.Gözünə inanmadı,şüşəbəndin qapısını açıb,maşından düşərək əli dolu zənbillə evə yaxınlaşan Məsməni görmüş oldu.Sevindiyindən hay vurdu ki,ay Vəli,Qartal durun, Məsmə qızım gəlir.Tələm-tələsik qapıya qaçan Aytan,Məsməni qabaqlayaraq qapını açıb,mənim balam deyə,Məsmənin üstünə atıldı.Bir azdan Vəli,Qartal və Sənubər də görüşə gəldilər.Məsmə atası,qardaşı ilə görüşüb Sənubərə çatanda Qartala göz vurub,kinayə ilə:-ədə Qartal, bu gəlinə niyə baxmırsan,bu ki çürüyüb əldən gedir! Əlbəətə Sənubər susmağa üstünlük verdi,əks halda nə deməliydi ki? Gəlin gəldiyi gündən ailəni yaxşı tanımışdı və çox gözəl bilirdi ki,ailə doğrunu nahaq etməyi çox qəşəng

bacarır.Məsmə aldığı hədiyyələri paylayıb,vacib işləri olduğunu və bu işlər üçün gəldiyini diqqətə çatdırdı.Aytan, bəs mənim əziz,importnu nəvəm hanı?-deyə soruşduqda,Məsmə yenə kinayə ilə:-annəm, sən eksporta gedən nəvənə qulluq et,mənim kızımın dayəsi var. Birdə ki,bən heç kızımı aylarla görmüyorum.İş adamı olaraq əksər vaxtlarımı xarici ölkələrdə keçiriyorum.Anladınmı, güzəl annəm. Bacısının ədalı türk danışıq tərzinə,parıldayan paltarına heyran olan Qartal,ay bacı nə olar,məni də öz işinə qoş,səninki kimi “xodovoy” olum,yoxsa burada aylıq məvacibə qulluq etməkdən boğaza yığışmışam.Qartalı diqqətlə süzən Məsmə,sən mənim gördüyüm işləri bacarmazsan.Bu sahədə “ağıl” və “təcrübə” lazımdır.Bir çox qanunları yaxşı bilib,bu qanunlardan “sivişməyi”bacarmalısan.Qartal nə qədər bacısını ələ almağa çalışsada, istədiyinə nail ola bilməmişdi.Bir az keçməmiş Aytan sevimli rəfiqəsi Ziyafətə zəng edib:-ay qız, mənə gözaydınlığı ver,Məsməm gəlib!- dedi.Öz aralarında mırtlaşan bacılar,Ziyafətin dəvəti ilə Məsmənin gəlişi şərəfinə, şam yeməyinə dəvət olundular.Arvadının yaxşı damaq sahibi olduğunu duyan Vəli:-bəlkə bizi də qonaq aparasan,Aytancığım,-deyə buyurdu.Elə bil Aytana od qoydular,çöndü nə çöndü:-ay kişi bu yaşa çatmısan bir dostun yoxdur ki,qonaq gedəsən!Bu arvad qonaqlığında sən kişinin nə işi var?Özün də bilirsən ki,Ziyafət dul qadındır.Utanmağın yox,çəkinməyin yox! İstəyirsən getmək nə olar,buğunu qırx,mənim donlarım-

dan birin gey,gedək! Aytanın zəncirvari tənqid və təhqirləri Vəlinin olub qalan keyfini pozmuş oldu.Əslində Ziyafət, qızının Türkiyədən gəlib ailə qurmasından sonra, bəzi üzdəniraq xasiyyətinə bələd olduğu çərənçı Aytandan uzaq olmağa çalışırdı.Aytan isə,öz növbəsində çox çalışırdı ki,Ziyafətlə bərabər Kifayətgilə getsin,lazım olanda bəzi sözlərdən istifadə edib,Kifayətin xoşbəxtliyində az-çox rolu olduğunu, yeri gələndə vurğulasın.Ancaq,bütün bunları başa düşən Ziyafət, qızının əri Elmarın qonaq sevmədiyini Aytana inandırmış, onu qızından uzaq saxlamağı bacarmışdı.Ziyafətə görə,Aytan kefinin bir vaxtlarında açsaydı sandığı,töksəydi pambığı,onda nə olacaqdı?!Qızının xoşbəxt həyatının pozulmasına heç vaxt imkan verməzdi,Ziyafət!Bundan əlavə Aytanın ərciyəzi Vəlinin Ziyafətə meyxoş baxışı,şit gülüşü xoş gəlmədiyindən Aytangilə çox getməzdi.Aytan da az aşın duzu deyildi.Vəlinin Ziyafətə olan həris meylini hiss etmişdi.Elə bunun nəticəsi idi ki,Ziyafətin onlara tez-tez ayaq açmamasını daxilən bəyənmişdi.Aytan gözəl başa düşürdü ki,Ziyafət Vəlini dünyasında bəyənməz.Qaldı ki,Vəlinin Ziyafətə olan meylinin qarşısını almağa,Aytan Vəlisini yerinə oturtdurmağı əla bacarırdı.

Bəli sevimli qonaqlarını qəbul edən Ziyafət,xoş-beşdən sonra onları masaya dəvət etdi.Məsmə Kifayətgilə ayaq basmasın deyə,qızını məclisə dəvət edən Ziyafət sığortalı hərəkət etmişdi.Məsmənin üstünə atılıb onunla

doğma bacı kimi görüşən Kifayət,qonaqlığın daha şən keçməsinə səbəb olmuşdu.Ziyafətin gözəl masa bəzəməsi,Aytan və Məsmənin ürəyincə olmuşdu.Kifayətin qucağında olan uşağı onun övladı kimi qəbul edən Məsmə, uşağı qucağına alaraq marça-març öpüşlərə qərq edib, onu sancmağı da unutmadı.Nə qəşəng uşağın var ,ay Kifayət yaşıl göz,sarı sifət elə bil türk uşağıdır.Kifayətin rəngi qaçsada,Məsməyə büruzə etdirmədi.Gözəlliyi ilə məclisə yaraşıq verən,xalası qızı Minayəni Məsməyə təqdim edən Kifayət,onun necə hallandığını sezmiş oldu.Minayəni görən kimi ağlı başından çıxan Məsmə,özlüyündə:-hayıfki,kişi olmamışam,- deyib,hərislənmişlər kimi udqunmuş oldu.Yemək zamanı tez-tez Minayəni,onun ağappaq mərcan dişlərini,qabarıq dodaqlarını,sinəyə qədər yarıqlı paltarından görsənən ağ mərmər sinəsini,gül ətirli sarı saçlarını, qara kirpiklər dövrəsində bərq vuran yaşıl şəffaf gözlərini nəzərdən keçirən Məsmə,şikarının yaxşı qazanc mənbəyi olacağını anlamış oldu..Həris rəfiqəsinin Minayəyə zillənmiş baxışlarını izləyən Kifayət,naharın şirin yerində Məsməni kənara çəkib,bildirdi:-azca gözünü Minayəyə zillə, aləmi qatarsan bir-birinə.Bayaq qucağıma aldığım uşaq,mənim yox,Minayənindir.Bir uşağı da beş yaşındadir,evdə qoyub gəlib.Bu sözlərdən şaşıran Məsmə bir az özünə ciddilik verib,ay qız bəs sənin uşağın yoxdur bəyəm?-deyə soruşmuş oldu.Kifayət indiyə qədər hamilə olmadığını bildirib,yaşarmış gözlərini ondan gizlətmiş oldu.

Ancaq bunu sezən Məsmə onu sakitləşdirib,nəyə görə hamilə olmadığını soruşdu.Kifayət əri Elmarın cavan vaxtı ağır xəstəlik keçirdiyini və onun heç vaxt övlad sahibi olmayacağını Məsməyə bildirdi.Məsmə Kifayətə ürək-dirək verib,indi bu işə əlacın olunduğunu ona inandırdı və ona inanıb köməklik istəyən Minayənin qarşısına şərt qoydu.Xalası qızı Minayə ilə əlaqə yaratmasına şərait yaratmalı idi. Kifayət vaxtilə Məsmənin ona əlac etdiyini öz üzərində hiss etdiyindən,Elmarın müəyyən müalicə nəticəsində övladı olacağına şübhə etmədi.Odur ki,Məsmənin şərtini qəbul etməyə razılaşdı.Kifayət köməyinin ancaq,xalası qızının telefon nömrəsini verməklə bitmiş olacağını qeyd etdi.Eyni zamanda,Məsmənin hansı yuvanın quşu olduğunu bildiyindən,özünü baş verəcək hər hansı hadisədən sığortalayaraq, xalası qızı ilə bağlı digər məsələlərdə onu uzaq saxlamağı xahiş etdi.Minayənin telefon nömrəsini əldə edən Məsmə özlüyündə şikarını ovlayacağına əminlik yaratmış oldu.Nahar otağına daxil olan qızlar musiqiyə yer verib şənləndilər,rəqs etdilər.Rəqs zamanı başdan ayağa Minayəni süzən Məsmə,iki uşağı olan,ancaq gözəlliyi,əndamı ilə ərə getməmiş qızlardan daha şıx,təmtaraqlı görsənən Minayənin bir daha vurğunu oldu. Məsmə öz-özünə danışırmış kimi,-əşi mən qadınlığımla bu anası yanmışa belə vurulmuşamsa,gör bu ehtiraslı kişiciklər bu ay parasına nə qədər pul tökmüş olacaqlar,-deyə cevindiyindən təbəssümləndi.Gecə keçənə qədər

əylənən qonaqlar,Aytanı və Məsməni evlərinə yola saldılar.Evlərinə qayıdan Məsmə bütün gecəni Minayə ilə olacaq gələcək görüşlərinin planını, özlüyündə dəqiqləşdirib,pul qazanmaq eşqi ilə şirin yuxuya getmiş oldu.Səhəri Məsmə ata-anası ilə sağollaşıb, işi ilə əlaqədar başqa yerə gedəcəyini və iki-üç gün ərzində evə qayıda bilməyəcəyini bildirdi.Məsmə şəhərin kənarında Aslanın sifarişi ilə,təmtaraqlı mehmanxanada yerləşdikdən sonra,Minayəyə zəng vuraraq bir vacib məsələ üçün görüşmək istədiyini ona bildirib,görüş razılığını almış oldu.Məsmə həddindən artıq konspirativ qadın olduğundan Minayəyə görüşmələri haqqında kimsənin xəbərdar olmamasını ondan xahiş etmişdi.Minayə isə bu görüşün iki nəfərdən başqa, heç kimin bilməyəcəyini onu əmin etmişdi.Əslində dünənki qonaqlıqda Məsmənin hamıdan çox ona nəzər yetirməsini Minayə hiss etmiş və öz gözəlliyini daha qabarıq şəkildə göstərməyə meyilli olmuşdu.Onun üçün, telefon nömrəsinin Məsmənin necə əldə etməsi,görüşün məğzi maraqlı olmamışdı.Əsas o idi ki,onun gözəlliyi nəinki kişiləri,hətta qadınları da maraqlandırmağa başlamışdı.O öz gözəlliyi ilə kənardan onu müşaiyyət edənləri yandırıb yaxmaqla ləzzət alırdı.

Minayənin əri Nəcəf dənizdə işləyirdi.On beş gün dənizdə işdə,on beş gün evdə istirahətdə olurdu.Nəcəf işdə olan vaxtları Minayə üçün çox darıxdırıcı olurdu.Yaxşı ki,qonşuluqda tənha yaşayan Sələnbər xala var idi.Vaxtilə

Nəcəfin anası ilə rəfiqə olmuş Sələnbər xala Nəcəf olmayanda uşaqlara dayəlik edirdi.İndi Məsmə ilə görüş üçün şərait yaranmışdı.Əri Nəcəf təzəcə dənizə işə getmişdi,uşaqlara isə Sələnbər xala dayəlik edəcəkdi.Minayə əsil su sonası tək bəzənib,daha cəlbedici olmaq üçün ərinin xaricdən gətirdiyi ətirlərdən əndamından tutmuş paltaradək püskürdüb,uşaqları Sələnbər xalaya tapşıraraq Məsmənin olduğu mehmanxanaya getmiş oldu.Təyin olunmuş vaxta az qalmış,pəncərədən həyətə tez-tez boylanan Məsmənin maşından düşən Minayəni görməsi,onun intizarda olan gözlərinə sevinc gətirmiş oldu.Qapını açıb böyük ruh yüksəkliyi ilə Minayəni qarşılayan Məsmə onu qucaqlayanda,yanmışın tir-tir əsən bədəninin istiliyini hiss etmiş oldu.İndi daha gözəl görsənən Minayəni doyunca süzən Məsmə:-yanmış, bütün kişilərin pul kisəsini boşaldacaq bəxtəvərə oxşuyur,-deyə daxili qısqanclığını gizlədə bilmədi.Dünənki qonaqlıqdan danışan rəfiqələr,şampan şərabı süzülmüş qədəhləri nuş etdikdən sonra,şampan şərabının təsiri altında,əsas mətləbə keçdilər.Minayənin gözəlliyindən geniş danışan Məsmə,Minayəni Türkiyədə maneken işləməyə təklif etdi.Minayənin susqunluğunu görən Məsmə, sözünə davam edərək,bunun üçün Minayədən açıq-saçıq şəkillərini ona göndərməyi xahiş edib,şəkillərin maneken komissiyasına müsabiqədə iştirak etmək üçün təqdim ediləcəyini bildirdi.Maşallah, maneken müsabiqəsində iştirak etmək üçün tələb olunan kriteriyələr,yəni

hündür boy,sürahi bədən, uzun qıça,uzun boğaz,daha nə bilim nə desən səndə var.Bəri başdan səni xətircəm etmək istəyirəm ki, elə bilki,sən müsabiqənin qalibisən.Nə qədər pərəstiş edənlərin,böyük maddi imkanın olacaq.Hər dəfə sənə baxanda düşünürəm ki,bu gözəlliyi ki,ilahi sənə ve-rib,niyə bu gözəlliyi "karobka" evdə çürüdürsən?Bu gözəl əndam sahibinin yeri villalar,sonu görünməyən var-döv-lətdir.Minayə Türkiyə,Rus televiziya kanallarında gözəllik müsabiqələrində iştirak edənlərə çox baxmış,güzgü qaba-ğına keçərək özünün müsabiqədə iştirak edənlərdən qat-qat gözəl və əndamlı olduğunu hiss etmişdi.Televiziya kanallarında baxdığı bu gözəllik müsabiqələri onda öz gö-zəlliyinə bir məftunluq yaratmışdı.Ancaq ailəli olmağı,iki uşaq, onu bu məsələlərdən vaz keçməyə məcbur etmiş-di.Digər tərəfdən əri Nəcəf zəhmətkeş,ailəsini sevən bir adam olaraq ,həyatın hər sifətini gördüyündən belə məsə-ləlrdə çox ciddi olardı.Minayə, əri Nəcəf evdə olan za-man,belə verilişlərə cürət edib baxmazdı.Eyni zamanda Minayənin fikrincə bu müsabiqələr onun ürəyincə olsa da, Azərbaycan mentalitetinə uyğun deyildi.Hətta Azərbay-can qızlarının belə müsabiqələrdə iştirak etməməsi onu bu fikirlərdən uzaqlaşdırmışdı.Bütün bu xəyali düşüncələr-lə,Minayə müəyyən mənada daxilən razılaşmasada,Məs-mənin:-nədir bu dörd "korobka" evdə bu cür gözəl ənda-mı çürüdürsən? -sözləri onu sakit buraxmırdı.Nəhayət Məsmənin çox təkidindən sonra,Minayə bir az vaxt istəyib

fikirləşməyi qərara aldı.Ancaq açıq-saçıq şəkilləri necə çəkdirəcəyini ağlına belə gətirməyən Minayə,Məsməyə müraciətlə:-əgər razılığım olsa, onda bəs şəkilləri necə çəkdirəcəm?-deyə soruşmalı olmuşdu.Məsmə gülməkdən özünü saxlaya bilməyib,müraciətlə:-ay qız, sən nə qədər sadəlöhvsən,burda nə var ki,-deyə şikarını başa salmağa məcbur olmuşdu.Mən sənə şəkil çəkən aparat verəcəm,-deyə aparatı zənbilindən çıxardıb Minayəni başa salmağa başladı.Bax bunu belə edib,aparatı beş yaşlı övladına verərək çarpayıya uzanarsan, oda düyməciyi basar,bununla da şəklin çəkilmiş olacaq,-deyə usta şagirdini öyrədirmiş kimi qürrələndi.Həyadan özünü güclə saxlayan Minayə:-ay qız nə danışırsan,elə şey olar heç, ayıb olar ki?Uşağin qarşısında soyunmaq,üstəlik uşağa şəkil çəkdirmək,vallahi biabırçılıqdır! Məsmə dözməyərək,pul qazanmaq,var-dövlət,şan-şöhrət sahibi olmaq,elə-belə olmur!Sonra tilovuna keçmiş Minayəni ehtirasla qucaqlayıb öpüşlərə qərq edərək,onun ağappaq əndamına elə bir sığal çəkdi ki,heç əri Nəcəf ona belə sığal çəkməmişdi.Həyəcandan bədəni tir-tir əsən Minayə,uşaqları qonşuya etibar etdiyini və artıq gec olduğunu deyib,sağollaşaraq Məsmənin qonaq evini tərk etmiş oldu.Evə qayıdan Minayə,şəkil çəkən aparatın zənbilində olduğunu görüb,təəcüblənsədə, təbəssümləndi.Görünür onu qucaqlayan Məsmə,aparatı ondan xəbərsiz zənbilə qoya bilmişdi.Aparatı zənbildən götürüb,yastıq altında gizlətmiş oldu.Uşaqlar artıq şirin

yuxuya getmişdilər.Nənədən öz hədiyyəsini əsirgəməyən Minayə,onu yola salıb,soyunaraq paltarını dəyişmək istərkən,ayna qabağında öz əksini görüb,ayaqdan başa özünə diqqət yetirmiş oldu. Minayə,doğrudan da "korobka" evdə gözəl əndamının çürüdüyünü hiss etdi.Əri Nəcəf evdə olmayanda müxtəlif seriallara,gözəllik müsabiqələrinə baxaraq iştirakçıların rəngarəng və asudə həyatlarını xəyalında canlandıran Minayə, özünə təsəlli verərək düşündü:-şəkili göndərərəm,əgər qalib olub yaxşı pul əldə etmiş olsam,xəyallarımın gerçəkliyinə çata bilərəm.Şirin xəyallarla çarpayıya uzanan Minayə,seriallardakı kimi bəzədilmiş,şəffaf ipək yorğanina bürünərək yuxuya getmiş oldu.

Şəkil çəkən aparatı gizlincə Minayənin zənbilinə qoyan Məsmə,onun zəng etmədiyini görüb,bunun razılıq əlaməti olduğunu yəqinləşdirdi.Şikarının artıq onun qurduğu tələyə doğru addımladığını duyaraq,qazanacağı var dövlət eşqi ilə yuxuya qərq oldu.Səhərisi yuxudan oyanan Minayə əndamını aynada görüb xoşlandı.Yuxudan ayılmış beş yaşlı qızı,ana deyərək onu qucaqlayıb,yanağından bir öpücük etdi.Kiçik oğlunun mışıl-mışıl yatdığını görən, Minayənin yadına şəkil çəkən aparat düşdü.İndi şəkil çəkdirməyin əsil fürsəti idi və əldən vermək olmazdı.Qızını hədiyyələrlə şirnikləşdirən Minayə, çarpayıda müxtəlif pozalarda şəkillərini çəkdirərək rahatlandı.Elə bil boynundan böyük bir yük götürülmüşdü.Aparatdakı şəkillərini nəzərdən keçirən Minayə,heç inana bilmədi ki, şəkillərdə

o özüdür.Şəkillər olduqca cəlbedici və gözəl idi. Məsməyə zəng edib,şəkillərini çəkdirdiyini və aparatı ona qaytarmaq istədiyini bildirdi.Razılaşmaya əsasən,axşam üstü Məsmənin yerləşdiyi mehmanxanaya daxil olan Minayə,otaqdan yaşlı bir kişinin çıxdığını və orada daha iki gənc qızların olduğunu görüb duruxdu.Məsmə qapı önündə duruxmuş Minayəni otağa dəvət edib,yanina təşrif gətirmiş qızlarla onu tanış edərək,onların da maneken müsabiqəsində iştirak etmək arzusunda olduqlarını bildirdi.Gənc qızları hərtərəfli süzən Minayə,onların qadın gözəlliklərini bir o qədər də bəyənməyib,özündə bir üstünlük hiss etdi.Tez-bazar qızları yola salan Məsmə:-hə gözəl Minayə,dəyərsən min gözələ,min ayə,- deyərək,əli ilə təzəcə yola saldığı qızlara işarə edib,o qızların heç biri gözəllikdə sənə tay ola bilməz!-anladınmı gözəllik kraliçası.Aparatdakı şəkilləri nəzərdən keçirərək,dadlı bir meyvə tamından ağzı sulanmışlar kimi,bəh-bəh elə bilki gözəllik kraliçasısan,-deyib onu qalib olacağına əmin etdi. Məsmə və Minayə belə qərara gəldilər ki,Nəcəf dənizdən qayıdıb,on beş günlük istirahətindən sonra,yenidən dənizə işləməyə gedən gününün sabahı,Minayə Türkiyəyə uçmalı olacaqdı.Əri Nəcəf on beş gün işdə olduğu müddətdə,Minayənin manaken müsabiqəsi bu müddət ərzində həllini tapacaqdı.Sonrakı müddəti isə zamanın hökmünə buraxmış oldular.Uşaqlara dayəlik edəcək Sələnbər xalanı isə,hədiyyələr və pulla ələ almaq nəzərdə tutulurdu.Məs-

mə Minayəni xəbərdar edərək,aralarında yaranmış münasibətləri heç kimə danışmamağı və üçüncü bir şəxsin bunları bilməməsini ona ciddiliyi ilə bildirdi.Sonra Məsmə sabahı günü Türkiyəyə qayıdacağını qeyd edərək,gələcək telefon danışıqlarına ara verməyi,konspirativ olaraq onula əlaqə saxlayacaqlarını və bilet alaraq Türkiyəyə yola salacaqlarını bildirmiş oldu.Məsmə tərəfindən yaxşı hədiyyələr alan Minayə,onunla xudahafizləşib şad- xürrəm evinə qayıdaraq,cızdıqları planın gələcək aqibətini gözləməyə qərarlı olmuş oldu.Eyni zamanda,Sələnbər xalanın gələcəkdə lazımlı adam olacağını nəzərə alaraq,Minayə hədiyyələrini də ondan əsirgəmədi.

Nəcəf ata-ananın bircə dənəsi idi. O hələ uşaqkən atası qəza nəticəsində həlak olmuşdu.Atasız, oğlu Nəcəfi ərsəyə çatdıran,sonra toy edib onu evləndirən Məryəm ana bədxassəli xəstəlikdən dünyasını dəyişmişdi.Məryəm ana xəstəliyinin əlacsız olduğunu bildiyindən,neçə illərin qonşusu,yaxın rəfiqəsi olan, ümid bəslədiyi Sələnbər bacısına oğlunu və ailəsini əmanət olaraq tapşırmış,hələ ölməmişkən bayatı ilə,ürək sözlərini Sələnbər bacısına çatdırmışdı:

Əziziyəm qalasız,
Şəhər olmaz qalasız,
Mən ki,getməli oldum
Siz sağlıqnan qalasız.

Məryəmin bu bayatısı Sələnbər nənənin xatirində həmişəlik qalmış və bacısının əmanətlərinə canı dildən qulluq etməyi özünı borc bilmişdi.Hələ dünyasını dəyişməmişdən qabaq,Məryəm ana rəfiqəsi Sələnbərə deyərdi ki,-ay bacı, mən ölmürəm ey,cismim ölür,ruhum isə sizinlə bərabər qalacaq.

Sələnbər nənə canı sulu,cantaraq bir arvad idi.Cavan vaxtları məhəbbət oxu daşa dəydiyindən,qapılarını çoxlu elçilər döymüş,o isə ərə getmək fikrində olmadığını bildirmişdi.Hərdən zarafatla rəhmətlik Məryəmə deyərdi ki,cavanlığımda nağıllarda olduğu kimi "ağ atlımı"gözləyirdim,gəlmədi!- məni intizarda qoydu.Sonradan ərə getmək fikrindən vaz keçdim.Beləcə,Sələnbər xala nə ailə qurmuşdu,nə də övlad sahibi olmuşdu.Xan qızı kimi geyinib- keçinib,sünbül kimi şax gəzərdi.Yaşadığı iki otaqlı ev isə,rəhmətlik valideyinlərindən ona miras olaraq qalmışdı.Sələnbər nənə yarım əsrdən çox yaşadığı bu məhəllədə həm də,"çekist nənə"kimi tanınırdı.Hələ, Nəcəf məktəbli olarkən,məhlədə kirayəçi kimi yaşayan sarıbaş, lal-dinməzin adını "şpion" qoymuşdu,elə hey deyirdi ki,bu sarıbaş köpək oğlu düz-əməlli adama oxşamır.Hökumət adamları bu sarıbaşı həbs edəndə,hamı Sələnbər nənəyə "məhləmizin çekisti"adını qoymuşdu.

Bəli, Sələnbər nənə rəhmətlik Məryəmin əmanət etdiyi bu ailəyə can-başla qulluq edir,ailəyə xətər gəlməsinə heç vaxt razı ola bilmirdi.Uşaqlıqdan Sələnbər nənəni öz

anası qədər sevən,Nəcəf bunu çox gözəl bilirdi.Hər dəfə dənizə işə gedəndə,ümidli olduğu Sələnbər nənəyə rəğmən, özündə bir rahatlıq hiss edirdi.

Həmişə olduğu kimi Nəcəfi işə yola salan Sələnbər nənə, Nəcəfin işə getdiyi gündən bəri, gəlin Minayənin belə tez dəyişilməsini,haralarasa gedib gec gəlməsini şübhələrlə qarşılamalı oldu. Əvvəlki vaxtlardan fərqli olaraq indi özünə sığal çəkərək bəzənməsini,üstəlik evə gələrkən ona hədiyyələr verməsini özlüyündə fikirləşən nənə, daxili bir narahatçılıq yaşamağa başlamışdı.Daha doğrusunu desək,Sələnbər nənənin dalağı sancmışdı.Sələnbər nənə,bu qara fikirləri başından atmaq istəsə də,özü ilə bacarmayaraq, daxilən öz-özünə danışırmış kimi:-vallah dalağım elə sancır ki,eyni ilə o "şpion sarıbaşda"olduğu kimi!Dərin fikirlərə qərq olan Sələnbər nənə,bu gəlin belə dəyişilməzdi,görünür hənsı mərdimazarsa qızın saqqızını oğurlayır!İndi, Nəcəfin gəlməsini ən çox arzulayan Sələnbər nənə,nə qədər çalışsa da daxili narahatçılığını gizlədə bilmirdi.Hər halda Sələnbər nənə ayıq-sayıq olmağı,Nəcəfin ailəsinə nəzarət etməyi öhdəçilik kimi qəbul etmiş oldu.Beləcə, bir on gün kecməmiş,Nəcəfin qapısını cavan,qara gözlüklü birisinin döyməsi,qapını açan Minayənin gülərüz olaraq onu evə dəvət edib,bir neçə dəqiqədən sonra cavanı gülərüzlə yola salması Sələnbər nənənin narahatçılığını daha da artırmış oldu.Narahatçılığa dözməyən Sələnbər nənə qapını döyərək,son vaxtlar böyründəki

ağrılardan gecələr yatmadığını Minayəyə bildirib, məsləhət üçün müraciət etdiyini demiş oldu.Minayə təcili yardım çağırmağı məsləhət görsədə,Sələnbər nənə razı olmayıb bildirdi ki,əgər yenə gecələr ağrılar baş versə deyərəm çağırarasan.Qonşu otaqda multfilmə baxan uşaqlar nənənin səsini eşidib,onun üstünə atılaraq qucaqlayıb öpməyə başladılar.Uşaqlardan böyüyü,nənənin həməşə onu yatırdan zaman oxuduğu bayatını söyləməsi,nənənin qırışığını açmış oldu:

Göydə ulduzlar,
Şaxtalı buzlar,
Cehizsiz qızlar
Bu balama qurban.

Uşağı bərk-bərk bağrına basan nənə,ay sənə qurban olum,bu bayatını deyən dilini yeyim,elə bil ağrılarım getmiş oldu.İndi birin də de,nənən tam sağalsın.Uşaq elə bil himə bənd idi,başladı nə başladı:

Çaydakı qazlar,
Tükün tarazlar,
Cehizsiz qızlar
Bu “nənəmə” qurban.

Sələnbər nənə özünü gülməkdən güclə saxladı.Elə demə mənim balam.Nənən artıq qocalıb,yazıq deyillər o cehizsiz qızlar mənim kimi qocaya qurban olsunlar.Cehizsiz qızlar siz balalarıma qurban olsunlar.Beş yaşlı uşağın cehizsiz qızları Nənəyə qurban deməsi,onu yaman köv-

rəltmişdi.Axır on-on beş ildə heç kim nənəyə belə xoş sözlər deməmişdi.Sələnbər nənə Nəcəfi də çox istəyirdi,uşaq vaxtı onu da çox əzizləmiş və xoş sözlər eşitmişdi.İndi Nəcəf böyük kişi idi,ailə sahibiydi,həm də evdə az-az tapılırdı.Nəcəf təmiz qazancı hər şeydən üstün tuturdu,ancaq rəhmətliyin oğlu ilin altı ayını evdə olmurdu.Uşaqlarla deyib şənlənən nənə,gah gəlini,gəlin mətbəxə keçəndə evi diqqətlə nəzərdən keçirirdi. Birdən hələ bağlanmamış şkafın gözündə şoxlu pul əskinasları və qəribə də olsa üz qabığında təyyarə şəkli olan balaca kitabçanı görərək, şübhələrinin əsassız olmadığına inanmışdı.Yadına düşdü ki,qonşuları Əlimərdan kişi ailəsi ilə birgə Türkiyəyə istirahətə gedərkən, onların aldığı biletlərin də üz qabığında eyniynən elənçi təyyarə şəkili var idi.Pullar,həmən təyyarə biletinə oxşayan kitabça Sələnbər nənəni vardan yox etmişdi.Bir az oturduqdan sonra,evinə qayıdan Sələnbər nənə,daha diqqətli olmağa qərar vermişdi.Həyətə baxan pəncərədən, gözünü zilləyib gəlib gedənləri diqqətlə izləyən nənə,fikirləşirdi ki,əgər Minayə bir yerə getmiş olsa uşaqları mütləq ona tapşıracaq,əgər gələn olsa qapının səsindən nəyi isə bilmiş olacaqdı.Ən yaxşısı həyətə gəlib gedənləri izləmək idi.İşdir qara gözlüklü cavan oğlan gəlmiş olsa, nə isə etmək lazım gələcəkdi.Gözlərini pəncərədən çəkməyən nənə,iki gündən sonra,həyətə gələn qara yekə maşını və maşından düşən həmin qara gözlüklü oğlanı tanımış oldu.Tez qələm-dəftər götürüb,qapısını bağlayaraq

həyətə düşməyə başladı.Elə blokda ikən,əlində qara gözlüyünü fırladaraq pilləkənlə yuxarı qalxan cavanı,diqqətlə nəzərdən keçirib həyətə düşdü.Tələm-tələsik maşının nömrə və seriyasını dəftərinə qeyd edib,kənar binanın yanında gəzişərək,cavan oğlanın nə vaxt gedəcəyini güdməyə başladı.Bir neçə dəqiqə keçməmiş,maşına yaxınlaşan cavan oğlan,heç nə olmamış kimi maşınını sürüb getmiş oldu.Minayəni şübhələndirməmək üçün,Sələnbər nənə mağazaya gedib çörək,süd alaraq,evinə qayıtmış oldu.Bir az həyacanlı olan nənə,Nəcəfin işə getmə tarixini yada salıb hesabladı ki,iki gündən sonra Nəcəf evinə gəlməlidir.Allaha dua etdi ki,Nəcəf gələnə qədər taki bir hadisə olmayaydi. Nəcəf gələndən sonra hər şeyi yoluna qoyacağına özündə əminlik yaratdı.

İki günlük sakitlikdən sonra,Nəcəfin gəlişi ilə uşaqların hay-küylü sevinci, nənəni az da olsa narahatçılıqdan qurtarmış oldu.Nənə şükr edirdi ki,Nəcəf gələnə qədər yaxşı ki,bir hadisə baş vermədi,yoxsa Məryəmin ruhu qarşısında ömür boyu xəcalətli olacaqdı.Bir az keçməmiş,qapını Nəcəfin döyməsi nənənin sevincinə səbəb oldu.Uşaqlarla bərabər otağa daxil olan Nəcəf xoş-beşdən sonra,üzünü nənəyə tutub:-Minayənin dediyinə görə ağrıların var,nə məsələdir belə?Nənə başı ilə Minayənin dediklərini təsdiq edib,xahiş etdi ki,sabahda vaxtı olsa onu həkimin yanına aparsın.Sələnbər nənənin boynunu qucaqlayan Nəcəf,bu nə xahişdir ay ana,allah səni dərddən-bəladan hifz

etsin.Mən rəhmətlik anamın iyisini səndən alıram,uşaqlar isə sənsiz özlərini necə hiss edəcəklər?!Elə günü sabah səhər-səhər,səni aparacam həkimə,narahat olma.Bir az ordan-burdan danışıb şad-xürrəm ayrıldılar.Evə qayıdan Nəcəf,Minayəyə təşəkkür etdi ki,vaxtında nənənin ağrıları haqqında məlumat vermisən,sabah səhər aparacam həkimə.Minayə də,Sələnbər nənə haqqında yaxşı sözlər söyləyərək,xeyli təriflədi və qeyd etdi ki,uşaqlar məndən şox nənələrini sevirlər,bundan da mən çox sevincək oluram.Gecəyə qədər xeyli söhbətləşən ailə, özləri də bilmədən yuxuya getmiş oldular.Ancaq,yuxuya getməyib xəyallara dalmış Minayə allahına yalvarırdı ki,nə olursa, olsun Sələnbər nənənin xəstəliyi yalan olsun.Nənə xəstəxanalıq olsaydı,uşaqlara kim baxacaqdı.Bütün arzuları məhv olacaqdı.Xeyli götür-qoy etsə də,nənədən başqa münasib adam ağlına gətirə bilməyib,ilk dəfə olaraq narahat halda yuxuya getmiş oldu.İkinci narahat yatan isə Sələnbər nənə idi.Yuxusu ərşə çəkilən nənə,qorxurdu ki,birdən deyəcəkləri təsdiqini tapmadı, onda necə olacaqdı?Baş verənləri xəyalında bircə-bircə nəzərindən keçirən nənə fikirində qətiləşdi.Nəcəf məni düzgün başa düşəcək,-deyə özü-özünə təskinlik vermiş oldu.Bütün bu başağrıdıcı fikirlərlə nənə də,narahat olaraq yuxulamış oldu.Sabahısı qapını döyən Nəcəf,Sələnbər nənəni hazır olmağa çağırdı.Beş-on dəqiqəyə gələn taksi ilə,xəstəxanaya yola düşən nənəni,Minayə və uşaqlar yola salıb,tezliklə sağalmasını arzu

etdilər.Xəstəxana həyətinə çatdıqdan sonra,Sələnbər nənə həyətdəki oturacaqların boş olduğunu görüb Nəcəfdən xahiş etdi ki,ürəyi tələsir bir az oturub dincəlsinlər,sonra həkim qəbuluna gedərlər.Nəcəflə bərabər kənar oturacaqların birində oturan Sələnbər nənə,əvvəlcədən Nəcəfdən üzr istəyib,deyəcəklərinin yanlış ola biləcəyini nəzərə almaqla,onun olmadığı vaxtlarda baş verənləri olduğu kimi söyləmiş oldu.Evinə gələn qara gözlüklü cavan oğlanın maşının nömrəsini Nəcəfə təqdim etdi.Nənənin narahatçılıqdan doğan danışıqlarını dinləyən Nəcəf,Minayənin belə bir hərəkətlərə yol verməsinə inanmadığını nənəyə bildirsədə,nənənin narahat qəlbini sakitləşdirmək üçün,ailəsində diqqətli olacağını, qara maşının nömrəsi və qara gözlüklü cavanla ciddi maraqlanacağını qeyd etmiş oldu.Ürəyini boşaldan Sələnbər nənə həkimə getməyin mənasız olacağını deyərək,Minayəyə ağrılarının olduğunu bilərəkdən uydurduğunu demiş oldu.

Sələnbər nənənin dediklərində müəyyən qədər həqiqət var idi. Nəcəfi,hələ məktəbli olduğu vaxtlrda Sələnbər nənənin etdiyi"çekistlik"düşündürmüş və beynini işə salmağa vadar etmişdi.Nənənin dediklərinin həqiqətəuyğunluğunu dəqiqləşdirmək üçün,Nəcəf Sələnbər anası ilə bərabər, ilkin gizli plan qurmuş oldular.Guya həkimlərin məsləhətinə görə, nənəyə evdə oturmaq yox, təmiz hava almaq üçün gəzmək lazım olduğunu Minayəyə bildirmək lazım gəlirdi.Evə qayıdandan sonra,Nəcəfin təklifi ilə,Mi-

nayə və uşaqlar nənəylə bərabər gəzintiyə çıxmalı olacaqdılar.Nəcəf isə dincəlmək adı ilə evdə qalıb,nənənin dediyi təyyarə bileti,pullar haqqındakı məsələyə aydınlıq gətirməli olacaqdı.Nəcəf işləri elə qurmağa çalışırdı ki,Sələnbər ananın adı hallanmasın və qəribçiliyə düşmüş olmasın. Beləliklə,Nəcəf və Sələnbər ana,qurduqları plana uyğun hərəkətə keçmiş oldular.

Uşaqlar ana və nənə ilə gəzintiyə gedəcəklərini eşidib,sevindiklərindən bir hay-küy qopardılar ki,gəl görəsən.Sələnbər nənənin elə də bir ciddi xəstəliyi olmadığını bilən Minayə, min dəfə allahına duaçı olmuş oldu.Nənə və uşaqlarla gəzintiyə çıxan Minayə,Nəcəfin təsadüfən pul və adına alınmış təyyarə biletinə rast gələ biləcəyini ürəyinə salıb həyacan keçirsə də,özünü tox saxlamaq üçün allahına üz tutmuş oldu.Hərdən uşaqlar analarından söz soruşmaq istəyəndə,xəyala dalmış Minayənin diskinərək cavablandırması, Sələnbər nənənin gözündən yayınmış olmurdu. Minayəni və uşaqları nənə ilə bərabər gəzintiyə yola salan Nəcəf,evdə ciddi axtarış edib,şkafda çay servizinin içində gizlədilmiş təyyarə biletini və Türk,ABŞ,Azərbaycan pul əskinaslarını görüb, dəhşətə gəlmiş oldu.Əsəbindən gözləri hədəqəsindən çıxan,üz-gözündən sel kimi axan təri silən Nəcəf təyyarə biletinin onun növbəti işə gedən gününün sabahına alındığını görüb,dodağını elə dişlədi ki,dodağı parça-parça oldu.Əsəblərini sakitləşdirib özünü ələ alan Nəcəf,evi səliqə sahmana salıb,daxili həyə-

canını boğaraq heç nə olmamış kimi kürsüyə dirsəklənərək,maşın nömrəsiylə cavan oğlanı müəyyənləşdirməyi,hadisələrin gedişatını izləməyi bir məqsəd olaraq qarşısına qoymuş oldu.Ürəyində Sələnbər nənəyə minnətdarlıq hissləri aşılayan Nəcəf,divardan asılı olan anasının şəklinə üzünü tutub:-ay ana, sənin əziz bacın Sələnbər ana indi mənə öz balası kimi baxır,mənə analıq,nəvələrinə nənəlik edir.Rahat uyu ay ana,yaxşı ki,bu dünyada Sələnbər ana kimi talismanımız var!-demiş oldu.Bir neçə saatdan sonra səsli-küylü uşaqlar qapını döyməyə başladılar.Özünü ələ alan,çarpayının yorğanını açıq saxlayan Nəcəf guya yuxulu olaraq qapını açıb,uşaqları,Minayə və nənəni otağa buraxmış oldu.Sələnbər nənəni bərk –bərk qucaqlayaraq bağrına basan Nəcəf,-başına dönüm ay ana,sənə bir şey olsa allah eləməmiş,biz sənsiz nə edərik,-deyə qəmginliyini ifadə etmiş oldu.”Çekist”nənə Nəcəfin bu hərəkətlərindən belə başa düşdü ki,şübhələri özünü doğruldub.Ürəyinin sakitləşdiyini hiss edən nənə,evinə dönməyin vacibliyini duyduğundan,gəzintinin insana olan köməyini diqqətə çatdıraraq,ağrılarının daha olmadığını deyib, evinə getmiş oldu.Nəcəfin israr etməyinə,istədiyin qədər qal,bura da sənin evindir,deməsinə baxmayaraq və deyilənlər nənənin ürəyincə olsada,nənə evində tənha dincəlməyi üstün tutmuş olmuşdu.Evinə dönən Sələnbər nənəni fikir götürmüşdü ki,bu gəlinin niyə saqqızı oğurlansın,axı Nəcəf onu əlinin içində saxlayır,gül kimi balaları var.Nə lazımdır da-

ha bu qadına? Birdən rəhmətlik Məryəmin hələ sağlığında söylədiyi bayatı yadına düşmüş oldu:

Ağ alma,gözəl alma,
Payızdan əzəl alma,
Çirkin al əsil olsun
Bədəsil gözəl alma.

Nəcəf ailə qurmaq istəyən zamanlarda,anası Məryəm tez-tez bu bayatını Nəcəfə deyərdi.Minayə gəlin gələndən bu yana,onun nə valideyinləri,nə də bir qohumu bu qapını bir dəfə də olsun açmamışdılar.Səbəbini Sələnbər nənə bilməzdi.Nə Məryəmin sağlığında nə də rəhmətə gedəndən sonralar da,ailə işlərinə qarışmazdı.Nənə üçün əsas o idi ki, ailə sirri dörd divardan kənara çıxmamalıdır. Əgər Minayənin bu cür tez dəyişilən hərəkətləri,zəhrimar təyyarə bileti,qara gözlüklü cavan oğlan,ən əsası rəhmətlik Məryəmin əmanətçisi olmasaydı,o yenə də ailə işlərinə qarışmazdı.

Nəcəf çox çalışırdı ki,hisslərini cilovlasın,şübhələrini büruzə etdirməsin.Odur ki,uşaqlarla zarafatlaşır,onlara dənizdə olan olaylardan nağıl kimi danışırdı ki,yorğun uşaqlar şirin yuxuya getsinlər.

Gəzintidən evə qayıdandan sonra Nəcəfdə şübhə doğuracaq əlamətlərin olmadığını duyan,Minayə isə maneken xəyalları ilə artıq çoxdan yuxuya getmişdi.Minayəni ilk dəfə görürmüş kimi,onu diqqətlə nəzərdən keçirən,bütün əndamını ayaqdan başa qədər süzən Nəcəfin isə gözü-

nə yuxu getmirdi.Gəzləri dolmuş Nəcəfin yadına anası düşmüşdü.Əsilli-nəsilli qızları bəyənməyən Nəcəf,tibb bacısı işləyən Minayəyə vurulmuşdu.Minayənin danışığından belə məlum olmuşdu ki,anası atasına xəyanət etmiş,bu xəyanətə dözməyən ata boşanaraq, bir qızı Minayəni tərgidib,Rusiyaya getmişdi.O vaxtdan bəri ondan xəbər-ətər yox idi.Anası isı başqa bir kişi ilə ailə qurmuşdu.Atalığı əndamlı Minayəyə hərislənmiş,bunu duyan ana qızını,başqa bir şəhərə tibb məktəbində oxumağa göndərmişdi.Sonralar atalığı anasından qisas alaraq onu öldürüb ömürlük məhkum olmuşdu.Bütün olanları anası Məryəmə danışıb,onun ailə qurması üçün razılıq əldə etməsi heç də asan olmamışdı.İndi həyat yoldaşını süzən Nəcəfin yadına anasının tez-tez təkrarladığı bayatının son misraları düşmüşdü:

Çirkin al əsil olsun
Bədəsil gözəl alma.

Gözləri yaşla dolmuş Nəcəf,Sələnbər ananın varlığından toxluq duyub,ziyanın yarısından da geri qayıtmağın,ailəni qoruyub saxlamağın vacibliyini düşünərək,allahına üz tutdu ki,taki xəyanət ,namussuzluq olmayaydı.Bütün bu fikirlərlə,sabahın açılmasını səbirsizliklə gözləyən Nəcəf,özü də hiss etmədən bərk yuxuya getmişdi.Səhəri uşaqların səsi Nəcəfi oyatmış oldu.Əl-üzünü yuyb səhər yeməyinə oturan Nəcəfin parçalanmış dodağını görən Minayə,həyacanlı olaraq Nəcəfdən soruşsada,elə

bir dolğun cavab ala bilmədi.Qapını açan zaman,dodağının qapının küncünə dəydiyini bildirib,keçib gedəcəyini və boş şey olduğunu qeyd etdi. Bir azdan Nəcəf vacib işi olduğunu Minayəyə bildirərək,uşaqları öpüb bayıra çıxmış oldu.Vaxtilə orta məktəbdə dostluq etdiyi və indi polis idarəsində əməliyyatçı işləyən Əyyubu yadına salıb,polis idarəsinə getmiş oldu.Məktəbli dostunu hörmətlə qəbul edən Əyyub,nə əcəb buyurduğunu ondan soruşdu.Maşının nömrəsini dostu Əyyuba verən Nəcəf,onun üçün inanılmaz olan, bəzi məsələlərə aydınlıq gətirmiş oldu.Məlum oldu ki,qara maşınla gəlib Nəcəfin qapısını döyən şəxs əslində qadın alveri ilə məşğul olan bir şəxsdir.Artıq polislər neçə vaxtdır ki,onun izinə düşüblər.Əsəbdən yaralı dodağını birdə dişləmək istəyən Nəcəf,Türkiyəyə alınan bilet və müxtəlif pul əskinaslarından danışanda,məsələnin ciddi və izlənməli olduğu ortaya çıxdı.Dostu Nəcəfi çox yaxşı tanıyan Əyyub,bütün açıqlığı ilə Nəcəfi başa saldı ki,hələ ki,ortada xəyanət məsələsi yoxdur,ancaq xanımın sağlam yoldan uzaqlaşdırılmaq ərəfəsindədir.Bu dəqiqə bizə lazımdır ki,görək Minayəni yoldan çıxardan kimdir və bu qadın alverinin başında kim dayanır?!Sözünə davam edən Əyyub bildirdi ki,düzdür şübhələndiyimiz adamlar var,ancaq şübhə əsas deyil,ortaya fakt qoymaq lazımdır.Əyyubun məsləhəti ilə belə qərara gəldilər ki,Nəcəf heç bir şübhə yaratmadan yaşayışını əvvəlki kimi davam etdirsin.Türkiyəyə Minayə üçün alınan biletin tari-

xi,Nəcəfin istirahətdən sonra işə çıxacağı günün sabahı olduğundan qərara alındı ki,Nəcəf işə getmək adı ilə evdən çıxmalı,sonra konspirativ şəkildə hadisələrin şahidi olmalıydı.Sələnbər ananın bu işlərdə birbaşa iştirakını istəmədiyini,yəni Minayənin xahişinə əsasən uşaqlara dayəlik etmyi arzulamadığını, Əyyuba söyləyən Nəcəfin,ondan aldığı son məsləhət isə belə oldu. Sənin işə çıxmağına bir həftə qalmış,Sələnbər ananı xəstəxanaya yerləşdirmək nəzərdə tutulmalıdır. Bu sahədə polis idarəsinin özü xəstəxana müdiri ilə məsələni yoluna qoyacaqdı.Əgər Sələnbər ana xəstəxanaya yerləşdiriləcəksə,Minayə Türkiyəyə gedəcəyi halda uşaqlara kim dayəlik etmiş olacaqdı?İndiyə qədər belə bir hal olmamışdı ki,uşaqlara Sələnbər nənədən başqa kimsə dayəlik etsin.Əyyub dostu Nəcəfi sakitləşdirib,bildirdi ki,narahatçılığa əsas yoxdur.Minayə və uşaqlar polis işçilərinin tam nəzarətində olacaqlar.Bütün bunlara baxmayaraq Nəcəfi fikir götürmüşdü ki,görəsən Minayə uşaqları kimə tapşırmalı olacaq!?Birdən yadına, gördüyü pullar düşdüyündən,belə qərara gəldi ki,əgər Sələnbər ana olmasa,yəqin ki, Minayə pulla kimi isə dayə tutmuş olacaq.Hər halda polis işçiləri bu işlərlə özləri bilirlər necə məşğul olacaqlar,-deyə özünə təskinlik vermiş oldu.Əyyub tərəfindən Nəcəfə tapşırıldı ki,bütün bu məsələlərdən nənəni uzaq saxlamaq üçün,onunla təklikdə özü söhbət etsin və konspirasiya qaydalarına əməl olunsun.Əyyub

dostunu arxayın edib,onu sakitliyə dəvət edərək,sağollaşdı.

Evə qayıdan Nəcəf,bir az yorğunluğunu alıb,Minayədən bu gün Sələnbər nənə ilə gəzintiyə çıxıb-çıxmadıqlarını soruşanda,Minayə başı qarışıq olduğundan yadına düşmədiyini təssüflə bildirdi.Həcəf həyat yoldaşının üzünə sığal çəkərək,heç bir şey olmamış kimi,Sələnbər nənənin təmiz hava almaq üçün gəzintisinin vacib olduğunu bildirdi.Pencəyini əyninə taxıb,nənənin qapısını döyərək,onun qoluna girib gəzitiyə aparmış oldu.Binadan xeyli aralanandan sonra,Sələnbər ananı bərk-bərk qucaqlayıb öpən Nəcəf,-ay ana sənə mənim bu canım qurban,nə yaxşı ki,sən varsan!Əgər vaxtında bu işin üstü açılmasaydı,ailəm dağılacaq,özüm isə el arasında biabır olacaqdım.Sonra Nəcəf Minayənin aldadılmaq ərəfəsində olduğunu,hələ bəlli olmayan bəzi şirnikləndirici bəhanələrlə saqqızının oğurlandığını nənəyə danışıb,polis idarəsində olduğunu və aldığı məsləhətləri nənəyə bildirdi.Bu məsləhətlərdən biri də,sənin xəstəlik adı ilə xəstəxanaya yerləşdirilməyindir.Nənə ağzını açıb:-axı, mən xəstə deyiləm,necə xəstəxanaya yerləşdiriləcəm?- desədə,Nəcəf bu məsələ ilə polis orqanlarının məşğul olacağını bildirdi.Tam sakitləşməyən ana,bəs sən işdə olacaqsan,uşaqlar kimə tapşırılacaq?-soruşanda,narahatçılıqdan çox dərinlərə gedən ananın "çekistliyi"Nəcəfin yadına düşmüş oldu.Ay ana,sənə qurban olum,bilirəm çox narahatsan,ancaq xatir-

cəm ol ki,bu işlərlə ancaq polis işçiləri məşğul olacaqlar,hər işdə yolunda olacaq arxayın ol! Ananı sakitliyə çağıran Nəcəf ondan bu barədə bir kəlmə danışmamağı xahiş edib,evə qayıtmış oldular.Evinə daxil olan Nəcəf Sələnbər nənənin yenə ağrılardan əziyyət çəkdiyini Minayəyə bildirmiş oldu.Xeyli sükutdan sonra,Minayəyə üz tutan Nəcəf,gərək nənənin qeydinə qalaq,haqqı boynumuzda çoxdur.Minayə isə tutulmuş və karıxmış halda razılığını bildirsə də,onun bu halı Nəcəfin gözündən yayınmadı.Bir neçə gündən sonra Sələnbər nənə xəstəxanaya yerləşdirildi.Minayənin ümid yeri bağlandığından,onu fikir götürdü ki,bəs uşaqları kimə tapşırmalı olacağam.Yeganə ümid yeri xalası Ziyafət idi.Ziyafət pul,var-dövlət hərisi olduğundan Minayə belə düşündü ki,xalasını hədiyyə,pulla ələ ala biləcək.Artıq Nəcəfin işə çıxmasına bir gün qalmışdı.Özü isə birisi gün Türkiyəyə uçmalı olacaqdı.Özünü tənbeh edən Minayə dara düşdüyünü hiss edərək,Məsmə ilə tanış olan günə qarğıdı.Nəcəfi həyacanla yola salan Minayə, ərinin ona həyəcanlanmamağını,on beş gün nədir ki,tez keçib gedəcək,- deyə bildirməsini bir təhər gülümsəməklə qəbul etsədə,daxilində nəyinsə sanki qırılacağını hiss etmiş oldu. Özünü ələ alan Minayə,sabah xalası Ziyafət gilə getmək üçün ondan razılıq almış oldu.Nəcəf Ziyafətin qızının xəstəlik ucundan Türkiyəyə getməsini,sonra sağalaraq geri qayıdıb ailə qurmasını bilirdi.Minayə və uşaqları ilə sağollaşıb işə gedən Nəcəf,baş verənləri olduğu kimi

Əyyuba danışmış oldu.Əyyub Nəcəfə, verilən məlumata görə təşəkkür edib,Minayənin izlənməsini təşkil etmiş oldu.Əri Nəcəfi işə yola salandan sonra, vaxt itirməyin əbəs olduğunu dərk edən Minayə uşaqları götürüb,xalası Ziyafət gilə getmiş oldu.Minayəni qarşılayan Ziyafət:-ay qız, xeyir ola belə, xəbər vermədən gəlmisən?-deyə soruşanda həyacandan tir-tir əsən Minayə bir daş altdan,bir daş üstdən,- deyib,Ziyafətə pul təklif edərək,olanlardan bəzilərini ona danışıb,ondan on beş gün müddətinə uşaqlara baxmağı xahiş etdi.Çoxlu pul görən Ziyafət:- tək qalmaqdansa,uşaqlara baxaram,sən heç narahat olma!-demiş oldu.Sonra canıyananlıq edən Ziyafət,bəs Türkiyəyə kimin yanına gedirsən,qalacaq yerin varmı?-axı, sən heç Türkiyədə olmamısan,oranı tanımırsan?!-deyə Minayəyə suallar versə də,Minayədən heç bir cavab ala bilmədi.Suallara sükut verən Minayə,xalasından xahiş etdi ki,daha ona sual verməsin.Allah qoysa qayıdandan sonra hər şeyi ona danışacaq,əlavə hədiyyələr də verəcək. Minayədən söz qopara bilməyən Ziyafət,təəcüblü qalsa da,pula olan hərislik onu susmağa məcbur etdi.Artıq Ziyafətin də evi polis orqanları tərəfindən nəzarətə alınmış oldu.Evə qayıdan Minayə ilk dəfə olaraq,evində tək olduğunu görüb dərindən bir köks ötürdü.Sələnbər nənə xəstəxanada,əri işdə,uşaqlar xalası gildə olduğu təqdirdə öz- özünə vurulan Minayəyə maneçilik olmadığından,qapının açarını yoxlayıb,pərdələri çəkərək,anadangəlmə lüt soyunub,çarpayıya

uzanaraq özündə bir razılıq hissi yaratdı.Doğrudan da dörd divar arasında bu cür gözəl əndamı məhv etdiyinə görə,məzəmmətləndi və Məsməyə rast gəldiyinə görə talehinə şükür etdi.Çarpayıdan qalxıb,Məsmənin hədiyyə etdiyi şəffaf xalatı əyninə atıb,gözəllik müsabiqələrində gördüyü kimi bir neçə ehtiraslı poza verərək,gələcəkdəki dəbdəbəli həyat xülyaları ilə,çarpayıya atılıb,ipək yastığını qucaqlayaraq yuxuya getmiş oldu.Səhəri yuxudan kal ayılan Minayə çarpayıda özünü lüt görüb xoflandı.Tez özünü yığışdıran Minayə dünən baş verənləri yadına salıb,əlini keyləşmiş başına vuraraq gülümsəndi.Birdə yadına düşdü ki,bu gün o Türkiyəyə uçmalıdır,ancaq hələ də cavan oğlan ona xarici pasportu gətirməyib.Səhər yeməyini tələm-tələsik nuş edən Minayə pəncərədən həyətə boylanarkən,qara maşının gəldiyini görüb,yır-yığış etməyə başladı.Heç iki dəqiqə keçməmiş xarici pasportu gətirən cavan oğlanın qapını döyməsi ilə çıxmaqları bir oldu.Qara maşına oturub Təyyarə limanına yola düşdülər.Minayəni buraxılışdan keçirən cavan oğlan,tez həyətə çıxıb kiməsə zəng etdiyi vaxt,polislər tərəfindən qandallanıb,xüsusi maşına oturuldu.Bir neçə dəqiqədən sonra,təyyarəyə minmək istəyən Minayə,polis işçiləri tərəfindən həbs edilərək,ikinci bir maşına oturdularaq,təcridxanaya yerləşdirilmiş oldu.İşin xeyiri üçün,  kim tərəfindən Türkiyəyə dəvət olunduğunu soruşduqda,özünü ağlamaqdan güclə saxlayan Minayə kəkələyərək Məsmənin adını bir təhər demiş

oldu.Məsmənin tezliklə həbs olunmasını Türkiyə daxili işlər orqanlarından xahiş edən,istintaqçılar onun interpol yolu ilə də axtarışını elan etdilər.Ziyafətin evinə gələn polis orqan işçiləri,uşaqları nəzarətə götürmüş oldular.İşin nə yerdə olduğunu anlamayan Ziyafət, qohumu Minayənin uşaqları ona tapşırdığını bildirərək,polisə tabe olmayıb əks mövqedə dayansada,məsələnin ciddiliyini görüb susmalı oldu.Polis işçiləri onun ifadəsinin alnmasını zəruri saydılar.Ziyafət ifadəsində Minayənin on beş gün müddətində uşaqlara baxması üçün pul verdiyini və uşaqların anasının Türkiyəyə getdiyini bildirmiş oldu.Əlavə, and aman etdi ki,Minayə Türkiyəyə nə üçün getdiyini açıqlamamış,ancaq qayıdacağı təqdirdə ona nə üçün Türkiyəyə getdiyini deyəcəkmiş. Uşaqları özləri ilə aparan polis işçiləri,Ziyafətin dilindən iltizam alaraq,bu barədə heç kimlə danışmamağı məsləhət gördülər.Polisləri yola salan Ziyafət xanım,özlüyündə çox fikirləşsə də,Minayənin nə üçün Türkiyəyə getməsini anlaya bilmədi.

Minayənin ifadəsini alan istintaq nümayəndəsi Məsmə ilə harada,nə zaman və necə tanış olduqlarını soruşanda,bəzi qaranlıq məqamlar üzə çıxmağa başladı.Aydın oldu ki,Ziyafət xanımın evindəki şam məclisində Məsmə və Minayənin tanışlığı baş tutmuşdur.İstintaqçılara görə, telefon nömrəsini Kifayətlə yaxınlığı olan Məsmə,elə ondan nömrəni əldə etmişdir.Minayənin ifadəsinə görə,məqsədli olaraq onu ələ almaq üçün,Məsmə onu meh-

manxanaya dəvət etmiş və məqsədinə nail olmuşdu.O da aydın oldu ki,Kifayət vaxtı ilə Məsmənin yanında bir ilə qədər yaşamışdır.İstər –istəməz sual yaranırdı ki,hal-hazırda Kifayətlə Məsməni birləşdirən hər hansı bir əlaqə mövcuddurmu? İstintaqa cəlb edilən Kifayət əri Elmar bilməmək şərti ilə,ifadə vermiş oldu.Öz ifadəsində Kifayət indiki həyat yoldaşı ilə nişanlı olduğunu və hansı səbəbdənsə tanımadığı şəxslər tərəfindən zorlanaraq bakirəliyinin pozulduğunu qeyd etmiş oldu.Sonralar yeni evə köçdük və qonşuluqda yaşayan Aytanın, Türkiyədəki qızı Məsmənin köməyi ilə,bakirəliyinin bərpa edildiyini bildirmiş oldu.Kifayətin tam ifadə verməməsini və nəyinsə istintaqdan gizlədməsini nəzərə alan istintaqçı:-Kifayət xanım, bakirəliyinizi bərpasına qədər Məsmə sizi intim istismarına məcbur etməyibki?-sualı qızın rəngini tamam dəyişdirdi.Hönkür-hönkür ağlayan Kifayət başının işarəsi ilə istintaqçının sualını təsdiq etmiş oldu. Ananız Ziyafət xanımın başınıza gələnlərdən xəbəri varmı?-sualı Kifayəti daha geniş danışmağa məcbur etdi.Bakirəliyi pozulduqdan sonra,başına gələnləri qonşular və ən əsası nişanlısı Elmar bilməsin deyə,anası köhnə evlərini satmış,indiki yaşadıqları evi almışdı.O vaxtdan Aytan qonşu ilə münasibət yaradan anam, Aytanın qızının Türkiyədə yaşadığını öyrənmiş və mənim barəmdə qonşu Aytana danışmışdı.Məsmə anası evinə qonaq gələndən sonra,mənim Türkiyədə müalicəm nəzərə alınmışdı.Lazımi qədər məlumat-

lanan istintaqçı,onun şəhərdən çıxmamasına dair iltizam almış oldu.İstintaqçıdan ayrılan Kifayət,birbaşa anasıgilə gedib başına gələnləri olduğu kimi anasına danışdı.Hadisədən xəbərdar olan Ziyafət,Aytan-Məsmə cütlüyü ilə tanış olduğu günə qarğımış oldu.Ana-bala baş verənləri böyütməməyi nəzərə alıb,son anda nə baş verəcəyini gözləmək qərarına gəldilər.Türkiyə daxili işlər orqanlarından Məsmə haqqında cavab gözləyən istintaqa belə bir məlumat daxil oldu ki,Məsmə Azərbaycandan gətirdiyi bir neçə qızlarla bərabər yoxa çıxıblar,hal-hazırda Məsmənin və digərlərinin axtarışları davam etdirilir.Məlumat üçün bildirilir ki,Məsmənin himayəsində olan qız övladı,keçmiş Türk ərinin nəzarətindədir.Məsmənin əxlaqsızlığına görə boşanan keçmiş Türk ərin baş vermiş hadisələrlə heç bir əlaqəsi yoxdur.Sual yaranırdı.Məsmənin baş verənləri bilib aradan çıxmasına şərait yaradan kim olmuş olar?Qara gözlüklü cavan adlandırdığımız,vaxtilə polis orqanlarında işləmiş,işində yol verdiyi ciddi nöqsanlara görə polis orqanlarından qovulmuş Mətinin Məsməni xəbərləməsi qeyri mümkün idi.Deməli bu işdə əli olacaq digər şəxs və ya şəxslər mövcuddur,hətta belə bir fikir yaranırdı ki,bu işlərin başında duran kimsə var.Təcridxanada olan Mətin qəti şəkildə Məsmədən başqa heç kimi tanımadığını və heç kimlə əlaqəsi olmadığını bildirirdi.

Nəcəfin dostu Əyubbun zəmanəti ilə,Minayəni şəhərdən çıxmamaq şərti ilə evə buraxmış oldular.Evinə qa-

yıdan Minayə Əri Nəcəfi,uşaqlarını,Sələnbər nənəni görüb hönkürərək göz yaşlarını saxlaya bilməyib Nəcəfin ayaqlarına yıxıldı.Baş verənlər uşaqlara təsir etməsin deyə,Sələnbər nənə onları digər otağa apardı.Nəcəfin ayağına yıxılıb göz yaşlarını axıdan Minayə,etdiyi ağılsız hərəkətlərə görə üzr istəyir,uşaqlarının xatirinə bağışlanmasını xahiş edərək yalvarırdı.Onun yalvarışları Nəcəfin də qəhərlənməsinə səbəb olmuşdu.Minayənin etdiyi hərəkətlər Nəcəf üçün başadüşülməz olsada,ziyanın yarısından geri qayıtdıqlarını nəzərə alıb,uşaqları valideyinsiz qoymamaq xatirinə Minayəni bağışlamağı qərara aldı.Nəcəfin bu humanistliyi Sələnbər nənənin ürəyincə oldu.Uşaqlar analarını qucaqlayıb ağlayaraq, bir daha onları tək buraqmamağı xahiş edirdilər.Bütün bunlar Sələnbər nənəni və Nəcəfi gözü yaşlı etmişdi.

Məsmənin tapılmaması,istintaqçılarda onun ailəsinə qarşı şübhələr yaratmışdı.Odur ki,istintaqa dəvət olunan Aytan,Vəli,Qartal,hətta Sənubərə istintaq tərəfindən bildirildi ki,onların yaxın qohumu Məsmə insan alveri ilə məşğul olduğundan,onun barəsində axtarış elan olunmuşdür.Əfsuslar olsun ki,istintaqa hələ ki, məlum olmayan şəxslər tərəfindən məlumatlandırılan Məsmə həbs qəti imkanından yayına bimişdir.Bir ailə üzvü olaraq Məsmənin yerini bildiyiniz təqdirdə polis orqanına məlumat verməlisiniz.Əks təqdirdə cinayət məsuliyyətinə cəlb olunmaq ehtimalı yaranacaqdır.Sənubər eşitdiklərindən şoka düşmüş-

dü.Heç vaxt inana bilməyəcəyi bu murdar hadisələri bir daha eşitməmək üçün,tez ayağa qalxıb rəfiqəsinə buraxmış olduğu uşağını götürərək evə gəlmiş oldu.Bacısına qəzəblənmiş olan Qartal isə, bu da bizim fəxr etdiyimiz Türkiyəli bacımız,qonum-qonşu eşitsə biabır olacağıq,-deyə başını bulamış oldu.Aytan isə ,qızını mudafiə edərək, istintaq işçilərinə qarşı çıxsada,Məsmənin birgə çalışdığı cinayətkarlardan tutulanın fakt olaraq ortaya qoyulması,onu susmağa məcbur etmişdi.Vəli isə ağlamsınmış kimi,gör necə biabır olduq,ə kişi mən hacı adamam,Məsmə bu nalayiq işlərə əl qoyanda heç utanmadı ki,atası əməlisaleh olan bir hacıdır.Aytana elə bil od qoydular,heç kimə fikir vermədən ayağa qalxıb,ərinə qarşı səsini qaldırmış oldu:-ay sənin hacılığın başına dəysin!Niyə başındakı papağından danışmırsan,heç kimə lazım olmayan hacılığından danışırsan?!De görüm kiməsə əl tutmusan,hansısa bir kasıba bir tikə çörək vermisən?-ay bədbəxt!İndiyə kimi bu üç uşaqdan hansının tərbiyəsi ilə məşğul olmusan?Sənin bu yetim qızın Məsmə Türkə ərə gedəndə və Türkiyəyə köç edəndə heç soruşdun ki,qızım kimə ərə getmisən,Türkiyədə nə işin var?Ya o birisi qızın qaçqın köpəkoğluna ərə gedəndə bir köməkliyin dəyibmi?Niyə dilənmirsən,dilini ilan çalıb?!Hələ bir bunun danışığına bax,Məsmə bunu biabır edib,guya!Qız uşağıdır qərib yerə ərə gedib,üstəlik boşanıb,bəlkə ac-susuz qalıb,əlacsızlıqdan bu yola əl atıb.Axır vaxtlarda,heç soruşmusan ki,qızım dolanışığın

necədir?Soruşmamısan,ancaq hacılığından danışırsan!Heç olmasa utan,de ki,uşaqlarımı tərbiyə etməmişəm!Ona görə də,sən gərək hacılığından yox,papağından danışsaydın,hamı da bilərdi ki,tərbiyəsi olmayan qızın aqibəti belə olur.Vəli indiyə kimi Aytandan belə təhqiredici cavab almamışdı,özü də tanımadığı polis işçilərinin yanında.Əsəblərini cilovlaya bilməyən Vəli, əlini Aytana qaldırırmış kimi dilləndi:-səni qurban olasan ki,ağzının tör-töküntülərini lazım olmayan yerdə boşaldırsan,başqa yerdə olsaydıq sənə bir dərs verərdim ki,yetişmişlərin qaldığı yerdə,kalların tökülərdi.Bir himə bənd olan Aytan,xox qorxdum,deyəsən kişi olmaq istəyirsən?!Sənin kimi peysəri mən çoxdan tanıyıram.Əlini yox ha,ayağını qaldırasan mənim üstümə, bundan sonra xeyiri yoxdur.Qulaqları ikrahedici sözlərdən mozol olmuş,polis işçiləri,Vəli və Aytanı yola salaraq onların naməhrəm danışıqlarından canlarını qurtarmış oldular.Bütün bu xoşagəlməz ailə münaqişələrinin şahidi olan Əyyub,belə bir ailədə,ancaq Məsmə kimiləri yetişə bilər,-deyə düşündü.

Evə qayıdan Sənubər,indiyə kimi belə bir səviyyəsiz ailədə yaşamasını möcüzə kimi qəbul edib,daha çox narahatçılıqlar keçirməyə başladı.Nə etməliydi Sənubər?Valideyinlərinin sözlərinə baxmayıb "maskalı artist"Qartala ərə getməsi,səmimi məhəbbətinin Qartal tərəfindən qiymətləndirilməməsi,üstəlik təhqirlərə məruz qalması onu çıxılmaz vəziyyətə salmışdı.İki daş arasında qalmışlar ki-

mi ,bərk sıxıntı keçirən Sənubər, fikirləşirdi ki,uşağı xatirinə bir az gözləsin,əgər çirkin oyunlar ailədə yenə davam etmiş olsa, bu cür alçaq bir ailədə yaşamaqdansa,bütün ömrü boyu xəcalətli qalacağı ata-ana evinə kğçməli olacaqdı.

Polis idarəsindən çıxdıqdan sonra keyləşmiş başını ayıq etmək istəyən Qartal, iş yoldaşından borc aldığı pulun hesabına,özünü kafeyə salmış oldu.Üzünü turşudaraq içdiyi şərab onu düşüncələrə apardı.Bir vaxtlar bacısı Məsmədən onu Türkiyəyə,pul qazanmaq üçün aparmağı xahiş edəndə Məsmənin,-mənim gördüyüm işləri sən bacarmazsan,- deməsini xatırlamış oldu.Ürəyində bacısına istehza edirmiş kimi,"bacarmazsan",gördüm necə bacardın!Bu da sənin aqibətin?! Ancaq mən olsaydım sənin yerinə görərdin,Vəlinin necə qartal oğlu var.İkinci bir stəkan dolu şərabı başına çəkən Qartal Kifayətlə olan gizli münasibətlərini yadına salmış oldu.Gizli görüşlər,eyş-işrət və son anda ərindən hamilə ola bilməyən Kifayətin,ondan hamilə qalmasını bildirməsi və çıxış yolu tapmasını xahiş etməsi baş ağrısının əsas səbəblərindən biri idi.Son ümid yeri və fəxri bacısı Məsmə olduğu halda,o da türməlik olub,baş ağrısına çevrilmişdi. Şərabı, şərab dalıca içən Qartal üçün,doğma övladı,yoldaşı Sənubər maraqlı deyildi.Övladının heç üzünə belə baxmırdı.Elə anası Aytan kimi,hey deyinirdi,bu eybəcər anasıgilə oxşayır,mənə oxşasaydı,mənim kimi gəşəng olardı.Qaldı ki,Sənubərə,atası it oğlu, bir maşını

mənə hədiyyə vermədi.Sənubərin özü isə,guya mədəni-dir,savadlıdır,nə olsun?-eyş-işrətdə heç Kifayətin dırnağı ola bilməz.Mənə qalsaydı,Sənubəri övladı ilə bərabər küçəyə atardım,məni məst edən Kifayətlə ailə qurardım.Elə bu fikirlərlə şərabın qutardığını görüb,yeni şərab sifariş vermək istəyərkən,cibində heç bir qəpik-quruşun olmadığını görüb,borca şərab verilməsini xahiş edəndə,ofisiant-satıcı onun qolundan tutub,sən hələ o biri borclarını qaytar,sonra baxarıq,-deyib onu kafedən çıxarmış oldu.

Bir tərəfdən dərdlənən,bir tərəfdən sevinən Kifayət də iki daş arasında qalmış kimiydi.Çox ciddi və mədəni ailə həyatı yaşayan əri Elmardan hamilə qala bilməyən Kifayət,Türkiyədəki eyş-işrət məqamlarını yad etdiyindən, çılğın Qartalın caynağına keçmiş,ağlına belə gətirmədiyi halda ondan hamilə olmuşdu.Qartal onun ürəyincə olan bir kişi idi,həmdə onun həsrətlə gözlədiyi övladı ona bəxş edib, ana olacağına səbəb olan bir kişi idi.Qonşuda,qohumda körpə uşaqlar görəndə dodağı çatlayırdı Kifayətin.Ana olmaq hissi onu rahat buraxmır və bunun üçün həyatından şikayətlənirdi.İndi o arzusuna bir növ çatmışdı.Ancaq heyfsilinərək filirləşirdi ki,kaş Elmardan hamilə olaydım.Çünki,Elmar ailəcanlı,mehriban və mədəni bir ailə başçısı idi.Elmarın bu məziyyətləri onu daha çox sevimli etmişdi.Anası Ziyafət isə Elmardan ağızdolusu danışar və ona hörmətlə yanaşardı.Qartala gəldikdə isə,öz dəlisov hisslərini cilovlaya bilməyən bu insan,öz çılğın təbiə-

ti ilə Kifayəti özünə ram edə bilmiş və üstəlik həsrətində olduğu övladın ana bətnindəki varlığını ona bəxş etmişdi.Kifayətin bu gizli eyş-işrət oyunlarından əgər Elmar xəbər tutsaydı,onu bağışlamaz və bir dəqiqə də olsun evində saxlamazdı.Xəyanət Elmar üçün yad bir hiss idi.Bunu Kifayət çox yaxşı dərk edirdi.Odur ki,Qartaldan bir kömək cavabı ala bilməyən Kifayət,yeganə ümid yeri olan anası ilə məsləhətləşməyi qərara aldı.Axı, gecikmək biabırçılığa səbəb olardı.Hələ ki,hamiləlik nəzərə çarpmırdı başına bir çarə qılmalı idi.Anasıgilə gələn Kifayət onun çox kefsiz və gərgin olduğunu görüb bir azda həyəcanlanaraq soruşdu:-ay ana nə olub ki,belə qəmginsən?Bir qədər sükutdan sonra,özünə gələn Ziyafət Məsmənin insan alverinə görə axtarışda olduğunu qızına bildirdi. Həyacanından və anasına çata biləcək keçmişindən ehtiyat edən Kifayət,bəs sən hardan bilirsən ki,Məsmə axtarışdadır?Ziyafət xanım bir neçə gün öncə,Minayənin Türkiyəyə getmək fikrində olduğunu və uşaqlarını baxmaq üçün ona tapşırdığını bildirdi. Türkiyəyə təyyarə ilə uçmaq istəyən Minayənin həbs olunmasını deyib,əlavə etdi ki,səhəri günü polislər evimə gəlib məndən izahat alaraq,uşaqları özləri ilə aparmalı oldular.Barmağını dişləyən Kifayət başa düşdü ki,Məsmə ondan Minayənin telefonunu almaqla öz murdar niyyətini həyata keçirmək istəyirmiş.Bu da hansı səbəbdənsə baş tutmayıb,üstəlik də işlə polis məşğul olmağa başlayıb.İndi Kifayəti ən çox qorxudan Məsmənin polislər

tərəfindən həbs ediləcəyi təqdirdə,onunda bu işə bulaşması ehtimalı idi.Qızının qəmginliklə fikirə getdiyini görən Ziyafət,onu ayıldırmış kimi,ay bala mən hələ də başa düşə bilmirəm, daha doğrusu dərk edə bilmirəm ki, bu yanmış Məsmə, necə imkan tapa bilib ki,Minayə ilə dilləşib,onun saqqızını oğurlaya bilib!?Anasının bu sualından hallanan Kifayət özünü ələ alıb,gülə-gülə dedi ki,ay ana məgər sən onları qonaq çağırmamışdın,burada hamımız rəqs edib şənlənmirdik?Yəqin həmən vaxtları imkan tapıb,dilləşiblər.Qızını tərs-tərs süzən Ziyafət:-düzdür qonaq çağırmışdım,ancaq mən Məsmənin düzgün bir qadın olduğuna şübhə ilə yanaşdığıma görə,həməşə onu nəzarətdə saxlamışam.Süfrə başındakı deyib gülməklərindən başqa,onlar bir kəlmə də kəsməyiblər.Yəqin Məsmə bizdən gizlin,hansı bir yollasa onunla xeyli danışıb və ələ ala bilib.Minayəni bir –iki kəlmə ilə yoldan çıxartmaq mümkün deyil,mən ona yaxşı bələdəm.Kifayət Məsmənin Minayə ilə tanışlığına baiskar olsa da,anasına bu barədə bildirməyib,ürəyində bir sirr olaraq saxlamış oldu.Axı necə də bildirəydi,vəziyyətinin bu qeyri münasib vaxtında!Düşdüyü bu sevincli,hamiləlik bəlasından qurtulmaq üçün anasını ələ almağa gəlmişdi.Allah eləməmiş anası ona yaxın durmayaydı,fəlakət qopacaqdı.Hələ Türkiyədə bakirəliyinin bərpasından öncə,Məsmənin təhriki ilə keçirdiyi eyş-işrət oyunlarını anası bilsəydi,yəqin ki,onu heç vaxt bağışlamazdı.Başından qara fikirləri rədd edən Kifayət allaha təvəkgül deyə-

rək,şirin dilini işə salıb,anasının qəlbini oxşayaraq olanları unutmağı və qızının hazırkı vəziyyəti ilə maraqlanmağı xahiş etdi.Anası Ziyafət qızının başını sığallayaraq,sənin nə dərdin var ki,bir övladsızlıqdır,onu da allah yetirəcək,hələ nə yaşınız var ki!? Bir növ anasını muşduluqlamış kimi,başını sinəsinə qoyub pıçıltı ilə,hamilə olduğunu bildirdi.Sevincdən dik atılıb,gözləri yaşaran Ziyafət qızını bağrına basıb,milyon dəfə allaha üz tutaraq şükr etmiş oldu.Elmar bilirmi?-deyə soruşduqda,Kifayət başının işarəsi ilə,bilmədiyini anasına çatdırdı.Əlbət utandığından deməmisən,indi ona zəng edib,sevindirərəm,inşallah!Yerindən dik atılan Kifayət,telefonu cəld götürərək,anasına zəng etməyə imkan vermədi.Qızının hərəkətini uşaqlıq kimi qəbul edən Ziyafət,onu başa salmağa çalışdı ki,yazıq Elmar neçə vaxtdır uşaq həsrəti ilə qovrulub yanır,tay-tuşlarının yanında əzab-əziyyət çəkir.Sən isə, nə özün onu sevindirmirsən,nə də mənə imkan vermirsən ki,kişini muşduluqlayım.Telefonu qızından istəsə də,onun ciddiliyi Ziyafətin dalağını sancıtmış oldu.Qızına çəpəki baxan Ziyafət,qəflətən, olmaya sən də Məsmənin təsiri altına düşmüsən!?-deyə kəskinliklə soruşdu.Yox ana,Məsmənin mənim hamiləyimlə heç bir əlaqəsi yoxdur,mən Məsmənin qardaşı Qartaldan hamiləyəm!Bayaq əldən ürəyini tutub, tirtab yerə yıxılan Ziyafəti,qızı tez su verərək,üz-gözünü soyuq su ilə silərək,özünə gətirə bildi.Göz yaşlarını sel kimi axıdan Ziyafət,kaş bu Aytan və onun ailəsi ilə tanış olduğum günə

bir qara daş düşəydi!-deyib hönkürə-hünkürə iki əlini başına çırpmış oldu.Özünü ağlamsınmış kimi göstərən Kifayət:-ay ana qurbanın olum,özünü və məni üzmə,olan olub,keçən keçib,gəl ana-bala düşdüyümüz bu bəladan qurtulmağın yollarını tapaq.Qızı indiki halda günahkar olsaydı belə,nə edə bilərdi ki,Ziyafət xanım!?Ən çox onu yandıran,kürəkəni Elmarın övlad sarıdan bəxtsizliyi və elə bir alicənab oğlanın,sonralar əldən çıxması ola bilərdi.Hər halda qarşıdan onları xoşagəlməz hadisələr gözləyəcəydi və bu hadisələrdən imkan daxilində qorunmaq lazım gəlirdi.Bir tərəfdən baxanda,bütün ömrünü həsr etdiyi,onun üçün yaşadığı,var-yox bir qızını güdaza verməyəcəkdi ki?Odur ki,qızının anasına olan müraciəti,ağılabatan oldu.Xeyli sükutdan sonra,Ziyafət qızına ultimatum olaraq bildirdi ki,Qartalla olan hər hansı bir əlaqə,münasibət dərhal kəsilməlidir.Sən Qartaldan uzaqlaş,mən onunla danışıb məsələni yerinə qoyacam.Evinə qayıdan kimi,Elmara hamilə olduğunu bildir və qoy Elmar məndən qabaq sənin hamilə olduğunu bilsin.Mən inanmıram ki,Elmar sənin hamiləliyinə şübhə ilə yanaşsın.Sonra hadisələr necə cərəyan edəcəksə,ona uyğun hərəkət etmiş olacağıq.Qızını evinə yola salan Ziyafət,Aytangilin ailəsi haqqında düşüncələrə dalaraq,belə bir ziyankar və mərdimazar ailə ilə yaxınləq etdiyinə görə peşmançılıq çəkmiş oldu.

Qartalı yerinə oturtmaq üçün xeyli planlar quran Ziyafət, qərara gəldi ki,yeganə variant Qartalı qorxutmaq

yolu ilə,onu Kifayətdən uzaqlaşdırmaqdır və belə də etmiş oldu.Qartala zəng edib, vacib iş üçün onu evinə dəvət edən Ziyafət xanım,qızına qarşı etdiyi təcavüzə və qızının hamilə qalmasına görə polisə müraciət etmək fikirində olduğunu bildirmiş oldu.Qartal Kifayət xanımı sevdiyini və ona qarşı zor tətbiq etmədiyini, münasibətlərin ikitərəfli sevgi əsasında yarandığını qeyd etdi.Qartalın gözlənilmədən belə həyasız hazırcavablığı,Ziyafəti əsəbləşdirmiş oldu.Atasından betər əxlaqsız olan bu cavan oğlanı, yenidən qorxutmaq üçün,səsinin tonunu qaldıraraq, onun məsuliyyətsiz bir insan olduğunu üzünə vurub,ailəlikcə əxlaqsız və mərdimazar olduqlarını qəzəblə demiş oldu.Qartalın susduğunu görən Ziyafət,bacısı Məsmənin əxlaqsızlığa yol verdiyinə görə polislər tərəfindən axtarışda olduğunu bildirərək,onu da bu təcavüzə görə həbs etdirəcəyini üzünə vurmuş oldu.Sən məgər bilmirdin ki,Kifayət ailəlidir,əri bilsə aləm qatışacaq bir-birinə,başa düşürsənmi-?!Biz sənin ananla qonşu,rəfiqə ola-ola,sən bu yaxınlıqdan istifadə edib ,qızımı ələ keçirməklə onun gözəl ailəsini dağıtmaq fikrində olmusan.Belə bir axmaq hərəkətə əl atanda,öz ailəndən,balaca uşağından heç utanmadınmı? Ziyafətin gözlənilməz hucumları qarşısında, Qartalın dili tutulmuş və pis vəziyyətə düşmüşdü.Qartalın başını aşağı salıb,pörtmüş halda susması,Ziyafət xanımda belə bir qənaət yaratmışdı ki,indi kefqom oğlan yüz səksən dərəcədə dəyişib və onunla,öz məqsədi naminə aşağı tonla danış-

maq vaxtıdır.Ziyafətin məqsədi,hamilə olan qızının əri Elmar tərəfindən necə qarşılanacağını bilmədiyi halda,Qartalla ikibaşlı hərəkət etmək idi.Odur ki,çox sakit bir tonda Qartala müraciət etmiş oldu.Bax oğlum,sənin ananla olan rəfiqəliyim qabağımı kəsir,həm də ki qonşuyuq,əgər tanımadığım bir adam olsaydın,səni elə hala salardım ki,ömrün boyu türmələrdə çürüyərdin.Ancaq sən mənim ən əziz rəfiqəmin oğlusan,həmdə ki,cavanlığına hayıfım gəlir.Bu dəqiqədən etibarən,qızımdan uzaq durmalı və onu yadından çıxarmalısan.İndi bir səhv işdir,olub keçib.Hələ görək əri bu hamiləliyə necə münasibət bəsləyəcək.Çalışacam ki,bu məsələnin axırı rüsvsyçılıqla bitməsin.İndi sakitcə get evinizə,bu barədə kimsəyə bir kəlmə danışma!Ağzıbütöv olmasan,bu zor günahını boynuna qoydurmaq,mənim üçün çətin olmayacaq.Bütün bədəni tər, su içərisində olan Qartal,evdən bayıra çıxanda,dərindən bir köks ötürüb,ilanın ağzından xilas olan qurbağa kimi,özünü rahat hiss etmiş oldu.Əslində Ziyafət heç də hiyləgərlikdə Aytandan geri qalan deyildi. Qartalı qorxudub qızından uzaqlaşdırmaqla,zəhləsi getdiyi Aytanı özünün əziz rəfiqəsi etməklə,ayaq yeri saxlayırdı.Şər deməsən,xeyir gəlməz,- deyərlər,bəlkə mənim sevgili kürəkənim qızımın hamiləliyini qəbul etməyib, onu xəyanətdə günahlandırıb evindən qovmuş olsa,uşağa kim sahib olmalı idi,əlbəttə ki,Qartal.Qartalın ailəli olması,Ziyafət xanım üçün maraqlı deyildi,həm də azdan-çoxdan bilirdi ki,atası kimi gözü or-

da-burda qalan bu cavan şorgözü ailəsi maraqlandırmır.O öz qızı Kifayətin rüsvay olmamasına və xoşbəxtliyinə çalışan bir qadın idi.

Masa ətrafında oturub nahar edən Kifayətin ağzını əlləri ilə tutub,vanna otağına qaçması,Elmara çox təccüblü gəldi və narahat oldu.Bir neçə dəqiqədən sonra geri qayıdan Kifayət,sevinmiş və utancaq görkəmi ilə Elmarı narahatçılıqdan qurtara bildi.Əri Elmarı qucaqlayıb,qulağına pıçıltı ilə hamilə olduğunu demiş oldu.Vaxtilə həkim yoxlanışı zamanı, həkimin ona heç zaman övlad sahibi olmayacaqsan,müalicə olunmaq da faydasız olacaq,- deməsi,yadına düşmüş oldu.Həməşə dini etiqadı ilı seçilən Elmar,həkimin dediklərini cəfəngiyyat adlandıraraq,özlüyündə həkimə inanmamışdı. Fikirləşmişdi ki, övlad allah payıdır,nə vaxt məsləhət bilsə o vaxt,bu sadə bəndəsini unutmayacaq.İndi budur,yoldaşının hamilə müjdəsi onu göyün ən yüksək nöqtəsinə qaldırmışdı.Odur ki,Kifayətini qucaqlayıb öpüşlərə qərq edən Elmar,yüz dəfə allahına şükr etdi ki, nəhayət övlad sahibi olacaq. Həkimin dediklərinə inanmasa da,övladının olmaması onu hər an məyus etmişdi.Hər dəfə körpə uşaqları görəndə,gözləri yaşla dolmuş,üzünü göyə tutub allahından övlad payı istəmişdi.İndi onun arzusu çin olmuşdu,qurban olduğu ona övlad payı göndərmişdi.Sevincindən həyat yoldaşının nazını çəkmək istəyən Elmar onu həkimə aparmaq istəsə də,özünü

utancaqlığa vuran Kifayət buna razı olmamış və anası ilə bərabər həkimə gedəcəyini bildirmişdi.

Bir neçə gündən sonra Beynəlxalq axtarışa verilən Məsmə,nəhayət Dubayda həbs edilərək,Azərbaycan hüquq mühafizə orqanlarına təhvil verilmiş oldu.İstintaq zamanı özünü günahkar bilməyən Məsmə,heç bir ifadə verməsədə,qarşısına qoyulan fakt qarşısında aciz qalıb,ifadə verərək,bəzi qaranlıq məqamlara aydınlıq gətirmiş oldu.Çünki,istintaqçılar Məsməyə düzgün ifadə verdiyi tərzdə işini yüngülləşdirə biləcəyini ona bildirmişdilər.Yalan ifadə verməyin mənasızlığını dərk edən Məsmə anlayırdı ki,Mətinin tutulması,Minayənin ələ keçməsi nəticəsində,yəqin ki,bir çox məsələləri polis işçiləri aydınlaşdırmışdır.Məsmə Minayə ilə bağlı bəzi məqamlara aydınlıq gətirib susmağa çalışsada,istintaqçıların,Minayənin telefonunu kim sizə verib və siz onunla harada tanış olub, münasibət yaradaraq,onu insan alverinin qurbanına çevirmək istəmisiniz? Əlbəttə bu sual,Məsmə üçün gözlənilməz və dəqiq olduğundan,çək-çevir etməyin boş söhbət olacağını görüb,başqa çıxış yolu görmədiyindən olanları düzgün danışmağa qərar verdi. Məsmə Minayə ilə Ziyafətgildə olan qonaqlıq zamanı tanış olduğunu, onun telefon nömrəsini,keçmiş rəfiqəsi Kifayətdən aldığını və rəfiqəsinin bu işdən xəbərdar olmadığını deyərək,sonradan Minayəni mehmanxanaya dəvət edib, Türkiyəyə “manaken müsabiqəsi” adı ilə gəlməyinin planını qurduğunu, ifadəsində

qeyd etmiş oldu.İstintaqçıların,Azərbaycandan sizə göndərilən qızların təşkilatçıları kimlərdir?-sualından diksinən kimi olan Məsmə başa düşdü ki,daha polis işçiləri ilə gizlənpaç oynamağa dəyməz.Özlüyündə fikirləşən Məsmə,başa düşürdü ki,əgər təşkilatçının adını açıqlamış olsa,onu sağ buraxmazlar.Odur ki,bütün günahları artıq həbs edilmiş olan Mətinin boynuna qoymağı nəzərə aldı.Məsmənin yazılı ifadəsini alan istintaqçılar,Mətini məcburiyyət qarşısında qoymaqla ifadə almaq gərarını verdilər.Mətin keçmiş polis işçisi olduğundan,tilova düşən balıq olduğunu başa düşərək,çabalamağın mənasız olacağını dərk etmiş oldu.Mətin qızları təşkil edib,Türkiyəyə göndərənin və bütün bu işləri maliyyələşdirənin ,çox hörmətli və hamının tanıdığı məmur şəxs olan Aslanın adini çəkəndə,polis işçiləri mat-məətəl qalmış oldular.Polis işçilərinin yaxşı mənada tanıdıqları Aslanın adının Mətin tərəfindən hallandırılması inandırıcı görsənməsədə,hər halda şübhə ilə yanaşdıqları Aslan-Məsmə əlaqəsinə aydınlıq gətirilməsinin vacibliyini qeyd edərək, dərhal fəaliyyətə keçdilər.İlk növbədə Aslanın yaxın keçmişinin konspirativ yolla təhqiqata ehtiyaci olduğu həzərə alındı. Eyni zamanda,Aslanın adını hallandırmaqla Məsmənin necə reaksiya verəcəyini, psixoloqun iştirakı ilə müəyyən etmək lazım gəlmiş oldu.Yenidən ifadəsi alınmağa çağrılan Məsməyə:-Aslan kimdir və sizin onunla münasibətiniz varmı?-deyə soruşulması,Məsmənin ilan vurmuşlar kimi dik atılması və

sifət rənginin dəyişilməsi ilə nəticələndi.Məsmə ancaq onu deyə bildi ki,vaxtilə Aslan müdir müavini işləyərkən,onun katibəsi vəzifəsində işləmişdir.O vaxtdan sonra Aslanı bir daha görmədiyini istintaqçılara bildirərək ,onun haqqında başqa bir məlumatı olmadığını kəskin şəkildə qeyd etmiş oldu.Kadr və maliyyə məsələlərinin yoxlanılması adı ilə,Aslanın əvvəllər işlədiyi müəssisədə aparılan təhqiqat zamanı,istintaqçılara məlum oldu ki,nəinki Məsmə orada işləmiş,üstəlik anası Aytan da vaxtilə Aslanın rəhbərlik etdiyi sexdə, anbardar kimi fəaliyyət göstərmişdir.Keçmişdən işləyən işçilər arasında aparılan sorğu nəticəsində, digər məsələlərdə də düyünün açılması özünü göstərməyə başladı, bir çox mətləblər üzə çıxmış oldu.Ən əsası,Aslanın himayəsi və təhriki ilə,əvvəllər burada işləyən və müxtəlif səbəblərdən Aslanın “məhəbbət” toruna düşən nisbətən yaşlı xanımların,cavan qızları insan alverinin qurbanına çevirmələri üzə çıxmış oldu.Gözlənilməz bir məsələ daha diqqətəlayiq idi. Belə ki,hələ Məsmə yoxlayıcı işləyərkən ailə qurmuş olduğu Nadirin işdən öz xahişi ilə azad olunması və sonralar Məsmənin ondan boşanıb,Aslanın yanında katibə işləməsi idi.Aslanın müdir işləmiş olduğu müəssisədə aparılan təhqiqat zamanı,Məsmənin keçmiş türk əri Mehmetin Aslanla birgə biznes fəaliyyəti,sonralar Məsmənin Mehmetə ərə gedərək,Türkiyəyə köçməsi və istintaqa məlum olmayan səbəbdən Mehmetdən boşanması,Aslan-Məsmə birgə iş birliyindən xə-

bər verirdi. Eyni zamanda tam yəqinlik hasil edirdi ki,bu işin təşkilatçısı hamının hörmətlə adını çəkdiyi Aslandır.İstintaqçılar qəti qərara gəldilər ki,yalnız Aslanın təhriki ilə Məsmə türk ərindən boşanıb və insan alveri ilə məşğul olubdur.Düzdür bu istintaqçıların ciddi fərziyyəsi olsada,təhqiqat zamanı yəqin ki,təsdiqini tapacaqdı.Odur ki,Aslanın tezliklə həbs olunması qərara alındı.Öz sevimli kabinetində həbs olunan Aslan,səsinin tonunu qaldıraraq polis işçilərinə hədə-qorxu gəlməyə,onları təhqir etməyə çalışsada,vəziyyətin ciddi olduğunu anlayıb tabe olmağa məcbur oldu.İfadəsi alınan zaman,Aslan vaxtiylə Məsmənin anası Aytanla bir sexdə işlədiyini və sonradan Aytanın xahişi ilə Məsməni katibə kimi işə götürdüyünü bildirmiş oldu.Hansı səbəbdən polis idarəsinə gətirildiyini bilmədiyinə görə,heyfsiləndi ki,buda yaxşılığa yamanlıq,bilsəydim belə olacaq Aytanın xahişini o vaxt rədd edərdim.Sözünə davam edən Aslan, özünün hörmətli adam olduğunu bildirərək,evə buraxılmasını xahiş etsədə,istintaqçılar insan alverində onun təqsirkar olacağından şübhələndikləri üçün, həbs qəti imkanı seçildiyindən hələlik təcridxanada qalacağını ona məlum etdilər.Sabahısı Aytan xanım istintaqa dəvət olunaraq şahid qismində ifadəsini verməyə məcbur oldu.İlk növbədə Aslanla olan keçmiş və indiki münasibəti haqqında ifadə verməli oldu.Aytan vaxtı ilə Aslanla bir müəssisədə çalışdığını,hələ sex rəhbəri olarkən qayğıkeş rəhbər olduğunu,sonralar Aslanın vəzifəsinin

böyüdüldüyünü,hörmətli bir şəxs kimi yadda qaldığını qeyd etdi.İstintaqçıların:-qızın Məsməni, sizin xahişinizlə Aslan yanında katibə kimi işə götürübmü?-sualına dik atılan Məsmə təəcüblə yox!- deyib,bildirdi ki,mən Aslandan qızımın sexdə adi bir işçi kimi işə götürməsini xahiş etmişəm.Ondan sonra Aslanla mənim heç bir söhbətim ,yaxud xahişim olmayıb.Mən qızımın Aslanın yanında katibə işləməsini, sizlərdən birinci dəfədir ki,eşidirəm. Bir az sükut edən istintaqçıların ikinci bir sualı:-Məsmənin Nadir adlı şəxsə,sonralar Türk Mehmetə ərə getməsi sizinlə razılaşdırılıbmı?Verilən bu suala Məsmənin verdiyi açıqlamalar,bəzi qaranlıq məqamlara da aydınlıq gətirmiş oldu.Belə ki,Məsmənin Nadirə və sonralar türk Mehmetə ərə getməsi ailənin xəbəri olmadan baş verib.Düzdür Nadirin ailəsi Məsmə üçün elçi gələndə,qızımızın inadkarlığını nəzərə alıb,yarıkönül razılıq vermişdik,lakin Məsmə sonralar bizim xəbərimiz olmadan Nadirə qoşulub qaçmışdı.Nadirdən hətta boşanmasını uzun müddət biz bilməmişdik.Sonralar Məsmənin dediyinə görə,hamiləlik baş tutmadığından,Nadirdən boşanmışdır.Bizim xəbərimiz olmadan,Türk Mehmetlə evlənib,Türkiyəyə köç edən,Məsmə dediyinə görə xasiyyətləri düz gəlmədiyindən razılıq əsasında boşanmışlar.Məsmənin,Mehmet ailəçiliyindən bir qız uşaqları vardır və biz bu körpənin hələ üzünü belə görməmişik.İstintaqçının:-bəs qızınız Məsmə bir neçə dəfə hədiyyələrlə sizə təşrif buyuranda,soruşmusunuzmu ki,bu

hədiyyələr sənə hardandır? Aytan ifadəsində bir neçə dəfə qızından soruşduqlarını bildirib,Məsmənin dediklərini olduğu kimi,yəni mağazası,biznesi olmasını diqqətə çatdırmış oldu.Ziyafət xanımın evindəki şadyanlıq məclisində,Məsmənin Minayə ilə olan münasibətinə aydınlıq gətirən Aytan,onların məclis zamanı bir-birini tanımadıqlarını və dərin ünsiyyətdə olmadıqlarını qeyd etmiş oldu.Bütün bu ifadələrdən aydın olurdu ki,Məsmə ailədən uzaq və özbaşına hərəkət edirmiş və eyni zamanda ərlərindən boşanmaq, insan alveri ilə məşğul olmaq üçün aldığı məsləhətlər ancaq bir himayədardan gəlirdi və bu himayədar da,artıq istintaqçılara məlum idi.Türkiyə istintaq işçilərinin Məsmənin keçmiş əri Mehmetdən almış olduğu ifadələr isə,istintaqın işinə müəyyən qədər kömək etmiş oldu.Alınmış ifadədən belə məlum olurdu ki,Aslanla Məsmənin birgə yaxınlığını araşdıran Mehmet,bu yaxınlıqla barışmayaraq, boşanma məsələsini həll etmiş,Məsmə və Aslanla əlaqəsini tamam kəsmişdir.Sonradan Məsmənin düzgün yolda olmadığını görən Mehmet,Məsmə ilə kəskin danışaraq,tutduğu iyrənc yolun uşağa çox pis təsir edəcəyini əsas gətirərək,uşağı bir ata olaraq öz himayəsinə almışdır.O da qeyd olunurdu ki,boşanma zamanı,uşağı himayəyə götürən Məsmə,Mehmetdən xeyli vəsait əldə etmiş və özünə ayrıca ev alaraq,uşaq üçün dayə tutsada,başı mağaza və digər işlərlə qarışıq olduğundan, əslində uşaqla maraqlanmanış,həftələrlə iş dalınca digər şəhərlərə get-

mişdir.Müəyyən qədər böyüyən uşaq,anasını bu günə qədər yadına sala bilmir və atasının himayəsində yaşayır.

Aslanın həbs olunmasının istintaqçılar tərəfindən Mətinə elan olunması,Mətinin düzgün ifadə verməsinə səbəb olmuşdu.Mətin öz ifadəsində hələ polis orqanlarında çalışarkən Aslanı tanıdığını,sonralar işdə yol verdiyi nöqsanlara görə orqanlardan xaric edildiyindən işsiz qaldığını bildsirmiş oldu. Bir çox yerlərə müraciət etsəm də,işə düzələ bilmədiyimdən,sonralar məcbur olub Aslana iş üçün xahiş etməli oldum. Çox hörmət bəslədiyim Aslan mənə,gözləmədiyim halda cavan qızların maneken müsabiqəsinə göndərilməsində köməkçi iş yerinin olduğunu demiş oldu. Bunun üçün,işin gedişatına daha operativ kömək etmək üçün, mənə avtomobil verəcəyini də bildirmişdi.Əsas işimin, xarici pasportlar təşkil etmək və Türkiyəyə təyyarə biletlərini alınmasını təmin etməklə,xanımların Türkiyəyə yola salınmasını təşkil etməkdən ibarət olacağını deməsi,məni qane etmişdi.Mən bu işlərin bir növ turizm olduğunu dərk etdiyimdən razılığa gəlməli olmuşdum.Sonralar Aslan tərəfindən tanımadığım vəTürkiyədə yaşayan Məsmə adlı birisinin telefonu mənə verildiyindən,maneken müsabiqəsinə gedəcək xanımların Türkiyədə qarşılanmasını təmin etmək üçün,yalnız bu xanımla əlaqə saxlamağım tövsiyə olunmuşdu.O cümlədən Minayənin Türkiyəyə göndərilməsini təşkil etmək üçün,bütün təlimatları ancaq Aslandan alırdım.

Aslanın artıq həbs olunduğunu istintaqçılardan eşidən Məsmə,məcburiyyət qarşısında qaldığından düzgün ifadələr verməyə başladı.Verilən suallara rəğmən,Məsmə Aslanın yanında katibə işləməsindən anası Aytanın xəbərsiz olduğunu bildirib,katibə işləmək təklifinin Aslan tərəfindən gəldiyini qeyd etmiş oldu.İstintaqçılara ifadəsində,öz həyat hekayəsinə başlayan Məsmə,hələ sexdə yoxlayıcı işlədiyi zaman,heç kimin xəbəri olmadan ona dəlicəsinə vurulmuş olan Nadirə qoşulub qaçdığını qeyd etdi.Sonralar Nadirin zəif iradəli olması,yaxşı yaşayışı təmin etməməsi və ondan hamilə qala bilməməməyim nəticəsində ondan boşanmışdım.Yalnız bundan sonra Aslandan katibə işləmək təklifini alıb qiymələndirməli olmuşdum. Aslan mənim yüksək yaşayışımı təmin etdiyindən,mən onunla eşq münasibəti yaşamalı olmuşdum.Sonralar Türk Mehmetin Aslanla biznes fəaliyyəti qurmaq istəməsi və Mehmetin məni görərək eşq elan etməsi,son nəticədə mənim ona ərə getməyimlə bitmiş oldu.Mənimlə eşq yaşayan Aslanın bu izdivaca göz yummasının səbəbi sonralar mənə,verdiyi təklifdən sonra aydın olmuş oldu. Türk Mehmetin varlı-hallı olması,gözəl yaşamaq həvəsim və Türkiyəli olmaq eşqi mənim onunla ailə qurmağımı vacib etmişdi.Mehmetlə iş qurmaq istəyən Aslanın sonralar bir neçə dəfə Türkiyəyə gəlişi,Mehmetlə iş birliyinin alınmaması,Aslanın mənə etdiyi təkliflə bitmiş oldu. Bu təklifə görə Azərbaycandan gələn qızların Türkiyədə böyük pul

məbləğində intim istismara qoyulması planlaşdırılırdı.Ailəli olduğumdan mənim bu təklifə tərəddüd etməyim,Aslanın bir neçə dəfə Türkiyəyə gəlişi və razı olmadığım təqdirdə məni şantaj edəcəyi ilə təhdid etməsi, Mehmetlə boşanmağıma səbəb oldu.Mehmetlə boşanıb,müəyyən vəsait əldə etdiyimdən,eyni zamanda Aslanın etdiyi kömək vasitəsi ilə,özümə ayrıca ev alıb,qızıma dayə tutaraq,un məmulatları mağazası da açmış oldum.Ancaq mağazanın az gəlirli olduğunu görüb,böyük gəlir verən təkliflə məşğul olmağa başladım.Türkiyəyə maneken müsabiqəsi adı altında gələn qızların birbaşa təşkilatçısı və rəhbəri Aslan,göndərəni isə Mətindir.Qaldı ki,Minayə haqqındakı bilgi,bəli Minayə mənim bu iş üçün xoşuma gəlmişdi,ancaq Aslan bu işə qol qoymalıydı,o da bunu etmişdi.İstintaqçıların,bəs Mətin və Minayə bizim tərəfimizdən həbs olunduqdan sonra,sizin,qızlarla bərabə qacıb aradan çıxmağınızı kim təşkil etmişdi,yaxud kim xəbər vermişdi. Məsmə ona əvvəlcədən məlum olan telefon nömrəsini "təhlükə" kodu kimi bildiyindən,tanımadığı qadının zəng etdiyini bildirmişdi.Beləliklə istintaqçılar belə qərara gəldilər ki,bütün bu cinayətlərin təşkilatçısı Aslandır.Aslandan ifadə alaraq,onun cinayətkar xislətini sübuta yetirmək lazım gəlirdi.İstintaq üçün yeganə qaranlıq qalan məsələ Mətinin və Minayənin ələ keçirilməsi zamanı,Məsmənin xəbərdar edilməsi və onun son anda qızlarla bərabər yoxa

çıxması idi.Yəqin ki,bu suala elə Aslanın özü cavab vermiş olacaqdı.

Sonuncu dəfə ifadəsi alınacaq Aslana,bildirildi ki,alınmış ifadələrə və aparılmış araşdırmalara əsasən,Məsmənin katibə kimi işə qəbul edilməsini,sizdən Aytan xahiş etməyib.Sizin Məsməyə olan şəhvət və ehtirasınız,son anda onun sizin yanınızda katibə işləməsinə səbəb olub.Onu işə götürməmişdən öncə,həyat yoldaşı Nadiri,əl-ayağa dolaşmasın deyə işdən öz xahişi ilə kənarlaşdırmısınız.Katibə işləyən zaman onunla eyş-işrət keçirmisiniz,sonralar Türkiyəli Mehmetlə iş birliyiniz yaranmışdır.Eyni zamanda Mehmetin Məsməyə olan sevgi münasibətini bildiyiniz halda,bu izdivaca gələcək planlarınız xatirinə göz yummusunuz.Türkiyəyə getdiyiniz zamanlar,Mehmetlə iş birliyiniz alınmadığı üçün,ailəli olan Məsməni şantaj etməıklə təhdid etmiş və Məsmənin ərindən boşanmasına səbəb olmusunuz.Məsmənin razılığını əldə etdikdən sonra,ona himayədarlıq etmisiniz və insan alveri işini həyata keçirmək üçün planlar qurub,necə ki,artıq istintaqla müəyyən olunub, cavan qızların intim istismarına cəlb olunmasını təşkil edib,bir çox gənc ailələrin dağılmasına səbəb olmusunuz.Daşdan səs çıxsada,Aslandan səs çıxmırdı.İstintaqçılar:-Mətin və Minayə polislər tərəfindən həbs olunduqdan sonra,Məsmənin,qızlarla bərabər yox olmasında kimin əli var?-sualını Aslan çox sakitliklə qarşılayıb,bildirdi ki,əgər bu işi biz konspirativ olaraq qurmu-

şuqsa,kimin xəbər verdiyini,əlbəətə mən sizə heç vaxt deməyəcəyəm.Aslanın inadkarlığını görən istintaqçılar vaxt verib, onu bir daha düşünməyə və düzgün nəticə çıxartmağa çağırdılar. Aslanın son ifadəsindən iki gün keçməmiş,növbətçi polis işçisi icazə alaraq,istintaq işinin rəhbərinə verdiyi məlumatla,istintaq işinin yekunlaşmasına təkan vermiş oldu.Aslanın müdir işlədiyi müəssisənin katibəsi,intihar edərək vəfat etmişdi.İstintaq rəhbərinin,hüzuruna gətirtdiyi Aslana katibəsinin intihar xəbərini bildirib:-budurmu qurduğunuz konspirativ işin son nəticəsi-?!Aslan başını aşağı salaraq,verilmiş sualı təsdiq etmiş oldu.Cinayət işinin yekunlaşdığını nəzərə alan,istintaqçılar cinayət işinin məhkəməyə veriləcəyini və son anda Məhkəmənin cinayətlərə uyğun cəzalar tətbiq etmiş olacağını bildirmiş oldular.

Məhkəmə prosesində təqsirləndirilən şəxslər,törətdikləri cinayətləri etiraf edib,peşman olduqlarını bildirsələr də,məhkəmənin qərarı ilə layiq olduqları cəzalarını almış oldular.Məhkəmə prosesində bütün cinayətləri boynuna alan Aslan öz çıxışında böyük nifrət hissi ilə,Aytanla olan cavanlıq münasibətlərini yada salıb keçmişini lənətləmiş oldu.Guya cəza işini yüngülləşdirmək xatirinə,Məsmənin düzgün olmayan həyatında anası Aytanın da,günahkar olduğunu nəzərə çatdıraraq, bunları demiş oldu.Mən sex rəisi təyin olunarkən, həmən bu Aytan adicə tikişçi idi.O zaman ehtiraslı baxışları ilə məni özünə ram

edən,bu sürüşkən xanımı, yaxınlığımız xatirinə anbardar təyin etmişdim.Sonralar sexdə işləyən və təzə işə düzələn cavan xanımları mənimlə tanış edərək,intim münasibətlərin yaranmasına şərait yaratmışdı.Sanki bu xanım məni ehtiras quluna çevirmişdi.Çox təəssüf edirəm ki,əxlaqsızlığını ərindən gizlədən bu xanım utanmadan,məni əri ilə tanış etmiş,hətta əri şübhəçi olmasın deyə,evinə qonaq kimi də dəvət etmişdi. Sonralar Aytan öz qızını işə düzəltmək üçün mənə müraciət edəndə,münasibətlərimiz xatirinə qızını, anası işləyən sexə yox,digər sexə yoxlayıcı kimi işə qəbul etdim. Məsmə özünü eynən anası kimi apardığından,məndə belə bir fikir yarandı ki, açıq-saçıq olan,gözləri oynayan bu cavan qız,heç anasından geri qalmaz.Yaxşı deyiblər:-anası gəzən budağı,balası budaq-budaq gəzər.Məhz bu məziyyətlərinə görə də qız mənim hafizəmə həkk olunmuşdu.Vəzifəm böyüdüldükdən sonra, Nadirdən boşanmış,Məsmə ilə münasibət yaratmaq üçün,onu katibə olaraq işə qəbul edib,onun razılığı əsasında yaxınlıq etmişdim.Mənimlə biznes qurmaq istəyən türk Mehmetin Məsməyə olan münasibətini sezdiyimdən,onların Turkiyədə mənə məqsədlərim üçün lazım olacaqlarını düşündüyümdən bu izdivaca göz yummuşdum.Mehmetlə işimiz baş tutmadığından,Məsmənin ondan boşanmasına səbəb olub,indi həbs olunduğumuz insan alveri məsələsində onu birbaşa istifadə etməyi nəzərdə tutmuşdum və belə də etmiş oldum.Sonrakı hadisələrin gedişatı ilə siz,daha

çox məlumatlısınız.Vaxtilə Aslanın və Aytanın işlədikləri tikiş sexində təhqiqat aparan istintaqçılar,Aslanın onlara danışdıqları əhvalatları araşdırma apararkən müəyyən etmişdilər.Sadəcə olaraq üstündən xeyli vaxt keçdiyindən və məcburən intim istismarına məruz qalmış qadınların ailə qurub, düzgün yolda olduqları nəzərə alındiğindan, bu məsələləri yenidən qaldırmaq lüzumsuz hesab edilmişdi. Məhkəmənin gedişində istintaqçıların bu humanist hərəkəti müsbət qarşılanmışdı.Bu məsələdə vasitəçi olmuş və öz köhnə əməllərindən,təhrik olunduqlarına görə əl çəkməmiş bir neçə qadın, cinayət işinin tərkib hissəsi kimi nəzərə alınmış,cəmiyyət üçün ciddi təhlükə yaratmadıqlarına görə, həbs olunmamış və cərimələnmişdilər.Məhkəmə prosesi zamanı,utandırıcı o olmuşdu ki,Aslan onu hədələrlə təhdid edən Aytana:- özündən çox çıxma,sən deyildinmi özünü mənə sırayan,ehtiraslarınla yüz oyundan çıxan,cavan qadınları mənimlə anbarda görüşdürən,halalca ərinə “peysər”deyib eyş-işrət eşqi ilə yanan?!O yazıq hacının yerinə mən olsam,sənin kimi sürüşkən qadınla bir yasdığa baş qoymaram!-deyib məhkəmə zalını qandallı olaraq,polislərin müşaiyyəti ilə tərk etmiş oldu.

Vəli–Aytan qırğını isə məhkəmədən sonra şiddətlənmiş oldu.Aytanı xəyanətdə təqsirləndirən Vəli,arvadının sürüşkən qadın olmasını əvvəlcədən müəyyən etmədiyinə görə ,çox təəssüflənib özünü məzəmmət etmiş oldu.Onu ən çox əsəbləşdirən,eyş-işrətdə olduğu Aslanı evə

qonaq gətirməsi və onunla tanış etməsi olmuşdu. Özünü ağılsız kimi səciyyələndirən Vəli,Məsməyə nəzarət etmədiyinə görə özünü qınayırdı.Üstəlik anası tərəfindən eyş-işrətdə olduğu Aslanın əli ilə, qızının işə düzəldilib,son anda işə düzəldən tərəfindən pis yola çəkilməsini özünə bağışlaya bilmirdi. Qonum-qonşular üzünə çıxa bilməyəcəyini,iş yerində, "bu da bizim hacımız"!-deyə rüsvay olacağını düşündükcə, az qala özünü öldürmək istəyirdi.Nəhayət Vəli bu ailədə yaşaya bilməyəcəyini,Aytanla,Aslan demiş bir yastığa baş qoymayacağını yəqinləşdirdikdən sonra,baş alıb birdəfəlik heç kimin bilməyəcəyi,görməyəcəyi bir yerə getməyi nəzərə alaraq,bir müddətdən sonra yoxa çıxmış oldu.

Əri yoxa çıxmış Aytan,ikinci bir zərbəni rəfiqəsi Ziyafətdən almış oldu.Belə ki,məhkəmə prosesi zamanı,adı hallandırılan Kifayətin uşaq dünyaya gətirməsindən sonra,şübhələnən Elmar,gizlincə doğulan uşağın DNT testini keçirməli olmuşdu. Uşağı, öz züryəti olmadığını aydınlaşdırıb,Kifayəti xəyənatda təqsirləndirərək,məhkəmə yolu ilə boşanıb onu uşaqla bərabər evindən bayıra atmış olmuşdu.Məsələdən agah olan Ziyafət, pis vəziyyətdə çabalayan Aytanla,əvvəlcədən fikirləşdiyi kimi rəfiqəliyini pozmayıb, Qartalın öz halal uşağına sahib çıxmasına şərait yaratmasına xahişçi oldu. Kefsiz olan Aytanın evinə gələn Ziyafət,qızı Kifayətin dünyaya gətirdiyi uşağın atası Qartal olduğundan,uşağa sahib çıxmasını və qızının ərsiz

uşaq dünyaya gətirmək damğasından qurtulmasını,dostcasına tələb etdi.Əlavə etdi ki,əri Elmar Kifayəti boşamış və qızı Kifayət Qartalı sevdiyinə görə,ondan şikayətçi olmamışdı.Qızımın Qartaldan şikayətçi olmaması,mənim də ürəyimcə olmuşdu.Çünki,biz səninlə neçə illərin rəfiqəsiyik.Qartalın Kifayətlə olan münasibətlərini eşidən Aytan,az qala başını itirmişdi.Hadisə dalınca hadisələr əmələ gəlirdi.Məsmə tutulub,Vəli aradan çıxıb,indi də oğlunun bu hoqqabazlığı bir tərəfdən peyda olunub.Baş verənlərə aydınlıq gətirmək üçün,Aytan rəfiqəsi Kifayəti şirin dillə yola salıb,fikirə getmiş oldu.

Aytan məətəl qalmışdı, bu vələdəznə Qartal necə olub ki Kifayətlə olan münasibətlərini gizli saxlayıb və bu müddət ərzində ağzına su alıb,valideyinlərinə bir söz deməyib.Axı Qartalın anası mənəmsə,bu ağzı yırtığın biridir,qarnında söz saxlamağı bacaran deyil.Ziyafət də elə dəli deyil ki,qızını bir o qədər də bacarığı olmayan Qartala sıramış olsun.Bu fikirlərlə Aytan dədəsindən betər vələdəznə olan Qartalı gözləməyə başladı.Evə gələn Qartalın üstünə gözü bərəlmiş qırğı kimi şığıyan Aytan,adə alçaq oğlu alçaq, bu nə işdir başımıza gətirirsən ki,bizim xəbərimiz yoxdur?!Özünü anasının hucumundan güclə saxlayan Qartal:-nə məsələ,nə olub yenə məni qaralayırsan?Kifayətin uşağı de görüm kimdəndir,ay əclaf?!Qartal işin nə yrdə olduğunu anladığından,anasını qucaqlayıb,yalvarmağa başladı.Ay ana,bir az hövsələ et ,mən sənə hər şeyi olduğu

kimi danışacam.Qartal anasına Kifayətlə olan gizlin münasibətini,onu sevdiyini və bu işdən Ziyafət xalasının elə ilk vaxtlardan halı olduğunu danışmış oldu.Əlavə etdi ki,Ziyafət xala Elmarın bu münasibətdən xəbəri olmasın deyə,Kifayətlə məni bir-birimizdən uzaqlaşdırmalı olmuşdu.Mən isə,Ziyafət xalaya vəd verdiyim üçün,bu məsələni böyütmədim və sizə də deməyi lüzum bilmədim.Beləmi,-deyə iki əlini dizinə vuran Aytan,Ziyafətin arxasınca layanlar verib,onu biclikdə təqsirləndirərək,axmaq yerinə qoyulduğu üçün,iki əlini başına çırpmış oldu.Sonra fikirləşdi ki,"gəlini"Sənubəri uşaqla bərabər təzdirib,Kifayəti qəbul etmək lazımdır.Əgər qəbul etməsə,Ziyafətlə arası dəyəcək,yenə məhkəmə olacaq,aliment vermək lazım gələcək.Qartal da ki,heç yerdə işləmir,"piyanskalıq"edir,üstəlik şərab üçün məndən pul alır.Kifayət gəlin gəlsə,bəlkə gədə düzələr,işləyər,"piyanskalıq" etməz,dar vaxtda Ziyafət də köməyini etmiş olar.

Qartal anasına Kifayətlə olan münasibətlərini danışarkən,qapının kənarında dayanan Sənubəri görməmişdilər.Sənubər Qartalın ona xəyanətini onun dilindən eşitmişdi.Onu bu murdar və xəyanətlərlə dolu olan evdə,ancaq övladının atasız böyüməməsi saxlayırdı. İndi əzabla yaşadığı bu evdə onu saxlayacaq,heç nə yox idi.Qartalın dili ilə anasına dediyi xəyanət, onun qəlbinə vurulmuş sonuncu zərbə oldu.Sel kimi axan göz yaşları onsuzda ona kömək olmayacaqdı.Bu göz yaşları saf və səmimi olan məhəbbəti-

nin tar-mar olması demək idi.Onsuz da,ata nəfəsi,qayğısı görməyən və hər zaman eybəcərlikdə təqsirləndirilən övladına bu cür ata lazım olmayacaqdı.Odur ki,söyüləræk,döyülərək yaşadığı bu evi tərk etməyin vaxtı gəlib çatdığını yəqinləşdirən Sənubər, hər şeydən ona əziz olan ciyərparasını qucağına alıb,yeganə ümidgahı və pənahı olan valideyinləri evinə həmişəlik getmiş oldu.

Sənubərin uşaqla bərabər evi tərk etməsi,Aytanın və ata hissindən mərhum olmuş Qartalın ürəyincə olmuşdu.Sənubərin evi tərk etməsindən sonra,içki pulu əldə edə bilməyən Qartal anasına bildirdi ki,Kifayəti və sevgili balasını qəbul etməyə hazırdır.Yalvararaq anasından içki pulu alıb,anasına bildirdi ki,onu içkiyə sövq edən yaramaz Sənubər və onun eybəcər uşağı idi.Kifayət gələn kimi işə düzəlib,içkinin daşını atacaq. Oğlunun müəyyən qədər haqlı olacağına ümid bəsləyən Aytan,həm də ki,Sənubərin gedişindən sonra evdə yaranmış boşluğu doldurmaq üçün,Ziyafətə muşduluq xəbər göndərərək,Sənubərin uşaqla bərabər həmişəlik evi tərk etdiklərini və Kifayətin uşaqla bərabər,uşağın həqiqi atası gildə yaşamasını məqsədəuyğun hesab etdi.Bir neçə gündən sonra Kifayət uşaqla bərabər Qartal-Aytan ailəsinin evinə köçmüş oldu.

Vəli –Aytan ailəsində baş verən hadisələr,Məsmənin cinayətkar olaraq həbs edilməsi,Vəlinin evini tərk edərək həmişəlik Aytandan uzaqlaşıb yoxa çıxması,Sənubərin uşaqla bərabər evi tərk edib,ata-anası evinə pənah apar-

ması,Qartalın Kifayətlə evliliyi və bu evlilikdən Qartalın övlad sahibi olması kimi xəbərlər,Bəsdinin həyat yoldaşı Mahmuda çoxdan çatmışdı. Mahmud çox şükr edirdi ki,Bəsdini doğulub boya-başa çatdığı ailənin eybəcərliklərindən qoruya bilib.Bəsdinin tərbiyəsində əməyi olan və rəhmətə gedən nənəsinə min dəfə rəhmət oxumuş oldu. Bütün baş vermiş hadisələrdən Bəsdi xəbərsiz idi.Mahmud bilərəkdən Bəsdiyə heç nə bildirmir və fikir edirdi ki,özü bu hadisələrdən nə vaxt agah olarsa,daha münasib olmuş olar.Əslində xeyli bir müddət ərzində,Bəsdinin həyatı ilə maraqlanmayan Vəli-Aytan ailəsi,Bəsdinin nəzərindən düşmüş və doğma olduqları halda yadlara çevrilmişdilər.Bəsdi bütün həyatını övladlarına,ona hörmətlə yanaşan,onu qiymətləndirən,sevən ailəsinə həsr etmişdi.Qaynatası və qaynanası onun üçün doğma ata-ana olmuşdular.Bəsdi talehinə şükür edirdi ki,belə bir sadə və mehriban ailənin gəlini olmuşdur.

Atıq xeyli illər keçmiş,baharlı-qışlı fəsillər bir-birini əvəz etmişdi.Bu illər ərzində əsərin qəhramanlarının həyatlarında da ciddi dəyişikliklər baş vermişdi.

Mahmud-Bəsdi ailəsini hökumətimiz yeni tikilmiş,hər cür şəraiti olan üç otaqlı mənzillə təmin etmişdi ki,buda ailənin böyük sevincinə səbəb olmuşdu.Üstəlik ailə həyətyanı təsərrüfat sahəsi ilə də təmin edilmişdi.Mahmud bu şad günlərdə təəssüflənirdi ki,heyf vaxtından əvvəl rəhmətə gedən atası bu günləri görmədi.Köç-

künçülük həyatının bütün acılarını çiynində daşıyan anası isə,qıçaları iflic olduğundan,yataq xəstəsi olmuşdu.Balası kimi sevdiyi Bəsdinin qayğısı nəticəsində ,yaşamı heç də pis deyildi.Mahmudun övladları,ailənin fəxri idilər.Böyük oğlu əlaçı olaraq,ali təhsilini davam etdirirdi.Digər övladı isə orta məktəbin son sinifini əlaçı və nümunəvi olaraq bitirmək ərəfəsində idi.Nümunəvi müəllimlik fəaliyyətini nəzərə alaraq,Mahmudu məktəbin müdiri vəzifəsinə təyin etmişdilər.Bəsdi isə məktəbin kitabxanasında kitabxanaçı olaraq fəaliyyət göstərirdi.Mahmud-Bəsdi ailəsi xoşbəxt yaşamlarını davam etdirirdilər.

Atası evinə qayıdan Sənubər oğlu Vəlinin sağalmasında,inkişafında çox böyük əziyyətlər çəkərək,ata- anasının himayəsi və köməyi nəticəsində azad və xoşbəxt yaşayışa malik olmuşdular.Artıq boylu-buxunlu bir yeniyetmə olmuş Vəli,orta məktəbi əlaçı qiymətlərlə oxuyur və nümunəvi əxlaqı ilə anasının cevincinə səbəb olmuşdu.Bütün cavan ömrünü oğluna sərf etmiş Sənubər fərəhlənirdi ki, cavan həyatını oğlunun xoşbəxtliyinə bəxş edib.Bu illərdə Sənubər üçün elçilər qapını döysələr də,ikinci dəfə ailə qurmaqdan vaz keçmişdi.Atası evinə gələn gündən,Vəlinin nənə və babası,eyni zamanda atası bir dəfə də olsun onu yoluxmamışdılar.

Aslan,Məsmə və digər həbs olunan insan alverçiləri həbsxana həyatını keçirirdilər.Həbsxanada cəzasını çəkən Məsmənin qızı haqqında heç bir məlumatı yox idi.Xəyalən

düşünürdü ki,yəqin qızı Mehmet tərəfindən himayə olunaraq,tərbiyə almış, oxumuş,savad almış gözəl bir qıza çevrilmişdir. Beləcə tərbiyə etmədiyi,böyütmədiyi qızına xoşbəxtçilik arzulayan,Məsmə dərindən köks ötürmüş,keçmiş həyatına lənətlər yağdırmış olmuşdu.

Qartalın Kifayətlə birgə yaşayışından ikinci bir övladı,qız uşağı dünyaya gəlmiş və artıq,böyümüş olan qıza Aytanın adını vermişdilər.Nənə Aytan,bala Aytanı elə,aytanım-şeytanım deyərək böyüdürdü.Qartalın gizli yolla Kifayətlə münasibətindən yaranmış olan oğlan isə,orta məktəbi tam oxumayaraq,oğurluq etmiş və həbs olunaraq cəzasını çəkirdi.

Hacı Vəli isə məhkəmə zamanı baş vermiş rüsvayşılığa dözməyərək,başını götürüb evdən birdəfəlik çıxmışdı.Heç gördüm deyən yox idi.Bütün baş verənləri,vecinə almayan,əhlikeflər kimi yaşayan Aytanın təbirincə desək,peysər Vəli özünü saxlamağa qabil deyil,allah bilir hansı Hacıxanımın hesabına haradasa yaşayır.Anası Aytanın, atası Vəli haqqında dediyi mənfiliklərə baxmayaraq,artıq içki xəstəsi olmuş Qartal,düşünərdi ki,yeri gələndə atası ona arxalıq edər,heç olmasa cib xərcliyi verərdi.İndi arvadı Kifayətlə birləşən Aytan anası, onu içkili görəndə qapıdan qovardı ki,get uşaqlarına pul gətir.Kifayət isə Qartalın səfil,avara,mənasız yaşayışından bezmişdi.Aytanın çərənçi danışıqlarından qaçardı anası Ziyafətgilə və günlərlə evə gəlməzdi.Bala Aytan isə,eyni ilə nənə Ayta-

nın surəti idi.Kifayət tez-tez əsəbləşərdi ki,uşağı doğan mən,ancaq elə bilki nənə Aytanın burnundan düşüb.İşsizlik,pulsuzluq əlindən tanıyıb-tanımadıqlarından siqaret,içki pulu xahiş edən Qartal isə elə bir acınacaqlı vəziyyətə düşmüşdü ki,hətta onu az-şox tanıyanlarin bəziləri onu "səfil" adlandırıb uzaqlaşar,bəziləri isə onunla qarşılaşmamaq üçün səmtlərini dəyişərdilər.Bütün bunlar Qartalı daxilən incitsədə,o özünü düşmüş vəziyyətdən iradəsiz olduğuna görə çıxara bilmirdi.İçkiyə olan aludəçilik onu məhv edirdi.Hərdən atası Vəlinin ,sənin adını nə üçün Qartal qoymuşam?-deməsi yadına düşür,ancaq içkinin təsirindən daha "qartal" ola bilməyəcəyini hiss edirdi.Çox arzulayırdı ki,atasını heç olmasa görəydi.Çünki,anasından fərqli olaraq atası onu pulsuz qoymazdı,qapıdan qovmazdı.OğluVəli heç yadına düşməzdi, onu maraqlandırmazdı,ancaq Sənubərdən beş-on manat qopartmaq xatirinə oğlunun görüşünə getmək istərdi.Lakin uşağına və keçmiş yoldaşına etdiyi zülmlər,onu bu fikirlərdən vaz keçməyə məcbur edərdi.Bir ucu həyat yoldaşı Kifayətdən tutmuş,anası da içərilərində olmaq şərti ilə,xəyalından keçirdiyi bütün qonum-qonşu və qohumlar sanki dəyişiliblər,yaddaşıblar,-deyə Qartal düşünər,sonra filosovcasına bənzətmə edərək deyərdi:-dəyişən təbiət kimi,dəyişən dünya kimi.Elə bilki iblis insanların qəlbinə girib,onları sınaqdan keçirir.İçkili olduğu zamanlar öz-özünə danışan Qartal,daha çox filosoflaşırdı.Son vaxtlar əlinə düşmüş

Ömər Xəyyam rübailərini oxuduqca meyxoşluğa olan həvəsi artır və onu yaşadığı real həyatdan uzaqlaşdıraraq,tərki dünyalığa aparırdı.Real həyatın adamları onu tənqid edib,içkidən uzaqlaşmağa çağırsalar da,meyə olan məhəbbət və tərki dünyalıq eşqi ilə yaşayan Qartal, Ömər Xəyyam rübailərindən sitat gətirməyə çalışardı:

Dostlar şərab ilə bəsləyin məni,
Döndərin yaquta sarı çöhrəmi,
Mən ölsəm qırmızı şərabla yuyun,
Meynə tabutunda aparın məni.

Ömər Xəyyam rübailərindən təsirlənən Qartal,hətta şeirlər yazmağa belə başlamışdı.Özünün etiraf etdiyi kimi,meyxoş olanda şeir yazmağa daha həvəsli olurdu.Bax bu idi Qartalın yaşam həyatı.Meyxoşluq onun üçün o qədər rahatlıq idi ki,anası və Kifayətin danlaqlarından uzaq olmağı üstün tutar və küçələrdə mürgüləyib yatmağı xoşlayardı.Heç kimə dəyib-dolaşmayan Qartalı,hətta asayiş keçikçiləri incitməz,ailəsi puçluğa getmiş Qartala rəhmlə yanaşardılar.Meydən təsirlənən Qartalın yadına axır vaxtlar atası düşmüş olardı.Hərdən düşünərdi ki,yəqin atası da şəraba meyillidir və haradansa ona "kefli İsgəndər"kimi baxır.Bu zaman "xəyali" atası ilə,sanki birləşər və həyatın yaramazlıqlarına birgə gülmüş olardılar.Sonra atası Vəli, birdən qeyb olardı.Çox istəyərdi ki,atası onu tərk etməsin. Atası onunla birgə olmayanda,meyxoşlaşan Qartal şeir yazmağa meyilli olar və yazdığı şeirləri ucadan gəlib

–gedənlərə söyləyərdi.Artıq insanlar Qartal şeirlərinə alışmışdılar,camaat arasında “kefqom şair”kimi tanınmağa başlamışdı.Beləcə,həmişə olduğu kimi mey qəbul edib,şeir yazan Qartal,içkinin təsirindən mürgüləmiş və yaşadığı real həyata əlvida deyirmiş kimi,haqq dünyasına əbədilik qovuşmuşdu.Yaxınlıqdan keçən insanlar “kefqom şairin”bərk mürgülədiyini hiss etdiklərindən ona fikir verməmişdilər.Hava qaralana yaxın,hələ də mürgüləyən “kefqom şairə”yaxınlaşıb onu oyatmaq istəsələr də,keçindiyini görüb polisə xəbər vermişdilər.Bir əlində qələm və bir əlində şeir yazılmış vərəqi bərk-bərk tutan Qartalın cənazəsi həkim ekspertizasına təhvil verilmişdi.Qartalın əlindəki vərəqdə yazılmış şeir,ekspertiza həkimlərinin göz yaşlarına səbəb olmuşdu:

Ağaclar quruyub,yarpaq tökülür,
Dan yerim də,günortada sökülür,
Qazancım yox,cibdən quruş tökülür,
Mənim bu günümdə gələsən ata!
“Kefli İsgəndər” tək güləsən ata!

Şor çox bahadır,ucuzsa suxarı,
Şərabın quyməti cibdən yuxarı,
Əsəbdən başımın çıxır buxarı,
Mənim bu günümdə gələsən ata!
“Kefli İsgəndər” tək güləsən ata!

Xanımlar səhərlər gedərkən işə,
Qürurdan qeyrətim keçir təşvişə,
Həsrətəm ləzzətli çaya,biş-düşə,
Mənim bu günümdə gələsən ata!
"Kefli İsgəndər tək güləsən ata!

Gəlinlər şeytana papış bağlayır,
Arvadlar ərini kişi saymayır,
Qızlar maşın sürür həya duymayır,
Mənim bu günümdə gələsən ata!
"Kefli İsgəndər"tək güləsən ata!

Dünya ki,olubdur bir qan çanağı,
İnsanlar sevməyir daha qonağı,
"İblislər"insana verir sınağı,
Mənim bu günümdə gələsən ata!
"Kefli isgəndər"tək güləsən ata!

**Son.**

# ÖVLAD BORCU

*Anama ithaf edirəm.*

*Ana,ana-o adın qarşısında bir qul tək,*
*Səcdədə getmək həməşə mənə fəxarətdir.*

***(C.Cabbarlı)***

Onun adı Həsrət idi.İyirmi,iyirmi bir yaşlarında bir cavan idı.Hündür boyu,qara qıvrım saçları,ağappaq yumru sifəti onu daha gözəgəlimli edirdi.Nə qədər gözəgəlimli olsa da, ilk baxışdan sadə bir oğlandan seçilmirdi.Atası çox cavan rəhmətə getdiyindən,anasının ilk və son novbarı idi.Həyat yoldaşı rəhmətə gedəndən sonra,Çimnaz xala qara saçlarını ağ hörərək,əzab-əziyyətlə övladını böyüdüb boya-başa çatdırmışdı.Çimnaz xala çox cavan olsa da,qapılarına gələn elçiləri geri qaytararaq demişdi:-Mənim ərə getmək xahişim yoxdur.Məqsədim yeganə oğlumu boya-başa çatdırmaq,onu peşə sahibi edərək, evləndirib fərəhini görməkdir.

Bəli,Həsrət ata qayğısı görməmiş,ata həsrəti daimi onun qəlbini sıxmış,ana məhəbbəti və nəvazişi ilə böyüyüb ərsə çatmışdı.Anasının dediyinə görə, rəhmətlik- Həsrət adını oğluna özü vermişdi.Sanki duymuşdu ki,özü cavan dünyadan köç edəcək,övladına həsrət qalacaqdı.Həsrət çox gənc olmasına baxmayaraq,anasının sıxıntı və hic-

ranını daha dərindən dərk edirdi.Orta məktəbi fərqlənmə atesstatı ilə bitirən Həsrət,ali məktəbə qəbul olaraq,az maaşa qulluq edən anasına köməkçi olmaq üçün,işləməyi qarşısına məqsəd qoyub,ali təhsilini axşamlar davam etdirməyə başlamışdı.Hələ orta məktəbdə oxuyan zaman,Həsrət nümunəvi əxlaqı və gözəl xasiyyəti ilə müəllimlərin,məktəb yoldaşlarının hörmətini qazanmışdı.Tezliklə bu gözəl xasiyyətlər işdə də özünü büruzə vermiş oldu.Həsrət həm də işgüzarlığı,bacarığı ilə az müddət içərisində yarış qabaqcılı olmuş,məhz bu məziyyətlərinə görə hamının sevimlisi olmuşdu.O hətta,iş yoldaşlarının "qaragöz"adlandırdığı Gülgəzin ona aşiq olduğunu da öyrənmişdi.Özü də bilmədən "qaragöz"süz darıxdığını hiss etməyə başlamış və ixtiyarsız olaraq onu sevdiyini dərk etmişdi.Yoxlayıcı işləyən Gülgəz gözəl olsada,xasiyətində olan mənəmlik,özünə vurğunluluq bəzən Həsrəti təlaşlandırırdı.Gülgəz Həsrəti gözəl xasiyyəti ilə bərabər,ən çox boy-buxununa,gözəgəlimliyinə görə sevirdi.Gülgəz gözəllik vurğunu idi. Oxuduğu kitablardakı boylu-buxunlu, enli kürəkli,çatmaqaş "ağ atlı"oğlanlar onun sevimlisiydi.

Həsrət Gülgəzi sevsədə,onun anasına sədaqətli,mehriban bir gəlin olmasını həməşə arzulayırdı.Axı onu boylu –buxinlu edən anası olmuşdu!Axı,anası yuxusuz gecələrini övladına həsr etmişdi! Həsrət ailə qursaydı belə,özünü anasız hiss edə bilməzdi.Axır vaxtlar Həsrət xəyalpərvər olmuşdu,tez-tez xəyalında anasını və Gülgəzi

bir ailədə canlandırır,onların bir-biri ilə olan xoş münasibətlərini görürmüş kimi,fərəhlənirdi.Xəyaldan ayılan kimi,düşünürdü:-görəsən Gülgəz anasına mehriban olacaq bir gəlin ola bilərmi?Həsrət anası haqqında Gülgəzə bilgi vermək istəyirdi ki,Gülgəzin bu haqda fikirlərini öyrənib rahatlansın.Lakin, hər dəfə Gülgəzlə olan görüşlərində,anası haqqında danışmaq istəsə də,sanki onun nitqi tutulur,ağzı kilidlənirdi.Bəli,həftələr-həftələri,aylar-ayları qabaqlayır,Həsrət isə Gülgəzə onu rahat buraxmayan fikirlərini bildirə bilmirdi.Gülgəzə qarşı olan məhəbbəti isə gündən-günə şiddətlənirdi.

İsti yay günlərinin birində, Həsrət və anası Çimnaz xala masa arxasında oturub nahar edirdilər.Bayırdan kimsə:-Çimnaz xala,-deyə səsləndi.Qapını Həsrət açmış oldu.Qonşuları Həbib kişinin qızı Əsmər idi.Həsrəti ilk dəfə görürmüş kimi,al yanağı qıpqırmızı qızaran Əsmər,başını qapını açan Həsrətə qaldırmadan,titrək səslə salam vermiş oldu.Özünü itirən Həsrət,dünənki qonşu qız uşağının yekə qız olmasını görüb,karıxaraq evə dəvət etməyi də unutmuş oldu.Oğlunun karıxdığını görən,Çimnaz xanım:-Əsmər qızım,qapıda dayanma keç içəri,-deyə səslənərək oğlunu düşdüyü vəziyyətdən qurtarmış oldu.Əsmər tələsdiyindən ,Çimnaz xalasının qulağına nə isə pıçıldayıb,tezcə getmiş oldu.Əsmər gedəndən sonra,ana-bala yenidən yarımçıq qalmış naharlarını davam etdirməli oldular.Həsrətin susqunluğunu görən anası qonşu qız Əsmərin tərbiyə-

li,əxlaqlı qız olmasini deyərək,elə hey tərifləyirdi.Daşdan səs çıxsada,Həsrətdən səs çıxmırdı.Həsrət anasının Əsməri nə üçün təriflədiyini çox gözəl başa düşürdü.Doğrudan da,Əsmər gözəl və tərbiyəli bir qız idi.Hətta,Həsrət bir neçə dəfə Əsmərin onu gözaltı nəzərdən keçirməsinin şahidi də olmuş,lakin onu uşaq kimi qəbul etdiyindən fikir verməmişdi.İndi birdən-birə sanki yekəlmiş Əsməri, anasının tərifləməsi nağıla bənzəyirdi.Bir də ki,Həsrət öz-özünə fikirləşirdi ki,Əsmər nə qədər gözəl,tərbiyəli olsada,onun məhəbbət bağına Gülgəz düşmüş və hakim kəsilmişdi.Anasının Əsmər haqqındakı təriflərinin mənasını anlayan Həsrət,sevdiyi Gülgəzə olan təklifini bildirmək qərarına gəlmiş oldu.

Bazar günü idi.Həsrət tələsik paltar və ayaqqabısını təmizləyir və tez-tez saatına baxırdı.Axı bu gün o sevgilisi Gülgəzlə görüşməli,ürək sözlərini ona bildirməli idi.Axşam üstü oğlunun tələsik tədarükü,Çimnaz xanımı çaş-baş salmışdı.Ana öz-özünə düşünməyə başladı ki,yəqin oğlunun gözaltısı var,belə həyəcanlı olaraq tələsir. Özündə bir yəqinlik hasil etmək üçün,yadına Əsməri tərifləyərkən oğlunun susqunluğu yadına salmış oldu. Yenə də özünü saxlaya bilməyib,ay bala hara belə,xeyirdirmi?!-deyə soruşdu.Heç,- ana,görüşüm var,-deyib evdən çıxmış oldu.Görüş yerinə gələn Həsrət Gülgəzin hələ gəlmədiyini görüb,yerində var-gəl edərək,deyəcəyi sözləri götür-qoy etmək istəyirdi ki,arxadan,Həsrət çoxdanmı gəlmisən?- kəl-

məsi həyəcanlı olan Həsrəti karıxdırmış oldu.Əlbəttə, səslənən Gülgəz idi.Tez özünü ələ alıb,arxaya çevriləndə,həmişəkindən də gözəl görsənən Gülgəz,onun gözlərini qamaşdırmış və çırpınan ürəyinə yeni bir həyəcan dalğası gətirmişdi.Gülgəz də tez-tez Həsrətin təmiz taraşlanmış ağ sifətini,onu yaraşıqlı göstərən kostyumunu gözaltı nəzərdən keşirmiş oldu.Özündən asılı olmadan, bu boylu-buxunlu sevgilisinin qolunu sinəsinə sıxıb,onunla bahəm addımlayan Gülgəz,onsuzda həyəcandan yerişini itirən Həsrətin,daxili sevincinə və bu yaxınlıq ilk dəfə baş verdiyindən,həm də təəccübünə səbəb olmuşdu.Xeyli yol getmişdilər və hələ də sükutluq hökm sürürdü.Nə Gülgəz dillənirdi,nə də nitqi qurumuş Həsrət!Nədən başlamaq,necə fikrini bildirmək Həsrət üçün bir müəmmaya çevrilmişdi.Beləcə gəlib mavi Xəzərin sanilindəki oturacağa əyləşərək,həzin-həzin meh gətirən Xəzəri seyr edirdilər.Dalğalanan Xəzərin sahilə gətirdiyi ləpələr və bu ləpələrə baş vuran qağayılar,bir-birinə baxaraq gülümsəyən bu sözlü cavanların sükutunu,sanki pozmaq istəyirdi.Xeyli sükutdan sonra Həsrət dillənməli oldu:

-Gülgəz,siz məni çox sevirsiniz,-elə deyilmi? Gözlənilməz bu sual Gülgəzin təəccübünə səbə olsa da,özünü ələ alıb,sanki ondan uzaqlaşmaq istəyən Həsrəti bərk-bərk qucaqlamış oldu.Əlbəətə lap çox,özümü sənsiz təssəvür edə bilmirəm,-deyə Həstrətə sığınmış oldu.Həsrət isə ilk dəfə olaraq,Gülgəzin ətirli saçlarını dərindən qoxulayıb,

əli ilə sığallayaraq,sözünə davam etmiş oldu.Mən sizi ilk görəndən sevmişəm,mənim sənə və eynilə sənin mənə olan məhəbbətin məni həməşə ruhlandırıb.Ancaq bütün bunlarla bərabər,sizə bildirmək istəyirəm ki,məni atasız böyüdüb,başa çatdıran anam mənim üçün başqa bir dünyadır.Bizim bir-birimizə olan sevgimizi,mən analı dünyamdan ayrı hesab edə bilmirəm.Mənim ən böyük arzum,heç olmasa, anama olan borcun kiçik bir hissəsini yerinə yetirmək,onu bala və gəlin sevgisi ilə xoşbəxt etməkdir.Mən istərdim ki,siz məni necə sevirsinizsə,gələcəkdə ailə qurmuş olandan sonra anamı da sevəsiniz,ona mehriban bir gəlin olasınız.Həsrətin bu xahişlərini eşidən Gülgəz hələ də susurdu.Vaxtilə qonşularına gəlin gəlmiş bir qızın qaynanası tərəfindən şərlənməsi,heç nədən zavallı gəlini oğluna döydürməsi, son anda boşatdırması Gülgəzin xatirəsindən heç vaxt çıxmırdı.O öz xoşbəxtliyini,sevdiyi oğlanla birgə yaşayışda görürdü. İndi Həsrətin bu xahişləri qarşısında,sükuta yer verən Gülgəz,nəhayət dillənməli oldu:

-eh,Həsrət heç bu qaynanalar haqqında eşitməmisinizmi?Bilirsinizmi qaynanalar gəlinlə bir yerdə olduqda,oğullarına gəlini qısqanırmış kimi,gəlinlərinə necə alçaldılmış gözlərlə baxırlar.Şərləmək,təhqir etmək,sevdiyi adamın gözündən salmaq üçün nələr edirlər?!Gülgəzin gözlənilmədən dediyi bu sözlər,sanki ildırım kimi Həsrəti vurmuş oldu.Bir an içərisində bütün dünya gözləri qarşı-

sında qaraldı.Ayağa qalxıb,yox mənim anam sizin dediyiniz analardan deyil,demək istədisə də,Gülgəzin yerində olmadığını görüb kədərlə yüklənmiş oldu.Gülgəz Həsrətin pis vəziyyətə düşdüyünü görüb,oturacağı sakitcə tərk etmişdi.Bir an içərisində baş vermiş bu hadisə Həsrətə yuxu kimi görünürdü.

Dalğın və qəmgin olan Həsrət evə yollanmış oldu. Qapının zəngini basdı.Qapını anası açdı.Oğlunun qanı qara olması Çimnaz xanımı narahat etdi.Oğlundan nə üçün kefsiz olduğunu soruşdu.Həsrət heç bir şey olmamış kimi,anasını boynunu qucaqlayaraq,narahat olmağa əsas olmadığını bildirib,otağına keçmiş oldu.Bütün gecəni xəyala dalıb,Gülgəzin dediklərini analiz edən,Həsrətin yuxusu sanki,ərşə çəkilmişdi.Həsrət düşünürdü:-məni boya-başa çatdıran,min bir əziyyətimi çəkən anamdan ayrı yaşamaq!?-bu mümkün ola bilməz!

Ana-bu müqqəddəs ad, daim Həsrətin düşüncələrinə hakim kəsilir,bir an belə anasız yaşamağı ağlına belə gətirə bilmirdi.Sabahısı gün Həsrət işə yollandı.Gözü Gülgəzi aradı,yerində xox idi.Görünür işə gəlməyib,-deyə düşündü.İş yoldaşı Arif,işə gəlmədiyindən,Həsrət iki dəzgaha qulluq edirdi.Dəzgahlar aramsız işləyir,xəyala dalmış Həsrət isə,Gülgəzlə görüşündə baş verənləri xatırlayaraq,məyus olurdu.Birdən kiminsə qəflətən,Həsrət geri çəkil !-deməsi onu xəyaldan ayırmış oldu.Geri dönmək istədi,ayağından bərk ağrı hiss edərək,qışqırdı.Kimsə Həsrəti

cəld kənara itələmiş oldu,lakin artıq gec idi.Xəyala dalan Həsrət bilmədən ayağını dəzgahın fırlanan çarx hissəsinə qoymuşdu.Artıq huşunu itirmiş Həsrət xəstəxanaya yerləşdirilmişdi.Cərrahiyyə əməliyyatı bir neçə saat davam etmişdi.Anası Çimnaz xanımın baş verənlərdən xəbəri yox idi.Axşama yaxın Həsrət gözünü açmış oldu.Gözlərinə inanmadı.Başının üstündə ağ xalatlı tibb bacısı durmuşdu.Ayağa qalxmaq istədi,lakin ayağından bərk ağrı hiss etdi.Əlini ağrıyan ayağına tərəf uzatdı,heyhat ayağı dizdən aşağı yox idi.Gözləri yaşardı.Anasını sordu,xəbər verən olmadı.Yenidən huşunu itirmiş oldu.

Səhəri Həsrət gözünü açanda,gözü yaşlı anasını başı üstündə gördü.Tez ayağa qalxmaq,anasının göz yaşlarını silmək,nə üçün qəmginsən ana?-sən axı həməşə güləruzlü olardın,-demək istədisdə,bacarmadı.Susaraq göz yaşı axıdan anasının,ona zillənmiş gözləri sanki,sual edirdi:-Oğul nə üçün sən özünü şikəst,məni isə bədbəxt etdin!?

Artıq bir neçə gün idi ki,Həsrət xəstəxanada yatırdı.Ayağı olmasa da,ağrılar olmadığından,ayağının olmamasını,talehin hökmü kimi başa düşdüyündən,yaranmış vəziyyətlə barışmalı olmuşdu.Bütün bunlarla bərabər Həsrəti ayağının yoxluğu yox,anası düşündürürdü.Həsrət öz sözündən dönməmişdi.Mən anama bütün ömrümlə borcluyam və bu borcu son nəfəsədək yerinə yetirməliyəm.Bu onun son və qəti qərarı idi.

Axşam idi.Həsrət xəstəxanada,çarpayıda uzanmış olaraq kitab mütaliə edirdi.Birdən qapı döyüldü.Buyurun,-deyə Həsrət dilləndi.Gözlərinə inanmadı.Yuxu olduğunu zənn etdi.Yox bu yuxu deyildi,həqiqət idi.Gələnlər anası və Gülgəz idi.Birdən,Gülgəz:-Həsrət məni bağışla!-deyib onun üstünə atılaraq hönkürməyə başladı.Qapıda dayanaraq gülümsəyən Çimnaz ananın da gözləri yaşarmışdı.Sanki,bu göz yaşlarında anaya övladlıq borcunun ilk şölələri görsənirdi.

***Bakı. 1975-ci il.***

## DÜŞMƏN GƏLİB YURD SALSA...

*Məcburi köçkünlərimə ithaf edirəm.*

Çadır şəhərciyindən Bakıya təqaüdünü almağa gələn Maral xala,bütün şəhəri ələk-vələk eləsə də,vaxtilə yaşadığı rayonun,Bakıda yerləşən "Sobez"ini tapa bilmədi ki,tapa bilmədi.Elə bilki,əppəyə dönüb yoxa çıxmışdı "Sobez".Çox yorulmuşdu Maral xala.Daha gəzməyə taqəti qalmamışdı."Sobez"i gəzməkdən ayağı bərk şişkinləşmişdi.Yorğunluğunu almaq üçün yaxınlıqdakı bağların birinə özünü ölü salıb,elə otlaq üstündə çömbəlib,oxxay deyərək,yanını yerə qoymuş oldu.Əri Məmməd kişi ermənilərlə davada yoxa çıxmışdı.Bir oğlu Mustafa isə hələ düşmən gülləsindən aldığı yaraları sağalmamış,bir tikə çörək qazanmaq üçün Urusetə getmişdi,ondan da xəbər-ətər yox idi.Kimsəsiz qalmışdı Maral xala və bunun da səbəbini,ermənilərlə davada görürdü.Hər zaman olduğu kimi fikirləşirdi ki,dava olmasaydı gül kimi güzəranım var idi.Mal-qaram,toyuq-cücəm,həyət-bacam,bağım-bostanım,indi hanı bunlar?Niyə yaşlı vaxtımda,küçələrə düşüb "Sobez"axtarmalıydım axı!?Gül kimi güzəranını itirib,bir təhər dolanan Maral xala talehindən çox şikayətçi idi.Ancaq,nə etsin,əlindən nə gəlirdi ki,Maral xalanın...Taki, bu andıra qalmış"Sobez"tapılaydı.Hələ nəzir də demiş-

di,əri Məmmədin tapılacağı günə.Birdən Məmməd tapılaydı,necə verəcəkdi,nəzirini!Allahın yanında üzü qara olmağı ağlına belə gətirmək istəmirdi Maral xala.

Bir az dincini alıb,"Sobez"i axtarmaq üçün ayağa qalxmaq istəyirdi ki,özü kimi yaşlı,ancaq gümrah görsənən qadının:-deyəsən rayondan gəlmisən ay bacı,-deməsi onu yenidən oturmağa sövq etdi.Qadının mehriban çöhrəsi və onu nəvazişlə otluqda oturmayıb,oturacaqda oturmasını təklif etməsi ürəyincə oldu. Maral xala özlüyündə fikirləşdi ki,qadın deyəsən yerli adama oxşayır,həm söhbət edərəm,həm də "Sobez"in yerini ondan öyrənmiş olaram.

Maral xala yanılmamışdı.Əslən-nəslən Bakılı olub,hələ təqaüdə çıxmamışdan öncə müxtəlif vəzifələrdə çalışmış Badam xala çox huşyar bir qadın idi.Maral xala Badam bacıya müraciətlə:-bu səsli-küylü şəhərdə yaşamağın çətin olduğunu deyib,kənd yaşayışından ağız dolusu danışdı.Sonra da,köksünü ötürdü ki,dava olmasaydı xoşbəxt yaşayırdıq.Hayıf keçən günlərə.

Badam xala,Maral bacının dediklərini təsdiqləyib,qeyd etdi ki,əvvəllər Sovet zamanında,sən deyən maşın çox deyildi,indi bu üzünü mürdəşir yumuş kapitalizm gələndən,maşınlar çoxalıb,səs-küydən də qulaqlar tutulur.Maşınların çoxluğunu yaxşı yaşayış əlaməti kimi qəbul edən,Maral xala üzünü Badam bacıya tutub,şükür etdi ki,maşınlar qoy daha da çox olsun. Bəlkə bu ermənilərin

xəbislikdən ürəyi partlaya,inşallah!Badam xala, Maral bacısının şox sadəlövh bir kənd qadını olduğunu anlamış oldu.Öz yaşamından danışan Maral xala,çadır şəhərciyindən Bakıya təqaüdünü almağa gəldiyini deyərək, güc-bəla ilə dolandıqlarını, heç yardımların da vaxtlı-vaxtında verilmədiyini söyləmiş oldu.Maral bacının dərdinə şərik çıxan Badam xala, Bakıda da vəziyyətin yaxşı olmadığını,var-dövləti ələ keçirən bir para adamların,bizneslə məşğul olmasını,özlərinə "şikarnı"villa tikdirmələrini,bahalı maşınlar almalarını,balkonlarına "sputnik"antena qoydurmalarını danışıb haqsızlığın baş alıb getdiyini danışmış oldu.Dərin xəyala dalan,Maral xalanı nə villa,nə də bahalı maşınlar maraqlandırırdı.Onu harahat edən qonşuya tapşırdığı toyuq-cücələri idi.Görəsən Qızqayıt bacı toyuqlara su,dən verməyi unutmayıb ki?Adicə bir kənd qadını olan Maral xala,heç vaxt düşünməzdi ki,kim necə qazanır,hansı yolla qazanır.Taki onun təqaüdünü vaxtlı-vaxtında verəydilər,o da küçələrə düşüb "Sobez"i axtarmayaydı.Birdən yadına saldı ki,Badam bacı usbutnikdən danışırdı,deyəsən rəhmətlik "Qaraqin" də,göyə usbutniklə qalxmışdı axı?!Usbutnik Maral xalaya çox maraqlı gəldiyindən,üzünü Badam bacısına tutub:-sən mənə bir o Qaraqin uçan usbutniki göstər görüm, o nə usbutnikdir elə?Maral bacısının sadəlövhlüyünə acıyan Badam xala, əlini beşmərtəbəli binanın balkonlarından asılmış olan sputnik tarelkalarını göstərib,başa salmış oldu ki,onlar sən dediyin Qaqarinin

uçmuş olduğu sputniklər deyil,bax o dairəvi qazana oxşayan tarelkalar,televizorda müxtəlif kanallara baxmaq üçündür.Maral xala heç nə eşitmirdi.Balkondan asılı qalmış qazanlar,onun xəyalını lap keçmişlərə aparmışdı.O vaxtlar hamı geyinər-keçinər,Novruz bayramını qeyd etmək üçün kəndin ətəyindəki xırmana axışardılar.Nağara,balaban səsinə toplaşan cavan oğlan və qızlar yallı gedər,ərgən qızlar bulaqlardan sərin su gətirib samovarı qaynadardılar.Heyvanlar kəsilərdi,kabablar çəkilərdi,gəlinlər isə qollarını çimrəyib yekə qazanda,bax o balqonlardan asılmış dairəvi qazan kimi,qazanlarda plovu dəmə qoyardılar.Eh vay,hanı o günlər?-deyə Maral xala qəmgin halda davanı törədənləri qarğıyıb düşündü ki,dava olmasaydı nə torpağımız əldən gedəcəydi,nə də biz yurdsuz-yuvasız qalacağdıq.Maral bacının gözü balkondan asılı qalmış tarelkalarda qaldığından,sözünə davam edən Badam bacı Marala xitabən bildirdi ki,həmin o gördüyün sputnikləri,hər adam ala bilmir,gərək biznesmen olasan ki,bu sputnik tarelkalarını ala biləsən.Handan –hana xəyaldan ayılırmış kimi,nə dedin bacı?-kimlərdi bu biz-di-nəsdi belə,- deyə soruşmalı oldu.Maral bacının sadəlövhlüyünə dözməyən Badam xala,yarıciddi,yarızarafat Badam bacısından xahiş etdi ki,o zəngin biznesmenləri,"nəsə" salma,yazıqdılar kasıblaşarlar,-deyib xudahafisləşərək ayrıldı.Maral xala elə bilki keyləşmişdi,nə zəngin

,nə nəs,başa düşmədi ki, düşmədi.Həmsöhbətlisi isə artıq ondan xeyli uzaqlaşmışdı.

Birdən Maral xalanı elə bil ilan çaldı,-ay dadi-bidad hava qaralmağa başlayır,mən hələ "Sobez"i tapmamışam,heç! Badam bacıdan soruşmaq belə huşumdan çıxıb.Lənətə gəlsin bu erməniləri!-deyərək,köçkünlükdən bəri dilinin əzbəri olmuş bir xalq bayatısını dodaqaltı pıçıldayaraq deməyə başladı:

Çuxanın ağı bizdən,
Belinin bağı bizdən,
Düşmən gəlib yurd salsa
Alar xoş çağı bizdən.

Dizlərinə əlləri ilə güc verib bir təhər ayağa qalxan Maral xala,dərindən bir köks ötürüb üz tutdu "Sobez"i axtarmağa.

***Bakı. 1998-ci il.***

# YUMORLAR

## NƏ OLACEK,OLSA "METIS"OLACEK!!!

Tramvayda Şəkili qadınla həmsöhbət olan şəhərli qadın, müzakirəyə gedən yeni pasport haqqında eşitdiklərinə bir növ aydınlıq gətirmək üçün, təəccübünü gizlətməyib soruşur:

-Deyirlər tezə pasport alacoyuk,daha millet sözü olmiyecek.

Şəkili qadın isə:

-Haindi,bəs nə olaciydi?

Tezə pasportda gözün rengi,saçın rengi,daha ne bilüm,nelər olacek?!

-Haindi,bəs bu nə demaxdır:-gözü göy,saçı sarı urusdur demax,gözü qara,saçı qara bizıx demax!?

-Həri,-deyə şəhərli qadın bildirir,sən diyəndür.Şəkili qadın lap təəccüblənir,özünü saxlaya bilməyib deyir:

-Haindi,de gorax saçı qara gözü göy,gözü qara saçı sarı nə millət olaciyh?!

Şəhərli qadın halını pozmadan deyir:

-Nə olacek,olsa "metis"olacek!!!

Bakı. 1997-ci il.

## TELEFON NÖMRƏSI METRODA NƏ GƏZIR?!

Müəssisələrin birində vəzifə sahibi olan,Gülağa bərk xəstə olduğu üçün sabahısı həkimə müraciət edib,xəstəxanalıq olduğundan işə gedə bilmir.Müdir müavini Gülağanın işə gəlmədiyini görüb,məsələyə aydınlıq gətirmək üçün evinə zəng etmiş olur.Telefonun dəstəyini qaldıran oğul, Arif:-

-Eşidirəm,kimdir zəng edən?

-mənəm bala, dayıdır narahat edən,atan Gülağanı telefona dəvət edərsənmi?

-Atam xəstəxanaya gedib,evdə yoxdur,-deyə Gülağanın övladı bildirir.

-Gülağanın oğlu,zəng edəndən,kimin zəng etdiyini bir də soruşduqda,müdir müavini kimliyini gizlədərək deyir:

-Mənəm e bala,dayıyam metrodan zəng edirəm.

Atasının iş telefonu nömrəsini,nömrə yazan telefonda görən,Gülağanın oğlu özünü sındırmadan deyir:

-Metrodan zəng edən dayı,de görüm atamın iş telefon nömrəsi metroda nə gəzir?!

***Bakı.1997-ci il.***

## NƏ VAXT DÜNYANI DƏYIŞƏCƏKSƏN?

***Əli dayımın əziz xatirəsinə.***

Bir gün Əli bəy ipə-sapa yatmayan,dəcəllik edən oğlunu,islah etmək üçün yanına çağırıb,rəhmətlik dədəsindən yadigar qalan gümüş cib saatını göstərərək deyir:

-Bax oğlum,gördüyün bu qəşəng cib saatı,sözəbaxan,tərbiyəli olduğum üçün dədəm tərəfindən ölümündən öncə mənə hədiyyə verilib,dünyasını dəyişəndən sonra isə saat mənə yadigar qalıb.Əgər sən də,tərbiyyəli,mədəniyyətli olsan,mən dünyamı dəyişəndən sonra,bu saat sənə yadigar qalacaq.Saatı atasından alıb diqqətlə baxan oğul,xeyli sükutdan sonra soruşur:

-Ata,bəs sən nə vaxt dünyanı dəyişəcəksən!!!

***Bakı.2005-ci il.***

## ƏSİL SEVGİNİ SƏN MƏNDƏN YAXŞİ BİLİRSƏNMİŞ!!!

Sevgililər günündə ərinin ona nə hədiyyə edəcəyini öyrənmək istəyən xanım ərinə nəvazişlə yaxınlaşıb soruşur:

-Əzizim,sevgililər günündə de görüm mənə nə hədiyyə edəcəksən?

Xanımının nəvazişini təəccüblü qarşılayan ər, bir az duruxub sual edir:

-Əzizim de görüm sevgi nə deməkdir?

Ərinə çəp-çəp baxan arvad:-heyvan özünsən,mən yaxşı bilirəm sevgi nədir?!

Sevgililər gününün “hədiyyəsini”alan ər, deyir:

-Əsil sevgini sən məndən yaxşı bilirsənmiş!!!

***Bakı.2006-cı il.***

# TUT Kİ, AĞ-QARA OLER

Ucqar dağ kəndindən,aşıq ailəsindən şəhərə gələn Mədinə,əmisi tərəfindən “sovremennı”olmaq üçün rus dilli məktəbin birinci sinifinə qoyulur.Rus dilində bir kəlmə bilməyən qızcığaz,naəlac qalıb məktəbə getməli olur.Rus dili fənnini təlim edən və milliyyətcə rus olan Tanya müəllimə uşaqlara müxtəlif tərcümə sualları verərək onların rus dilini bilmək səviyyəsini yoxlayır.Bir neçə vaxtdan sonra növbə Mədinəyə çatmış olur.Tanya müəllimə Mədinəyə yaxınlaşıb,soruşur:

-v Rossiyi rastyot beryoza,a tut çto rastyot?Rus dilini bilməyən Mədinə,sualın məğzini başa düşmədiyindən,vəziyyətdən çıxmaq üçün müəllimәsini çox intizarda qoymayıb,əlini saz kimi tutaraq, şirin bir ləhcə ilə oxuyur:

Tut ki,ağ-qara oler,
Yeyirsən “çarə”oler,
Satırsan müştəriyə,
Bir bölük “parə” oler.

***Bakı.2006- cı il.***

Düzəliş.

Müəllif oxucuların nəzərinə çatdırır ki,"Nadanlar dünyası"kitabımızın iyirmi altıncı səhifəsində şeirin bir bəndi səhv olaraq belə çap olunmuşdur:

Qəlbim ağ kağız tək, qaralanarmış!

Əslində isə belə çap olunmalı idi:

Qəlbim ağ kağızsa,qaralanarmış!

## Kitabın içindəkilər.

### *Roman*

Nadanlığın üç nöqtəsi.................................................3

### *Hekayələr*

Övladlıq borcu.......................................................194
Düşmən gəlib yurd salsa..........................................203

### *Yumorlar*

Nə olacek,olsa “metis”olacek!!!................................208
Telefon nömrəsi metroda nə gəzir?!.........................209
Nə vaxt dünyanı dəyişəcəksən!!!..............................210
Əsil sevgini sən məndən yaxşı bilirsənmiş!!!..........211
Tut ki,ağ-qara oler....................................................212

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 09.05.2019
Şərti çap vərəqi 30,5. Sifariş № 268
Kağız formatı 60x84 1/16. Tiraj 500

**Kitab “Elm və təhsil”** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4